Dilbər AXUNDZADƏ

# Müşfiqli günlərim



05065

Ш5
A37

DİLBƏR AXUNDZADƏ

2467439.

# Müşfiqli günlərim

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

«GƏNCLİK»
BAKI-2005

Az
A 95

*Mikayıl Müşfiq və Dilbər Axundzadənin istintaq materiallarının əldə edilməsində bizə yaxından köməklik göstərdiyinə görə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Naziri general-leytenant cənab E.Ə.Mahmudova öz təşəkkürümüzü bildiririk.*

*Nəşriyyatın direktoru:* **Əlican Əliyev**
*Məsləhətçi:* Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı, polkovnik **Xəqani Bağırov**
*Redaktoru:* **Mustafa Çəmənli**

A95 **Axundzadə D.**
Müşfiqli günlərim (xatirələr).
Bakı, "Gənclik" 2005, 274 səh.

Bu kitabda toplanmış xatirələr ölməz şairimiz Mikayıl Müşfiqin ömür-gün sirdaşı, şəxsiyyətə pərəstiş illərində başı müsibətlər çəkmiş Dilbər Axundzadənin könül çırpıntılarıdır. "Müşfiqli günlərim" Dilbər Axundzadənin sağlığında bir neçə dəfə işıq üzü görmüşdür. Dilbər xanım bu kitabdan sonra müxtəlif dövrlərdə məqalələr, xatirələr, şerlər yazmışdır. Bu yazılar da bir növ "Müşfiqli günlərim"in davamıdır. Kitaba filologiya elmləri namizədi Cəlal Qasımovun "Dilbər Axundzadə nə üçün həbs edilmişdir?" məqaləsi və publisist Rafiq Rəhimlinin Dilbər xanımın vəfatının ildönümünə həsr etdiyi "Sən neyçin ağlarsan" essesi də daxil edilmişdir.

A $\frac{4702060204}{M\ 653(07)\ 2005}$

ISBN 5-8020-1711-2

© Gənclik, 1978
© Gənclik, 2005

# ANAM DİLBƏR AXUNDZADƏNİ XATIRLAYARKƏN

Mən onun Müşfiqli günlərini görməmişəm, ancaq Müşfiqsiz günlərinin ən yaxın şahidi olmuşam. Bunları yazmaq mənə nə qədər çətindirsə, deməmək, yazmamaq daha çətindir, bağışlanılmazdır. Axı kim onun Müşfiqsiz günlərini mənim qədər yaxından seyr edib, yuxusuz gecələrinin, narahat gündüzlərinin, Müşfiqsiz həyatının şahidi olub?

Müşfiqsizmi dedim? Bağışla, ana, bağışla! Sən heç Müşfiqsiz oldunmu, ana!?

Dilbər Axundzadə kimi yenilməz şəxsiyyətin övladı olmaq, ömrünün xeyli hissəsini onunla birgə keçirmək, onun ürək çırpıntılarının, hiss və həyəcanlarının, sonsuz vəfa və sədaqətinin, fədakarlığının şahidi olmaq, həyatın ağır sınaqlarından çıxmış bu mətin insanın dəyanət və dözümündən həyat dərsi almaq xoşbəxtliyi, məhz mənə nəsib olmuşdur. İndi o illəri xatırlayarkən bu xoşbəxtliyi daha dərindən dərk edirəm. Dilbər xanım çox fədakar, qayğıkeş, övladcanlı ana idi. O öz dərdlərini içində gizlətməyi, acı, kədərli anlarını, hisslərini, xüsusən də qəzəb və nifrətini boğmağı bacarır, insanlara böyük sevgi və dərin inam bəsləyirdi. Biz başına müsibətlər gətirilmiş, şər, böhtan, haqsızlıqlar girdabına atılmış, gənc həyatı faciələr-

də keçmiş bir insanın ağlayıb-sızladığını, gileyləndiyini, taledən, tanrı yazısından narazı görmədik. Haradan idi bu zərif, gözəl məxluqda, bir xanımda bu qədər mətinlik, iradə, səbr, dözüm, dəyanət, bu qədər dəhşətlərdən, xəyanətlərdən sonra yenə də insanlara inam, sevgi, həyata, dünyaya sonsuz eşq... Bunun səbəbini çox sonralar özüm həyatın acısını, şirinini dadandan sonra anladım... Anladım ki, anam Dilbər Axundzadəyə güc-qüvvət verən, onu mətin, şux saxlayan ölməz Müşfiq məhəbbəti, Müşfiq ruhu imiş...

Anamla bağlı xatirələri yada salanda göz önündən nələr gəlib keçir... Evimizdə elə gün olmurdu ki, Dilbər xanım Müşfiqdən söz açmasın, onun hansısa bir söhbətini etməsin, şerini xatırlamasın. Bəli, mən xoşbəxt bir insanam ki, Dilbər xanımın sehrli dünyasının sakini olmuş, yuxusuz gecələrinin həmsöhbəti, narahat gündüzlərinin sirdaşı olmuşam. Bütün həyatını Müşfiqə qurban verməyə hazır olan Dilbər xanım sədaqətli həyat yoldaşı olmaqla yanaşı, həm də vətənpərvər bir vətəndaş kimi təqib və təzyiqlərə baxmayaraq Müşfiqlə bağlı xatirələri, şairin onlarla şerini öz hafizəsində saxlayaraq bu günlərədək gətirib çıxarmışdır.

Müşfiqdən sonrakı həyatı ağır məhrumiyyətlər, çətinliklər içərisində keçsə də Dilbər xanım bütün gücünü Müşfiqin təbliğinə, onun xatirə və yubiley gecələrinin keçirilməsinə, adının əbədiləşdirilməsi, əsərlərinin toplanması və nəşri işlərinə həsr edirdi. Zaman və gərgin zəhmət tələb edən bu işdən xüsusi zövq alır, sevinc və rahatlıq tapırdı. Anam Müşfiqlə bağlı görüş və söhbətlər, tədbirlər keçirəndə dərdlərini unudar, Müşfiqin özü ilə görüşürmüş kimi uşaq tək sevinərdi. Poeziya, sənət vurğunları, Müşfiqsevənlərlə, həmçinin





Müşfiqin qələm dostları ilə görüşlər onu bir daha Müşfiqli günlərə qaytarardı, şairlərin arasında gözləri sevimli Müşfiqini arayıb-gəzərdi:

*Könlüm quşun itirmişəm, araram,*
*Görən budaqların harasındadır?*
*Gəlir qulağıma səsi-sədası,*
*Gözüm şairlərin arasındadır.*

Müşfiqin hər çıxan kitabı anam üçün Müşfiqlə bir görüş idi. Bu zaman o ətraf aləmi unudar, öz xəyal dünyasına qapılar, sanki Müşfiqlə üzbəüz, təkbətək dayanıb, dərin düşüncələrə dalardı.

Anam Müşfiqli günlərin unudulmaz xatirəsini, böyük şairin ona olan saf məhəbbətini, saf insani duyğularını, qayğı və diqqətini, ona həsr etdiyi lirik şerlərini, bir sözlə, ömrünün o xoş çağlarının hər bir anını əziz nemət kimi qoruyub saxlamışdır. Bu xatirələrin bir hissəsini o, "Müşfiqli günlərim" kitabında vermiş və bu kitab az vaxtda oxucuların marağına səbəb olduğu üçün bir neçə dəfə çap edilmişdir. Ancaq Müşfiqli günlərin şirinliyini, Müşfiqsiz günlərin təsiri ilə əvəz edən Dilbər Axundzadə "Müşfiqsiz günlərim" kitabını yazırdı. Anamın ən böyük arzusu həmin kitabın işıq üzü görməsi idi. Amansız ölüm onun bu arzusunu ürəyində qoydu. Kitab yarımçıq qaldı...

Dilbər xanım şair deyildi. Ancaq Müşfiqə dərin sevgisi, ülvi hissləri onun 50-yə qədər şerinin Müşfiqə həsr edilmiş, könül təranələrindən yaranmasına gətirib çıxardı. Əbədi eşq, hicran, həsrət yanğısı, Müşfiqsizlik dərdi bu şerlərin əsas mövzusudur. Məhz elə buna görə də bu şerlər tezliklə dillər əzbəri oldu, mahnılara çevrildi.

Anam Müşfiqli günləri yad edərkən onun qohumlarını da yada salar, onlardan xoş münasibət, diqqət və sevgi gördüyünü söyləyərdi. Xüsusilə Müşfiqin bacısı – başı müsibətlər çəkmiş gözəl, mehriban Balacaxanımın haqqında ən xoş sözlər işlədərdi. Anam onlara gedəndə özü ilə məni də aparardı və mən də Balacaxanımı çox istəyir, onu "bibi" deyə çağırırdım. O, çox istedadlı, səliqəli insan idi, gözəl rəsm çəkirdi. Anamı Müşfiq qədər sevirdi.

Bir gecə Müşfiqin əmisi oğlu Yunis gəlib anamı və məni Balacaxanımın yanına apardı, onun bizi görmək istədiyini bildirdi. O, ağır xəstə idi. Balacaxanım sanki anamı gözləyib can vermirdi, o, göz qapaqlarını ağır-ağır qaldırıb, son dəfə anamın üzünə baxdı və həyata vida etdi.

Onun ölümü ilə demək olar ki, anam Müşfiqdən sonra ən çox istədiyi bir insanı itirdi.

Bu gözəl insan haqqında Dilbər xanımın"Müşfiqli günlərim"də xatirələri də var.

Evimizə tez-tez anamın yaxınları, rəfiqələri gələr, maraqlı söhbətlər edərdilər. Mən də böyük həvəslə onlara qulaq asardım. Onlar görüşəndə heç vaxt pis günləri yada salmırdılar. Həmişə gözəl xatirələrdən söhbət edirdilər.

Evimizin ən əziz və sevilən qonağı Əhməd Cavadın həyat yoldaşı Şükriyyə xanım idi. O, anama həmişə mənəvi dəstək və köməklik göstərərdi. Ona ürək-dirək verərdi. O, çox zarafatcıl qadın idi. Onlar görüşəndə mən o saat bilirdim ki, Şükriyyə xanım indi bir lətifə söyləyib hamını ürəkdən güldürəcək. Çəkdiyi əziyyətlərə baxmayaraq o, çox mehriban, şən və sadə bir insan idi.

Əli Nəzminin qızı Piraya xanım anamla bir Pedoqoji texnikumda oxuyurdu. Demək olar ki, o, Müşfiqlə Dilbərin poçtalyonu idi. Həmişə Müşfiqdən anama





məktub, ya da bir xəbər gətirərdi. O da anamı tez-tez yad edərdi. Onun bir xatirəsi heç vaxt yadımdan çıxmır. Bir gün Piraya xanım Müşfiq ilə yolda rastlaşır. Həmişəki kimi Müşfiq ondan soruşur: - Piraya, Dilbər necədir? O da cavab verir ki, yaxşıdır.Müşfiq yenə sual verir:- Dilbər indi nə edir? Piraya da cavab verir ki, o, Dilbəri görəndə, Dilbər yatırdı. Müşfiq dir dəqiqə fikrə gedəndən sonra ona müraciət edir. "Piraya, səndən bir xahişim var, get bax gör onun hörükləri yorğanın üstündədir, ya altında. Əgər onlar yorğanın altındadırsa xahiş edirəm götür qoy üstə."

Bir gün hörmətli şairimiz Xəlil Rza bizə zəng edib Dilbər xanıma məktəbdə Müşfiq gecəsinin keçirilməsini xəbər verdi və onun bu gecədə iştirak etməsini xahiş etdi. Dilbər xanım məmnuniyyətlə o gecədə iştirak etməyə razılıq verdi. Səhərisi gün Dilbər xanım Xəlil Rza ilə görüşüb gecəyə getdilər. Bu görüşdən Dilbər xanım evə çox gec gəldi. Evə gələn kimi mənə dedi: "Leyla, heç bilirsən mən hardan gəlirəm?" Mən dedim ki, "əlbəttə, məktəbdəki görüşdən". O isə cavab verdi: "Düzdü, görüşdən, amma məktəbdən yox, həbsxanadan. Xəlil Rza özü mənə bilərəkdən görüşün yerini deməmişdi. Qorxub ki, mən razılıq vermərəm. Yalnız yolda mənə həqiqəti dedi. Ancaq bilsən necə gözəl Müşfiq gecəsi keçdi. Hətta mənə dustaqlar öz əl işlərini hədiyyə etdilər. Budur, bax. Gör nə gözəl işlərdi." O, mənə suvenir qələmlər, rəsm işləri və başqa şeylər göstərdi. Məncə Xəlil Rza bilirdi ki, Müşfiq poeziyasının nə qədər güclü, sirayətedici təsiri var. Bilirdi ki, ordakı insanları həyata qaytarmağa, mənəvi ruh verməyə yalnız onun poeziyası kömək edər.

Mən indi başa düşürəm ki, Dilbər xanıma nə qədər böyük qüvvə toplamaq lazım idi ki, bu həbsxana divarları arasında çıxış etsin, bu koridorlarda yerisin.

Dilbər xanımın ömrünün son illəri, ağır xəstə olduğu bir vaxta – Müşfiqin 80 illik yubileyi günlərinə təsadüf edirdi. Yubileydən əvvəl biz elə bilirdik ki, o, çıxış edə bilməz. Özü də evdə demişdi ki, vəziyyətinə görə o bu gecədə yalnız iştirak edəcək. Məclis başladı. Biri-birini əvəz edən gözəl çıxışlar, xatirələr... Birdən Anar(o gecəni yazıçı Anar aparırdı)sözü Dilbər xanıma verdi. Anam necə ayağa qalxdı, necə mikrafona yaxınlaşdı, heç özüm də bilmədim. Bircə Allaha yalvarırdım ki, o yıxılmasın. Axı onun vəziyyətini, xəstəliyinin ağırlığını məndən yaxşı bilən yox idi. Axı o, ayaq üstündə dura bilmirdi. Bura da qoluna girib gətirmişdim. İndi budur, anam danışır. O, Müşfiqli günlərə uçmuşdu. Mənə elə gəlirdi ki, o heç nə hiss etmir, ətrafdakıları da görmürdü. O, Müşfiq dünyasında idi. Elə bu da ona güc verirdi. Bu güc onu səhnədə saxlayırdı. Mən başa düşdüm ki, bu, Müşfiqə olan eşqin gücündəndir. Anam xeyli danışdı. Zalda əyləşənlər elə bil heç nəfəs almırdılar. Heç kim ona mane olmaq istəmirdi. Təntənəli hissə qurtarandan sonra mən anamın yanına getdim ki, onun əlindən tutum. Ona kömək edim. O, şairlər və yazıçılar arasında idi. Onlarla Müşfiqdən danışırdı və elə bil hamı ilə vidalaşırdı.Bu onun axırıncı Müşfiq gecəsi idi, axırıncı yubileyi idi. Fasilədən sonra biz onunla lojada əyləşdik. Konsert proqramı başladı. Gözəl çıxışlar çox idi. Konsert Zeynəb Xanlarovanın çıxışı ilə bitməli idi. Ancaq gözəl müğənnimiz Zeynəb xanımın çıxışı anamı çox kövrəltdi. Bir də gördüm ki, anam əlinin arxasıyla yanağına düşmüş bir damla göz yaşını sildi. Əslində mənim anam çox güclü, daha doğrusu, dözümlü qadın idi. Bəlkə də bu ondan irəli gəlirdi ki, həyatda artıq çətinlikləri çox görmüşdü. Mən ilk dəfə idi anamın gözündə yaş görürdüm. Mən başa





düşdüm ki, o yaş anamın dözümünün tükənməsi demək imiş...

Bu bir damla göz yaşının hekayəti bir ömrün sevgi dastanının sonluğuna çevrildi. Dillərdə dastana çevrilmiş bir sevginin sonluğuna.

*Bu kitabın işıq üzü görməsində köməklik göstərdiyi üçün Rabitə və İnformasiya Texnologiyaları naziri cənab Əli Abbasova, baş ədliyyə müşaviri Ceyhun Şirinova və «Gənclik» nəşriyyatının direktoru hörmətli Əlican Əliyevə Dilbər Axundzadənin ailəsi adından təşəkkürümü bildirirəm.*

*Leyla Axundzadə*

## "MÜŞFİQLİ GÜNLƏRİM" KİTABI NECƏ YARANDI

Hörmətli oxucular, "Müşfiqli günlərim" kitabının necə yaranması haqda sizə yazmaq istəyirəm.

Müşfiqin ölümündən uzun illər keçirdi. 1958-ci ildə mən Bakıya köçdüm. Müşfiqin 50 illiyi idi. Müşfiqə həsr olunmuş bir neçə xatirə və şerlərlə televiziya studiyasına getdim. Komitənin sədri hörmətli şairimiz Teymur Elçin idi. Mən onun qəbulunda oldum. Mənim Müşfiq haqqında kiçik xatirəmi, ona həsr olunmuş şerlərimi oxudu. Oxuya-oxuya həyəcanlar keçirdiyini hiss edirdim. Teymur müəllim verdiyim yazıları oxuyub qurtarandan sonra dedi:

- Dilbər xanım, sizdən bir xahişim var. Müşfiqin həyatı haqqında öz xatirələrinizi yazın.

Mən fikrə getdim. Teymur Elçin öz xalqını, ədəbiyyatını sevən mehriban bir insan idi. Teymur müəllimə dedim, bilmirəm yaza bilərəmmi? O, yazarsan, çətinliyə düşsən köməklik edərəm, çap olunmasından da nigaran qalma, dedi. Mən elə o gündən onun sözlərindən ruhlanıb, başladım yazmağa.

Müşfiqin 50 illiyində onun haqqında radio və televiziyada çıxış etdim. Şairin 50 illiyi Azərbaycan Dövlət Universitetində təntənəli qeyd olundu.

Mən tez-tez Yazıçılar İttifaqına gedirdim. Gənc şairlərdən Cabir Novruz, Rəfiq Zəka, Əlağa Kürçaylı başıma toplaşırdılar. Müşfiqi xatırlayıb onun haqqında söhbətlər edirdik. Gənc şairlər hərdənbir bizə gəlir, mənim xatirələrimlə maraqlanırdılar.

Bir gün mən yenə Yazıçılar İttifaqına getdim. Gənc şair, Müşfiqi böyük məhəbbətlə sevən, onun haqqında





şerlər, kitablar yazan Rəfiq Zəka məni Mustafa İsgəndərzadə ilə tanış etdi.O, Yazıçılar İttifaqında klub müdiri işləyirdi. Gənc şairimiz Mustafa İsgəndərzadənin həyat yoldaşı Mənzərə xanım da həmin klubun işçisiydi. Bu gənc qadın elə mehriban, cazibəli idi ki... Biz xeyli söhbət etdik. Mustafa da gəldi. Mən onlara ev ünvanımı, telefon nömrəmi verdim. Onlar da ünvanlarını mənə verdilər. O gündən bizim dostluğumuz başladı, indi də bu dostluq davam edir. Bir gün onlar bizə gəldilər. Bir-birimizdən hal-əhval tutduq. Mən onlara xatirələrimi danışdım. Sevindilər. Mən xatirələrlə bərabər şerlər yazırdım. Mustafa dedi: - «Dilbər xanım, yaz, mən də sizə köməklik edərəm». O öz sözünə əməl etdi. Onlar ailəlikcə bizə gəlir, məni ruhlandırırdılar. Mən də onlara gedirdim. Onlar mənim yazılarımın qüsurlu yerlərini düzəldirdilər. Mənzərə xanım da bədii ədəbiyyatın vurğunu idi. Özü də uşaqlar üçün hekayələr yazırdı. Gənc şairlərdən Ağasəfa, Nüsrət Kəsəmənli, Səyavuş Sərxanlı və başqaları vaxtaşırı bizə toplaşırdılar. Şer məclisi qurulurdu. Mənim xatirələrimi, şerlərimi, öz şerlərini oxuyurdular. Mən öz yazdıqlarımı çapa verməyə utanırdım. Bir dəfə hörmətli alimimiz, tənqidçi Qulu Xəlilov bizə gəlmişdi. Mən xatirələrimi ona verdim ki, oxusun. Qulu müəllim oxudu və yaxşı rəy söylədi. Mən bundan daha da ruhlandım. Kitabın birinci nəşrində «Gənclik» nəşriyyatı çox hissəsini ixtisar etmişdi. Mən bu haqda Qulu müəllimə dedim. Kitabın ikinci nəşrində əsərin redaktorluğunu öz üzərinə götürdü. Əsər haqqında «Ədəbiyyat və incəsənət» qəzetində "Sevib sevilən şair" başlığı altında böyük məqalə yazdı. Qulu müəllim mənə deyirdi ki, Müşfiq haqqında nə qədər yazırdılar, Müşfiqi yaxşı tanıya bilmirdik. Sənin xatirələrini oxuyandan sonra elə bil ki, günəşin üzündən buludları qovub bizə təqdim edibsən.

Mustafa İsgəndərzadə mənim xatirələrimi oxuyandan sonra Müşfiq haqda dram yazmaq fikrinə düşdü. Yazdı da. "Səni kim unudar" pyesi Naxçıvanda, Bakıda mərhum Adil İsgəndərovun rəhbərliyi ilə «Aktyor evi»ndə oynandı. Dram əvvəlcə «Azərbaycan» jurnalında çap edildi. Sonra da 1980-cı ildə Mustafanın "Çinarım, baharım" adlı kitabında çapdan çıxdı. "Səni kim unudar" adlı dramatik poemanın tamaşası 1978-ci ildə Komsomolun 60 illiyinə həsr olunmuş Respublika xalq teatrına baxış müsabiqəsində birinci yeri tutmuşdur.

Mən həmişə dostlarıma deyirdim ki, nə yaxşı xeyirxah insanlar var. Onlar olmasa idi, bəlkə də mən indiyə kimi yaşaya bilməzdim. Günəş göy üzünü bəzədiyi kimi, xeyirxah insanlar da insan mənəviyyatını bəzəyirlər. Həyata məhəbbət oyadırlar.





***

Müşfiq elə nadir istedad idi ki, 7 il müddətində mən onu tamamilə dərk edə bilməzdim. Onun coşğun qəlbinin döyüntülərini, parlaq zəkasını bütünlüklə qavramaq üçün uzun illər lazım idi. Lakin Müşfiqlə keçirdiyim qısa həyatımı həmişə ömrümün bahar fəsli kimi xatırlayıram.

Hər il bahar fəsli gələndə, quşlar səs-səsə verib oxuyanda mən onu baharın qoynunda axtarıram.

*Sanıram bülbülün cəh-cəhi səsindi,*
*Güllərin ətri də xoş nəfəsindi.*
*O coşğun ürəyin, de, Xəzərimmi,*
*Yoxsa şerə olan ilk həvəsindi?!*

1931-ci ilin bahar fəslinin son ayı idi. Məktəbdən yenicə gəlmişdim. Birdən qapı açıldı, əmim arvadı Fəramuş sevincək içəri girdi:

– Həcər, Dilbər, tez olun, yığışın, gedirik!

– Nə var, ay bacı? Bizi hara aparırsan? – deyə Həcər soruşdu.

– APİ-yə, bu axşam institutu qurtarmağımız münasibətilə buraxılış gecəsi olacaqdır. Getmək istəmirsiniz?

Bu xəbər bizi də çox sevindirdi.

– Niyə istəmirik? – dedik.

Tələsik geyinib instituta yollandıq.

Biz salona daxil olanda orada böyük canlanma var idi. Yığıncağın başlanmasına az qalırdı. Yoldaşlarımızın sevincinin həddi-hüdudu yox idi. Niyə də sevinməyəydilər! Axı bu gün dörd il qoynunda təlim-tərbiyə aldıqları doğma institutu bitirir, öz arzularının yeni pilləsinə qədəm qoyurdular.



Mikayıl Müşfiqin gəncliyi

Biz müsamirənin başlanmağına hələ bir qədər qaldığını görüb, foyedə gəzinməyə başladıq. Pəncərənin qabağında bir neçə gənc dayanıb söhbət edirdi. Onların yanından ötəndə ortaboylu, enlikürək, qaragöz, qaraqaş, iti baxışlı bir gənc yoldaşlarından ayrılıb bizə sarı gəldi. Əmim arvadı bu gənclə çox səmimi görüşdü və onu bizə təqdim etdi:

– Tanış olun, mənim tələbə yoldaşım Mikayıl Müşfiqdir.

Ona isə:

– Bu, mənim bacım Həcər, bu da qaynımın qızı Dilbərdir, - dedi.

Mən Müşfiqin adını eşitmişdim, ancaq onunla bu gün şəxsən tanış olurdum.

Müşfiqin əynində səliqə ilə tikilmiş qəhvəyi kostyum, ona uyğun üst köynəyi və qalstuk, ayağında qəhvəyi ayaqqabı vardı. Alnının üstünə düşən qara tellərini əli ilə tez-tez arxaya atırdı. Yoldaşlarından fərqli olaraq, Müşfiq həyəcanlı və tutqun idi. Elə bil bugünkü təntənə onu sevindirmirdi. Bunu hiss edən Fəramuş:

– Gözümə birtəhər dəyirsən, Müşfiq! Olmaya institutu bitirməyimizə sevinmirsən? – deyib onunla zarafat elədi.

Müşfiq:

– Yox, Fəramuş bacı, tələbəlik illərinin belə tez başa çatdığına heyfsilənirəm, - dedi. Bir anlıq sükutdan sonra əlavə etdi: - Çox şadam ki, sizin ailə üzvlərinizlə tanış oldum. Bəs İdris müəllim necədir, niyə gəlməyib?





Əmim arvadı əmimin axşam dərsi olduğunu söylədi.

Biz Müşfiqi ali məktəbi qurtarmağı münasibətilə təbrik etdik.

– Çox sağ olun, arzu edirəm ki, siz də bütün diləklərinizə qovuşasınız, - dedi.

Sonra mənə məlum oldu ki, Müşfiq əmim İdris Axundzadənin dostu imiş.



Dilbər Axundzadənin əmisi İdris Axundzadə (1934)

Mən əmimin də dilindən tez-tez Müşfiqin adını eşidirdim. O, ədəbiyyat müəllimi idi, yazıçı və şairləri çox sevər, onlarla dostluq edərdi. Onun vasitəsilə bir çox qocaman və cavan ədiblərlə tanış olmuşdum. O zaman ən çox tanınan və sevilən şairlərdən H.Cavid, Ə.Cavad, A.Şaiq və başqaları bizə tez-tez gələrdilər. Onlar bizdə ədəbiyyat barədə maraqlı söhbətlər edər, təzə dərc olunan əsərlər və publisist məqalələrdən söz salardılar. Mən onların bir çox şerlərini də öz dillərindən bu məclislərdə eşitmişdim. Onlar şeri elə ahənglə oxuyardılar ki, adam heyran qalardı. Müsahibə zamanı, o vaxt ədəbiyyata yenicə qədəm qoyan gənc şairlərdən də tez-tez söhbət düşürdü və istedadlı cavanların arasında onlar Müşfiqin də adını çəkirdilər.

Bu sadə və qayğıkeş insanlara olan məhəbbətim, məndə ədəbiyyata lap uşaqlıqdan böyük həvəs oyatmışdı. Mən mütaliədən, şer əzbərləməkdən doymazdım.

Müşfiqlə ilk tanışlığımızdan sonra açığını deyim ki, rəfiqələrimdə də, məndə də şerə maraq və hörmət daha da artdı.

Biz hər gün təzə şerlər, təzə əsərlər oxuya-oxuya günləri, ayları, illəri bir-bir yola saldıqca ədəbiyyat aləminə təzə qədəm qoymuş gənc şairlər böyük sələflərini əvəz etməyə başlayırdılar.

1930-cu ildə mən Bakı pedtexnikumunda oxuyurdum. Biz gecə-gündüz orada qalırdıq. Məktəbimizdə möhkəm nizam-intizam var idi. Müəllimlərimiz, tərbiyəçilərimiz bizi doğma balaları qədər istəyirdilər. Onlar bizə məktəbi sevməyi, fənləri mənimsəməkdə böyük məsuliyyət hissini, yoldaşa səmimi münasibəti, qayğıkeş olmağı, ictimai mülkiyyəti qorumağı, mədəni davranmağı öyrədir, bizi sosializm quruculuğu işinə fəal mübarizlər kimi hazırlayırdılar.

Məktəbimizin nəzdində dram, foto, tar, ədəbiyyat və s. dərnəklər var idi. Mən də ədəbiyyat dərnəyinin üzvü idim. Növbəti məşğələ zamanı kim isə dərnəyin rəhbərinə bir kitab verdi. Bu, gənc şair Mikayıl Müşfiqin yenicə çapdan çıxmış «Küləklər» kitabı idi. Həmin məşğələdə kitabdakı şerlərin əksəriyyətini oxuyub müzakirə etdik. «Pedtexnikum» şeri daha çox xoşumuza gəldi. Biz elə bu şerdən bildik ki, Müşfiq də vaxtilə burada oxuyurmuş. Bugünkü məşğələmiz əvvəlkindən daha canlı və təsirli keçdi. Biz məşğələni həyatı sonsuz məhəbbətlə sevən, insan hisslərini coşğun ilhamla tərənnüm edən şairin şirin, incə şerlərinin təsiri ilə başa vurduq.

İstirahət axşamlarının birində texnikuma gedirdim. Kommunist (indiki İstiqlal – *red.*) küçəsində təsadüfən Müşfiqlə rastlaşdım. O, məni görcək ayaq saxlayıb salam verdi. Bu təsadüfi görüşdən onun sevindiyi açıq-aşkar hiss olunurdu. Mən özümü itirdim. Müşfiq gülümsünüb mehriban səslə:

– Nə xoş təsadüf... hara gedirsən, Dilbər? – deyə soruşdu.





– Texnikuma ...

Mənim həyəcanlandığım Müşfiqin gözündən qaçmadı.

– Niyə tutuldun, Dilbər? Yoxsa...

– Heç ...

O məni anladı və söhbəti dəyişdi:

– Məni unutmamışdın ki?

Birdən-birə mənə qəribə bir cürət gəldi:

– Sizi heç unutmaq olar?! – dedim. – Siz yadıma düşəndə «Küləklər»ə qoşuluram. Sizin bir neçə şerinizi əzbərdən bilirəm.

Müşfiqin üzü səadət nuruna boyandı.

*Heç güman etməzdim şerə vurulduğunu,*
*Yaxşı ki, öz dilinlə söylədin bunu.*

246439

Müşfiqin bir anlıq sevincinin o dəqiqə şerə çevrilməsi xoşuma gəldi. O, bunu hiss edib dedi:

– Madam ki, mənim şerlərimi sevirsən, onda izin ver, ilk yazılarımı əvvəlcə sənə oxuyum.

Mən susdum.

Müşfiq yenə söhbəti dəyişdi:

– İcazə ver səni məktəbəcən ötürüm.Orada mənim də dostlarım, tanışlarım var: şair Əli Nəzminin qızı Pirayə, Ziba, Münəvvər...

– Onlar mənim rəfiqələrimdir, - dedim.

– Lap yaxşı, bir yerdə gedərik, mən də onları görərəm.

– Yox, sağ olun, özüm tək gedəcəyəm, siz də başqa bir vaxt özünüz gələrsiniz ... Müşfiq üz vurmadı.

– Nə deyirəm. Elə isə məndən qızlara salam de!

İlk dəfə evdən pedtexnikuma qəribə duyğularla, qeyri-adi hisslərlə ayaq basdım. Bunu duyan qızlar başıma toplaşıb hal-əhval tutdular:

– Nə olub, Dilbər, niyə belə birtəhərsən? Olmaya bir hadisə baş verib?

– Yox, heç nə olmayıb ...



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

– Bəs niyə belə pərişansan?

– Heç özüm də bilmirəm ...

Qızlar əl çəkmədilər. Müşfiqlə təsadüfi görüşümü onlara danışmağa məcbur oldum. Onun salamını qızlara yetirdim.

Qızlar xoşhal oldular. Rəfiqələrimdən Münəvvər Əliyeva Müşfiqin uşaqlıq illərindən bizə maraqlı epizodlar söylədi.

Münəvvər Əliyevanın xatirəsindən yadımda qalanlar bunlardır:



*Mikayıl Müşfiqin atası Əbdülqədir*

«Biz Mikayılla bacı-qardaşıq. Eyni ata-anadan olmasaq da, onun xətrini qardaşlarım qədər istəyirəm. Mən Mikayılla 1923-cü ildən tanışam. Onda Mikayılın 14-15 yaşı olardı. Mənim isə 10 yaşım var idi. Böyük qardaşım Lütfi ilə Mikayılın böyük qardaşı Mirzə bir yerdə işləyirdilər. Möhkəm dost idilər. Bir gün qardaşım Bakıya, Mirzəgilə qonaq gəlir və ilk dəfə Mikayılla burada tanış olur. Söhbət vaxtı Mirzə, kiçik qardaşının başını sığallaya-sığallaya deyir: - Mikayıl altıaylıq olanda anam Züleyxa, altı yaşında ikən atam Mirzə Əbdülqədir vəfat etmişdir. İndi onların qüssəsini unutduran Mikayıldır. O, mənim həm arxam, həm sirdaşımdır. Mikayıl atama məndən çox oxşayır. O da atam kimi həssas, qayğıkeş, zəhmətsevəndir. Gecə-gündüz kitab əlindən düşmür. Oxuduğu şerlərin əksəriyyətini əzbərləyir. Vaqifi, Seyid Əzimi, Sabiri heyranlıqla mütaliə edir. Mənim atam Mirzə Əbdülqədir də müəllim, eyni zamanda şair idi, ləqəbi də Vüsuqi idi.





Qardaşım belə bir şair ailəsi ilə dost olduğu üçün fəxr edirdi.

Bizim ailədə şairə, ədibə xüsusi hörmət var idi. Bu hörmət atam Yaznalının sayəsində idi. O, Aşıq Ələsgərin yaxın dostu olmuşdu. Hərdən özü də qoşma deyərdi.

Bir dəfə qardaşım Bakıdan Gəncəyə qayıdan vaxt Mirzədən xahiş edir ki, yay tətilində Mikayılı özü ilə bizə gətirsin. Mikayılın ilk dəfə Gəncəyə, bizə qonaq gəlməsini xatırlayıram. Qardaşım Mikayılı hamımıza təqdim etdi:

– Bu qara bala da, sizin qardaşınız olacaqdır, - dedi –. Əgər məni sevirsinizsə, Mikayılla həqiqi qardaş olduğunuzu isbat edin.

Anam evə gələndən sonra qardaşım üzünü ona tutdu:

– Anacan, bu oğlanı özümə qardaş gətirmişəm. İndi Mikayıl həm Mirzənin, həm də mənim qardaşımdır.

Anam, Mikayılın ata-anasını kiçik yaşlarında itirməsindən çox mütəəssir oldu. Mikayılı balası kimi bağrına basıb öpdü: - Atalar üç deyib, oğlum iki idi, indi də üç oldu, - dedi. O gündən, doğrudan da Mikayıl bizə, biz də Mikayıla elə isinişdik ki, sanki Mikayıl bizim ailədə doğulmuşdu.

Yay fəsli yenicə girmişdi. Biz Ermənistanın Basarkeçər rayonunun Böyük Məzrə kəndinə gedib, orada Sona bulağının üstündə alaçıq qurduq. Hamımız hiss edirdik ki, Göyçənin füsunkar gözəlliyi, sağlam təbiəti, zəhmətsevən insanları kiçik Mikayılda da gözəl təsir oyadır, heç bir şey bu coşğun təbiətli yeniyetmənin diqqətindən qaçmır. Çox vaxt hamımızdan ayrılıb, əlində qələm-dəftər, çayların kənarında, qayaların üstündə oturub güllü-çiçəkli dərələrə, dağlara məftunluqla baxa-baxa xəyala dalar, hərdən nə isə yazardı.

Bir dəfə Müşfiq atamın Aşıq Ələsgərlə dost olduğunu eşitdi. Ondan sonra atamdan əl çəkmədi. Atamın si-

nəsi xalq nağılları, bayatılar, atalar sözləri ilə dolu idi. Aşıq Ələsgərin çox qoşmalarını əzbər bilirdi. Özünün də yaxşı səsi var idi. Atam həmin qoşmalardan avazla oxuduqda Mikayıl sevincindən özünü itirərdi. Tez qələm-dəftər götürüb: «Əmi, xahiş edirəm onları bir də de, yazım» - deyərdi.

Bizim qaldığımız yer Göyçə gölünə yaxın idi. Tez-tez gölün sahilinə gəzməyə gedərdik. Müşfiq hər il bizimlə Göyçəyə gedəndə sevinərdi ki, Göyçə gölünü bir də görəcək. Mikayılın əlyazmasından bir şer dəftərini yadigar saxlamışdım. Qismət olsa gətirib uşaqlıq şerlərini oxuyaram».

Müşfiqin barəsində, onun xalası oğlu Ağakərim Kərimov da (hazırda təqaüdə çıxıb, Xızı kəndində yaşayır) bu yaxınlarda mənə kiçik bir xatirə danışmışdır. Həmin xatirəni də oxuculara çatdırıram. «Mən mollaxanada oxuyanda, Müşfiq 8-9 yaşlı uşaq idi. Bir dəfə mənimlə mollaxanaya getdi. Məktəbdən gəldikdən sonra mollanın dərs deməyini, mollaxananı lağa qoyub gülməyə başladı: «Məktəb nə məktəb, molla nə molla! Adamın lap bağrı yarılır», - deyib mənə mollanın yanına getməməyi məsləhət gördü. Hələ bir həcv də yazdı. Həmin həcvdən yadımda bu sətirlər qalıb:

*Uşaqlar əyləşib yerə,*
*Cındır həsir – dolu birə,*
*Belə molla yerə girə!*
*De görüm bu molla*
*Hara mollasıdır?*
*Yoxsa, bu molla qara mollasıdır?*

Mollaxana haqqında yazdığı bu həcvi eşidəndə qohumları təşvişə düşür, nənəsi Qızqayıt Mikayılı yanına çağırıb, ona öyüd-nəsihət verməyə başlayır:

– Ay bala, yetim uşaqsan, özünü də, bizi də işə salarsan. Molla eşidər, sənə küfr oxuyar, deyər: oxşayıb oxşamışlarına. Mollaxananı heç atan Mirzə Qədirin də gör-





məyə gözü yox idi. Ona görə də gedib «Səadət» məktəbində uşaqlara hər cür elm öyrədirdi.

Mikayıl isə: - Nənə, mən Cəfər kimi şair olacağam, - deyib özünəməxsus bir hərəkətlə onun şerini dedi:

*Əgər bütün bəşəriyyət ədüvvi-canım ola,*
*Ürək süqut eləməz aldığı mətanətdən.*
*Ricavü xəvfə məkan verməräm gər alimlər*
*Min il də vəz edələr dəhşəti-qiyamətdən.*

Qızqayıt xala fikrə gedər və deyərdi: - Cəfərin yolu ilə gedəcəksənsə, evimiz yıxıldı. Elə sizləri yoldan çıxaran Cəfər kimi adamlardır. Məgər Cəfər az əzab çəkir, onu gündə Dumaya çağırırlar. Bax, Cəfər bu gecə qardaşı oğlu Heydərin toyuna getmişdi. Hələ gəlməyib, Şahbikə səhərə kimi yatmayıb. Axırda öyrənib ki, Cəfəri Dumaya aparıblar. Səni də Dumaya apararlar. Yetim uşaqsan, mən də bu ağrayan ayaqlarımla sənin dalınca gələ bilmərəm.


*Dilbər xanımın gəncliyi*

Lakin bu kimi sözlər Müşfiqin əqidəsinə uyğun gəlmirdi. O, çox cəsarətli olduğundan sözü üzə deməkdən çəkinmirdi. Nənəsini başa salmağa çalışırdı ki, o, ancaq şair olacaqdır. Uşaqlıqdan şerə belə həvəs göstərən Mikayıl sözün əsl mənasında çoxlu şerlər yazardı. Ancaq o vaxt şerlərini toplayıb saxlamamışıq. O öz hafizəsinə arxayın olduğu üçün hər şeri köçürməzdi».

Mikayıl Müşfiq bir dərəcəli 10 nömrəli məktəbdə Respublikanın xalq artisti Şəmsi Bədəlbəyli ilə üç il eyni sinifdə parta arxasında oturmuş, birlikdə oxumuşdu. Onun xatirələrindən məlum olur ki, Müşfiq hələ lap uşaq yaşlarından şer yazıb məktəbin divar qəzetində «Yel döyən oğlu Səbayıl» imzası ilə dərc etdirmişdir.

Bir axşam rəfiqəm Pirayə sevinə-sevinə mənə yanaşdı. Onun üzündə qeyri-adi bir təbəssüm və həyəcan vardı.

– Dilbər, sənə şad xəbər verəcəyəm, - dedi.

Mən sual dolu gözlərimi ona dikdim.

– Sənə Müşfiqdən məktub gətirmişəm, al!...

Yerimdə donub qaldım.

– Nə oldu, Dilbər? Al oxu, görək nə yazıb!

Məktubu bərabər oxuduq. Müşfiq ilk görüşümüzdən aldığı təəssürat əsasında iki şer yazmışdı. Sonralar həmin «İşidir» rədifli qoşmasının yaranma tarixini mənə danışdı. Sən demə, müsamirədə olduğumuz gecə, mən, sinəmə düşən uzun qara hörüklərimi geri atanda, Müşfiqin üzünə toxunubmuş. (Bəlkə də toxunmayıbmış.) Ancaq o məni inandırmağa çalışırdı ki, guya o günü onu ətirli bahar küləyi vurmuşdur... Həmin qoşma belə idi.

*Xayır, hörüklərin deyildir ilan,*
*O əski şairlər söyləmiş yalan.*
*Məni xəyal kimi ayağa salan, -*
*O coşğun dalğalı telin işidir...*

«Əbədi sevgi» şerindən həmin gecəni xatırladan misraları da oxucuların nəzərinə çatdırmaq istəyirəm:

*Xatırla, sevgilim, bir axşam çağı,*
*Yandı gözlərimdə eşqin çırağı.*
*Saçlarından ilham aldığım zaman,*
*Sardı gözlərimi incə bir duman,*
*Nə yüksəyi gördüm, nə də alçağı.*





Şerlər xoşumuza gəldi. Məktubun sonunda Müşfiq mənə öz səmimi hiss və məhəbbətindən yazırdı.

Pirayə mənim üzümə mənalı baxıb dedi:

– Hə, nə deyirsən, Dilbər? Müşfiq kimi oğlanın ürəyini qırmaq olmaz!

Mən elə bil iki yol ayrıcında qalmışdım. Pirayə birdən boynumu qucaqlayıb üz-gözümdən öpdü və dedi:



*Mikayıl Müşfiq*

– Olmaya tərəddüd edirsən, Dilbər? Mən Müşfiqi yaxşı tanıyıram. Ona inan! Onun məhəbbəti sənin əsl səadətindir.

Mən Pirayəyə öz minnətdarlığımı bildirdim. O gecə yuxum ərşə çəkildi. Oxuduğum kitablardakı aşiqlərin surətləri bir-bir gözlərimdə canlanmağa başladı. Onların arzuları, düşüncələri, keçdiyi həyat yolları, aqibətləri haqqında düşündüm. Müşfiqi və özümü onlarla müqayisə etməyə başladım. Nə mən, nə də Müşfiq onların heç birinə bənzəmirdik. Bizim sevib-sevilməyə, gələcək müqəddəratımızı özümüzün həll etməyə hər cür imkanımız və ixtiyarımız var idi. Mən Müşfiqin səmimiyyətinə və sədaqətinə inanırdım. Bəs məni susmağa vadar edən nə idi? Yoxsa bu məhəbbətin mənim təhsilimə mane olacağından qorxurdum.

Mən uzun zaman onun məktublarını cavabsız qoyar, görüşünə getməz, gedəndə də rəfiqələrimlə gedib tezcə də qayıdardım. Bunun səbəbi, bəlkə də o idi ki, bu gənc

şairdə mənə olan ciddi, mənalı və dərin məhəbbəti birdən-birə dərk etmirdim...

Müşfiqin dayısı Ağamehdigil mənim rəfiqəm Zibanın böyük bacısı ilə bir həyətdə yaşayırdılar. Bir gün Ziba seminariyada mənə yanaşıb dedi:

– Müşfiqin dayısıgil bahar bayramı şərəfinə məclis düzəltmişdilər. Bizi də dəvət etmişdilər. Müşfiq də mənim yanımda oturmuşdu. Məclisin şirin yerində gördüm tutulub. Mən ondan bunun səbəbini soruşdum. Dedi:

– Dilbər yadıma düşüb, gərək gedəm görəm. – Məclisdəkilərə səhhətinin pis olduğunu bildirib onlardan üzr istədi və məclisi tərk etdi.

Sonra Ziba ərk ilə mənə baxıb dedi:

– Dilbər, Müşfiqi incitmə. O səni tez-tez görməyəndə darıxır, bir yerdə qərar tutmur. Şair qəlbi kövrək olur. Onunla ehtiyatlı ol.

Bu söhbətdən bir neçə gün sonra Ziba yanıma gəlib Müşfiqin məni çağırdığını dedi. Mən onun sözünü yerə salmadım. Küçəyə çıxanda Müşfiqin necə həyəcan və narahatlıqla yolumu gözlədiyini gördüm. O məni görən kimi sevindi və irəli gəldi. Görüşdük. Baxışları küskün, çöhrəsi dalğın idi. O, birdən mənə elə baxdı ki, sanki baxışlarından üstümə qığılcım yağdırdı. Lakin düşündüyüm kimi olmadı; məni çox mehriban və səmimi dindirdi:

– Necəsən, Dilbər?

– Çox sağ olun, yaxşıyam. Bəs siz necəsiniz?

Mənə elə gəldi ki, sualımın cavabında umu-küsü edəcək. Lakin o ürəyindən keçənləri gizlədə bildi.

– Niyə, pis deyiləm, - dedi. – Baxışlarını ətrafda dolandırıb birdən mənim üzərimdə saxladı. – Dilbər, əgər vaxtın varsa, gəl Pionerlər (indiki Ə.Vahid – *red.*) bağına gedək. Sənə deyiləsi çoxlu sözüm var.

Mən getmək istəmədim. O, təkid etdi:

– Məktubumu aldınmı?





– Bəli.

– Bəs niyə cavab yazmadın?

– Şair məktubuna cavab yazmaq o qədər də asan deyildir.

Sözlərim Müşfiqin eynini açdı.

– Mənim məktubumun cavabında ürəyin nə istəsə yaz, - dedi.

Mən gülümsündüm.

Biz ətrafdakı gül-çiçək əkilmiş fəvvarəli hovuzun yanındakı skamyaya çatdıq.

– Bəlkə bir az oturaq, Dilbər?

– Nə deyirəm...

Yaşıl budaqların çətiri altında yanaşı əyləşdik.

– Dilbər, bilmirəm sən niyə mənimlə belə soyuq rəftar edirsən? Mənimlə danışanda rəngin allaşır. Özün də ayağının birini həmişə qaçaq qoyursan. Dilbər, sən bilirsən ki, mən səni sevirəm. Yoxsa mənim sevgimi özünə layiq bilmirsən?

Mən dinmədim. O, sual dolu baxışlarını üzümə zilləyib dedi:

– Mən sənin gözlərinə məftunam. Bir gözün rəhmə gələndə, o biri ona düşmən olur. Bu, nədəndir?

O, birdən yerindən qalxıb önümdə dayandı. Onun bu hərəkəti mənə qəribə göründü. Mən indicə onun nəsə edəcəyini düşündüm. Yalvarış dolu baxışlarını üzümdən çəkmədən bu şeri dedi:

*Qara qaş üstünə tökər qarını,*
*Nərgiz gözlərindən məni ayırsan.*
*Mənim ümidimin qapılarını*
*Neçin gah açırsan, gah qapayırsan?*

Müşfiq şeri elə bir ahənglə oxudu ki, ürəyim yarpaq kimi titrədi.


Mikayıl Müşfiq həyat yoldaşı Dilbər xanımla

– Müşfiq, sən elə hər sözə şerlə cavab verirsən?

– Dilbər, şer mənim həyatımdır. O, həmişə pərvazlanmaq istəyən bir quşa bənzər. Sən isə bu quşun əbədi qanadısan!

Mən qeyri-iradi onun gözlərinə baxdım.

– Niyə birtəhər baxdın, Dilbər? Olmaya sözlərimə inanmırsan?

Mən gülümsündüm.

– Söhbətimiz uzandı, mən isə məktəbə gecikirəm. İcazə versən, gedərəm.

– Nə deyirəm, get. Ancaq səndən bir xahişim var.

– Buyur, - dedim.

– Xahiş edirəm, tez-tez görüşə gəlməyə razılıq verəsən.

– Bir şərtlə!

– Hər nə desən göz üstədir, söylə görüm şərtin nədir?

– Görüşə gələndə təzə şer gətirməyi unutma.

Mən sanki bu sözlə ona dünyanı bağışladım.

– Sən görüşə gəlməkdə ol, mən o qədər şer gətirim ki, oxuyub qurtara bilməyəsən. İstəsən, səni lap şerlə bəzərəm.

O, iti nəzərlərlə başdan-ayağa məni süzdü və baxışlarını yaşıl budaqlara zillədi. Mənə elə gəldi ki, onun xəyalı bir anlıq harasa gedib qayıtdı. Təbəssüm dodaqlarını





tərk etdi. Baxışları qatılaşdı. Onun bu halı mənə çox qəribə göründü. Birdən mənə tərəf döndü:

– Dilbər, xahiş edirəm incimə,- dedi, - ürəyimə bir-iki sətir söz gəldi, qoy deyim.

– Heç şerə xahiş olar? – dedim.

Mehriban nəzərləri yenə də üzümdə gəzdi və bədahətən bu şeri dedi:

*Sevgilim əyninə yaşıl geyinmiş,*
*Sallanışı sərvi-çəmən kimidir.*
*Bu bənzətmə bir az üzdən olsa da,*
*Tamamən görkəmi səmən kimidir.*

*Nə arzu eyləsən, könlümdə vardır,*
*Eşqimin səhəri bir ilk bahardır.*
*Ona könül verən nə bəxtiyardır,*
*Fikrim, hissim təzə gülşən kimidir.*

*Müşfiqin ürəyi yanaqdan incə,*
*Titrəyir bir xəfif rüzgar əsincə.*
*Məşuqun ayağı haraya dəysə, -*
*Orası aşiqə vətən kimidir.*

Biz ilk görüş yerindən pedtexnikuma tərəf yollandıq. İkimiz də xoşbəxt idik. Gözümüzə küçələr, binalar, qarşımıza çıxan adamlar hamısı əlvan, qəşəng və xoşbəxt görünürdü.

İndiki Azərbaycan Yazıçılar İttifaqı o zaman «Proletar Yazıçılar Assosiasiyası» adlanırdı. Bu cəmiyyət öz üzvlərini tez-tez qəsəbələrə, zavodlara, fabriklərə, məktəblərə, klublara göndərirdi. Onlar fəhlə və qulluqçular qarşısında çıxış edərək, yeni həyatdan bəhs edən əsərlərlə dinləyiciləri sosializm quruculuğu işinə ruhlandırır, mədəniyyət işçilərinə yaxından kömək edirdilər. Müşfiq də bu işdə fəaliyyət göstərir, çox vaxt fəhlə, qulluqçu və tələbələrin auditoriyalarında çıxış etməyi sevirdi. Yadıma gəlir ki, bu sahədə həvəslə çalışan gənc şairlər barədə

«Ədəbiyyat və incəsənət» qəzetində (1932-ci il 25 mart) çap olunan məqalədə Müşfiq də təriflənmişdi.

Bir gün ədəbiyyat dərnəyimizin məşğələsi idi. Bir də gördüm Müşfiq bizim məktəbə gəlib. Məktəbin müəllimləri və ədəbiyyat həvəskarları Müşfiqin başına toplaşdı.

Ona müxtəlif suallar verirdilər. Müşfiq hamıya ehtiram və nəzakətlə cavab verirdi. Mən pəncərənin qabağında dayanmışdım. Tələbələrlə söhbətini qurtarıb yanıma gəldi, görüşdü və dedi ki, dərnəyimizə rəhbərlik edəcək. Sevindim. Müşfiq cibindən bir kağız çıxarıb mənə verdi.

– Oxuyarsan, - dedi, - sənsiz keçən günlərimin təsviridir.

Aldım, şer olduğunu gördüm. Şeri mənə həsr etmişdi. Növbəti məşğələmiz başlandı. Ədəbiyyat müəllimimiz Müşfiqi dərnək üzvlərinə təqdim etdi. Bu gündən dərnəyin rəhbəri olacağını dedi. Hamı Müşfiqi gurultulu alqışlarla qarşıladı.

Müşfiqin məşğələmizi necə maraqla aparmasını xatırlayıram. Hər söhbətini dərin mənalı atalar məsəlləri, gözəl şer parçaları ilə bəzəyərdi. Hamı məşğələ vaxtının uzanmasını arzulayırdı.

İlk məşğələmiz qutarandan sonra Müşfiq mənə dedi:

– Dilbər, mən Bayıldakı maarif evində təşkil olunmuş ədəbiyyat dərnəyinin də rəhbəriyəm. İstirahət günü bizim klubda ədəbi-bədii gecəmiz olacaq. Əgər maraqlansan, səni də apararam.

Mən:

– Məmnuniyyətlə gedərəm, - dedim.

Müşfiq:

– Onda birlikdə gedərik, - dedi və sağollaşıb məndən ayrıldı.

İkinci dəfə Müşfiqlə ədəbi gecədə iştirak elədim.

Həmin gecədən sonra bir müddət Müşfiqdən xəbər çıxmadı. Ürəyimə cürbəcür fikirlər gəlirdi. Nicarançılıq





məni əldən salırdı. Ürəyim dözmədi. Ağamehdi dayıgilə zəng vurdum. Müşfiqin səhhətinin yaxşı olduğunu dedilər. Ürəyim sakit oldu.

Bir gün məktəbin həyətində oturub kitab oxuyurdum. Sinif yoldaşlarımdan biri mənə yanaşıb bir məktub verdi.



*Dilbər xanım*

– Buyur, Müşfiqdəndir – dedi. Üstəlik əlavə etdi:

– Dilbər, o sənə təzə şerlər göndərəndə bizə də oxu. Onun şerlərinin vurğunu təkcə sən deyilsən.

Mən çox sevindim: - Mütləq oxuyaram, - dedim və tələsik məktubu açıb oxudum.

Müşfiq məktubun əvvəlində neçə vaxtdır gəlmədiyinin səbəbini yazırdı. Məndən üzr istəyirdi. Eyni zamanda dərsdən sonra məni görüşə çağırırdı. Mənim Müşfiqi telefonla axtarmağım onu xeyli sevindirmişdi. Bunun müqabilində mənə öz minnətdarlığını bildirdi. Onun üçün qeyri-adi olan bu hadisəyə şer də yazmışdı. Həmin şerdən bu misralar yadımda qalıb.

*Eşitdim aramısan sən dün məni telefonla,*
*Gəl sevgilim, çıxaq qoşa bu uğurlu aydın yola.*

Ertəsi gün dərsdən sonra bizim komsomol iclasımız oldu. İclasımız gec qurtardı. Zənn etdim ki, Müşfiq mənim gecikdyimi görüb çıxıb gedəcək. Yenə də dözə bilmədim, dedim gedib baxım. Gəlib həmin yerə çatdıqda

gördüm ki, Müşfiq skamyada oturub nə isə yazır. Məni görcək sevinə-sevinə ayağa durdu.

– Müşfiq, üzr istəyirəm, - dedim, - səni çox gözlətmişəm, komsomol iclasımız var idi, gec qurtardı. Düzünü de, məndən incimədin ki?

– Yox, gözlədim-gözlədim, gəlmədin, axır qəlbimin odunu şerə tökdüm.

Biz söhbət edə-edə gəlib skamyada oturduq. O mənə təzəcə yazdığı «Neçin gəlmədin» şerini oxudu:

*Gözlədim yolunu həsrət içində,*
*Tükəndi taqətim, neçin gəlmədin?*
*Şəhdi-vüsalından üzüldü əlim,*
*Ey dilbər afətim, neçin gəlmədin?*

*Əlimdəki qələm bir sədəfli saz,*
*Nə qədər səninçün coşar, yorulmaz!*
*Aramızda olan zəncir qırılmaz,*
*Ey sözüm-söhbətim, neçin gəlmədin?*

*Gözlədim yolunu, hava qaraldı,*
*Bu qaranlıq hava ruhumu sardı.*
*Səndən qəmgin könül sevinc umardı,*
*Sən ey səadətim, neçin gəlmədin?*

Müşfiq şeri oxuyarkən əlini şerin ahənginə uyğun qaldırıb-endirir, məni büllur səsi, saf və pak hissləri ilə heyran qoyurdu.

Sonra aramızda belə bir söhbət oldu.

– Şairlərlə ehtiyatlı dolanmaq lazımdır. Birdən acığı tutar, sevgilisinə tənqidi şer də yazar.

– Mən sənin əzabına dözmərəm, sənə nəinki tənqidi şer, heç qaşın üstə qara xal da var, demərəm.

– Müşfiq, düzü çoxdandır səndən nigaran idim. Yaxşı ki, məktub göndərdin. Ürəyimə cürbəcür fikirlər gəlirdi.





Özümdən asılı olmayaraq məndə qəribə qısqanclıq oyanmışdı.

Müşfiq təəccüblə:

– Nə qısqanclıq? Yoxsa məndən sənə bir söz deyiblər? – dedi.

– Yox, yox, heç nə deməyiblər. Elə-belə, ürəyimə gəlib, deyirəm: Müşfiq şirindilli şairdir, başqa qızlara da şer yaza bilər. Gözəl-göyçək qızlar şəhərdə nə çoxdur...

Müşfiq tutuldu. Elə bil baxışlarına bulud çökdü. Gözəl bir şer dedi. Yalnız iki misrası yadımdadır.

*Mən sənin gözlərinin məftunu,*
*Yeni əsrin, yeni bir Məcnunu.*

Yadımdadır ki, bu şeri oxuyan kimi Müşfiq dedi.

– Ancaq bu məcnunluq mənim həyata, sənətə məhəbbətimi artırır, öz eşqimlə arzularımın zirvələrinə ucalmaq istəyirəm. Sən isə gör mənim barəmdə nə düşünürsən! Mənim sənə olan məhəbbətimi hamı bilir. Eşqi dillərə düşən şair heç başqalarına könül verərmi?



*Dilbər Axundzadə (1931)*

– Ay Müşfiq, adamın ürəyinə oğru təki soxulan bu qısqanclıq axı nədir? Dünyada qısqanclıq olmasaydı, daha yaxşı olmazdımı?

Müşfiq gülümsəyərək:

– Düz deyirsən, qısqanclıq pis şeydir: həm yaradıcılıq üçün, həm də sağlamlıq üçün, - dedi.

Müşfiq bu haqda çox fikirlər dedi. Hamısını xatırlaya bilmirəm. Yalnız bir söz yadımdadır.

– Bəziləri deyir ki, sevgi ilə birlikdə insanın ürəyinə qısqanclıq da dolur. Biz bir-birimizə inanmalı, boş yerə küsməməli, qısqanclıqdan uzaq olmalıyıq. Məndən sənə nə desələr, tez özümə çatdır, çünki bəzən iki sevgilini bir-birindən ayırmaq üçün uydurmalara əl atırlar. Sabah Şekspirin «Otello» əsəri oynanılır. Gəl səni rəfiqələrinlə bu tamaşaya aparım.

Ertəsi gün Müşfiq məni rəfiqələrimlə «Otello» tamaşasına apardı.

Müşfiq tamaşa qurtardıqdan sonra bizə dedi:

– Qızlar, görürsünüz həyat necə mürəkkəbdir?! İnsanlar safürəkli, günahsız bir mələyin ölümünə də qıydılar!...

Sonralar mən Müşfiqin «Sındırılan saz» poemasından aşağıdakı misraları oxuduqda onun bu söhbətini xatırlayırdım.

*Sərin*
*Mən səndən küsmüşəm, orda-burda sən,*
*Niyə hər yetəni tərifləyirsən?*
*Duman*
*... Mən səni sevmişəm dünyada yalnız,*
*Sazımın telləri zülfündür, ay qız!*
*El də bilir, Duman sevir Sərini,*
*Kim bəyənməz bu mehriban pərini ?*

.....................................................

*Hər aşiqin bir canana meyli var,*
*Hər Məcnunu dağa salan Leyli var.*
*Sinəsində məhəbbətin dağları,*
*Şirin dedi, Fərhad çapdı dağları.*





*Yazıq Kərəm alış deyə, yan deyə,*
*Od içindən əl uzatdı Əsliyə...*

Bir gün Dağüstü parka (indiki Şəhidlər xiyabanı – *red.*) gəzməyə çıxdıq. İşıqlar qoynunda üzən Bakı güzgü önündə dayanıb camalına tamaşa edən gözələ bənzəyirdi.

– Dilbər, görürsən Bakı axşamları nə füsunkar olur?! Bu gözəlliyi, onun hüsnünü vəsf etmək şairdən hünər istəyir. O, insan qəlbini eşqlə, hərarətlə doldurur, ürəyini vəcdə gətirir. İstər-istəməz sən bu gözəlliyə şer deməli olursan. Qulaq as!

*Sevgilim, həyata məhəbbətlə bax!*
*Bu sulu, torpaqlı dünya gözəldir.*
*Yer gözəl, göy gözəl, təbiət gözəl,*
*Asiman gözəldir, dərya gözəldir.*
*Fəqət sənin eşqin, mənim xəyalım –*
*Bunların hamısından daha gözəldir.*

– Ay Müşfiq, elə bil şeri qabaqcadan yazıbsanmış, nə rəvan şerdir.

– Hələ mən sənin üçün yeni şer yazıb gətirmişəm.

O, yeni şerini oxumazdan qabaq, məşhur rəssam Rafael barədə danışdı.

– Deyirlər, onun Məryəm adlı bir sevgilisi var imiş. O, Məryəmin şəklini elə məhəbbətlə çəkib ki, çəkib qurtarandan sonra özü öz əsərinin təsirindən bayılıb.

Müşfiq bu rəvayətə şer yazmışdı, oxudu, yadımda aşağıdakılar qalıb:

*Deyirlər ki, Rafael vəcdə gəlib bayılmış,*
*Çağlayınca içində susan o incə tellər.*
*Röya görürmüş kimi uyğusundan ayılmış,*
*Yaratdığı şəkilə vurulmuşdu o rəssam,–*

*Öz böyük sənətinə özü qalmışdı heyran.*
*İndi də mən səninçün şer yazmağa dursam –*
*Olaram zülfün kimi xəyalınla pərişan.*
*Sən bir Məryəm misallı, bəlkə də ondan göyçək,*
*Mən bir rəssam Rafael, bəlkə də ondan yüksək.*

Müşfiq söhbətarası bu sözləri də dedi:

– Dilbər, başımı yaman qatmısan. Müasir mövzulardan lap az yazıram. Qorxuram deyərlər, Müşfiq məhəbbət şairi olub gedib.

Doğrusu, bu sözlərdən mən bir az pərt oldum.

– Demək təqsirkar mənəm, eləmi?

Müşfiq gülümsündü:

– Sən niyə təqsirkar olursan, - dedi, - özüm də tənbəllik eləmişəm.

Müşfiq aşiqanə şerləri əsas yaradıcılığı hesab etmirdi. O həmişə günün tələbinə cavab verən mövzulardan yazmağı daha üstün tuturdu. Elə oradaca mənə xəbər verdi:

– Keçən il bir neçə yoldaşımla avralda, pambıq toplanışında olmuşam. Bu mövzuda bir poema yazmaq istəyirəm.

– Sənə müvəffəqiyyətlər arzulayıram, Müşfiq – dedim.

Çox çəkmədi ki, Müşfiqin məşhur «Bəyaz çöllər» poeması çapdan çıxdı. Poemanın ilk misralarını oxucuların yadına salıram.

*Çoxdandır bir şer yazmamışam mən,*
*Çoxdandır bir nəğmə tutdurmamışam.*
*Çoxdandır ayrılıb şer aləmindən,*
*Xəyal dənizinə baş vurmamışam.*

*Fikrim qasırğalı dəryalar kimi,*
*İstənilən qədər dalğalanmamış.*
*Könlüm uzaq gedən xəyallar kimi,*
*İncə buludlarla çulğalanmamış.*





*Ürəyim ilk bahar selləri kimi,*
*Atlana-atlana qaynamamışdır.*
*Ruhum Mil düzünün çölləri kimi,*
*Bəyaz çiçəklərlə oynamamışdır...*



***Oturanlar (soldan) C.Məmmədquluzadə, H.Cavid, Ə.Haqverdiyev, Cabbar Əfəndizadə, S.S.Axundov, İ.Əminbəyli, H.Sanılı; ayaq üstə duranlar (soldan) X.İbrahimov, C.Cabbarlı, S.Hüseyn, S.Rüstəm, M.Müşfiq, A.Şaiq, Ə.Cavad, M.Rahim, Tiflis, 1929***

Müşfiq hələ APİ-də (indiki N.Tusi adına APU – *red.*) oxuyarkən xalq yazıçımız Süleyman Rəhimovla, şair yoldaşı Əhməd Cəmillə, tələbə yoldaşı Əliyar Qarabağlı, həkim Quliyevlə könüllü olaraq pambıq toplanışında olmuşdur. Tələbə yoldaşı Əliyar Qarabağlı bu səfəri belə xatırlayır: «1930-cu ilin axırlarında biz tələbələr Ağcabədi rayonuna pambıq yığmağa getmişdik. Mil düzü bollu pambıq yetişdirmişdi. Yolumuz Ağcabədidən, Hindarxından keçirdi. Ağcabədidə bizə bir yer göstərib «bax, Hacı Qaranın dükanının yeri buradadır» - dedilər.

Müşfiq özünəməxsus bir tərzdə əl-qolunu ata-ata «Ay uşaqlar, gəlin, alın aparın, bu maldan olmaz» - deyə

Hacı Qaranı yamsıladı. Mən Müşfiqlə bir briqadaya düşmüşdüm. Müşfiq tələsik bir məzəli şer yazdı.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Soltan Məcid Əfəndiyev bir gün buraya gəldi. İşimiz və həyatımızla tanış oldu. Müşfiqin şerini oxuyub güldü. Bizə bəzi vədlər verdi və onlara dərhal əməl etdi. Biz bir aydan artıq müddətdə həvəslə işlədik. Çoxlu pambıq yığdıq. «İnqilab və mədəniyyət» jurnalının 1931-ci il 7-8-ci nömrələrində M.Müşfiqin «Bəyaz çöllər» adlı böyük mənzum oçerki nəşr olunmuşdu. Bu oçerk yuxarıda qeyd etdiyimiz səfərin məhsulu idi.

*Şairlər yanında qaradır üzüm,*
*Yalnız sizə gəlir güman, Mil düzü ! –*

deyə şair Mil düzünü köməyə çağırır. Tarixə müraciət edir. Mil torpağının keçmişini xatırlayır. Yaxından axan Arazın, Milin dərdlərinə uzun zaman biganə qaldığını təəssüflə yad edir. Nəhayət, çəkilən yeni su kanallarını böyük sevinclə təsvir edirdi. O ili Mil düzü bol pambıq yetirmişdi. Yığıb-yığışdırmaq mümkün deyildi. Şair bu bəyaz çölləri belə təsvir edirdi:

*Dalğın bir şairin xülyasıdır o,*
*Mil düzünün bəyaz röyasıdır o.*
*Ki, bu gün həqiqət şəklinə girmiş...*

Pambığın və neftin respublika üçün əhəmiyyətini yaxşı başa düşən gənc şair bunu obrazlı bir dillə belə ifadə edir:

*Pambığın çoxluğu – çoxluğumuzdur.*
*Pambıq «çörəyimiz, neft suyumuzdur».*

Bizim tarla yürüşümüz haqqında isə şair belə yazır:





*O gün ki tarlaya səfərbər olduq,*
*Hamımız müntəzəm bir əsgər olduq.*
*On-on düzələrək tarla boyunca...*
*Hərbi vəziyyətin gedişidir bu,*
*Bizi sarsıtmadı işin çoxluğu».*

Müşfiq avralda həkim Quliyevlə də bir yerdə olub. O, həmin günləri belə xatırlayır: «Pambıq yığımında qırmızı, qara lövhə asılmışdı. Çox pambıq yığanların adını qırmızı, az pambıq yığanların adlarını isə qara lövhələrə yazırdılar. Müşfiq özü hamıdan çox pambıq yığırdı. Adı həmişə qırmızı lövhədə idi. Bizə deyirdi: - həvəslə çalışın, tənbəllik edənlərə tənqidi şerlər yazacağam».

Əhməd Cəmilin Mikayıl Müşfiq haqqında xatirəsindən: «Müşfiqi ilk dəfə 1930-cu ildə görmüşəm. V.İ.Lenin adına APİ-nin birinci kursuna daxil olanda Müşfiq 3-cü kurs tələbəsi idi. Ortaboylu, qarayanız bir oğlan idi. Həmin ilin payızında bizim fakültənin tələbələrini Mil düzünə avrala aparmışdılar, pambıq yığmağa... Müşfiq də avrala gələn tələbələr arasında idi. Burada onu tanımayan yox idi. Bütün günü tarlada pambıq yığa-yığa xırıltılı həzin səsi ilə mahnı oxumağı sevərdi.

O, arabir pambıq yığan qızlara şairanə, zərif atmacalarla müraciət edər, öz dostları ilə şerləşər, sovxozda işləyən özbək qardaşlarla zarafatlaşar, onlara Nəvaidən beytlər, misralar deyərdi... Biz bu şən və coşğun gəncin zarafatlarına və mahnılarına o qədər alışmışdıq ki, hərdən səsi gəlməyəndə narahat olurduq. Pambıq yığdığımız tutqun payız çölündə elə bil nəsə çatmırdı.

Biz hələ tanış deyildik. O vaxt mənim 17, Müşfiqin 22 yaşı var idi. Müşfiqlə mən 1933-cü ildə tanış olmuşduq. Bizi Səməd Vurğun tanış etmişdir...

Müşfiqi otuzuncu illərdə Bakıda Maarif İşçiləri evində keçirilən şer gecələrində də görmüşəm. Belə gecələrdə Səməd Vurğunun ağır, təmkinli, Mikayıl Müşfiqin

coşğun və alovlu çıxışları bütün şer həvəskarları kimi mənə də həmişə xoş təsir bağışlayardı.

Otuz beş, otuz altıncı illərin söhbətidir. O vaxt mən Şamxor rayonunda (indiki Şəmkir – *red.*) kənd müəllimi idim. Bakıya müəllimlər müşavirəsinə çağırmışdılar. Bir gün müşavirədən çıxanda Kommunist küçəsində Müşfiqə rast gəldim. Müşfiq çox səmimi və istiqanlı insan idi. Gəzə-gəzə dəniz kənarına gəldik. Bulvarın lap girəcəyində sol əldə idmançı oğlanla qız heykəlləri qoyulmuş yerdə bir skamyada oturduq. Çox söhbətdən sonra o məndən bir şer oxumağımı xahiş etdi. Mən «Partizanın qəbri» adlı uzun bir şerimi oxudum. O çox diqqətlə qulaq asırdı. Mən bir yandan şeri düzgün və ifadəli oxumağa səy edirdim, bir yandan da bərk həyəcan keçirirdim ki, görəsən Müşfiqə necə təsir bağışlayacaq, o nə deyəcək. Şer qurtaranda Müşfiq mənim baxışlarımdakı intizarı sezdiyi üçünmü, ya nədənsə çiyinlərini çəkib:

– Cəmil, vallah sən də elə bizim kimi yazırsan... - dedi.

O, həmişə mənə - Cəmil – deyə müraciət edirdi.

Ayrılanda qələm, kağız çıxarıb ev ünvanını yazıb verdi və ürəkdən gələn bir səmimiyyətlə: - Sabah istirahət günüdür. Saat 12-də bizə gəl, - dedi. – Sabah da mən sənin üçün şer oxuyacağam, ancaq gəlməmiş olma! – deyə dönə-dönə tapşırdı.

Ertəsi gün dediyi vaxtda getdim. Qapını özü açdı. Məni həyat yoldaşı ilə tanış etdi. Müşfiqin çox böyük olmayan bir otağı var idi. Otaq bütün Şərq evləri kimi çox təmiz, səliqəli və səhmanlı idi.

Müşfiq klassik Azərbaycan şerini, aşıq poeziyasını və Şərq ədəbiyyatını çox yaxşı bilirdi. Onun gözəl hafizəsi vardı. Füzuli və Nəsimidən başlamış Vaqifə, Ağa Məsih Şirvaniyə qədər bütün Azərbaycan şairlərinin şerlərini, Tufarqanlı Abbasdan tutmuş Ələsgərə qədər bütün aşıqlarımızın qoşmalarını əzbərdən bilirdi.





Həmin illərdə Müşfiq rus şairlərindən Puşkin və Lermontovun yaradıcılığını yaxından öyrənir və Azərbaycan dilinə tərcümə etməyə başlayırdı. O günü Müşfiq mənə Puşkinin «Qaraçılar» poemasından bir parça oxudu. Puşkin poeziyasının gözəlliyindən böyük bir məhəbbətlə danışdı. Ona qulaq asdıqca mən bir daha yəqin etdim ki, Müşfiq ancaq şer üçün, şerin işıqlı, nəhayətsiz göylərində uçmaq üçün doğulubdur...

Müşfiq Şərq ədəbiyyatına da maraq göstərirdi. O, Xəyyamdan tərcümə etdiyi bir neçə rübai də oxudu. Bunlar böyük ilham və ustalıqla edilmiş gözəl tərcümələr idi.

O, sonra mənim təzə nə yazdığımı və nə üzərində işlədiyimi xəbər aldı. Mən ayağa duranda xahiş elədi ki, cümə günü öz şerlərimi də götürüb gündüz saat 2-də onlara gəlim. «Yəni, şerlərini gətir... Şerlərinə qulaq asmaq istəyirəm», - dedi.

Müşfiqgildən çıxıb Əzizbəyov küçəsilə indiki Nizami muzeyinə tərəf gedirdim. Sabir kitabxanasının qabağına çatanda dalımca «Cəmil! Cəmil» deyib yüyürən bir adamın ayaq səslərini eşitdim. Geriyə döndüm. Dalımca təngnəfəs yüyürən Müşfiq idi. O tövşüyə-tövşüyə: - Cəmil, bağışla, mən düz deməmişəm... Səndən sonra cədvələ baxdım, cümə günü saat 2-də təzə məktəbdə dərsim var. Dedim gəlib məni evdə tapmazsan, yaxşı düşməz... Cümə günü səni saat 2-də yox, saat 4-də gözləyəcəm... - dedi.

Mən onun bu nəcib insaniyyəti qarşısında quruyub qaldım.

Müşfiq belə adam idi!»

1931-ci ildə Müşfiqi Bayıldakı mədəniyyət evində təşkil olunmuş ədəbiyyat dərnəyinə rəhbər göndərmişdilər. İnqilabi mübarizə, döyüş və əmək ənənələri ilə məşhur olan bu rayonun zəhmətkeşləri, Müşfiqin şair qəlbini coşdurmaya bilməzdi. Müşfiq bu rayonun hər işi ilə yaxından tanış olub, bir sıra bədii əsərlər yazmışdı. Bunlar-

dan «Neft-İliç buxtası», «Posyolka», «İşçi qız» şerlərini, «Buruqlar arasında» poemasını göstərmək olar.



*M.Müşfiq əsgəri xidmətdə. Birinci sırada soldan ikinci*

Bir dəfə Müşfiqlə Zevin (indiki Əziz Əliyev – *red.*) küçəsi ilə gedirdim. Ucaboylu, mədəni geyimli bir nəfərlə Müşfiq görüşdü. Mən dayanıb ağır addımlarla getdim. Müşfiq həmin adamla danışdıqdan sonra iri addımlarla gəlib mənə çatdı.

– Dilbər, mənimlə görüşən həmin şəxs hörmətli bəstəkarımız Müslüm Maqomayev idi. Onun «Şah İsmayıl» operasının librettosunu mənim atam yazıb. O bizi tamaşaya baxmağa dəvət edir.

Bu barədə Müşfiqin yaxın dostu Əkrəm Cəfər 14 fevral 1961-ci ildə «Ədəbiyyat və incəsənət» qəzetində belə yazır:

«Azərbaycan SSR EA Respublika Əlyazmalar Fondunda saxlanılan arxivlər içərisində görkəmli yazıçı, artist və digər ziyalılarımızın məlum sənədləri ilə yanaşı bəzən





kiçik və demək olar ki, zahirən həmin arxivə heç bir dəxli olmayan sənədlərə də rast gəlmək olar. Məsələn, görkəmli yazıçımız Əbdürrəhim bəy Haqverdiyevin 30-cu illərin əvvəllərində Azərbaycan Dram Cəmiyyətinə verilən ərizə və göndərilən təliqələrin bir qismi ədibin şəxsi arxivində mühafizə olunmuşdur. Həmin sənədlər içərisində şair M.Müşfiqin avtoqrafı olan bir ərizə 17 dekabr 1931-ci ildə qırmızı mürəkkəblə yazılmışdır. Vərəqin ikinci üzündə yenə M.Müşfiqin bənövşəyi karandaşla yazdığı eyni məzmunlu ərizə vardır. Həmin ərizələrdən məlum olur ki, «Şah İsmayıl» operasının mətnini M.Müşfiqin atası Mirzə Əbdülqədir İsmayılzadə yazmışdır. Bir çox ziyalılarımıza şübhəsiz ki, məlum olan bu fakt geniş oxucu, tamaşaçı kütləsinə məlum deyildir. Bunun da əsas səbəbi proqramlarımıza bir qayda olaraq mətn (libretto) müəllifinin adının yazılmamasıdır».

1931-ci ilin axırıncı ayı idi. Mən imtahanlara hazırlaşdığım üçün Müşfiqlə az-az görüşürdüm. Bu isə Müşfiqin narahatlığına səbəb olurdu. O, rəfiqələrimlə mənə tez-tez məktub göndərirdi. Hər məktuba yeni bir şer əlavə edirdi. Təəssüf ki, o şerləri xatırlaya bilmirəm.

Sonrakı görüşlərimizin birində mən ona Gəncəyə gedəcəyimi bildirdim. Tutuldu. Üzünə kövrək təbəssüm qondu. Elə oradaca «Ayrılıq» şerini dedi:

*O gün ki, hicrana uğradı yolum,*
*Qırıldı qanadım, qırıldı qolum.*
*Fələkdən bac verib, bac alan könlüm,*
*İndi uşaq kimi ağlar səninçün.*

*Gül-cülü çağırır, çiçək-çiçəyi,*
*Gülər aşiqlərin qönçə diləyi.*
*Sən neçin yıxırsan bu şux ürəyi? –*
*Qəlbimin çeşməsi çağlar səninçün.*



**Ön sırada: Əkrəm Cəfər, Şövkət Ələkbərova, Dilbər Axundzadə, Şəfiqə Axundova, Əzizə Əhmədova, müğənni Anatolu Qəniyev Neft daşlarında**

Müşfiqin bu həyəcanlı və kövrək halı mənə elə təsir etdi ki, gözlərimdən qeyri-ixtiyari yaş axdı. Müşfiq mənim bu halıma dözmədi. Elə oradaca bu şeri də dedi:

*Bir qara buludam uca göylərdə,*
*Bu qara baxtımla bizim ellərdə.*
*Sən neçin ağlarsan mən duran yerdə,*
*Nərgiz gözlərinin yaşına qurban.*

Mən dedim:

– İstəyirsən heç getməyim, daha bundan ötəri niyə belə narahat olursan.

Müşfiq yenə də şerlə cavab verdi:

*Deyirsən yanında qalacağam mən,*
*Çox gözəl fikirdir, qal sənə qurban!*





*Nə zaman istəsən əziz canımı,*
*Qumral gözlərinlə al, sənə qurban!*

*Gəlmiş hüzuruna bir qara dağlı,*
*Bir qara qulundur, qolları bağlı.*
*Gəl çəkmə sinəmə sən hicran dağı,*
*Gümüş topuğunda xal, sənə qurban.*

– Ay Müşfiq, bu gözəl şerdir. Bəs o qara qul sözü nədir? – deyə soruşdum. – Heç sənin kimi vüqarlı şairə də qul sözü yaraşarmı?

Müşfiq bu dəfə nəsrlə cavab verdi. Nizamidən misal çəkdi:

– Hər şey incəliyindən sınsa da, insan qalınlığından sınar. Mən öz məhəbbətimin qulu olmağımla fəxr edirəm, - dedi.

Xeyli söz-söhbətdən sonra Müşfiq Gəncəyə getməyimə razı oldu.



*M.Müşfiq*

Gəncə dağlarını – qəlbimi özünə qırılmaz tellərlə bağlayan bu yerləri hər dəfə xatırlayanda, xəyalım istər-istəməz o günlərə – gəncliyimin ən dadlı, ən pak, ən unudulmaz çağlarına qayıdır, bu dağların yaşıl qoynunda pıçıldaşan bulaqlar, qayğısız ötən quşlar və burada ömür sürən insanlar yada düşür.

Biz hər səhər, günəşin şəfəqləri göy otların üstünə düşən şehləri qurutmamış alaçıqdan çıxıb çiyələk, moruq yığmağa gedərdik. Yaylaqlar öz nadir nemətlərini çəmən

süfrələrinə düzər, kolların boynundan asardı. Biz səhərin təmiz havasından uda-uda bu nemətlərdən dərib yeyər, günəş boyunu dağların çiynindən göstərəndə geri dönərdik.

Bakıda olanda, Xəzərin sahil daşlarına çırpınıb çiliklənən ayna sularını görəndə elə bil nagahan bir səs qulağıma pıçıldayıb deyir: - «Yenə o bağ olaydı, Dilbər, səni dil-dil ötən suların, saçın kimi qıvrılan dalğaların əlindən alaydım». Elə ki, qoynunda doğulub boy atdığım qədim Gəncəyə gəlirəm, Müşfiqin bu yerlərin təbiətinə olan sonsuz məhəbbəti yadıma düşür. Bu yerlər Müşfiqin ruhunu çox oxşardı. Onun könlünü elə qanadlandırardı ki, hətta şəhərdə belə o, xəyalən bu yerlərdə gəzib dolanardı. Müşfiq bu yerlərdə gəzmək, Kəpəzin nadir incisi olan Göygölün sahilində dayanıb onun büllur sularına tamaşa etmək istərdi. Mən Müşfiqin bu əhvalını yaxşı başa düşürdüm. Başı göylərə dəyən uca dağlar, yaşıl meşələr, zümrüd sular şair üçün təkcə istirahət və ilham mənbəyi deyildi. O, bu yerlərə layiq nadir sənət inciləri yaratmaq istəyirdi.

Müşfiqlə tanış olduqdan sonra, onu Bakıda qoyub buraya gəldiyim yay əvvəlki yaylara bənzəmirdi. Mən suların zümzüməsini, yarpaqların pıçıltısını eşitdikcə Müşfiqi xatırlayırdım. O deyərdi: «Dilbər, kaş mən yatanda başım üstə axar sular çağlaya idi». Müşfiqlə tanış olandan bəri mən təbiəti daha çox sevməyə başlamışdım. O, mənə təbiətdə bu vaxtacan duyub görmədiyim gözəllikləri duymağı öyrətmişdi. Axı, o özü də təbiətin, işığın, günəşin, bu cəh-cəhli gülüstanın bir parçası idi...

Müşfiqin hər xasiyyətini, hərəkətini yada salıb yaylaqda onun xəyalı ilə əylənirdim. Ayağımı hara qoyurdumsa, onun baxışları məni müşayiət edir, surəti gözlərimin önündə canlanırdı. Sanki o küskün, mənalı və qaynar baxışlar mənsiz darıxdığını söyləyirdi.

O mənə həmişə deyərdi:





– Dilbər, sənsiz mən cənnətdə olsam da darıxacağam. Səninlə zindanda olsam oranı cənnət bilərəm.

Bu münasibətlə «Söylə» şerini yazmışdı:

*Günlərim axışır bir uyqu kimi –*
*Dərədən-dərəyə axan su kimi,*
*Dilbərim hərcayi bir ahu kimi,*
*Hicran dağlarını aşarmı, söylə?..*

Mən bütün günü xəyalımda onu anar, gözlərimi axşamlar onun fikri ilə yumar, səhərlər onu görmək arzusu ilə açardım.

*Qoşa gəzdiyimiz o yerlərə mən,*
*Üz tutub gəlmişəm bu gün yenidən.*
*Boynu bükük durub güllər, çiçəklər,*
*Burdan qəmli keçir sərin küləklər.*
*Bulaq pıçıldayır, şəlalə dinir.*
*Quşlar dəstə-dəstə oxur, səslənir.*
*Gözüm nəyi görsə sənsən, sanıram.*
*Sənin xəyalınla sənsiz yanıram.*
*Bürünüb arzuna bu doğma çöllər,*
*Eşqinlə göyərib açılır güllər.*
*Təbiət söyləyir ürək sözümü,*
*Gözlərim axtarır sənin özünü.*

Ürəyimə dammışdı ki, o gələcək, mənə özü ilə sevinc və fərəh gətirəcək...

Bir səhər yenə də dağların ətəyinə çiyələk, moruq yığmağa çıxmışdıq. Yoldaşlarım yığdıqları moruğu, çiyələyi yeyir, mən isə səbətimə toplayırdım. Bunu görən Ələkbər (bəstəkar Ələkbər Tağıyev uşaqlıqda Gəncədə bizim yaylaq qonşumuz olubdur) məndən xəbər aldı:

– Dilbər bacı, sən niyə yığdığını yeməyib sonraya saxlayırsan?

Ələkbər yaşca məndən kiçik olsa da, onun xətrini çox istəyirdim. Ürəyimdən keçənləri ondan gizlətmədim:

– Bu gün bizə qonaq gələcək, - dedim.
– Hardan?
– Bakıdan.
– Kim gələcək?
– Şair Mikayıl Müşfiq, eşidibsən?
– Əlbəttə, hələ şerlərindən də əzbər bilirəm. İstəyirsən deyim?
– De!

Ələkbər ciddi bir vəziyyət alıb Müşfiqin «Ana» şerini əzbərdən dedi.

Müşfiqin dağlara qonaq gələcəyi gümanımı Ələkbər gerçək bir hadisə kimi hamıya yaydı. Bu xəbəri eşidən yoldaşlarım sevindilər, yığdıqları moruq və çiyələkləri yeməyib mənim səbətimə tökməyə başladılar.

Bir azdan deyə-gülə geri qayıtdıq. Alaçığa çatanda gözlərimə inanmadım. Mənim gümanım doğru çıxmışdı. Müşfiq Səməd Vurğunla Gəncəyə, oradan da dağlara qonaq gəlmişdi.

Mən özümü itirdim, nə edəcəyimi bilmədim. Şairlərin gəlişinə sevinən adamlar hər tərəfdən onları əhatə etmişdi.

Məni görən kimi hər ikisi yanaşıb salam verdi, hal-əhval tutdu. Mən razılıq elədim.

Səməd Vurğun ətrafa mənalı nəzər salıb günəşin şəfəqləri ilə gülümsünən zümrüd donlu dağları qəribə bir məftunluqla süzdü, şer dedi. Həmin şerin aşağıdakı misraları yadımdadır.

*Dəymə, dəymə mənə, darıxdım yenə,*
*Qoy çıxım dağlara, deyim: yar hanı?*
*Fələk möhür basdı düşmən deyənə,*
*Bəs mənim verdiyim yadigar hanı?*

Ailəmiz və qohumlar onların şərəfinə böyük qonaqlıq verdilər. Ertəsi gün mən, adətim üzrə səhər tezdən alaçığımızın yaxınlığındakı moruqluğa getdim. Müşfiq





yuxudan oyananda məni evdə görməyib harda olduğumu soruşur, yerimi öyrənib dalımca gəlir.

Mən şairlər yuxudan durunca onlara moruq yığmaq fikrində idim. Birdən yanımda Müşfiqin mehriban səsini eşidib diksindim.

– Sabahın xeyir olsun, Dilbər... Dünənki moruğun dadı hələ də damağımdan getməyib. Yenə də bizə moruq yığırsan?

Utana-utana: «Bəli», - dedim – O, mənə yaxınlaşıb hörüklərimi əlinə aldı və bir şer dedi. Yadımda aşağıdakı misralar qalıb:

*Qaçma, qaçma məndən boyunu göstər,*
*Könlüm ay üzünü hey görmək istər.*
*Saçın gül suyunda yıxanmış məgər?*
*Ətrindən dimağım, beynim mey çəkər.*

Müşfiq şeri yenicə deyib qurtarmışdı ki, yaxın kollarda bir quş oxudu. Müşfiq susdu, boylandı, həyəcanlandı: - Bax, sanki şeyda bülbül də mənim səsimə səs verir. Aşiq aşiqi gendən tanıyar, - dedi. – Həyatımın nə gözəl dəqiqələridir...

Kaş o, bir rəssam olaydı. Bu mənzərəni çəkib verəydi mənə, əbədi qalmaq üçün...

– Müşfiq, - dedim, - bizim bir-birimizi sevdiyimizi evdə bilmirlər. Bizi bir yerdə görsələr şübhələnərlər.

Müşfiq bir mənə, bir moruq kollarına, bir də buludlu zirvələrə çılğın nəzər salıb bu şeri dedi:

*Görəsən, bu dağ bizi qoynuna alacaqmı?*
*Ağaclar üstümüzə kölgə salacaqmı?*
*Qoşa gəzəcəyikmi bu döşdə, bu çəməndə?*
*Evə dönəcəyikmi günəş qürub edəndə?*



***Dilbər xanımın Müşfiqli günləri***

O mənə: «Yaxşı, mən getdim, sən də tez qayıt», - deyib uzaqlaşdı.

Evimizə gəlib-gedənin arası kəsilmirdi. Elə bil Səmədlə Müşfiq bu dağlara özləri ilə bol-bol sevinc, fərəh gətirmişdilər. Hər kəs onların yanında daha çox oturmağa, sözünü-söhbətini eşitməyə çalışırdı. Səmədlə Müşfiqin özləri də gəlib-gedənin sözündən, ixtilatından doymurdu.

Biz axşamüstü yenə dağların ətəyinə gəzməyə çıxdıq. Çiyələk yığarkən adətimiz üzrə hər kəs özünə çiyələk məskəni seçərdi. Bu məqsədlə mən rəfiqələrimdən ayrıldım. Bir də gördüm Səmədlə Müşfiq mənə tərəf gəlirlər. Onları görəndə ürəyim uçunmağa başladı. Səməd mənə mehriban bir nəzər salıb gülümsündü:

– Dilbər bacı, bizim bu dağlara gəlməyimizin, - dedi, - bir səbəbi var. O da Müşfiqin aşıq Kərəmə dönməsidir. Müşfiqi Kərəmdən ayıran cəhət odur ki, o, Əslinin dalınca hər yana tək gedərdi, bu isə utandığından məni özü ilə gətirib.

Mən dinmədim. Səməd sözünə davam etdi:

– Bilmirəm, siz bunu necə ovsunlayıbsınız ki, şəhərdə nə gecəsi, nə də gündüzü var. Özü orada, fikir-xəyalı isə burada. Gördüm bu gedişlə o, Kərəmi keçib Məcnun olacaqdır, axırda dözməyib dedim ki, gedək Gəncə dağlarına, bəlkə ürəyin orda təskinlik tapdı. Elə bil Müşfiq mənim bu sözümə bənd imiş. Söz ağzımdan çıxan kimi durub düşdü qabağıma. Bütün yolu şer deyə-deyə gəlmişik.





Sonra o, üzünü Mikayıla tutdu:

– Xahiş edirəm, yolda dediyin şerlərdən birini de.

Müşfiq qığılcım saçan baxışlarını mənə dikib uzun bir şer dedi. Təəssüflər olsun ki, o şerdən ancaq aşağıdakı misralar yadımdadır.

*O süzgün gözlərə əsir olalı,*
*Silindi könlümün dərdi, məlalı.*
*Ay nazlı Gəncənin nazlı maralı, -*
*Ovçuyam, ardınca qaçmaq istərəm,*
*Sən aşan dağları aşmaq istərəm.*

Səməd və mən Müşfiqi böyük məftunluqla dinlədik. Səməd zarafatla dedi:

– Dilbər bacı, qorxum bir bu Müşfiqdəndir. Məni ötsə, ancaq bu ötəcəkdir.

Mən dedim:

– Müşfiq də elə həmişə sizi tərifləyib deyir ki, gənclikdə çoxunun şerə-sənətə həvəsi olur. Müəyyən vaxtdan sonra ilhamı sönüb gedir. Ola bilsin mənim də ilhamım sönsün. Ancaq Səməd həmişə yazıb-yaradacaq.

Yanımızda dağ başından şəlalə axırdı. Səməd gülümsəyərək şəlaləyə baxıb dedi:

– Bax, Müşfiqin ürəyi bu dağ şəlaləsi kimi çağlayır. O, vətən eşqilə həmişə coşub-daşacaq.

Mən Səmədin ürəyinin vəcdə gəldiyini gördüm. O mənə səmimi bir nəzər salıb, sonra üzünü Müşfiqə tutdu, bir şer dedi:

*Sən gələndə bizim ellər yaz olur,*
*Aramızda söhbət olur, saz olur.*
*Hicran dərdi əvvəlkindən az olur,*
*Tərlan könlüm dolandıqca başına.*

*Nə bağım var, nə bağçam var, nə gülüm,*
*Qoy bir az da bu dünyada mən gülüm.*
*Alçalarsan el içində, sevgilim, -*
*Gözü yaşlı bir gün çıxsam qarşına.*

Ertəsi gün Səmədlə Müşfiq Gəncədə öz şerləri ilə çıxış etdilər. Camaat onları böyük hörmət və məhəbbətlə qarşıladı. Hər şerdən sonra alqış sədalarının ardı-arası kə-. silmək bilmirdi. Qohumlarımız və tanışlar onları hörmətlə Bakıya yola saldılar. Bir müddətdən sonra biz də Bakıya qayıtdıq.

Bakıya gəldiyim günün səhərisi Sabir kitabxanasına gedirdim. Bir də gördüm Müşfiq bizim evin qabağında gəzinir. Görüşüb söhbət edə-edə M.F.Axundov bağına tərəf gəldik. Biz bağa çatanda Müşfiq əli ilə qarşıdakı binanı göstərib dedi:

– Mənim yazıçı dostum Mehdi Hüseyn bu evdə yaşayır. O, təzəcə evlənib, yoldaşının adı Fatmadır, mənim xətrimi çox istəyirlər. Onlara sənin barəndə də demişəm. İstəyirsən gedək səni onlarla tanış edim.

Etiraz etmədim. Mehdi ilə Fatma xanım bizi çox səmimi qarşıladılar. Söhbət zamanı gördüm ki, Müşfiqin bunlardan heç bir gizli sözü yoxdur. Müşfiqin mənə həsr etdiyi şerlərin çoxunu Fatma xanım əzbər bilirmiş. Fatmanın onun şerlərinə olan məhəbbəti 1956-cı ildə mənə kömək etdi. O vaxt «Azərnəşr» Müşfiqin ikicildlik seçilmiş əsərlərini çapa hazırlayırdı. Müşfiqin öz dəsti-xətti ilə yazdığı «Dilbərnamə» şerlər məcmuəsi və bir çox başqa əsərləri də var idi. Müşfiqin 1956-cı ildə çapdan çıxan «Seçilmiş əsərlər»inin birinci cildində həmin məcmuədə olan lirik şerlərin bir neçəsini Fatma xanımın dilindən yazıb nəşriyyata təqdim etdim.

Xoşbəxtlikdən bir çox lirik parçaları yadımda qalmışdı. Çox təəssüf ki, «Yaşa könül», «Küsmərəm» və bu





kimi şerlərin bir sıra gözəl bəndləri yadımdan çıxmışdır. «Yaşa könül» şeri altı bənddən, «Küsmərəm» şeri isə beş bənddən ibarət idi. Yadımdan çıxan «Dilbər» şerinin bir bəndini mənə Fatma xanım xatırlatdı:

*Ah, o bulaq kimi qaynayan gözlər,*
*Gözəl təbiətin şeriyyətimi?!*
*Axı sən bilmirsən, bilənlər bilir –*
*O gözlərə olan məhəbbətimi.*

Fatma xanım ilk görüşümüzdə söhbət zamanı mənə dedi:

– Dilbər, mən Müşfiqi doğma qardaşım kimi sevirəm. Ona görə Müşfiqin sənə həsr etdiyi şerləri oxuduqca səni görməyə marağım artırdı. Bu gün arzuma çatdım.

Sonra Mehdi Hüseyn Müşfiqdən təzə şerlərini oxumasını xahiş etdi. Müşfiq təzə şerlərini oxuduqdan sonra Mehdi gözəl mülahizələr söylədi. O gündən sonra mən Fatma xanımla yaxından dost oldum. Birlikdə şəkil də çəkdirdik. O şəkil indi də durur.

Növbəti görüşlərimizin birində Dağüstü parka çıxmışdıq. Hündürdən Bakının füsunkar işıqlarını seyr edirdik. Nədənsə Müşfiq qayğılı, fikirli görünürdü.

– Nə düşünürsən? – dedim.

O, üzünü mənə çevirdi.

– Dilbər, - dedi, - bizim bu görüşlər mənim aləmimdə artıq mənəvi bir ehtiyaca çevrilib. Amma nə vaxtacan biz çəkinə-çəkinə, qorxa-qorxa görüşəcəyik?! Mən istəyirəm sən mənim könlümün bağbanı olasan. Biz bir-birimizə ömür boyu vəfalı olaq. Qəlbim-sənətim sənə bağlı olsun. İstəyirəm sizə elçi göndərim. Razılıq alan kimi nişan taxaq. Ondan sonra ürəyimiz istəyən vaxt görüşə bilərik. Sən də görüşə gələndə ayağının birini qaçaq qoymazsan.

Mən fikrə getdim. Cavab verməkdə çətinlik çəkir, tərəddüd edirdim.

Müşfiq sözünə davam etdi:

– Əgər nişanlansaq, mən də ürəyim istəyən vaxt gəlib səni evinizdə görərəm. Gecələr küçənizdən keçərkən sizin evdə işıq gəldiyini görəndə sevinirəm. Evinizin qabağında dayanıb xəyala dalıram. Hələ sən yatan otağa da bir şer yazmışam.

*Ey altun şəfəqli bəxtiyar otaq,*
*De, nurlu qoynunda sənin kim yaşar?*
*Ellər dolaşarkən açıq havada,*
*Səni Dilbərinmi nəfəsi oxşar?*

Yenə ona cavab vermədim. Fikrimdə Müşfiqin sözlərini götür-qoy edirdim. «Elçi göndərim, razılıq alım, nişan taxım...».

Mən boynumu büküb fikrə daldım. Müşfiq dilə gəldi.

*Sevirəm*
*Bənövşə tək*
*Boynun bükərək*
*O məhzun duruşlarını.*
*Sevirəm,*
*Mənimlə göz-gözə gələndə*
*Şimşək baxışların vuruşlarını.*
*Sevirəm,*
*Könlümü eşq oduna yandıran,*
*Mənə ilham verən,*
*Şer yazdıran,*
*Mənalı o baxışlarını.*
*Sevirəm,*
*Kirpik çala-çala,*
*məni süzərək,*
*Bir mahir ovçudan qorxub ürkərək*
*O ceyran ədalı baxışlarını.*





Mən bildim ki, Müşfiq bu inciləri də elə indi sapa düzüb. O mənim nələr düşündüyümü duyurmuş kimi üzümə baxıb dedi:

– Nə oldu, niyə dinmirsən? Dilbər, yoxsa...

Nəhayət, fikrimdəkiləri Müşfiqə açdım:

– Mən ali məktəbi qurtarmayınca ailə həyatı qurmaq fikrində deyiləm.

Sözüm Müşfiqə qəribə göründü.

– Nə üçün? Qorxursan ailə həyatımız sənin təhsilinə mane ola?

– Yox, - dedim, - mən anamın arzusunu yerinə yetirmək istəyirəm. Onun arzusu həmişə bu olub ki, mən ali təhsil alım, bir sənət sahibi olum. Sonra ailə qurum.

– Ananın bu arzusu müqəddəs arzudur. Belə bir arzuya əməl etmək hər bir övladın borcudur.

Müşfiq bu sözləri dedi və pəjmürdə görkəm aldı. Mən hiss elədim ki, onun xəyalı yenə də vəcdə gəldi. Onu ovundurmaq üçün dedim:

– Bilirsən, Müşfiq, anamın gənclikdə bəxti gətirməyib. O, həyatda nə qədər gözəl, göyçək, xeyirxah bir qadın olsa da, bəxti qara olub. Onu lap gənc yaşlarında bir qocaya ərə veriblər. Ömrü boyu zülm-zillət içində yaşayıb. İndi onun bir arzusu var, istəyir barı mən xoşbəxt olum.

Müşfiqin üzünə xəfif təbəssüm qondu.

– Deyirəm axı, sən də gözəllikdə yəqin anana oxşamısan. Onun da yəqin ki, saçları səninki kimi uzun olub, eləmi?

Mən bu atmacanı anlayıb gülümsündüm və dedim:

– Eh, sən saç görməmisən ki. Mənim saçlarım anamın saçının yanında nədir ki. Cavanlıqda anamın elə hörükləri var imiş ki, onu özü yuyub, darayıb hörə bilmirmiş. Bu işdə bibilərim ona kömək edərlərmiş. O, bibilərimə deyərmiş:

– Necə edim ki, saçım az və qısa olsun?

Bibilərim onun cavabında deyərmişlər.

– Get tez-tez başını çayda yu, qoy saçların çay kimi axıb getsin.

Müşfiq bu əhvalata ürəkdən gülüb dedi:

– Dilbər, nə sənin saçlarının çayda yuyulmasına razı olaram, nə də çay kimi axıb getməsinə. O ki qaldı sənin anana və onun arzusuna, sən onu əmin edə bilərsən ki, sən mütləq ali təhsil alacaqsan, sən həm özünün, həm də onun arzusunu yerinə yetirəcəksən. Mənim də anam yoxdu. Leyla anana elə baxarıq ki, çəkdiyi əzabları unudar.

– Həm evə baxmaq, həm oxumaq, həm də Müşfiq kimi oğlanın həyat yoldaşı olmaq məsuliyyəti mənə çətin olmazmı?

– Mən fiziki əməyi çox sevirəm. Sənə ev işlərində də kömək edərəm.

İşimizi rəsmiyyətə salmaq barədə sonrakı görüşlərimizdə də çox söhbətimiz oldu. Mən nədənsə tərəddüd edirdim. Elə bil ürəyimə nəsə dammışdı. Hissləri şəlalə təki coşğun, arzuları büllur qədər saf olan Müşfiqin təmiz, ülvi məhəbbətindən vəcdə gəlib həyəcanlansam da, gizli bir qorxu hissindən həmişə ürəyim əsirdi. Görünür, mən bu hissi büruzə verir və həddən artıq tərəddüd keçirirdim. Müşfiq isə hər görüşümüzdə məni təzə-təzə aşiqanə şerlərlə məst etməyə, ovsunlamağa çalışırdı. Lakin elə də olurdu ki, o tərəddüdlərimdən ümidsizliyə qapılır və hisslərini cilovlaya bilməyib mənə belə şerlərlə cavab qaytarırdı:

*Ey insan qılıqlı, mələk xülyalı,*
*Bu ceyran ədalı, tərlan sevdalı!*
*Hey çalışdım, anlamadım dilini,*
*Heç bilmədim şeytanmısan,*
*mələkmisən,*
*ya nəsən?!*





Nəhayət, elçilər nişan gətirmək üçün dilimdən razılıq aldılar.

Nişan gecəmiz 1932-ci ilin aprelində oldu. Dövrün görkəmli ədiblərindən Hüseyn Cavid həyat yoldaşı Müşgünaz xanımla, Abdulla Şaiq həyat yoldaşı Şahzadə xanımla, Əhməd Cavad həyat yoldaşı Şükriyyə xanımla, məşhur müğənni Bülbül də iştirak edirdilər. Xatirimdədir ki, Bülbül əmim İdrislə yaxın dost idi. Yadıma gəlir ki, əmim oğlu Sabutayın ad günü idi. Bülbül qəfəsdə bir neçə bülbül gətirmişdi. Sabutayın başını sığallaya-sığallaya deyirdi:

– Bax, Sabutay, həqiqi bülbül bunlardır. Mən isə yalançı bülbüləm.

Müğənninin bu sözlərinə hamı güldü. Bülbül şagirdi İsmayıl Eloğlu ilə, gənc şair və yazıçılardan Səməd Vurğun, Süleyman Rüstəm, Mir Cəlal, Hüseyn Mehdi həyat yoldaşı Fatma xanımla, Rəsul Rza həyat yoldaşı Nigar xanımla, Məmməd Rahim həyat yoldaşı Mələk xanımla nişana gəlmişdilər. Bülbüllə Eloğlunun şəlalə tək şaqraq və məlahətli səsi məclisə xüsusi gözəllik verirdi. Tez-tez sağlıq deyilirdi. Qədəhlər cingildəyir, şairlər növbə ilə şer oxuyurdular.

Hüseyn Cavidin bizim səadətimizin naminə dediyi sağlıq hələ də xatirimdən çıxmayıb. Onun xeyirxah, qayğıkeş bir ata məhəbbəti ilə dediyi səmimi sözlər indi də qulaqlarımda səslənir.

Nişan mərasimi musiqili ədəbi gecə kimi keçdi. Nişandan bir neçə gün sonra Müşfiq əlində bir dəstə gül və tort bizə gəldi. Əmim oğlu Sabutay, əmim qızı Nülufər Müşfiqi görən kimi məni quçaqlayıb qollarımdan bərk-bərk tutdular. Bu hal həssas Müşfiqin gözündən yayınmadı. O, uşaqları mehriban nəzərlərlə süzüb: «Bacınızı nə çox istəyirsiniz? Qorxmayın, onu heç hara aparmayacağam», - dedi. Cibindən konfet çıxarıb onlara payladı. Sabutayın ba-

şını sığallayıb soruşdu: «Adının mənasını bilirsənmi?» və cavab gözləmədən: «Məşhur bir igid olub. Əminəm ki, sən də igid bir oğlan olacaqsan», - dedi.



***Soldan: İlyas Əfəndiyev, Dilbər Axundzadə, Süleyman Rüstəm və Balaş Azəroğlu***

Müşfiqin səmimi rəftarı uşaqlara elə xoş gəldi ki, bizdən gedənəcən Sabutay onun qucağından yerə düşmədi. Uşağın ona belə tez isinişməsi Müşfiqin xoşuna gəldi, onun başını sığallaya-sığallaya bir şer dedi. Çox təəssüf ki, şerin ancaq bir bəndi xatirimdədir.

*Anasının noğulu,*
*Atasının gül oğlu,*
*Hər uşağa deyil tay,*
*Bizim igid Sabutay.*

Əmim arvadı Müşfiqə əlindən gələn hörməti əsirgəmədi. O, Müşfiqin işi-gücü barəsində hal-əhval tutdu,





təzə hansı əsərlər üzərində işlədiyini soruşdu. Müşfiq getmək istəyəndə əmim arvadı onun tez-tez gəlməsini xahiş etdi.

Növbəti görüşlərimizin birində Müşfiq məni bacısı Balacaxanımgilə apardı. Balacaxanım bizi qucaqlayıb öpdü: «Nə yaxşı ki, gəldiniz, - dedi, - sevincimdən ürəyim dağa döndü».



***M.Müşfiqin bacısı Balacaxanım***

Balacaxanım Mikayılın çox xoşladığı yarpaq dolması hazırladı. Yedik, içdik, çalıb-oxuduq.

– Mənim anam da ölüb, böyük bacım da. İndi onları əvəz edən təkcə Balacaxanımdır, - deyə Müşfiq tez-tez bacısının başına sığal çəkirdi.

Balacaxanımın evi çox şairanə bəzənmişdi. Parça və kağız üzərində çəkdiyi təbiət mənzərələri evin gözəlliyini daha da artırırdı. Ev təmiz, səliqəli, qızılgül bağçası kimi idi. Müşfiq bacısının səliqəsinə qürurla baxırdı. Bacı-qardaş o axşam öz uşaqlıq həyatlarını qısaca mənə nəql etdilər.

Mikayıl dedi:

– Dilbər, mənə ilk dəfə şeri sevməyi, ahənglə oxumağı bacım Balacaxanım öyrədib. Bacımda incəsənətə böyük həvəs var.

Sonra mən Balacaxanımdan Müşfiqin uşaqlıq və ilk gəncliyinə dair xatirələrini öyrəndim.



*Yenə o bağ olaydı...*

«Mikayıl 1908-ci ildə, təxminən iyun ayının 5-də, Bakının Dağlı məhəlləsində, 2-ci Sovet küçəsində (indiki N.Nərimanov prospekti–*red*), 6 nömrəli evdə anadan olmuşdur. Bakının yuxarı hissəsində yerləşən evimizin xudmani otaqları, meyvə ağacları və yaşıl bağçalı həyəti var idi. Atam Mirzə Əbdülqədir İsmayılzadə müəllimlik edirdi. «Vüsuqi» ləqəbilə şerlər, qəzəllər də yazardı. Atam 1869-cu ildə Xızı kəndində anadan olmuşdur. Babam Molla İsmayıl dövrünün tərəqqipərvər adamlarından biri olub, atama da təlim-tərbiyəni özü verib. Babam Molla İsmayıl Bakıdan, Qubadan, Şamaxıdan müxtəlif meyvə ağacları gətirib Sayad-Xızı kəndində Tıx çayı ətrafında gözəl bir bağ salıbmış. Atasının vəfatından sonra kənddə dolana bilməyən Mirzə Əbdülqədir Bakıya köçür, 1902-ci ildə Bakıda mədrəsədə təhsil alır. Mollaxananın gənclərə faydasız olduğunu görən atam şəhərin dağlıq hissəsində yarıköhnə, yarıyeni üsul ilə bir məktəb açır, gündüzlər gənclərə, axşamlar isə yaşlılara savad öyrədir. Cəfər Cabbarlı da ilk dəfə bu məktəbdə oxumuşdur. 1908-ci ildən isə Mirzə Əbdülqədir «Səadət» məktəbində müəllimlik etməyə başlayır və ömrünün axırına qədər orada ana dilindən dərs deyir. Atamın yazdığı bir çox şerlər o zamankı mətbuatda dərc olunmuşdur. Onun lirik planda yazılmış şerlərində azadlıq, vəfa, bahar tərənnüm edilir. O, Müslüm Maqo-





mayevin məşhur «Şah İsmayıl» operasının librettosunu, eyni zamanda «Seyfəlmülük», «Yusif-Züleyxa» operalarının da mətnini yazmışdır. (Həmin əlyazmalarının bəziləri Azərbaycan Elmlər Akademiyasının Əlyazmaları Fondunda saxlanılır). Atam çox xoşxasiyyət, xeyirxah, əliaçıq adam olub. Böyük ailə sahibi olduğuna baxmayaraq, kasıb tələbələrdən təhsil haqqı almazmış. O, eyni zamanda öz övladlarının tərbiyəsinə fikir verib, bizim hamımızı oxutdurmuşdur. Atam 1915-ci ildə 46 yaşında vəfat etmişdir. Bu münasibətlə «Dirilik» jurnalının həmin il 16 mart tarixli 13-cü nömrəsində atamın şəkli, qısa tərcümeyi-halı və redaksiyadan qeyd verilmişdir.

Anamız Züleyxa xanım isə xasiyyətcə səmimi, qoçaq və səliqəli evdar qadın olub. Mikayıl altıaylıq olanda anam öldü. Atam Mikayılı Xızıya gətirib süd anası Səfiyyə xalaya verdi. O vaxtlar Səfiyyə xalanın öz uşağı öldüyündən Mikayılı oğulluğa götürüb əziz balası kimi saxladı. Mikayıl uşaqlıqdan dinc, səmimi, mehriban olduğundan qohumları tərəfindən də sevildi. O, üç yaşında olanda atamız onu Bakıdakı evimizə gətirib, bacım Böyükxanım, mən, qardaşım Mirzə ilə birlikdə tərbiyə etməyə başladı. Mikayıl yeddi yaşına girəndə atam vəfat etdi. Nənəm Qızqayıt və dayım Cavad bizi himayələrinə götürdülər. Dayım arvadı Güllü xanımın uşağı olmadığından bizi öz balası kimi sevib tərbiyə etdi.

Nənəm Qızqayıtın sinəsi zərb-məsəllər, rəvayətlərlə dolu idi, hər axşam bizə nağıl danışardı. 1915-ci ildə nənəm Mikayılı Mehdi bəyin müdirlik etdiyi rus-tatar məktəbinə qoydu, burda dördüncü sinfi bitirəndən sonra Bədəl bəy Bədəlbəylinin məktəbinə girib yeddinci sinfi də oxuyub qurtardı.

Mikayıl həmin ildə Sabir kitabxanasına üzv yazıldı. Elə bu illərdə də o, şer yazmağa başladı. Həmişə məktəbdən uşaqlarla şer deyə-deyə gələrdi. Yoldaşları da onun

şerini nəğmə kimi oxuyardılar. Özündən şerlər qoşub maraqlı söhbətlər edən, dərslərini yaxşı oxuyub öz yoldaşlarına da kömək edən Müşfiqin xatirini müəllimləri, şagird yoldaşları çox istəyirdilər.

Bu vaxt Mikayıl gələcək həyatımız haqqında düşünür, təlaş keçirirdi. Müəllimlərin köməyi ilə Mikayıl Bakı darülmüəlliminə daxil oldu. Həmin illərdəki təəssüratını «Pedtexnikum» şerində belə təsvir etmişdir:

*Ömrüm səfalətlərin dərin çuxurlarında,*
*Ölgün vərəqlər kimi sürünən bir zamanda,*
*Dərs alıb bir çırpınan qartal qanadlı quşdan,*
*Çəkdin, çıxartdın məni yıxıldığım yoxuşdan.*

Yoxsul, yetim bir uşağın səadəti haqqında yazdığı bir parça da onun həyatı üçün səciyyəvidir:

*Məsud olaraq güldüm*
*Abad olan ölkəmdə.*
*Qəmlərdən, ələmlərdən*
*Azad olan ölkəmdə.*

Balaca Mikayıl fiziki əməyi çox sevirdi. Ev və həyət işlərində mənə, nənəmə kömək edərdi. Böyüklərə qulluq etməkdən xüsusi zövq alardı, məhəllə uşaqları ilə oynamaqdan da xoşu gələrdi. Bir gün başı oynamağa elə qarışmışdı ki, yemək də yaddan çıxmışdı. Birdən aclıq elə təsir edir ki, o, tələsik evə gəlir, yeməyə bir şey tapmır. Sobanın içinə bir neçə kartof qoyub bişməsini gözləyir. Bu vaxt qonşuları Asya xala onlara qonaq gəlir. Oturub dayısı arvadı ilə söhbət edir. Mikayıl sobadan kartofu çıxarıb yemək istəyəndə dayısı arvadı ona deyir ki, Mikayıl, Asya xalaya çay gətir. Evdəki pişik isə Mikayılın ayağını cırmaqlayıb miyoldayır, yemək istəyir. Mikayıl çayı süzə-süzə bədahətən bu vəziyyəti belə təsvir edir.





*Pişiyin iştahına bax,*
*Külləmədən pay istəyir.*
*Qarnım acınnan gedir,*
*Asya xala çay istəyir.*


Dilbər xanım

Evdəkilər balaca Mikayılın dediyi şerə ürəkdən gülüb sevinirdilər.

1927-28-ci dərs ilində Ali Pedaqoji İnstituta (indiki N.Tusi adına APU – *red.*) daxil olan Müşfiq 1931-ci ildə buranı bitirib müəllim və ədəbiyyatçı kimi həyata atıldı.

Müşfiq sonrakı görüşlərimizin birində məni dayısı Ağamehdigilə apardı. Onlar bizi yaxşı qarşıladılar, şərəfimizə qonaqlıq verdilər. Müşfiq pianino çaldı. Nizamidən, Füzulidən, Vaqifdən şerlər, qəzəllər oxudu. Mən onda bildim ki, Müşfiqin nə qədər məlahətli səsi və gözəl musiqi zövqü var imiş.

Növbəti görüşlərimizin birində biz yenə Pioner parkına – ilk görüş yerimizə gəldik. İlk görüş yeri... Qaynar gəncliyin həyəcanlı dəqiqələrini özündə cəmləşdirib insan xəyalını ülvi arzular dalınca qanadlandıran bu yer bizim üçün nə qədər əziz və doğma idi... Biz bir vaxt bura bir-birimizə nəsə deməyə, ümidimizi, taleyimizi sınamağa gəlmişdik.

İndi isə bu yerə sərbəst gəzib-dolanmağa, qəlbimizdə bir-birimiz üçün bəslədiyimiz səmimi sözləri deməyə, öz gələcək arzu və planlarımızdan danışmağa gəlmişdik.

Müşfiq ətrafdakı ağaclara, ilk görüş yerinə və mənə şairanə bir nəzər salıb dedi:

– Dilbər, bir vaxt burada necə həyəcanlar keçirdiyin yadımdadır. Düzünü de, indi ayağının birini qaçaq qoymamısan ki?

– Yox, Müşfiq, ürəyin istəyən qədər söhbət et. Daha nişanlıyıq, nədən çəkinirəm.

– Dilbər, sən öz adının mənasını bilirsənmi?

– Yox, -dedim.

– Dil – ürək, bər isə aparan deməkdir. İcazə ver sənin adının mənası ilə başlanan bir şerimi sənə oxuyum.

– Məmnuniyyətlə qulaq asaram – dedim.

*Könül oğurlayan bir adı vardır,*
*Mələk deyil, amma qanadı vardır.*
*Siyah qaşlarının kölgəliyində,*
*Daima çırpınır iki göyərçin.*
*Qonaraq könlümün budaqlarına,*
*Hər gün şer oxur onlar mənimçün.*
*İndi öz-özümə inanmışam mən,*
*Nə qədər bəxtiyar insanmışam mən!*
*Saçları andırır zərri suları,*
*Tökülüb axdıqca umuzlarına.*
*Oxşayır bədəni, bəyaz əndamı,*
*Kölgədə bəslənmiş qüzey qarına.*
*Amandır, əsməsin tufan yelləri,*
*Solar eşqimizin qönçə gülləri.*

Mən şer üçün Müşfiqə minnətdarlığımı bildirdim. Müşfiqin qoltuğunda bir kitab vardı, kimin əsəri olduğunu soruşdum.

– Aşıqlar şahı Aşıq Ələsgərindir, - dedi. – Sən onun şerlərini oxuyubsanmı?

– Bəli, - dedim.





Müşfiq Aşıq Ələsgər haqqında xeyli danışdı. O, Aşıq Ələsgərin xanlarla, bəylərlə arası olmadığını, onları öz şerlərində tənqid etdiyini və həmişə vəfanı, ilqarı, səmimiyyəti, həqiqəti, ədaləti tərənnüm etdiyini danışdı. – Buna görə də xalq onu çox sevir. El yaxşı deyib ki, Ələsgər ellər yaraşığıdır, o, haqdan doğulub, haqq aşığıdır!

Aşıq Ələsgər sözə, sənətə də yüksək qiymət vermişdir. O, hər bir sənətkarın öz sənətini ürəkdən sevməsini istəmişdir. Bu haqda öz şagirdinə belə deyir:

*Ürəkdən sevməsən sən bu sənəti,*
*Könülsüz sən ondan yapışma qəti.*
*Hər sözün mənası, öz ahəngi var,*
*Söz ilə dil açar bütün arzular.*

*Söz insan əqlinin düşüncəsidir.*
*Söz qəlbin pakizə bir qönçəsidir.*
*Aşıqda olmasa sözə məhəbbət,*
*Ona yad görünər bu gözəl sənət.*

– Müşfiq, mənim aşıqlara böyük hörmətim var. Hələ aşıqlardan biri mənə şer də yazıb.

Bu söz Müşfiqə elə toxundu ki, onu pərişan etdiyimdən peşman oldum.

– Necə, sənə şer də yazıblar? Bəs mən elə bilirdim ki, məndən başqa sənə heç kim şer yazmayıbdır?

Mən gülümsündüm:

– Şer, özü də necə şer!...

Müşfiqin qısqanclıqdan əzab çəkməyi aydınca göründü. Tutqun xəbər aldı:

– O hansı aşıqdır elə sənə şer yazıb? O şerdən heç yadında qalıbmı?

– Bəli, - dedim. – İstəyirsən deyim.

O, səbirsizliklə üzümə baxdı.

*Nə gözəlsən, nə qəşəngsən,*
*Göy göllərdə sona Dilbər!*
*Üzün gülür günəş kimi,*
*Hüsnün zərif cuna, Dilbər!*
*Qabaq ayna, tel pərişan,*
*Darayıb tək yana, Dilbər!*
*Özü gözəl, sözü gözəl,*
*Dili batıb bala Dilbər!*
*Gəl olaq biz bacı-qardaş,*
*Vətən olsun ana, Dilbər!*

Şer Müşfiqin xoşuna gəldi. Mən onun könlünü almaq üçün dedim.

– İstəyirsən bu şerin yazılma tarixini də danışım?

– Danış, - dedi.

Mən əhvalatı olduğu kimi danışdım: 1930-cu ildə Azərbaycan Lenin Kommunist Gənclər Təşkilatı Bakı darülmüəllimində oxuyan bir qrup komsomolçunu yay tətili zamanı dağlara – köçərilər arasında işləməyə göndərdi. Biz köçərilər arasında savadsızlığı ləğv etməli, hər cür köhnəliyə qarşı təbliğat aparmalı idik. Biz bir neçə yoldaşla Xaçbulaq yaylağına gəldik. Özümüzə çadır qurduq. Xaçbulaq yaylağının füsunkar təbiəti, gözəl havası, mehriban adamları bizim xoşumuza gəldi, böyük həvəslə işə başladıq. Hər gün yeni-yeni köçərilərlə tanış olur, onlarla fərdi təsərrüfatdan kollektiv təsərrüfata keçməyin mənfəəti və mədəni inqilab barədə söhbətlər edir, yazıb-oxumaq öyrədirdik.

Köçərilər hər səhər bizi yağa, qaymağa, günortalar toğlu və ya ov ətindən bişirilmiş bozartmaya, kababa, axşamlar qatığa, pendirə qonaq edirdilər.

Bir gün qarşıdakı dağların döşü ilə bizə sarı böyük bir atlı dəstəsinin gəldiyini gördük. Biz çörək yemək üçün





yenicə çadıra girmişdik ki, birdən hay-küy, çığır-bağır Xaçbulağı başına götürdü. İtlər hürüşdü, camaat bir-birinə qarışdı. Sən demə bayaq gördüyümüz qaçaq-quldur dəstəsi imiş. Onların kimisi atın belində ayaq üstə durur, kimisi atın böyründə xurcun kimi asılır, kimisi atın qarnının altına girib havaya güllə atır, kimisi də onun-bunun üstünə qışqırırdı. Biz qorxumuzdan çadıra dolmuşduq. İki atlı çadırın yanından ötəndə biri o birinə dedi: «Gör orda kim var». O biri cavabında «çadırda arvad-uşaqdan savayı kim olacaq» dedikdə qaçaqlar çadırdan aralandılar. Əgər onlar bizi görüb və bizim kim olduğumuzu bilsə idilər, bu səfər bizə baha başa gələcəkdi. Çünki onlar harada komsomolçu görsə idilər ona elə oradaca divan tuturdular. Onlar camaatın qızılını, gümüşünü, pulunu əllərindən alırdılar. Hökumət işçilərini, komsomolçuları incidirdilər. Sonra Xaçbulaqdan çıxdılar. Bu xəbər Gəncəyə çatan kimi tez oradan atlı dəstələri gəldi.

Onlar həmin qaçaq-quldur dəstələrinin izinə düşdülər. Bu vaxt Xaçbulaqda qolçomaq təhlükəli idi. Yerli əhalidən, kəndlilərdən mənim dayım Hacıyusifin tanışları var idi. Dayım varlı olması ilə bərabər çox səxavətli olub. Onun bu səxavətliliyi bizi və məni ölümdən qurtarıb. Xaçbulaqda yaşayan Xəlil dayı onun dostuydu. Deyirdi, «ay bala, sənin dayın mənə o qədər yaxşılıq edib ki, ölüncə yadımdan çıxarmaram. İndi sizin Xaçbulaqda qalmanız təhlükəlidir. Atışma yaxınlıqda gedir. Siz buradan çıxmalısınız». O, bizi Əmircan yaylağına aparıb kəndli paltarı geydirib qohumlarının evində saxladı.

Müşfiq məni maraqla dinləyib həyəcanlanır, rəngi qaçır, gözləri yaşarırdı. Birdən həyəcanlı bir səslə: «Dilbər, çox qorxdun?» - deyə soruşdu. «Atışma vaxtı qorxdum. Hamımız həyəcan keçirirdik» - dedim.

– Bəs sonra nə oldu?

– Bir neçə gün ağır vuruşmadan sonra onların hamısını məhv etdilər. Atlarını da alıb bizə verdilər ki, başqa yaylaqlara gedəndə minib gedək... Gəncədə bizim evdə yas qurulmuşdu. Atam-anam vahimədən yorğan-döşəyə düşmüşdülər. Gəncəyə belə bir şayiə yayılmışdı ki, guya qaçaqlar bizim bəzilərimizin ayaqlarını kəsiblər. Bəzilərimizi də öldürüblər. Biz tez bir kağız yazıb evimizə məlumat verdik. Yenə də işimizə davam etdik. Bir gün bizi Mingəçevir dağına toya dəvət etdilər. Biz dərs dediyimiz qadınlarla həmin toya getməli idik. Yol uzaq olduğu üçün piyada, yaxud araba ilə getmək gec olardı. Buna görə də biz atla getməli idik. Mən ömrümdə at minməmişdim. Mənə atı necə minməyi və saxlamağı öyrətdilər. Mən atı minən kimi at yerindən qopub yel kimi dağlara sarı üz qoydu. Cilovunu nə qədər dartdımsa dayanmadı ki, dayanmadı. Atın meşəyə çatmasına bir neçə kilometr qalırdı. Var qüvvəmlə atın cilovundan, yəhərindən yapışdım. Mənə elə gəlirdi ki, at meşəyə çatan kimi məni ağacadaşa vurub öldürəcək. Özümü atmağa da ürəyim gəlmirdi. Hava buludlu idi. Birdən göy guruldadı, şimşək çaxdı və dolu yağmağa başladı. At bunu görən kimi dayandı. Arxamca gələnlər mənə çatıb qışqırdılar:

«Tez düş, özünü atın döşünün altına ver!» - dedilər. Mən sonra bildim ki, bu at qaçaq-quldurların başçısı Həmidin atıymış. O, atı elə öyrədibmiş ki, sahibi dara düşəndə onu götürüb yel kimi aradan çıxsın, yağış yağanda at dayanarmış ki, sahibi onun döşünün altına qısılıb islanmasın. Biz meşəyə girib dolunun kəsməsini gözlədik. Sonra mənə başqa at verdilər. Yolumuza davam etdik. Dağ döşündəki kəndə çatanda zurnanın və nağaranın səsi dağları götürmüşdü. Toy düz bir həftə davam elədi. Bu toya aşıq Şirin də dəvət olunmuşdu. Həmin şeri də aşıq Şirin toyda mənə qoşub.





Başımız söhbətə o qədər qarışmışdı ki, durub gələndə gördük ki, bağban qapını bağlayıb. O vaxt Pionerlər bağı indiki kimi deyildi. Yanları dəmir hasarlı idi. Özü də «Qubernat bağı» adlanırdı. Müşfiq qapını açdırmaq üçün axtarıb bağbanı tapdı. Bağban qoca və ciddi bir kişi idi. Müşfiq nə qədər elədisə qapını açmadı ki, açmadı. Müşfiq dedi:

– Əmi, bu qıza soyuq olar. Əyni də nazikdir.

– Neyləyim?! Ona deyən var idi bu vaxtacan oturub söhbət eləsin?!

Müşfiq dedi:

*Sənsiz könlüm ağlar mənim,*
*Göz yaşlarım çağlar mənim.*
*Fərhad olsam – dağlar mənim,*
*Məcnun olsam – çöl mənimdir.*

(Bu bəndi Müşfiq sonralar özünün «Sındırılan saz» poemasına saldı).

Bağban qapını yenə də açmadı. Müşfiq başladı şerlər deyib bağbanı tərifləməyə. Axırda dedi ki, «ay əmi, xahiş edirəm qapını aç, bu qız axı naxoşlar?!» Bağban yenə insafa gəlmədi. Bu dəfə Müşfiq dedi:

– Ay əmi, sən bağın qapısını açmasan, mən ürəyimin qapılarını açıb onu orada gizlədərəm. Onsuz da bu qız həmişə mənim ürəyimdədir. Mənimlədir.

Bağban dedi:

– O sizin öz işinizdir.

Müşfiq gördü ki, bağban öz qərarından dönmür, başladı yenə aşiqanə şerlər deməyə:

*Çiçəklər aşiqi bir bülbül kimi,*
*Gözüm bir bağçanın gülünə düşdü.*
*Qəhrini çəkdiyim gülün surəti*
*Sakit xəyalımın könlünə düşdü.*

*Orda-burda keçdi gənclik həyatım,*
*Hər yerdən kəsildi rahi-nicatım.*
*Gör nə xoşbəxtəm ki, axırda adım*
*Hər körpə uşağın dilinə düşdü.*

Bağban Müşfiqi diqqətlə dinlədikdən sonra: - Sən kimsən? – deyə soruşdu.

Müşfiq:

– Mən müəllimam, - dedi.

– Yox, sən müəllimə oxşamırsan.

– Mən şairəm, adım da Müşfiqdir.

Bağban:

– Yox, sən şair də deyilsən, - dedi.

Müşfiq təəccübləndi:

– Bəs onda mən nəyəm?

Bağban gülümsədi:

– Sən aşiqsən, bircə sazın yoxdur. Bir saz da al, düş Kərəm kimi dağlara, daha mənim bağımda nə işin var?

Müşfiq dedi:

– Düz tapmısan, əmican. Mən aşiqəm. İndi qapını aç, aşiq öz məşuqu ilə çıxıb getsin!

Bağban mehriban bir səslə:

– Mənim bağım da, canım da sizə qurban olsun, balalarım! – dedi. – Özüm qəsdən səni danışdırırdım. Mən heç şair görməmişəm. İndi gördüm. Könlün nə vaxt istəyir, bu bağa gələ bilərsən, - deyib Müşfiqin boynunu qucaqladı, alnından öpdü.

Sonrakı görüşlərimizin birində Müşfiq mənə təzə yazdığı «Maral» şerini oxudu. Bu şerin yaranma tarixi də bizim görüşlərimizlə əlaqədardır. Bir dəfə mən Müşfiqdən nə üstdə isə inciyib vaxtsız ayrılmış və Dağüstü parkın sərt yoxuşlarını tək enərkən yıxılmışdım.

*Dolaşma sıldırım sal qayalıqda,*
*Daşlar ayağını əzər, maralım!*





*Gəl səni bəsləyim gözümün üstə,*
*Etmə aşiqindən həzər, maralım! –*

bəndi ilə başlanan şer də həmin görüşdən yadigardır.



**Dilbər xanım**

O, çağlar ilham sahibi idi, aşiqanə şerlərinin çoxusunu ilk dəfə mənə əzbər oxuyurdu, mən biləni o, bunları elə oradaca qoşurdu.

Mən seminariyada qabaqca komsomol təşkilatında texniki katib, sonra isə məsul katib işlədim. Komsomol təşkilatı hər işdə müdiriyyətə kömək edirdi. Gündəlik məsələlərin həyata keçməsi üçün var qüvvələri ilə çalışırdılar. O vaxt bizim pedaqoji texnikuma Bakıdan Qüdrət adlı bir qız gəldi. O bizim yataqxanada qalmırdı. O illər bir çox köhnəlmiş adət-ənənələrə qarşı kəskin mübarizə gedirdi. Xüsusilə gənclər yenilik uğrunda fəal mübarizə aparırdılar. O dövrdə qadınlar, xüsusi ilə qızlar köhnəliyin qalığı olan çadranı başlarından atır, yeni dəbdə geyinib, mühitin tələblərinə uyğunlaşırdılar. Ancaq elə ailələr də var idi ki, bu işdə gənclərə mane olurdular. Bizimlə oxuyan Qüdrət adlı həmin qız əvvəllər hər gün dərsə gələndə küçədə başına çadra örtərdi. Texnikumun həyətinə girəndə isə çadranı başından atardı. Onun atasının qorxusundan belə etdiyini bildiyimiz üçün xətrinə dəyməzdik. Həm də ehtiyat edirdik ki, xətrinə dəysək məktəbi atıb gedər. Ancaq yeri düşdükcə çadranın zərəri barədə ona eyham vu-

rurduq. Bir xeyli keçəndən sonra mən Qüdrətlə yaxın dost olmuşdum. Ona dərslərində də müəyyən köməklik göstərirdik. O, çox mehriban idi. Bir gün o, bu günlərdən xatirə qalsın deyə, bir yerdə şəkil çəkdirməyimizi xahiş etdi. Biz fotoqrafa gedib tələbə formasında şəkil çəkdirdik. Qüdrətin çadrası da yanında idi. Mən ona dedim: - Gəlsənə sənin çadranda mən də şəkil çəkdirim:

Qüdrət dedi: - Nə olar, çəkdir.

Bu kitabda gördüyünüz mənim çadralı şəklim həmin günlərin bir nişanıdır.

Müşfiqin «Çadralı qızlarımıza» şerindən bir parça:

*Təbiidir ki, ay qız, yaz ayları gəlincə,*
*Yarpaqlanıb pərdədə qalmaz örtülü qönçə.*
*Rəvamıdır yurdumun səhərində*
*Dalğalansın bir bahar buludu gözlərində.*

Bizim yataqxanamız da pedaqoji texnikumun həyətində idi. Biz şəhərə ancaq vacib işlərimiz olanda gedirdik. İstədiyimiz vaxt Müşfiqlə görüşə bilmirdik. Bu da qaynar təbiətli Müşfiqin iztirabına səbəb olurdu. O mənə məktubla şerlər yazıb göndərirdi. Yadımda bunlar qalıb:

*Sarı bülbül, o yerlərdən ötüşsən,*
*Cəh-cəh vurub nigarıma yetişsən,*
*Məndən salam söylə gözəl yarıma,*
*Mən dəmirçi ocağıyam bəyəm ki,*
*Üst-üstündən atəş vurur canıma?*

*Mən sevda yolunun bir yolçusuyam,*
*Bu yollar bir dərə, mən axar suyam.*
*Çünki axar sular geriyə dönməz,*
*Sevgi bir günəşdir, könlümdə sönməz.*





Bir neçə gündən sonra mən Müşfiqlə görüşəndə dedim:

– Müşfiq, mən səndən incimişəm. Bax, o qarlı-boranlı günlərdə gəlib məni gözləyirsən, axı bizi istədiyimiz vaxtda bayıra buraxmırlar. Sən xəstələnə bilərsən. Bir də belə etsən, mən səndən küsəcəyəm. Müşfiq odlu baxışları ilə üzümə baxıb dedi:

*Mən şirin ləhcəli bir bülbüləm ki,*
*Güllərdən küsərəm, səndən küsmərəm.*
*Məni öz canından artıq istəyən*
*Ellərdən küsərəm, səndən küsmərəm.*

*Gözlərin misaldır axan çaylardan,*
*Kirpiyin oxlardan, qaşın yaylardan.*
*Qarşımıza gələn uzun aylardan,*
*İllərdən küsərəm, səndən küsmərəm.*

*El içində bizə derlər Sayadlı!*
*Tərlan ovçusuyam, ruhum qanadlı.*
*İlham pərisinin açdığı dadlı*
*Dillərdən küsərəm, səndən küsmərəm.*

Müşfiqin «Küsmərəm» şerinin dörd misrası mənim yadımdan çıxmışdı. M.F.Axundov kitabxanasının direktoru, Müşfiqin yaxın dostu Qəhrəman Süleymanzadə o misraları mənə təqdim etdi. Həmin misralar bunlardır:

*Gözlərin misaldır axan çaylardan,*
*Kirpiyin oxlardan, qaşın yaylardan.*
*Qarşımıza gələn uzun aylardan,*
*İllərdən küsərəm, səndən küsmərəm.*

(Bunun üçün Qəhrəman müəllimə təşəkkürümü bildirirəm).

Bahar fəsli idi. Müşfiq mənimlə görüşüb dedi:

– Dilbər, gəl Dağüstü parka baharın seyrinə çıxaq. Mən ağacların çiçəklənməsini çox sevirəm. Baxmaqdan doymuram.

Bərabər Dağüstü parka çıxdıq. Biz yaşıl ağacların arası ilə gəzə-gəzə gedirdik. Nəhayət, çox ağaclı yerdə dayanıb, onların çiçəklərinə doyunca baxdıq. Müşfiqin şair ürəyi vəcdə gəlirdi. Hər mənzərəyə sonsuz məftunluqla baxıb deyirdi:

– Dilbər, görürsənmi, bahar fəsli necə səxavətli və qayğıkeşdir. O öz tükənməz sərvətini hər il insanlara bəxş edir. Ana kimi onların qeydinə qalır. Bundan sonra kimin nə dərdi var. Hər ağacın başı dolu süfrə, altı isə bir evdir. Kaş bütün insanlar da bahar kimi səxavətli və qayğıkeş olaydı.

Mən dedim: - Görəsən biz baharı bir də bir yerdə görəcəyikmi? – Müşfiq gülümsündü, mən sözümə davam etdim: - Nə ola bu günləri tutub saxlaya biləydik.

Müşfiq dərindən köks ötürdü: - Axar suları saxlamaq mümkünsə bu günləri də saxlamaq olar. Bu günlər ötüb gedəcək, ancaq hərə bu dünyada özündən sonra bir iz qoyub gedəcək. O izlər içərisində bizim də izimiz olsa, deməli, biz də o günlərə qoşulacağıq. Bu günlərdə yaşayacağıq. Sonra o mənə mehriban bir nəzər salıb davam etdi.

– Dilbər, bil ki, nə qədər bir yerdə oluruq, sən bunun üçün çox sağ ol. Ancaq səndən ayrılanda elə bilirəm ki, heç biz bir yerdə olmamışıq. Yenə də ürəyim sənin üçün darıxır. Özümə qarşı hardansa, kimdənsə bir soyuqluq hiss edirəm. Hətta bu barədə bir şer də yazmışam.

O, uzun bir şer oxudu. Həmin şerdən aşağıdakı sətirlər yadımda qalıb.

*Köksümdə atəşim, alovum çoxdur,*
*Məgər eşq odundan xəbərin yoxdur?!*





*Bayır kimi, içərin də soyuqdur,*
*Üşüyərsən, gir qoynuma, nişanlım.*

Darülmüəllimi bitirdim. Məni Gəncəyə müəllim təyin etdilər. Getməmişdən əvvəl bir axşam Müşfiq bulvara çıxmağımızı xahiş etdi. Birlikdə Xəzərin sahilinə gəldik. Xəzər ləpəsiz, sakit idi, sinəsi parlaq gecənin ulduzlarından, sahildə yanan işıqlardan çiçəkli bir çəmənə çevrilmişdi. Müşfiq dənizi sonsuz məftunluqla süzürdü. İndicə onun nə isə deyəcəyini bilirdim. Zənnim düz çıxdı. Müşfiq həzin səslə bu füsunkar Bakı gecəsinə şer deməyə başladı.

*Bu gecə, nə qədər xoş gecədir,*
*Bir qara qız kimi tellicədir.*
*Yer işıq, göy işıq ,*
*Hər tərəf yaraşıq.*

*... Nəşələr sığmayır aləmdə,*
*O yanda bir gülüş, bu yanda bir nəğmə.*
*Hər xəyal bir canlı qanaddır,*
*Bunların cümləsi həyatdır!...*

Biz sahilə lap yaxın bir skamyada oturduq. Müşfiqin baxışları üfüqlə dənizin qovuşduğu yerə zillənib qaldı. Mən onun dalğın və pərişan olduğunu hiss elədim.

– Sənə nə oldu? Niyə belə tutqunsan?

Müşfiq mənə baxmadan:

– Heç elə-belə, -dedi.

– Yox, xahiş edirəm düzünü deyəsən.

– Sənin Gəncəyə getməyin yadıma düşdü. Heç bilmirəm bu ayrılığa necə dözəcəyəm. Bir gün səni görməyəndə dura bilmirəm. Birdən bu bir günün aylara dönəcəyini düşünəndə başımdan alov qalxır. Heç belə də iş olar? Gözün görə-görə sevgilin yanından çıxıb gedə, sən də yana-yana qalasan?!

Sonra Müşfiq kövrək baxışlarını mənim üzümdə saxlayıb bu məşhur şerini əzbər dedi:

*Mən ki, bilməz idim nədir məhəbbət,*
*Bu sirri sən mənə anlatmadınmı?!*
*Dünyaya sığmayan şair könlümü,*
*Köksümdən çıxarıb oynatmadınmı?!*

– Ürəyini sıxma, - dedim, - istəyirsən, sən də gedək.

Müşfiq dedi:

– Məmnuniyyətlə gedərdim. Ancaq, Dilbər, ədəbi mühit Bakıda daha qaynardır. Nəşriyyatların çoxu Bakıdadır. Hələlik mən burda qalmalıyam. Sonra lap bəlkə də bir kənddə yaşadıq. Görünür, müvəqqəti ayrılığa dözmək lazımdır.

Mən söhbətin məzmununu dəyişdirmək üçün Müşfiqə sual verdim, dedim:

– Şairlər sevgi, məhəbbətin saflığından, ülviliyindən, əbədiliyindən bu qədər yazırlar, məni bir şey maraqlandırır. Bu sevgi, məhəbbət insan ürəyində həmişə yaşayırmı?

Müşfiq gülümsündü və dedi: - Əlbəttə, əgər həqiqi məhəbbət olmasaydı «Leyli və Məcnun», «Əsli və Kərəm», «Aşıq Qərib», «Romeo və Cülyetta» kimi əsərlər, dastanlar yaranmazdı. – Sonra əlavə etdi: - Dilbər, məni düşündürən bir məsələ var. – Dialektik qanuna görə hər şey dəyişir. Mən bu qanunun hər şeyə tətbiqinə razıyam. Ancaq sevgiyə yox. Mən istərəm ki, bizim ilk məhəbbətimiz dəyişib sönməsin. Elə oradaca «Əbədi sevgi» şerini dedi:

*Həyatın içində bu qoca dünya*
*Darğın sular kimi coşub çalxanır.*
*Bir halda durmayır gördüyün əşya,*
*Zaman bir dəryadır, axıb dolanır.*
*Bəzən durulursa, bəzən bulanır.*





*Düşündüyüm zaman mən bu hikməti,*
*Bəyənməz oluram bəlkə xilqəti.*
*Deyirəm: kainat qoy belə olsun,*
*Ancaq mənim sevgim bir halda dursun,*
*Sönməsin könlümün ilk məhəbbəti!*

Sonra Müşfiq Puşkindən misal çəkib dedi ki, insan sevdiyi adamla həyat qurur. Sonra onlar bir-birinə öyrəşib isinişirlər. Ailənin uşağı olur və o sevgililəri zəncir kimi bir-birinə bağlayıb, onların məhəbbətini əbədiləşdirir.

Müşfiq bu haqda çox danışdı. Ancaq mən onların hamısını xatırlaya bilmirəm. Sonra mən bu haqda Müşfiqin öz fikrini soruşdum: O dedi: - Məhəbbət təkcə oğlanla qızın sevgisindən ibarət deyildir. Məhəbbətin də bir çox çeşidləri vardır. Bunlardan ən başlıcası məsələn, Vətənə, anaya, ataya, övlada, müəllimə və sairə olan məhəbbətdir. Məhəbbət olan yerdə hörmət və səmimiyyət də olur. Hörmət və səmimiyyət olan bir kollektivdə lap dağı-dağ üstdə qoymaq olar. Sən bunu özün işləyəndə görəcəksən. Çalış ki, həmişə düşdüyün kollektivin hörmət və səmimiyyətini qazanasan. Atalar yaxşı deyiblər ki, hörmət və məhəbbət olmayan yerdə xeyir-bərəkət olmaz. Bütün xeyirxah işlərin başlanğıcı hörmət və məhəbbətdən yaranır. Ona görə də sən həmişə insanlara olan məhəbbətini sönməyə qoyma. O bir günəş kimi həmişə sənin qəlbində yansa, onun şəfəqləri maqnit kimi ətrafdakıları özünə çəkəcək. Hamını sənə tanış, dost edəcəkdir.

Təzə işə başladığım üçün sanki Müşfiq mənə öyüdnəsihət verirdi. Mən onun hər sözünü dinləyib gələcək işim haqqında düşünürdüm.

Biz söhbət edə-edə sahildən evə döndük. Bir neçə gündən sonra Müşfiq məni Şaumyan rayonundakı (İndiki Xətai rayonu – *red.*) kluba kinoya apardı. Lermontovun

«Zəmanəmizin qəhrəmanı» əsəri əsasında çəkilmiş «Bela» kinosu bizim çox xoşumuza gəldi. Biz kinodan çıxanda Müşfiqin nə qədər kövrəldiyini gördüm. O mənə pərişan bir nəzər salıb, ürək yanğısı ilə acı-acı dedi:

– Gör, həyatda necə daşqəlbli, iyrənc adamlar olub ki, belə sənətkarlara böhtan atıb, onun həyatına qıyıblar. Lermontov kimi sənətkarı tarix çox nadir halda yetirir. Şair Nəsimi keçmiş şairləri iki qismə bölüb. Birinci sənətin hesabına varlanan, kökələn şairlər. Beləleri saray şairləri, yaltaq şairlər, yalnız öz şəxsi mənafeyini güdənlər olub. İkincisi, isə həqiqətən yazan, həyatını xalqa bağlayan, xalq səadəti uğrunda çarpışan şairlər. Lermontov belə sənətkarlardan olub.

Mən dedim: - Mən Lermontovu o qədər sevirəm ki, onun şəklinə saatlarla baxıram. Doğrudan da el yaxşı deyib, göz ürəyin aynasıdır. Onun şəklinə diqqətlə nəzər salanda onun gözlərində həyata dərin məhəbbəti olan mübariz bir şairin təbiəti duyulur.

Müşfiq dedi:

– Məgər Lermontov kimi şairi sevməmək olar? Onu dərindən öyrənmək üçün əsərlərini diqqətlə oxumaq lazımdır.

Bir neçə gündən sonra mən Gəncəyə getməli idim. Yol tədarükü görməyə başladım. Biz Gəncəyə gələndə Müşfiq dahi şairimiz Nizamini xatırladı.

– Deyirəm görəsən dünyada Gəncə kimi ikinci xoşbəxt yer varmı? Dünyaya Nizami kimi dühа verən bir torpaq nəyə qadir deyildir. Mən bu yeri görəndə qoluma elə güc, qəlbimə elə həvəs gəlir ki, az qalıram qanadlanıb uçam. Mənə elə gəlir ki, Nizami yurdu Nizaminin özü kimi misilsiz güc-qüvvət, hünər, hikmət, sənət mənbəyidir. Buna görə də elə bilirəm ki, bu torpağın hər daşı, hər qarışı mənim ürəyimin bir parçasıdır.





Müşfiqin və mənim gəldiyimi eşidən qohumlar, tanışlar bizim şərəfimizə böyük qonaqlıq düzəltdilər. Müşfiq hələ süfrəyə oturmamış soruşdular ki, haralıdı. Müşfiq cavab verdi:

*Müşfiqin ürəyi yarpaqdan incə,*
*Titrəyər bir xəfif rüzgar əsincə.*
*Məşuqun ayağı haraya dəysə*
*Orası aşiqə vətən kimidir.*

Müşfiq mənə danışardı ki, o mənimlə tanış olmamışdan qabaq günlərini Gəncə dağlarının füsunkar qoynunda keçirmiş, mənəvi ilham almış, bir çox gəncəli ürək dostları olmuşdur. Əli Qəmərli, Məmməd Məmmədov, Əhməd müəllim, Oruc Qoşqarlı və başqaları. Müşfiq Gəncədə olanda «Göygöl», «Bulaq başında» və bir çox başqa şer və poemalarını yaratmışdır.

«Yeddi aşıq»dan bir parça:

*Hərb olursa, külək kimi,*
*Qalxar bizim qəhrəmanlar!*
*Qaranlıqda şimşək kimi*
*Çaxar bizim qəhrəmanlar!*

Müşfiq Gəncəyə gələndə vurğunu olduğu Gəncə dağlarını gəzmək, dağların qoynundan axan «Turş su» bulağını görmək, suyundan içmək arzusuna düşdü. Gəncəli dostları ilə danışıb vaxt təyin etdilər ki, «Turş su» bulağına getsinlər. Mənim məktəbdə vacib işim olduğundan Müşfiqgillə gedə bilmədim. Müşfiq gedib dağları gəzib qayıtdıqdan sonra ətirli güllərdən mənə böyük bir dəstə bağlayıb gətirmişdi. Müşfiq mənə dedi: - Təəssüf ki, bizimlə getmədin. Heç bilsən dağlarda nə aləm vardı. Durna -

gözlü bulaqlardan su içdim. «Turş su» bulağının suyu məni lap heyran etdi. Elə bil insana şəfa verib ömrünü uzadırdı. Bax, bu qabda sənin üçün də gətirmişəm. Arıların çiçəklərdən necə bal üçün şirə yığdıqlarını da gözlərimlə gördüm. Dilbər, ancaq «Turş su»yun yolu çox uzaq, həm də kələ-kötür idi. Getsən yorulardın. Sarı yola qalxan cığırla gedirdik. Meşədə cığırların birləşdiyi yerdə kiçik bir astanada iki fıstıq ağacı bitmişdi. Onların hər ikisi bir boyda idi. Həmin ağacların dibində oturub dincəldik. Çiçəklərin xoş ətri, quşların nəğməsi, dağların təmiz havası məni valeh edirdi. Xəyalım quş kimi qanadlanıb dağlardan-dağlara uçmaq istəyirdi. Səni yanımda hiss etdim. Mənə elə gəldi ki, o iki ağacın biri sən, biri də mənəm. Birinci ağacın görkəmli yerinə «M.M.+D.A.», ikinci ağacın görkəmli yerinə isə «D.A.+M.M.» hərflərini həkk etdim. Qoy bizim qarşılıqlı məhəbbətimiz dağların qoynunda əbədi yaşasın, dedim. Yoldaşlarım məndən soruşdular ki, Müşfiq o hərflər nədir ora yazdın? Mən dedim: - Bu iki ağacın birisi mənəm, o birisi Dilbərdir. Bu iki ağac birlikdə gözəldir. Nə mən Dilbərsiz olum, nə Dilbər mənsiz olsun. Yoldaşlarım gülümsəyib dedilər ki, sizin bu arzunuz, məhəbbətiniz həmişə bu dağların çiçəkləri kimi ətir saçıb solmasın, əbədi olsun. Sonra əlavə etdilər ki, indi biz də bu ağacların adını məhəbbət ağacı qoyduq.

Müşfiq bu sözləri deyəndə xəyal məni quş kimi qanadlandırıb o dağlara apardı, həmin ağaclara baxmaq arzusu oyatdı. Mən Müşfiqin həssaslığına təəccübləndim. Doğrudan da şair qəlbi qeyri-adi qəlb imiş, dedim. Ona olan məhəbbətim daha da dərinləşdi: - Müşfiq məni də apararsan – dedim.

Bir neçə gündən sonra Müşfiq, qohumlarımız «Turş su»ya gəzməyə getdik. Müşfiqin dediklərini gözümüzlə gördük.





Hamımıza qəribə gələn bu şair hissləri könlümüzdə qeyri-adi hadisə kimi şirin xatirə doğurdu. Həmin səfərə Müşfiqin yaxın dostu, mənim həmyerlim Oruc Qoşqarlı da getmişdi. O bu haqda «Məhəbbət ağacı» adlı maraqlı hekayə də yazmışdır. Həmin hekayənin bir yerində deyilir: - Mən Müşfiqə dedim:

– Yazdığınız hərflərin üzü Gəncəyə tərəfdir. – Bəli, Gəncə tərəfədir. Gəncə mənim səcdə etdiyim yerdir. Mən ona məftunam. Mən ona bağlıyam. Gəncə Nizami deməkdir. Gəncə Məhsəti deməkdir. Gəncə məhəbbət və gənclik deməkdir. Fəxrimdir, ürəyimdir! Ürəyimin bir parçası buradadır.

O, köklənmiş kamanı xatırladırdı. Bir siminə toxunsa idin, min fəğan qopardı.

Müşfiqdən sonra mən bu yerlərə uzun müddət ayaq basmadım. Onun vurğunu olduğu füsunkar mənzərələrin qoynuna o vaxt gəldim ki, artıq Müşfiq şeri bütün Azərbaycan torpağını qarış-qarış gəzib dolanır, qədirbilən xalqımızın ürəyini vəcdə gətirirdi. Bir neçə il bundan əvvəl xatirələr məni çəkib yenə də o yerlərə apardı. Xəyalən də olsa Müşfiqli günlərimə qayıtmaq istədim.

Təbiətin füsunkar mənzərələri elə bil heç dəyişməmişdi. Kəpəz öz əzəmətli vüqarı ilə məğrurluq və qüdrət şəfəqləri saçırdı. Göygöl yenə də o illərdə olduğu təki mavi sona kimi xumarlanırdı. Ağsu çayı da əvvəlki ehtiyatında idi. «Turş su» bulağına gedəndə yolda məhəbbət ağaclarını gördüm. Hər şey dəyişdiyi kimi, ağaclar da dəyişmişdi. Hərflər güclə seçilirdi. Birinci ağacı görəndə Müşfiqin səsi qulağıma gəldi. – «Dilbər, ilk məhəbbətimizi dağların qoynunda bu ağaclara tapşırmışam, o sönməyəcək, əbədi yaşayacaq». Müşfiqi də yanımda hiss etdim. Xəyala daldım. Yarpaqlar pıçıldaşdı, yarpaqlar titrəşdi, onları danışdıran meh sanki, bizim ilk məhəbbətimizi göyə aparıb, günəşə, ulduzlara, aya tapşırırdı.

*Məhəbbətin elimdə,*
*Müşfiq, adın dilimdə.*
*Söhbət açırdı səndən*
*Gülüm də, bülbülüm də.*

*Xəyala daldı dağlar,*
*Pıçıldaşdı yarpaqlar.*
*Həsrətinlə dil açdı,*
*Nəğmə dedi bulaqlar.*

*Sən baharın özü idin,*
*Söhbətiydin, sözü idin.*
*Şehli çəmən üstündə*
*Şeydayi bülbül idin.*

*Oxşayardın gülləri,*
*Vurğunuydun ellərin.*
*Dilbəri məcnun etdi*
*Şirin-şirin dillərin.*

Müşfiqin gəlişindən balaca qardaşım İsmayıl sevinir, onun yanından əl çəkmək istəmirdi. Mehriban Müşfiq hara getsə İsmayılı özü ilə aparır, onu öz övladı kimi sevirdi. Mənə deyərdi ki, İsmayıla yaxşı bax, gələcəkdə sənə arxa olacaq. Müşfiq onunla uzun zaman əylənər, maraqlı uşaq kitabları alıb oxuyardı. İsmayılla mənim mehriban ünsiyyətim Müşfiqi çox sevindirirdi. Mən İsmayılı çox sevirdim. Bir tikəni ondan ayrı yeməz, hara getsəm onu özümlə aparardım. Həmişə düşünürdüm ki, mən Bakıya gedəndən sonra balaca İsmayılın halı necə olacaq? Mən onu «balaca atam» deyə çağırardım. Axı atam ölüm məqamında onu mənə tapşırmışdı. O vaxt o altı yaşında idi. Bir gün Müşfiq İsmayılı yanına çağırıb dedi:





– Düzünü de, sən Dilbər bacını çoxmu sevirsən? Əgər narazılığın varsa mənə de.

İsmayıl bir mənə, bir də Mikayıla baxıb dedi:

– İndi ki, xəbər alırsınız deyim. Mən iti, pişiyi çox sevirəm. Məstan evdə siçan olmağa qoymur, it isə evimizin qarovulçusudur. Bunların üstündə bacımın mənə hərdən acığı tutur.

Müşfiq gülümsəyərək üzümə baxdı: - Dilbər, doğrudan da belədir?

Mən dedim: - Müşfiq, İsmayıl Ceki özünə müdafiəçi gətirib. Mən İsmayılın bir nöqsanı olanda dalaşıram. Bu vaxt Cek mənim üstümə hürür. Az qalır məni tutsun. Mən də əsəbiləşib deyirəm ki, İsmayıl, iti burdan rədd elə. Yaxud bir adama hürəndə gəlib İsmayılın yanında durub quyruğunu bulayır. Belə məsələlər üstündə mübahisəmiz olur.

Müşfiq dedi: - İsmayıl bundan sonra iti bağlı saxlayar, gecələr açar, sən də onun işlərinə qarışma. Evin kişisidir. O, hər şeyi dərindən mühakimə edən oğlandır. İsmayıl, xahiş edirəm ürəyindən keçənləri həmişə mənə de. Onda mən səni daha çox sevərəm.

Müşfiq bir müddət qaldıqdan sonra onu böyük təntənə ilə Bakıya yola saldıq. Qatar gedirdi. Müşfiqin ürəyi isə getmirdi, Gəncədə mənimlə idi.

Nəhayət, gözlənilən gün – sentyabrın 1-i gəlib çatdı. Məni 5 nömrəli komsomol məktəbinə təyin etdilər. Mənə iki birinci sinfi verdilər. Mən atamın evində idim, balaca qardaşım İsmayıl analığımla olurdu. Tez-tez anam Leylanın da yanına gedirdim. Mən ilk günlərdə işə başlayanda Müşfiqin məhəbbət haqqındakı sözlərini xatırladım. «Əgər işdə, kollektivdə səmimiyyət olarsa, orada hər şey daha yaxşı gedər». Mən qabaqca siniflərim ilə tanış oldum. Şüurlu intizam yaratmağı qərara aldım. Kollektivimiz çox səmimi idi. Məktəb direktorumuz Mehdiqulu

Hüseynov özü də çox işləyən, həm də tələbkar idi. Yaxşı tar çalırdı. Nə qədər işləsən, yenə də işin içindən bir iş çıxarıb istirahət etməyə imkan verməzdi. (Bakıda hal-hazırda kənd təsərrüfatı texnikumunda dərs deyir). Məktəbimizdə tar dərnəyi, özfəaliyyət dərnəyi, xor və başqa dərnəklər yaratdıq. Xor dərnəyinin rəhbəri mən idim. Yeni nəğmələr öyrənəndə bəzən özüm, bəzən də Mehdiqulu müəllim tar çalardı. Bəstəkar Ələkbər Tağıyev də həmin məktəbin yuxarı sinfində oxuyurdu. Xor dərnəyimin üzvləri tez-tez yerli radioda, konsertlərdə çıxış edərdilər. Başım işə elə qarışmışdı ki, bəzən Müşfiqin məktubuna cavab yazmağa macal tapmırdım. Bir gün evdə oturmuşdum, müəllim yoldaşlarımdan biri bizə gəldi. Müşfiqdən məktub gətirmişdi. Müəllim yoldaşıma təşəkkürümü bildirdim. Məktubu açıb oxudum.

«Mənim ruhum Dilbər!

Əvvəla halını soruram. Bilmirəm niyə məktubuma cavab yazmırsan, ürəyimə cürbəcür şeylər gəlir: qorxu, nigarançılıq... Bəlkə də məni unutmusan?! Mənə öz səhhətin, işlərin haqqında yaz. Birinci ildir işləyirsən, çətinlik çəkmirsən ki? Qardaşın, bacın, anan necədir? Əgər bilsən sənsiz necə darıxıram!... Hər günüm bir il keçir. Bilsəm, səni əlimdən buraxmazdım. Sənin mənə hədiyyə verdiyin çadralı şəkil ilə yaşayıram. Mənə tez-tez cavab yaz. Həyəcanlarımı sənə şerlərimlə göndərirəm».

İndi xanəndələrin tez-tez oxuduğu «Qurban olduğum» (Əsl adı «Vəfasıza doğru»dur) və «Ürək» şerlərinin mətnini də göndərmişdi.

Yaxşı yadımdadır ki, Müşfiqin məktubuna və şerlərinə 1932-ci il dekabrın axırlarında cavab yazdım. Yazdım ki, mən hara getsəm, harda olsam, özümü səninlə birgə hiss edirəm. Sənin göstərişinlə, ilhamınla işləyirəm. Məktəbdəki iş-gücümdən yazdım, özümün Gəncə Şəhər Sovetinə deputat seçilməyimi xəbər verdim.





Mən Gəncədə işlərkən Müşfiq tez-tez yanıma gəlirdi.

Gəncə o illərdə böyüyür, respublikanın ikinci sənaye mərkəzinə çevrilirdi. Bir-birinin dalınca toxuculuq, mahud fabrikləri, yağ-sabun kombinatı tikilib istifadəyə verilmişdi. Qədim Gəncədə yeni-yeni sənaye və mədəniyyət ocaqlarının təməli qoyulurdu. Mingəçevir Su-Elektrik Stansiyasının, Tərtərhesin tikiləcəyi barədə söhbət gedirdi.

Müşfiqin Gəncəyə son gəlişindən sonra köhnə dostu İsrafil Nəzərovla səmimi görüşlərini xatırlayıram. İ.Nəzərov Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsi xətti ilə gənclər arasında mədəni-təbliğat işi aparmaq üçün Gəncəyə gəlmişdi. Müşfiqin ilk şerləri Azərbaycan LKGİ MK-nın orqanı olan «Gənc işçi» qəzetində dərc edilmişdi. Sonrakı illərdə də Müşfiq həmin qəzetin səhifələrində müntəzəm surətdə öz əsərlərini çap etdirirdi. İ.Nəzərov isə «Gənc işçi» qəzetinin uzun illər ədəbiyyat-incəsənət bölməsinə rəhbərlik etmişdir. Müşfiqlə İ.Nəzərovun dostluğu ədəbi gəncliyin yeni ruhda, yeni məzmunda tərbiyəsi naminə hər zaman səmimi, mənalı, işgüzar səciyyə daşımışdır.

Gəncədə olarkən Mingəçevir problemi Müşfiqi daha çox məşğul edirdi. O, dostları ilə gələcəyin nəhəng tikintisi olacaq Mingəçevir Su-Elektrik Stansiyasının yerinə gedib layihə-quraşdırma işləri ilə tanış olurdu. Bu zaman o, «Mingəçevir həsrəti» əsərini artıq yazmağa başlamışdı.

Qoca bibim Asyadan eşitdiyim «Çoban əfsanəsi» poemasının yaranması da bu dövrə təsadüf edir.

«Yaşa könül», «Dilbər» və bir sıra lirik şerlərini də Müşfiq 1933-cü ilin yaz aylarında, məni Bakıya köçürmək üçün Gəncəyə gəldiyi vaxtlarda yazmışdır.

Bir gün Müşfiq mənim çalışdığım 5 nömrəli məktəbə gəldi. Müəllimlər və yuxarı sinif şagirdləri Müşfiqlə təntənəli görüş düzəltdilər. Şair yumşaq, məlahətli, parlaq

səsilə yeni şerlərini oxudu. Görüşdə şagirdlərdən biri Müşfiqin «Məktəbli şərqisi»ni dedi.

*Bizim nə tanrımız, nə qulumuz var,*
*Sosializmə çıxan bir yolumuz var.*
*Dərsimiz, işimiz, futbolumuz var.*
*Bizik maarifin günəş ordusu, -*
*Aydınlıq ordusu, günəş ordusu!...*

Müşfiq şagirdi yanına çağırdı, qucaqlayıb alnından öpdü. Məktəbdəki görüşündən o qədər təsirləndi ki, elə həmin gün məktəbimizin özfəaliyyət dərnəyi üçün iki kiçik şer yazdı: «Oktyabr nəğməsi» və «Bəyaz çöllər». Bu şerlərə sonralar dərnəyimizin musiqi həvəskarları mahnı bəstələdilər. «Bəyaz çöllər»dən aşağıdakı parça yadımda qalıb:

*Ağ dənizə bənzəyir*
*Qoynundakı pambıqlar.*
*Ağ ləpələr oynaşır*
*Sanki əsdikcə rüzgar.*

*Arazla Kür veriblər*
*Səndə baş-başa, Muğan!*
*Tükənməz sərvətinlə*
*Əbədi yaşa, Muğan!*

Həmin günlərdə, işdən sonra rəfiqələrim, müəllim yoldaşlarım bizə yığışar, şer oxuyar, musiqi çalar, vaxtımızı xoş keçirərdik. Müşfiq bu kiçik ailə məclislərimizin tacı idi. O hər yığıncağımızda təzə bir şer oxuyardı.

Mənə doğma ana qədər əziz olan ögey anam Xanımana tikiş fabrikində işləyirdi. Mən ona bacı deyərdim. Özü xahiş etmişdi ki, onu bacı çağırım. «Mənə bacı desən, ömrün uzanar», - demişdi. O hər gün işdən gələn kimi





evimizi sahmana salar, xörək bişirər, çay dəmlər və qonaqların yolunu gözlərdi. Qəribədir ki, bu savadsız, hələ çadradan tamam çıxmamış fəhlə qadın, Müşfiqin şerlərinin aşiqi idi. Bir axşam o, Müşfiqə dedi ki, eşitmişəm sən mənim qızıma aşiqsən, axı deyərlər ki, aşiqlər həmişə öz məşuqlarına şer yazar, gözəlləmə qoşarlar. Sən necə, belə bir şey yazmısanmı?

– Yazmışam, Xanım ana, yazmışam. İzn ver, oxuyum.

Demə Müşfiq elə o günlərdə «Dilbər» şerini yazıbmış və fürsət axtarırmış ki, oxusun.

– Oxu, bala, oxu görək bizim bu qıza nə demisən!

Müşfiq həyəcanla «Dilbər» şerini oxudu:

*Ey gözəl Gəncənin gözəl Dilbəri,*
*Nədir səndəki o mehriban əda?*
*O gündən bəridir nerdə bulunsam,*
*Gözümdə sən varsan, könlümdə sevda.*

*Sənin o pərişan gözəlliyindən,*
*Necə bəhs etməsin mənim lisanım?*
*Sən boynu bükülü bir bənövşəsən,*
*Sığmaz təsvirinə tərzi-bəyanım.*

*Səni anlatmağa, ey bəyaz çiçək,*
*Bir incə şairin xəyalı gərək.*
*Bu çılğın eşqimi qınama, Dilbər!*
*Məni ayrılıqla sınama, Dilbər!*

*Ah, o bulaq kimi qaynayan gözlər*
*Gözəl təbiətin şeriyyətimi?!*
*Sən ki bilməyirsən, bilənlər bilər,*
*O gözlərə olan məhəbbətimi.*

*Nə qədər uçsan da ucalıqlarda,*
*Əlbət qanadların bir gün yorular.*

*Bir quşun olmasa qanadı, Dilbər,*
*Necə keçər onun həyatı, Dilbər?*

Bu illərdə Müşfiq bütün respublikada şair kimi şöhrət tapmışdı. Gəncəyə gələn kimi, dostlarının və yerli təşkilatların təşəbbüsü ilə şəhər parkında təşkil olunmuş böyük yığıncaqda çıxış etdi. Camaat Müşfiqin hər şerini gurultulu alqışlarla qarşılayıb onu dönə-dönə qaytarırdı. O öz çıxışının sonunda «Yeni gənc» şerini dedi:

*Mən çevik ürəkli bir yeni gəncim,*
*Dildən-dilə düşmüş hekayətim var.*
*Həyat nəşəsilə titrəyir içim,*
*Parlaq gələcəyim, nəhayətim var.*

*Bir parça atəşəm, bir parça yanğın,*
*Qəlbim örnəyidir yanar bir dağın.*
*Qarşımda duramaz nə sel, nə daşqın,*
*Təbiətlə mənim zərafətim var.*

*Sevgim – mübarizə, sevgilim – həyat,*
*Yəhərlənmiş mana qanadlı bir at,*
*Gör nə deyir sizə çaldığım qanat:*
*Hələ bundan sonra qiyamətim var.*

Bizim ortasından arx axan güllü-çiçəkli bir bağçamız var idi. Müşfiq bu bağçada altına xalça salıb oturar, kitab oxuyar, şer yazardı. Arxın yanında atam mixəyi gül kolu əkmişdi. Nədənsə Müşfiq mixəyi gülü daha çox sevir, onu qoxulamaqdan, tamaşa etməkdən doymurdu. Mənə deyirdi ki, bu gülün gözəlliyinə, xoş ətrinə lap heyran olmuşam.

– İndiyə kimi elə bilirdim güllərin şahı qızılgüldür. Demə, mixəyi gül ondan da baş imiş.





– Elə demə, Müşfiq, onların hər ikisi qəşəngdir, gözəldir. Ona görə də bu iki gülün ləçəklərindən bir yerdə gülab çəkirlər.

Bu sözüm onu xeyli düşündürdü.

Elə həmin günlərdə Müşfiq kəbinimizin kəsilməsini daha inadla israr etməyə başladı... Lakin mən Gəncədə qalıb işləyəcəyimi bildirdim. Müşfiq çox məyus oldu, məni fikrimdən daşındırmağa çalışdı. Bəlkə də buna darılan şair indi dillər əzbəri olmuş «Yaşa könül» şerini yazdı:

*Ah, bu uzun sevda yolu,*
*Vurulurmu başa, könül!*
*Nişan aldım, kaman atdım,*
*Dəydi oxum daşa, könül!*

*Bir od düşdü buluduna,*
*Yandı könül eşq oduna,*
*Qaldı hicran umuduna,*
*Ey qırılan şişə könül!*

*Tərlansan, göydən enməzsən,*
*Bu torpaqda sevinməzsən.*
*Mən dönərəm, sən dönməzsən,*
*Yaşa könül, yaşa könül!*

Nəhayət, 1933-cü il iyunun 20-də kəbinimiz kəsildi və biz iyunun 22-də qohumlarımızın və dostlarımızın müşayiəti ilə Bakıya köçdük.

Müşfiqin atasının Dağlı məhəlləsində üç otaqlı mənzili vardı. Qardaşı Mirzə orada yaşayırdı. O, ata məhəlləsinin ev əşyalarını da qardaşı Mirzəyə verib, qabaqca dayısı Rzanın yanına köçmüşdü. Məni köçürüb gətirəndən sonra isə Çadrovı (indiki M.A.Əliyev – *red.*) küçəsində, bazarın qabağında bir balaca ev tutdu. Toydan sonra məni

həmin evə apardı. Bizim toyumuz da nişanımız kimi oldu. Toya Müşfiqin qələm yoldaşları və dövrün görkəmli ədiblərinin əksəriyyəti dəvət olunmuşdu. Toy qonaqlıq şəklində, şer, musiqi bayramı kimi keçdi.

Mən birotaqlı mənzilimizi imkanımız dairəsində bəzədim. Müşfiqin işləməsi, istirahəti üçün şərait yaratmağa çalışdım. Müşfiq sözarası mənə dedi ki, bu gündən evin pul haqq-hesabını gəl sən öz üzərinə götür; əgər sən mənə ümid olsan ac qalarıq, çünki mən pul saxlamağı bacarmıram. Əlimə gələni elə həmin gün xərcləyirəm.

İlk günlər qarşımıza bir sıra maddi çətinliklər çıxdı. Lakin biz böyük və şirin ümidlərlə yaşayırdıq.

Birgə həyatımızın ilk günlərindən başa düşdüm ki, əsl şair həyatı, şair zəhməti nə deməkdir. Onun tək bir coşğun təbinə arxalanmadığını, gecə-gündüz öz üzərində işlədiyini, oxuduğunu, yazdıqlarını dönə-dönə cilaladığını gördükdə anladım ki, əsl şer çağlar istedad sahibi olan şairdən də belə böyük və gərgin zəhmət tələb edir. Bəzən bir söz, bir ifadə, bir beyt üstündə saatlarla, günlərlə düşünən, baş sındıran Müşfiqin şerlərindəki axıcılığın nəyin bahasına başa gəldiyini indi anlamağa başlamışdım. Əsərlərinin birində:

*Şer qalıbına, söz qalıbına,*
*Əriyə-əriyə tökülən mənəm...* -

deyən Müşfiq doğrudan da haqlı imiş...

Mən ona: «Az oxu, az özünü yor, bir az istirahət elə, havaya gəzməyə çıx, onsuz da otağımız darısqaldır», - dedikdə cavab verərdi ki, indi yorğunluğun nə olduğunu heç hiss eləmirəm, elə bilirəm bu kiçik evimiz səadət nuru, günəş nuru ilə dolubdur. Hətta Sədidən tərcümə etdiyi bir beytlə özünə haqq qazandırmaq istəyirdi:





*Sən qonaq gələndə gecələr bizə,*
*Dönür gecələrim aylı gündüzə.*
*Deyirəm şam sönsün, ay göydə batsın,*
*Günəş qonaq gəlib məclisimizə!*

Xatirimdə dərin iz buraxan belə bir cəhəti xüsusilə demək istəyirəm ki, Müşfiq hədsiz dərəcədə səmimi və gözü-könlü tox bir insan, ilk görüşdən adamın qəlbinə yol açmağı bacaran, özünü sevdirmək istedadına malik şəxsiyyət idi. «Özünü sevdirmək» ifadəsini mən bəlkə də dəqiq işlətmirəm. Çünki Müşfiq özünü sevdirməyə çalışmazdı. Lakin özünü o qədər təbii və səmimi aparardı ki, onun şəxsiyyətindəki məlahət, saflıq, istedad elə ilk dəqiqələrdən şölələnər və insanın ürəyini işıqlandırardı.

Evləndiyimiz vaxt Müşfiq «Azərnəşr»də redaktor vəzifəsində və 18 nömrəli məktəbdə müəllim işləyirdi. Qazancı da pis deyildi. Balaca otağımızda Müşfiq dağ şəlaləsi kimi coşub-daşır, yazıb-yaradırdı. Müşfiqin bütün varlığı şerlə nəfəs alırdı. O məni yuxudan şerlə oyadar, şerlə söhbət edər, axşamlar şerin xoş zümzümələrilə yatırardı.

Müşfiq tez-tez deyirdi:

– Yaxın vaxtlarda hər şeyimiz olacaqdır. Dilbər, kasıb oğlan idim. Sənin şer vurğunu olduğunu görüb səni şerimlə aldadıb aldım.

Mən gülümsünüb dedim:

– Var-dövlət müvəqqəti olduğu halda sənin adın, sənətin əbədidir. Mən səninlə fəxr edirəm.

Mənim bu sözümdən o xoşhal olub dedi: - Yazıçının həyat yoldaşının onun yaradıcılığında böyük rolu var. O bunu başa düşsə, şərait yaratsa, onun ilhamı daha da artar. Həyat yoldaşı onun ilk oxucusu olmalıdır. Əgər həyat yoldaşı onu dərindən başa düşüb dərk etməsə ilhamını söndürə bilər.



M.Müşfiq və S.Vurğun

Bir neçə gündən sonra qohumlar və tanışlar bizi təbrikə gəldilər. Bizə ilk dəfə Rəsul Rza həyat yoldaşı Nigar xanımla gəlmişdi. Onlar bizi səmimi qəlblə təbrik edib gələcəyimizə xoşbəxtlik arzuladılar. Müşfiq Rəsulun xətrini çox istəyirdi. Onu doğma qardaşı Mirzədən seçmirdi. Onlar bizim həyatımız, dolanışığımızla maraqlanıb iş-gücümüzdən xəbər tutduqdan sonra, yeni çıxan əsərlər haqqında söhbətə başladılar, yazdıqları təzə əsərlərindən bir-birinə parçalar oxudular.

Bizi təbrikə gələnlərdən biri də Səməd Vurğun oldu. O, içəri girən kimi səmimi sözlərlə bizi təbrik edib, səadət arzuladı. Söhbət zamanı Müşfiq «Dilbərnamə» «məcmuəsini» açıb ona lirik şerlərindən oxudu: «Düşdü» şeri Səməd Vurğunun daha çox xoşuna gəldi. Sonralar Səməd Vurğun özünün məşhur «Yadıma düşdü» şerini yazdı.

Bir neçə gündən sonra Səməd Vurğun yenə bizə gəldi. Şerdən, sənətdən söhbət düşdü. Bir-birlərini yeni şerləri ilə sevindirdilər. Sonra Müşfiq ayağa qalxıb divardan asılı tarını götürüb Səmədə verib çalmasını xahiş etdi. O zaman çox məşhur havalardan «Uca dağlar», «Ay bəri bax»ı çalıb oxudular.

Bu parçanı unuda bilmirəm:





*Qara atın kəkili,*
*Ay bəri bax, bəri bax.*
*Tel-tel olub tökülü,*
*Ay bəri bax, bəri bax.*
*Hər yara yar desən*
*Yar bacadan tökülü,*
*Ay bəri bax, bəri bax.*

Sonra Səməd muğamat çalıb Müşfiqin oxumasını xahiş etdi. Müşfiq öz məlahətli səsi ilə ən çox sevdiyi qəzəllərdən oxudu. Səməd çaldıqca ilhama gəlib tarı coşdururdu. Tarın sədaları hər yana dağıldıqca Müşfiq də coşurdu:

*Bir kəs ki, hicri yar ilə düşsün damağıdən,*
*Heç açılırmı onun könlü seyri bağidən?*
*Yetişəndə mey dodağına gül, ey pəri,*
*Bilməm dodaq meydən alır zövq*
*Ya mey dodaqidən.*
*Sordum sorağını, dedilər qeyrə yar olub,*
*Kaş lal olaydı dilim bu soraqidən.*

Sonra bir bayatı oxudu:

*Əzizim, bəxti yarım,*
*Bəxtimin taxtı yarım,*
*Üzündə göz izi var,*
*Sənə kim baxdı yarım.*

Mən isə süfrə düzəldir, hər iki şairin çalıb-oxumalarına, o xoş sədalarına qulaq asır, özümü xoşbəxt hiss edirdim. Axı mən özüm də incəsənətin vurğunu idim. Sonra Səməd dedi:

– Belə bir havada heç evdə oturmaq olar?! İstəyirsiz çıxaq gəzməyə.

Biz razılaşdıq, bulvara gəldik. Gəzə-gəzə insan axınına qərq olan sahilə çatanda dayandıq. Axşama sərin nəfəs verən, sinəsində sahil işıqları parlayan Xəzəri seyr etdik. Sonra da sahilə yaxın bir skamyada əyləşdik. Hər ikisinin nəzəri Xəzərə, üfüqlə dənizin qovuşduğu yerdə göz qırpan qırmızı mayaka zillənmişdi. Mən hiss etdim ki, xəyal onları bir anlıq harasa aparmışdı. Birdən Səməd yerindən dik ayağa qalxıb bizə səmimi bir nəzər salıb dedi:

– Müşfiq, siz necə də bir-birinizə yaraşırsınız. Doğrudan da qarşılıqlı sevgi səadət üçün bir qapı imiş. Qoyun sizi bir kənardan seyr edim.

O, bu sözləri deyib bizdən bir neçə addım aralı çəkildi və bizə ürək dolusu tamaşa edib, yenidən yanımıza gəlib dedi:

– Müşfiq, sənə lap qibtə edirəm. Doğrudan da səndə möhkəm iradə var imiş. Aşıq Kərəm kimi çöllərə düşdünsə də, axırda öz arzularına yetişdin.

Sonra sözünə davam edib dedi:

– Mən də bu yaxınlarda ailə qurmaq fikrindəyəm.

Biz hər ikimiz coşğun təbiətli Səmədin kimi sevməsi ilə maraqlandıq. Müşfiq səbirsizliklə:

– O hansı qızdır, mənə heç bir söz deməyibsən? Mən sənə üç il qabaq, tanış olan kimi dedim.

Səməd əlini Müşfiqin çiyninə qoyub səmimi baxışlarla süzdü: - Deməmişəm, deyərəm – dedi.

O, hörmətli ədibimiz Abdulla Şaiqin baldızı Xavəri sevdiyini dedi. Hər ikimiz sevindik. Axı, Abdulla Şaiq Müşfiqin sevimli müəllimi olmuşdur. Mənim əmimin – İdrisin yaxın dostu idi. Mən Xavərlə yaxşı tanış idim. Biz «allah xeyir versin, dedik. Yaxşı seçibsən, əlindən buraxma». Bir qədər də söhbət etdik. Gəzə-gəzə evimizə qayıtdıq. Bir neçə gün sonra Səməd Vurğun bizə gəldi, bizimlə hal-əhval tutdu. Onun sevinci üz-gözündən açıq görünürdü. Sevinə-sevinə dedi:





– Xavərgilə elçi göndərdim. Razılıq aldım. Bu yaxınlarda toyumuzdur. Hazırlaşın.

Bir qədər söhbət etdikdən sonra getdi.

Xavər xanım Səmədlə ilk tanışlığını belə xatırlayır: «Hümmət Əlizadənin toyuydu. Abdulla Şaiqgildə anam mənə dedi, gəl gedək! Mən 7-ci sinifdə oxuyurdum. Elə məktəbli pal-paltarında anamla getdim. Bacılıqlarımla dəstə tutub toya tamaşa eləyirdim. Bu vaxt iki oğlan gəldi. Dedilər bəs şairdirlər. Biri Səməd Vurğundu, biri də Mikayıl Müşfiq. Mikayıl Müşfiq bir-iki dəfə məktəbimizə gəlmişdi. Amma Səməd Vurğunu heç görməmişdim. Şerlərini oxumuşdum. Nə biləydim toy-toya qarışacaq. Bir neçə gündən sonra Səməddən məktub aldım. O, yazırdı:

«Hörmətli Xavər!

Mən öz taleyimi və gənc həyatımı sizə tapşırmışam. Mən öz fikrimin üzərində həmişə möhkəm olub, sizin xoşbəxt olmağınız uğrunda əlimdən gələn bütün hörmətləri əsirgəmərəm. Siz öz qəti fikrinizi bir axşam Əfşana söyləyin. Yaxın günlərdə işin rəsmi tərəfini başlamaq lazımdır. Ümidvaram ki, biz bir-birimizi xoşbəxt edib sevinərdik.

*11.XII.32*
*S.Vurğun.»*

Sonra elçi gəldi. Razılıq alındı. Nişan taxıldı. Toy məclisi hazırlandı. Başımın qız dəstəsiylə bəzənib-düzənməkdə, çalıb-çağırmaqdaydıq. Toy evində bizi gözləyirdilər. Sazlı-sözlü yığışıb toy evinə getdik. Çatan kimi Müşfiq ayağa durdu. Birbaşa bu şeri dedi:

*Gecəyə Aydımı, bəy gəlib çıxdı,*
*Günəşmi yanında, gəlinə bir bax?!*
*Taledəndimi bu, qənirsizdilər,*
*Çəmənmi, əlində gülünə bir bax?!*

*Bu el, bu obanın əziz Xavəri,*
*Olmaz mələklərdə tay-bərabəri.*
*Çağırın, kimlərin yoxdu xəbəri,*
*Səmədə saldığı meylinə bir bax!*

*Şairlər yığnağı qan qardaşıdı!*
*Səməd bəy bu gülün sarmaşığıdı.*
*Xavər məclislərin yaraşığıdı,*
*Sünbüllü, süsənli telinə bir bax?!*

*Plov gəldi, Müşfiq, təbini dayandı,*
*Boşqablar səsləndi, məclis oyandı.*
*Alın çəngəlləri, o yan-bu yandı!*
*Boşqabın içinə, çölünə bir bax!*

Hamı yer-yerdən gülüşdülər. Əl çaldılar. Keçib başda əyləşdik. Yusif Vəzir Çəmənzəminli idi, Cavid əfəndi idi, Abdulla Şaiq idi, Sabit Rəhman idi, Səmədin tay-tuşlarıydı oturmuşdular. Gurultulu alqışlar qopdu. Məclisdə hamı dönüb Səmədin üzünə baxdı. Səmədin şer deməsini gözləyirdilər. Səməd ayağa durub şer oxudu».

Hələ 30-cu illərdə Müşfiqin istedadına yüksək qiymət verən Səməd Vurğun bir dəfə özünəməxsus açıq ürəklə və yarızarafatla:

– Əyə, bilirsinizmi, - deyir – məndən sonra ən böyük istedad odur!

– Niyə səndən sonra, ay Səməd, bəlkə səndən əvvəl! - deyə kimsə zarafatla irad tutur.

Bu sözdən sonra S.Vurğun səmimiyyətlə deyir:

– Əyə, düz deyirsiniz, əsl istedad odur!

Müşfiq şair və yazıçılardan M.İbrahimov, M.Hüseyn, S.Rüstəm, S.Rəhman ilə də səmimi dost idi. Onlarla işdən sonra tez-tez görüşər, təzə əsərlərini bir-birlərinə oxuyar, müzakirə edərdilər.





Mən öz ailəmizdə, eləcə də Müşfiqin yoldaşlarının ailələrində bir çox belə səmimi görüşlərin, yığıncaqların şahidi olmuşam. O zamankı ədəbi mühit, yeni Azərbaycan Sovet ədəbiyyatının yuxarıda adlarını çəkdiyim yaradıcıları Müşfiqə çox böyük təsir göstərmişlər. Hətta deyərdim ki, bu təsir Müşfiqin sovet şairi kimi dünyagörüşünün kamilləşməsinə, püxtələşməsinə, yaradıcılığının çiçəklənməsinə böyük zəmin yaratmışdır.

Bir neçə gündən sonra yazıçı Mirzə İbrahimov da bizə gəldi. O, bizim təzəcə qurduğumuz ailə həyatına ürəkdən sevindi, bizi təbrik etdi, xoşbəxtik arzuladı.

Elə o günlərdə biz M.İbrahimovun «Həyat» pyesinin tamaşasına baxdıq. Müşfiq tamaşaya elə maraqla, elə həyəcanla baxırdı ki, sanki səhnədə öz əsərini görürdü. Tamaşadan evə qayıdarkən mənə dedi:

– Dilbər, görürsənmi?! Mirzə insan hisslərini necə təbii, necə səmimi göstərir? Atlasla Abbasın məhəbbəti, romantik xəyalları sənə çox şeyi xatırlatmırmı! Mirzə həyatı yaxşı bilir, onun qaynar çeşməsindən bəhrələnir.

Xalq şairi Süleyman Rüstəmlə Müşfiqin dostluğu çox qədim idi. Bu dostluq, Müşfiqin öz şerləri ilə mətbuatda təzə iz saldığı illərə təsadüf edir. Həmin dostluğun tarixçəsini Süleyman Rüstəmin öz sözləri ilə xatırlatmaq istəyirəm:

«Gənclik illəri əsla xatirimdən silinmir. Zaman keçdikcə yaşadığım dəmləri həsrətlə, məhəbbətlə yad etməsəm olmur. Mənim üçün ömrümün ən əziz illəri Lenin komsomolu sıralarında keçirdiyim coşğun, bahar təravətli ilk gənclik illəridir.

1925-ci ildə komsomolun mübariz orqanı «Gənc işçi» qəzeti redaksiyasında ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışırdım. O zaman redaksiyaya axın-axın həvəskar

gənc şairlər gəlirdilər. Onlar öz ilk qələm təcrübələrinin çap olunmasını arzu edirdilər. Bu şerlərin çoxu Oktyabr inqilabının təntənəsindən, qadın azadlığından, ana vətəndən, komsomol həyatından, məhəbbətdən və s. bəhs edirdi. «Gənc işçi» redaksiyası inqilabi gəncliyin döyüş ocağına çevrilmişdi. Azərbaycan KP Mərkəzi Komitəsinin katibi Hüseyn Rəhmanovun gənclərə göstərdiyi qayğını heç vaxt unutmaq olmaz! Ədəbiyyatın saflığı uğrunda gedən ideoloji döyüşlərdə o, gənclərə ürək-dirək verirdi. Hər şeyi bilmək, hər şeyə yiyələnmək istəyən yeni nəsil özünü odaközə vururdu. Mən Mikayıl Müşfiqlə bu illərdə tanış oldum. Onun xasiyyəti və şerləri məni özünə dost etdi. O, bizim sıralarımıza kitabxana dərnəklərinin birindən gəldi. Müşfiqin «Qızıl qələmçi»lərə qoşulması hamımızı sevindirdi. Çünki Müşfiq ümid verən istedadlı gənc şairlərimizdən biri idi. Qarabuğdayı, çatmaqaşlı, qıvrımsaçlı, düymədodaqlı, qonurgözlü, gülərüzlü Müşfiqin səmimi şerləri öz qələm dostlarını sevindirməyə bilməzdi.

M.Müşfiq öz üzərində ardıcıl və ciddi çalışırdı. Azərbaycan klassik poeziyasının ənənələrini dərindən öyrənir, Füzuli, Nəsimi, Vaqif, Seyid Əzim, Sabir kimi qüdrətli şairlərimizdən sənətkarlıq sirlərini mənimsəyir və sürətli addımlarla irəliləyirdi. O, məclislərdə, ədəbi yığıncaqlarda Füzulinin, Vaqifin şerlərini məhəbbətlə, hərarətlə oxumaqdan zövq alırdı. M.Müşfiqin tutduğu əsas yol inqilabi poeziya yolu idi. O, gənc şairləri doğru yolundan azdıranlara qarşı cəsarətlə çıxır və əsl gözəl şerin nə olduğunu aşağıdakı misralarda aydınlaşdırırdı.

*Qansın bunu kimin varsa düşüncəsi,*
*Şerlərin ən gözəli, ən incəsi –*
*«Bütün dünya işçiləri birləşiniz!» -*
*Kimi canlı bir misradır eşidiniz!*





Xatirəyə bənzər bu kiçik qeydlərimdə M.Müşfiqin yaradıcılığı haqqında geniş, ətraflı izahat, təhlil vermək imkanım yoxdur. Mən yalnız uzun illər dostluq etdiyim Müşfiq haqqında yadımda qalanları danışıram. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra öz səadətini tapmış gənclərdən biri də Müşfiq idi.

M.Müşfiq rus sovet poeziyası ilə çox maraqlanırdı. İlk vaxtlar o da rus dilini yaxşı bilmirdi. O zaman özünün xahişinə görə mən ona D.Bedninin, Mayakovskinin, Bezimenskinin, Oseyevin və başqalarının şerlərini oxuyub tərcümə edərdim. Müşfiq rus sovet şairlərinin qüdrətli novator poeziyasına heyran qalırdı. Zaman keçdikcə Müşfiqin şerləri təkmilləşir, bitkinləşir, şairi oxuculara daha çox sevdirirdi. Müşfiq şerdə həmişə məzmuna görə forma axtarmağa çalışırdı. Şerin dilinin sadəliyinə, səlisliyinə, aydın olmasına diqqət yetirərdi. Əruz vəznini yaxşı bildiyindən, sevdiyindən əruzla yazdığı şerlər çox tutarlı, təsirli çıxardı. O, xalq ədəbiyyatı ilə dərindən maraqlanardı. Gözəl qoşmalar, bayatılar dilinin əzbəri idi. Cibində gəzdirdiyi yaddaş dəftərçəsinə şer inciləri, şah beytlər gözəl bir xətt ilə yazılmışdı.

Biz - Məmməd Arif, Mehdi Hüseyn, Məmməd Rahim, Rəsul Rza, Əbdülbaqi Fövzü, Mikayıl Rəfili, Şəmsəddin Abbasov Müşfiqin ilk gənclik dostları idik. Süfrəmiz ancaq hərdənbir ayrı olardı. O, bizim Spasski küçəsindəki (indiki Qasım İsmayılov küçəsi) ata-baba evimizdə çox qalmışdır. Anam ona öz doğma balası kimi baxardı. Müşfiqin səmimiliyi, sadəliyi, mehribanlığı onu anama sevdirmişdi. Ağbirçək anam həmişə Müşfiqi yaxşı xatırlayırdı.

Müşfiq təbiətin vurğunu idi. O, şair gözlərilə Bakının sərt təbiətini, Xəzəri, əncir-üzüm bağlarını, boz, çılpaq qayaları seyrə dalar, sonra coşğun bir ilhamla, məhəbbətlə qələmə alardı. O zaman bizim bağımız Novxa-

nıda idi. Hər il əncir, üzüm yetişəndə Müşfiq bizim bağa qonaq gələrdi.

Biz onunla quş ovuna çıxmışıq, Xəzərin dalğaları qoynunda gənclik ehtirası ilə üzmüşük, quzu kəsib, özümüz kabab çəkmişik, sac qırağında oturub novxanılıların çox sevdiyi dəvə ətindən qutab yemişik. Axşamlar isə yorğan-döşəyimizi ağ qumlar üstündə salıb Ay işığında şirin-şirin söhbət etmişik.

Mən onunla birlikdə Şamaxıda, Gəncədə,Tbilisidə, Batumidə, Minskdə, Moskvada, Leninqradda (indiki Sankt-Peterburq – *red.*) və başqa şəhərlərdə səfərlərdə olmuşam. Səfərimiz həmişə maraqlı, səmimi, xoş keçmişdir. Bizim köhnə partiya işçilərimizdən Ruhulla Axundov, Həbib Cəbiyev, dağlı Əlihüseyn, Məmməd Səid Ordubadi, Böyükağa Talıblı, Hacıbaba Nəzərli onun xətrini çox istərdi. M.Müşfiq indi aramızda yoxdur. O, ömrünün çiçəklənməyə başlayan bir çağında bizim aramızdan getdi. Lakin adı ürəyimizdə yaşayır. M. Müşfiqin əsərləri bütün varlığı ilə sevdiyi qəhrəman xalq üçün qalmışdır.

Xalqımızın istəyi ilə onun qiymətli əsərləri təzədən çap edilib geniş oxucu kütlələri arasında yayılmaqdadır.

Gözəl insan, gözəl şair Müşfiq haqqında ürək sözümü şerlə bitirmək istəyirəm.

*Xoşbəxtdir o şair ki, onun öz səsi vardır.*
*Dillərdə, könüllərdə gəzən nəğməsi vardır.*
*Müşfiq bu yolun yolçusutək yazdı, yaratdı.*
*Al bayrağın al rəngini öz şerinə qatdı.*
*Qardaş kimi hər gün bölüşüb dərdi, sevinci*
*İstərdik olaq işdə, sədaqətdə birinci.*
*Yollarda günəş aşiqitək zülməti dandıq,*
*Müşfiq bizə, biz Müşfiqə hər yerdə hayandıq.*
*Öz dostuna, ustadına çox hörməti vardı.*
*Gizlin sözü yoxdu; belə xasiyyəti vardı.*





*Dostum yenə dilləndi bu şerimdə, sözümdə*
*Müşfiq! Məni bir dinlə, ötüb keçsə də illər,*
*Xatırlayacaqdır səni hörmətlə nəsillər.*
*Xoşbəxtsən, əzizim, vətənçin dirisən, bax,*
*Öz millətinin alnıaçıq şairisən bax!*
*Müşfiq, səni gəl bir də basım bağrıma, bir də,*
*Şair kimi, insan kimi, yox, ölməmisən sən,*
*Müşfiq səni, dostum, təbrik edirəm mən!»*

Müşfiqin yaradıcılığını xüsusi qayğı ilə izləyənlərdən biri də Mikayıl Hüseynov idi. O mənim həmyerlimdir və mən onun anası Göyçək xalanı, həyat yoldaşı Şövkət xanımı hələ Gəncədə ikən tanıyırdım. Müşfiqlə evlənəndən sonra o bizim evin əziz qonaqlarından biri oldu. M.Hüseynov Sovet hökuməti qurulmamışdan qabaq müntəzəm təhsil ala bilməmişdi. Atası olmadığından maddi çətinliklə böyümüşdü. Sovet hökumətinin qayğısı sayəsində nəinki ali savad almış, hətta Moskvada Sov.İKP MK yanında Qırmızı Professorlar İnstitutunu bitirmişdi. Müşfiqlə dostluq etdiyi dövrdə Azərbaycan KP MK-nın təbliğat-təşviqat şöbəsinin müdiri vəzifəsində çalışırdı. M.Hüseynov Müşfiqin yeni şerlərini dinləmək üçün tez-tez bizə gələrdi. O öz qayğıkeşliyi ilə ailəmizi böyük qardaş təki, ata təki himayəsinə almışdı. Söhbət vaxtı Müşfiq deyərdi ki, gəncəlilər də dağlılar kimi istiqanlı və həssas olurlar. Mən bu birlikdən yaranmış ailədən xoşbəxt bir nəsil gözləyirəm.

Növbəti gəlişlərinin birində Müşfiq ona yeni yazmağa başladığı «Duyğu yarpaqları» əsərindən parçalar oxudu:

*Mən gəncəm, bilirəm, istiqbalım var,*
*Hələ bədr olmamış bir hilalım var.*
*Yelkənim açılır, qara yel, əsmə!*
*Mənim bu dəryada bir sandalım var.*

*Atamız dünyadan eh dedi, getdi,*
*Tez sönən ömrünə meh dedi, getdi!*
*Gül əkdi, vay dərdi cahan bağında,*
*Tökdüyü yaşlara şeh dedi, getdi.*

*Cahan fikrimizlə süslənəcəkdir,*
*Hər zaman nəğməmiz səslənəcəkdir.*
*Bu dünya mehriban qucağımızda*
*Şən bir cocuq kimi bəslənəcəkdir...*

Mikayıl Hüseynov şeri maraqla, sevinclə dinləyib axırda dedi:

– Şairlik, doğrudan da gözəl sənətdir! Yaxşı şer insan qəlbini nəinki sevindirir, hisslərə təravət gətirir, eyni zamanda insanı parlaq məqsədlər, xoş arzular dalınca qanadlandırır.

Müşfiq dedi:

– Təəssüflər olsun ki, şeri, sənəti, hamı sizin kimi sevib dərk etmir. Bəzən paxıllar, bədxahlar şeri boğmaq üçün müxtəlif yollar axtarırlar. Beləleri unudurlar ki, torpağın dərinliklərindən axıb gələn bir bulağın suyunu palçıqla bağlamaq olmaz!

M.Hüseynov Müşfiqin şikayətli sözlərinin cavabında dedi:

– Filosoflar deyir ki, çox iti bıçaq tez korşalar. Buna görə də sən hər tənqidə istiqanlı olma, soyuqqanlı ol, yaradıcılığın inkişafı üçün lazım olan mənalı, məzmunlu tənqidi qəbul et, qərəzlilərə əhəmiyyət vermə. Unutma ki, prinsipial, mənalı tənqid hər zaman faydalı olmuş, ədəbiyyatın inkişafına xidmət etmişdir.

M.Hüseynov saatlarla oturub, sovet ədəbiyyatı və mədəniyyətinin qarşısında duran vəzifələri Müşfiqə ətraflı geniş şərh edərdi. Onlar şən, incə yumorla dolu söhbət edər, xatirə danışar, bərabər gəzməyə çıxar, hətta ova





da gedərdilər. Bir dəfə o, yenə bizə gəlmişdi. Mən süfrəyə xörək gətirəndə «Molla Nəsrəddin»dən bir lətifə danışırdı.

– Bir dəfə mollanı bir yerə qonaq çağırırlar. Ev sahibəsi xörəyin hamısını bir qaba çəkib mollanın qabağına qoyur. O zənn edir ki, molla az yeyən olur. Buna görə də uşaqlara qazanda pay saxlamır. Düşünür ki, molla bir az yeyər, qalanını da uşaqlara verərəm. Xörəyi mollanın qabağına qoyan kimi o, xörəyi dörd hissəyə bölür. Ev sahibi belə zənn edir ki, molla yağın hər yana yayılmaması üçün belə edir. Molla xörəyin üç hissəsini yeyib dördüncüsünə əl atanda uşaqlar qəzəblə deyirlər:

– Ye! Boşqabı da ye, qaşığı da ye, süfrəni də ye, hamısını ye!

Mollanın bu hərəkətinə biz güldük.

Yaxşı yadımdadır. Onlar bir dəfə maral ovlayıb gətirmişdilər. Mən maralı həmişə diri görmək istəyirdim. Bu dəfə onu ölü görəndə özümü saxlaya bilməyib ağladım. Mənim bu halım onların hər ikisinə bərk təsir etdi və onlar bir də maral ovlamayacaqlarına söz verdilər.

Müşfiqin sovet şairi kimi inkişafına, püxtələşməsinə, nəcib, gözəl, səmimi insan M.Hüseynovun az təsiri olmamışdır...

Əvvəllər evdə vaxtımız olanda ya mən, ya Müşfiq tar çalıb oxuyardıq. Mən 1935-ci ildə Müşfiqin məsləhəti ilə Tibb İnstitutuna daxil oldum. Burada Müşfiqin xətrini çox istəyirdilər. Mənim tələbə yoldaşlarımın nəzərində Müşfiq tamam başqa aləm kimi canlanırdı. Bunların hamısı Müşfiqi görmək arzusu ilə yaşayırdılar. Məndən xahiş edirdilər ki, onları Müşfiq ilə tanış edim. Bir gün Müşfiq evdə olarkən mən bir qrup tələbə yoldaşımı onunla tanış etməyə gətirdim. Onların arasında Əli Fəhmi müəllim də var idi. O, Müşfiqi görən kimi fars dilində şer dedi. Şerin tərcüməsi belədir:

*Çalışardım sizi mən görmək üçün,*
*O şirin arzuma yetişdim bu gün.*

Müşfiq ona şerlə cavab verdi. Sonra yoldaşlarımın hamısı ilə səmimi görüşüb oturmaq üçün onlara yer göstərdi. Müşfiq onların necə oxumaları ilə, institut həyatı ilə maraqlandı. Yoldaşlarım ona fərəhli cavablar verdilər. Əli Fəhmi müəllim Müşfiqin şer oxumasını xahiş etdi. Müşfiq onun təklifini məmnuniyyətlə qəbul etdi. O, Sovet hakimiyyətinin 15 illik bayramı münasibətilə qadın azadlığına həsr etdiyi «Səhər» poemasından bir parça oxudu:

*Qaşlardan-qaşlara süz, romantikam!*
*Könül sularında üz, romantikam!*
*Bu əngin sənindir, bu yer sənindir.*
*Ulduzlar sənindir, güllər sənindir.*
*Uç, qovuş göylərə, göylər sənindir.*
*Sanma yalnız sənin yer vətənindir.*
*Bulud çəmən kimi, ulduzlar çiçək,*
*Gəl bu çiçəklərin ətrini sən çək!*
*Demək göy də sənin göy çəmənindir,*
*Hər ulduz nərgizin, yasəmənindir.*
*Uçarkən göylərə min bir həvəslə*
*Mənim arzumu da könlündə bəslə!*

Şer məktəb yoldaşlarımın xoşuna gəldi. Müşfiqə minnətdarlıqlarını bildirdilər. Cansağlığı arzuladılar. Və qeyd etdilər: Sizin belə ahənglə şer oxumanız bizim elə xoşumuza gəldi ki, bu dəqiqəni heç vaxt unuda bilmərik. Bundan sonra mənim məktəb yoldaşlarım Müşfiqin yaxın dostları oldu. O vaxt biz dərs hazırlayanda sinifdə oxuyan uşaqlar kollektivlərə bölünürdülər. Bu kollektiv dörd nəfərdən ibarət olurdu. Kimin evində şərait olsa orada hazırlaşırdıq. Bu, yaxşı da nəticə verirdi. Bizim kollektivimiz çox vaxt bizə yığışırdı. Bizdə hazırlaşan vaxt Müşfiq





də bizə yaxşı şərait yaradırdı. O qabaqcadan tapşırırdı: «Dilbər, xahiş edirəm, dərs oxuyarkən dərs üzərindən durma, fikrin dağıla bilər. Sizə nə lazım olsa mən özüm qulluq edəcəyəm. Mənim də yoldaşlarımdan gəlib şerdən, sənətdən söz salanda sən bizə qulluq edərsən». Müşfiqin bu cür mehriban, sadə xasiyyəti yoldaşlarımı heyran edirdi. Bizim o vaxtkı dostluğumuz yenə də öz təravətini itirməyib. Mən bəzən çətinliyə düşəndə onlar bir qohum kimi mənə köməyə gəlirlər.

Müşfiq ailədə hamının sağlam olması üçün çalışırdı. Mən azca xəstələnəndə tez həkim çağırar, dərhal tədbir görərdi. Sağalıb dərsə gedəndə qızlar mənə deyərdilər: - Xəstələnən xarab olub gələr, sən heç arıqlamamısan. Mən utanıb başımı aşağı dikib deyərdim: - Müşfiqin bir xasiyyəti var. Bir balaca xəstələnən kimi qorxar və xahiş edər ki, yatım, özümü gözləyim. Çünki bir xəstəlik böyüyüb başqa bir xəstəliyə keçə bilər. Mənim bu sözümə qızlar yenə laqeyd baxdılar. Sən demə, bizə dərs deyən həkimlər də bizim söhbətimizə qulaq asırlarmış. Bizə yaxınlaşıb dedi: - Qızlar, siz Müşfiqin sözünə laqeyd baxmayın, o, düz deyir. Xəstəlik yenicə başlayanda onu sağaltmaq çox asandır. Əgər insan bədəninə dərin kök salarsa, müalicəsi də çox çətin olar. Siz, gələcək həkimlər belə şeyləri indidən bilməlisiniz.

Müşfiq hansı məclisə, şənliyə getsə idi, istərdi ki, mənimlə birlikdə getsin. Mən yanında olmayanda narahat olub dalımca adam göndərərdi ki, mən də gəlim. Mənimdə imtahanlar vaxtı Müşfiqlə getməyə imkanım olmurdu. Bir dəfə bizi yenə şənlik məclisinə çağırmışdılar. Mən gedə bilmədim. Müşfiq məclisdən gələndə gördü ki, mən dərs hazırlayıram. Mənə yanaşıb dedi:

– Düzünü de, dərs hazırlamaqdan yorulmamısan ki?

– Yox, - dedim. – Adam sevdiyi sənət üzərində nə qədər çalışsa da, yorğunluğu hiss etmir. Bir professor deyir

ki, dərsi dərindən öyrənməyə çalışın. Nəbadə onu əzbərləyəsiniz. Əzbərlənən dərs institutun qapısına çatıncaya qədər yadda qalır. Sonra hamısı vızıltı ilə havaya uçur.

Müşfiq gülüb dedi:

– Doğrudan da elədir.

O zaman gənc şairlərdən Ələkbər Ziyatay, Zeynal Xəlil, Sona Məmmədova tez-tez Müşfiqin yanına gələr, yeni əsərlərini oxuyub ondan məsləhət istər, rəyini xəbər alardılar. Müşfiqin gənc istedadlara xüsusi hörməti var idi. Bir dəfə Ələkbər Ziyatay Müşfiqə bir şer gətirmişdi. Şerdə meşədə bitən zərif gülləri təsvir etmişdi. Müşfiq ona dedi:

– Ələkbər, nəyi təsvir etsən tam ver. Məgər meşədə yalnız zərif güllər var? Meşədə bulaq da var, böyük çinar da, şam ağacları da var. Moruq da var, çiyələk də var. Onlara da nəzər sal. Mən mövzudan uzaqlaş demirəm. Qoy meşənin rəngarəng gözəlliyi səni oxşasın. Sən bunların hamısını görüb hiss etməlisən.

Mən Tibb İnstitutuna girəndən sonra əylənməyə, istirahətə qalan vaxtımız daha da məhdudlaşdı. Başımız axır vaxtlar dərsə, işə elə qarışdı ki, tarımız divardan asılı qaldı. Bir gün Müşfiq işdən gəlib nahar etdikdən sonra, gördüm ki, divardan asılı tara diqqətlə baxıb fikrə gedib. Sanki tarı yenicə görüb. Dodaqları bir sirr saxlayırmış kimi sıxılmışdı, onun gözləri nəsə axtarır kimi gah divardan asılan tarımıza, gah mənə baxırdı. Hiss etdim ki, Müşfiqin ürəyi dolub, nəsə yazmaq istəyir. Mətbəxə keçdim.

Bir azdan Müşfiq sevinə-sevinə mətbəxə gəldi.

– Dilbər, - dedi – sənin tarına təzə şer yazmışam, gedək oxuyum. Şerin adını «Nə deməkdir?» qoymuşam.

*Çoxdandır çalınmayır divardan asılı tarın,*
*Tutqun bir ürək kimi telləri paslı tarın,*
*Ey mehriban sevdiyim, gurlayacaq, yoxsa yox?!*





*Mən bilirəm, sənin ki bir qəlbin var sədəfdən,*
*İçindəki incilər saçılıb hər tərəfdən,*
*Dodağında şərqilər çağlayacaq, yoxsa yox?!*

*Sən iclasdan gəlirsən, məni də yormuş kitab,*
*Nə dayanmaq vaxtıdır, iştə tar, iştə mizrab!*
*Nə gözəldir nəğmələr qanadında ucalmaq!..*

*Həyat işdir, döyüşdür, səadətdir, əməkdir.*
*Bilə-bilə bunları dayanmaq nə deməkdir?!*
*Nə deməkdir dünyada tez qarıyıb qocalmaq?!*

Mən sonra başa düşdüm ki, Müşfiq niyə tara belə diqqətlə baxırmış. Müşfiqə dedim:

– Lap yağım da daşsa sənin üçün durub tar çalacağam. Axı Müşfiq, mən tarı sən bəyənən qədər də yaxşı çala bilmirəm. İndi ki, sənin xoşuna gəlir, gərək yaxşı tar çalmağı öyrənəm.

Müşfiq dedi:

– Tarzən Qurban Pirimov mənim dostumdur. Mən ondan xahiş edərəm ki, sənə daha yaxşı tar çalmağı öyrətsin.

Sonra xahiş etdi ki, tarda balıqçı havasını çalım. Müşfiq özünün «Yaşa könül» şerini həmin hava üstündə oxudu.

Bir neçə gün sonra Müşfiq Qurban Pirimovu bizə qonaq gətirdi. Mən süfrə açdım.

Süfrə başında Müşfiq «Nə deməkdir» şerini oxudu. Şer Qurban müəllimin xoşuna gəldi və tarı sinəsinə basıb bizə bir «Rast» çaldı. Beləliklə, Müşfiq uzun müddət divardan asılı qalan tarın sükutunu pozdu.

Bir gün Qurban müəllim bizə halı çox pərişan gəldi. O öz kədərini büruzə vermək istəmirdisə də, biz bunu hiss edirdik. Müşfiq dedi:

– Qurban müəllim, halınız birtəhərdi, yoxsa qəlbinizə dəyən olub.

O, incik səslə cavab verdi:

– Yəqin ki, sən də eşitmiş olarsan, tarı bir musiqi aləti kimi qadağan etmək istəyirlər.

Müşfiq dostunun gileyinə acıdı və dərin fikrə getdi. Haçandan-haçana üzünü ona tutub:

– Eşitmişəm, - dedi. – Sizə deyib qəlbinizi sıxmaq istəmirdim. Mən bu söhbəti eşidəndə ilk dəfə nəzərimdə siz canlandınız. Bəlkə bu hələ bir şayiədir. Kim bilir?! Axı xalqın sevdiyi bir musiqi alətini əlindən almaq onun sevincini əlindən alıb əvəzinə ona qəm badəsi içirtməyə bərabərdir. Buna isə nə partiyamız, nə hökumətimiz razı olar.

Sosializm quruculuğu illərində xalqın xahişi ilə həyata keçirilən bir sıra reformalar Müşfiqin ürəyindən olmuşdu. Məsələn, ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsini Müşfiq ürəkdən alqışlamışdı. O, bu barədə şer də yazmışdı:

*Səndə günahı var bir müqəssirin,*
*Budur müddəinin ən son xitabı:*
*Əlvida! Əlvida, ey köhnə əsrin,*
*Köhnə əlifbası, cındır kitabı.*

Amma tarın qadağan edilməsi kimi söz-söhbət onu sarsıtmışdı. Müşfiq daxili həyəcanını büruzə verməyərək Qurban Pirimovu arxayın salmağa çalışırdı ki, xalqın mütərəqqi ənənələrinin qarşısını almaq quruculuq işlərimizə ancaq ziyan verə bilər.

O, könlümüzü açmaq üçün qoca ustaddan tarı götürüb çalmasını xahiş etdi. Qurban müəllim tarı sinəsinə sıxdı. Tar dilə gəldi, tar inildədi, tar hönkürdü. Mənə elə gəldi ki, tar nalə çəkir, ağlayır, qəşş edir. Qurban müəllim





«Yetim segahı» çalırdı. Sanki tar cəmiyyətdən ayrılıb kimsəsizliyə atılacağını hiss edib fəryad çəkirdi.

Tarın qopardığı nalələr altında Müşfiq özünü çəkdiyi papirosun dumanlarına bürümüşdü. Sanki o da od tutub yanırdı. Mən birdən gördüm ki, Müşfiqin yanıqlı səsi tarın naləsinə qarışdı.

*Oxu, tar, oxu, tar!*
*Səsindən ən lətif şerlər dinləyim,*
*Nəğməni su kimi alışan ruhuma çiləyim.*
*Oxu, tar!*
*Səni kim unudar?*
*Ey geniş kütlənin acısı, şərbəti –*
*Alovlu sənəti!*
*Gözləri qibləyə açılan hasarlı binalar*
*Dinləmiş əzəldən səsini.*
*Papaqlı atalar, çadralı analar*
*Ötürmüş sayəndə köksünü,*
*Düşmüşlər gah şirin, gah acı toruna:*
*Sevinə-sevinə, qoruna-qoruna*
*Çarparaq çargahı divardan-divara*
*Yolçunu yolundan eyləmiş avara.*
*Çalxanmış dərələr, təpələr:*
*Səs vermiş səsinə ləpələr.*
*Oxu, tar, fikrimdə oyansın*
*Baharın, Seyidin qəzəli:*
*Oxu, tar, ruhlansın*
*Şirvanın, Gəncənin mehriban gözəli!*
*Damağdan düşənlər,*
*Ürəyi şişənlər.*
*İlk bahar seyrinə çıxmayan,*
*Özünü dağların döşünə yıxmayan*
*Sinəsi dağlılar,*
*Vəfasız bir eşqin dağınıq zülfünə bağlılar*

*Dəxilin olmuşlar:*
*Qapında təsəlli bulmuşlar.*
*Zilin var, vəsətin, bəmin var,*
*Sənin də quşların dəmindən ayrılan*
*Bir özgə dəmin var.*
*Səni də avara eyləmiş*
*Dağınıq telli bir «zərəfşan»*
*Onunçun segahın danışır*
*Pərişan, pərişan...*

Müşfiqlə Qurban Pirimovun həyəcanları uzun sürmədi. Hər şey onlar deyən kimi oldu. Tar qadağan edilmədi. O yenə həmişəki kimi insan qəlbinin ən zərif, ən incə hiss və duyğularını səsləndirir, insanları mübarizəyə yaşamağa ruhlandırır...

Gəncədəki qohumlarımız bizə tez-tez gəlirdilər. Müşfiq onların gəlişinə çox sevinər, tez getmələrinə razı olmazdı, razı olanda da günü-günə satardı.

Bir gün səhər tezdən qapı döyüldü və mən bu səsə yuxudan ayıldım. Qapını açdım və Müşfiqlə anamı görəndə gözlərimə inanmadım. Bərk tutuldum. Anam mənim boynumu qucaqlayıb dedi:

– Bala, heç narahat olma. Müşfiq mənə hamısını danışıb. O, səni səhər yuxusundan oyatmağa qıymayıb. Bala, allah sizi gözdən, nəzərdən saxlasın. Mən qatardan düşəndə Müşfiq «ana» deyib üstümə elə atıldı ki, mən oğulsuz olduğumu tamam unutdum.

Mən çay gətirdim. Söhbət edə-edə süfrə arxasında əyləşdik. Yeyib-içəndən sonra Müşfiq mənə dedi:

– Leyla ana gəlib deyə işə getməyim gəlmir. İstəyirəm elə onun yanında olum. Ancaq işə mütləq getməliyəm.

O durub geyindi və işə ilk dəfə könülsüz getdi. Anam iftixarla Müşfiqin arxasınca baxdı. Sonra durub





Müşfiqin çox sevdiyi Gəncə dovğasını və dolmasını hazırladı. Müşfiq hər gün işdən gələndən sonra mənə ev işlərində kömək edərdi. Buna anam öz narazılığını bildirdi.

– Dilbər, - dedi, - Müşfiq bütün günü işdə olur. Yəqin ki, işdə yorulur. Ona evdə ancaq dincəlmək lazımdır. Onun evdə işləməsinə sən necə razı olursan?

Anamın bu sözünə məndən qabaq Müşfiq cavab verdi:

– Anacan, bilirəm siz bu sözləri məni çox istədiyiniz üçün deyirsiniz. Ancaq ev işi ilə məşğul olmağı mən özüm istəyirəm. Çünki işdə bütün günü zehni işlə məşğul oluram. Axı insana fiziki əmək də lazımdır. Deyirlər fiziki əmək beynin gimnastikasıdır.

Bir gün mən anamla mətbəxdə plov hazırlayırdıq. Müşfiq bizim yanımıza gəlib nə bişirdiyimizi soruşdu. Mən onun cavabında:

– Plov indi hazır olsaydı yeyərdik. Elə acmışam ki, - dedim. Bu sözü eşidən kimi mətbəxdən çıxıb pencəyini geydi və bayıra getdi. Bir neçə dəqiqədən sonra o evə qayıtdı. Onun əlində üç şiş kabab var idi. O, onları bizim evin yaxınlığındakı kababxanadan alıb gətirmişdi.

Anam təəccüblə dedi:

– Bala, xörəyimiz indicə hazır olur, bunları neynirdin?

Müşfiq:

– Qorxdum Dilbərin iştahı qaça – dedi. Bundan sonra mən Müşfiqin yanında aclığım-toxluğum barədə bir söz demirdim. Anam bir müddət bizdə qaldı. Biz onu Bakının görməli yerləri ilə tanış etdik. Nəhayət bir gün o, getmək istədiyini bildirdi. Biz ondan çox xahiş etdik ki, o həmişə bizimlə qalsın. Anam razı olmayıb dedi:

– Təki siz xoşbəxt olun, bala. Mən geniş həyətə, bağa-bağçaya öyrəşmiş adamam. Burda darıxıram.

Daha bizim sözümüz olmadı. Ertəsi gün biz onu Gəncəyə yola saldıq. Heç yadımdan çıxmır: bir dəfə bö-

yük bacım Pikəxanım kiçik oğlu Fəxrəddinlə bizə gəlmişdi. Onlar bir müddət bizdə qaldılar. Getmək vaxtı çatmışdı. Bacım bilmirdi Müşfiqə necə desin ki, bizi yola sal gedək. Bir axşam Müşfiq evdə olanda bacım Fəxrəddinə baxıb dedi:

– A bala, atanı heç ürəyin istəmir? Müşfiq başını elə qatıb ki, heç evimiz yadına düşmür.

Bacımın məqsədini həssas Müşfiq başa düşdü:

– Pikə bacı, bəlkə Məmməd yeznə üçün sən özün darıxırsan? İndi ki, belədir, mən sabah sizi Gəncəyə yola salaram, - dedi.

Bir gün Müşfiq «Azadlıq dastanı» əsəri üzərində işləyirdi. Neçə gün idi ki, yenə istirahəti, yeməyi, içməyi unutmuşdu. Axşam qapımız döyüldü. Ruhulla Axundov, Kazım Ələkbərli içəri girdilər. Onlar bizimlə mehribancasına görüşüb hal-əhval tutdular. Bir xeyli ədəbiyyatdan, Yazıçılar İttifaqının işlərindən söhbət etdilər. Puşkini xatırladılar, Belinskidən danışdılar. Xeyli söhbətdən sonra Ruhulla Axundov Azərbaycan Sovet Yazıçılar Cəmiyyətinə təzəcə sədr seçilmiş Kazım Ələkbərliyə üz tutub dedi:

– Kazım, siz bilirsinizmi ki, sizə necə məsul idarə tapşırıblar?! Bil ki, səni xalqın ən zərif, ən qiymətli mənəvi xəzinəsinə rəhbər təyin ediblər. Yazıçılar ruh mühəndisidirlər. Onların ürəkləri şüşədən zərifdir, onlardan yaxşı muğayat ol ha!...

Görkəmli partiya və dövlət xadimi Ruhulla Axundov eyni zamanda alim, jurnalist, dilçi və ədəbiyyatşünas idi. Ruhulla Axundov hələ Azərbaycanda Sovet hakimiyyəti uğrunda gedən gərgin mübarizə illərində Bakı fəhlə, əsgər və matros şurasının «Əxbarı» (1918), «Kommunist», «Hürriyyət» (1919), «Bolşevik» qəzetlərinin redaktoru olmuşdur.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra R.Axundov məsul partiya vəzifələrilə yanaşı marksizm klassiklərinin, xüsusilə Leninin çoxcildli əsərlərini Azərbaycan dilinə tərcümə və redaktəsinə böyük əmək sərf etmişdir. R.Axundov «İnqilab və mədəniyyət» jurnalının baş redaktoru vəzifəsində işləmişdir. Onun ədəbiyyat sahəsində də xidməti çox olmuşdur.





Söhbət əsnasında Müşfiq özünü sovet şairi adlandıran, ancaq sönük xalturaçılar, yaradıcılığa yüngül bir peşə kimi yanaşan başabəla «şairlər» barədə yazdığı şerini oxudu.

*Dünən bir şairin keçdim yanından,*
*İldə bir söz çıxmaz xəsis canından.*
*Hissi, həyəcanı olmayan kəslər,*
*Çıxsın birdəfəlik söz meydanından!*
*Şairə ilhamdan maya gərəkdir,*
*Anasız uşağa dayə gərəkdir.*
*Şairəm söyləyir yerindən duran,*
*Adamın üzündə həya gərəkdir!*

Bir qədər söhbət etdikdən sonra qonaqlarımız getdi. Bir gün mənim yanıma bir gənc qadın gəldi. O sıxıla-sıxıla mənə güclə dedi ki, Bakıya təzə gəlib, şəhəri yaxşı tanımır, yatmağa yeri yoxdur. Bu sözləri deyəndə onun rəngi elə allaşdı ki, həyəcan keçirdiyini aşkar hiss etdim. O yaşca məndən az fərqli idi. Ortaboylu, ağbənizli, sarışın saçlı, alman millətinə məxsus olan bu qadın mənim çox xoşuma gəldi. Onun iri səmavi gözləri elə parlaq, elə duru idi ki, mən o gözlərdə incə bir zəriflik və saflıq duydum. Ürəyimdə ona xoş bir məhəbbət oyandı. Ona dedim:

– İstəyirsən bizdə qal, mən yoldaşıma deyərəm, o narazı olmaz.

Mənim bu sözümdən onun rəngi açıldı və mən onun sevindiyini hiss etdim. Mən ona tez çay-çörək qoydum. O utana-utana bir-iki qismət yedi. Sonra mən onun taleyi ilə

maraqlandım. O, başına gələn qəmli bir hadisəni mənə danışdı. Mən onun söhbətini dinlədim və bəlalı taleyinə acıdım. Onun adı Ema idi. Mən süfrəni yığışdırırdım ki, birdən qapının zəngi çalındı. Mən Emaya dedim:

– Yoldaşım gəldi.

Ema təəccübləndi:

– Nə bilirsən odur?

– Mən onun zəngi çalmasından bilirəm.

Mən Ema ilə Müşfiqi tanış etdim. Onun bizdə qalmaq istədiyini bildirdim. Müşfiq gülümsədi:

– Deyəsən tək darıxırsan, özünə yoldaş axtarırsan.

Mən onun cavabında:

– Necə deyirsən elədir, - dedim. O gündən Ema bizdə qaldı və ailəmizin bir üzvü kimi oldu. Mən həmişə ona ürək-dirək verərdim. Qoymazdım ki, darıxsın. «Bu evi öz doğma evin hesab et. Heç bir şeydən çəkinmə. Ürəyin nəyi istəsə bizə de. Biz sənə hər sahədə kömək edə bilərik». Doğrudan da az vaxt içərisində Ema bizim elə hörmətimizi qazandı ki, biz onu bir bacı hesab etdik. Ema çox təmizkar, səliqəli, sadəlövh, qoçaq bir qadın idi. Bir dəfə Müşfiq ilə mən gəzməkdən gəlirdik. Evimizin yaxınlığında qəhvəxana var idi. Müşfiq mənə dedi:

– Dilbər, gedək kofe içək.

Biz qəhvəxanaya daxil olduq. Xidmətçi qadınlardan biri mənə yanaşıb dedi:

– Sənin nə yaxşı yoldaşın vardır. O hər səhər sizdə olan qadınla gəlib bizdən bəzi yemək şeyləri alıb ona verəndə deyir ki, Ema, səndən xahiş edirəm qapını yavaş aç, Dilbər oyanar. Kaş bütün kişilər belə olaydı.

Müşfiq gülümsədi:

– Mən güman etməzdim ki, siz mənim sözümə fikir verirsiniz.

Xidmətçi qız Müşfiqin sözünə gülüb getdi.





Bir gün mən ağır xəstələndim. Hərarətim yüksək idi. Boğazım elə şişmişdi ki, ağzım açılmırdı ki, su içim, yemək yeyim. Müşfiq və Ema çox həyəcanlandılar. Müşfiq özünü itirdi. Mənim öləcəyimi yəqin etdi. Gündə neçə həkim gətirirdi... Müşfiq mənim yanımda oturub dərin xəyala daldı. Saçlarımı oxşaya-oxşaya boğuq səslə:

– Bəlkə anana teleqram vurum gəlsin.

Mən razı olmadım.

– Sən mənim yanımda olanda mən heç ölümdən də qorxmuram. Bilirəm ki, sənin məhəbbətin məni ölümdən də qurtarar. Qorxma, məndə heç bir şey yoxdur. Sənə nə olub, özünü itirmisən, nə yeyirsən, nə içirsən, nə yatırsan.

Müşfiqin rəngi ağappaq ağarmışdı. Sanki o da mənimlə bu xəstəliyi çəkirdi. O mənə məftunluqla baxıb dedi:

– Heç bilmirəm sənsiz mən nə edərəm. Sən mənim mənəvi varlığımsan. Mən səninlə hər dərdimi unuduram. Səni ruhum, nəfəsim deyə çağırıram.

O danışdıqca gözlərindən qeyri-ixtiyari yaşlar axırdı. Mən dedim:

– Əgər məni istəyirsənsə, özünü ələ al. Yoxsa səndən inciyərəm.

O gözlərini sildi. Emanı çağırıb mənim yanımda qoyub yenə də həkim gətirməyə getdi. Mən Emanın gözlərinə baxanda gizlində ağladığını gördüm. Onun gözləri qızarmışdı. O, məni qucaqlayıb öpdü. «Bircə sən yaxşı olsan, heç dərdimiz olmaz». Mən Emaya ürək-dirək verməyə başladım: - Bilmirəm sizə nə olub, adam xəstələnər də, yaxşı da olar. Bu həyəcanlanmaq nə üçündür.

Biz Ema ilə danışanda Müşfiq həkimlə içəri girdi. Müşfiq ona yalvardı ki, hər cür yaxşılıq edər, təkcə diqqətlə məni müayinə etsin. Həkim Müşfiqə söz verdi ki, tezliklə müalicə edəcək və bu qorxulu təhlükədən çıxacağam. Həkim əlindən gələn müalicəni əsirgəmədi. Mən tezliklə sağaldım. Mən sağalandan sonra Emaya dedim:

– Sənin məni bu qədər sevdiyini güman etməzdim. Sən mənə doğma ana-bacıdan da böyük qayğı göstərdin.

Emanın sevincdən gözləri yaşardı.

– Mən sizi həyatda yeganə pənahım sanıram. Allah eləməsin sizin başınıza bir iş gəlsin, mən o saat özümü öldürərəm – dedi.

Əfsuslar olsun ki, mən sonralar Emanı əbədi itirdim. Ancaq o, özünün bütün insani keyfiyyətləri ilə mənim ürəyimdə həmişə yaşadı və indi də yaşamaqdadır.

Bir gün Müşfiq 18 nömrəli məktəbdə birlikdə işlədiyi ədəbiyyat müəllimi Məmməd müəllimlə bizə gəldilər. Məni tanış etdikdən sonra söhbətə başladılar. Onlar ailə qurmamışdan qabaqkı həyatlarını xatırladılar. Məmməd müəllim Müşfiqlə ilk tanışlığını, onu sadə, nəcib bir insan kimi sevdiyini belə danışdı: «Mən Müşfiqlə 1929-cu ildə Gəncə parkında Azərbaycan gənc sovet şairləri ilə təşkil olunmuş görüş gecəsində tanış olmuşam. Həmin gecəyə Bakıdan bir qrup gənc şairlər də dəvət olunmuşdu. Hələ gecə başlanmamışdı. Biz parkda bir qrup gənclə toplaşıb söhbət edirdik. Bir də gördük parka Bakıdan gələn bir qrup yazıçı və şairlər daxil oldu. Bunların içərisində Səməd Vurğunla Müşfiq də var idi. Mən Səməd Vurğunla tanış idim. Ancaq Müşfiqi tanımırdım. Biz onları görcək gedib görüşdük. Səməd məni Müşfiqlə tanış etdi. Biz söhbətə başladıq. Müşfiq gəncəli dostlarından kimisə gördü, O, tələsik bizdən ayrılıb dostlarının yanına getdi. Müşfiq gedəndə Səməd arxasınca baxıb dedi: «Müşfiq bizim ən istedadlı yoldaşlarımızdandır. Məmməd müəllim, onu sev, əsərlərini oxu. Məni ötsə yalnız Müşfiq ötə bilər». Səməd bu sözləri ilə Müşfiqi bizim qarşımızda sanki əlçatmaz göylərə qaldırdı.

Gecə başlandı. Onlar öz hərarətli çıxışları ilə hamını heyran qoydular. Bu görüşdən bir müddət keçdi. Mən də Bakıya köçdüm. Bir gün yay fəsli idi. Yoldaşlarımla bulvara gəzməyə çıxmışdım. Biz gəzə-gəzə gəlib boş skamyaların birində oturduq. Yanımızda cavan qızlar da oturmuşdu. Biz o qızların kim olduğunu bilmirdik. Sən demə, Müşfiq də yoldaşları ilə bulvarda gəzirmiş. Hərdən bizə nəzər salırmış. Bir də gördüm bir nəfər gəlib mənə dedi:





– Məmməd müəllim sizsiniz?

– Bəli, - dedim

– Müşfiq xahiş edir ki, siz o skamyadan durasınız. Onun sevdiyi qız Dilbər burada oturub.

Mən durmadım. Sonra bir nəfər də gəldi. Yenə durmadım. Axırda Müşfiqin özü gəldi. Mənimlə görüşüb dedi:

– Məmməd müəllim, mən güman etməzdim ki, mənim xahişimə laqeyd baxarsınız.

Biz yanımızda Müşfiqə yer göstərib oturmasını xahiş etdik. Sonra mən onunla söhbətə başladım.

– Müşfiq, mənim bu skamyadan durmamağımın səbəbi o idi ki, əvvəla mən şorgöz adam deyiləm. – Bunu deyəndə Müşfiqi gülmək tutdu. – İkincisi, sənin sevgilin mənim doğma bacım olmalıdır. Axı bizim sizə xüsusi hörmətimiz var. Ürəyi şişə qədər zərif, saf Müşfiq mənim sözlərimə inandı. Özü də birtəhər oldu. Dedi:

– Məmməd müəllim, gərək məni bağışlayasınız.

– Dilbər xanım, başınız şirin söhbətə elə qarışmışdı ki, bizim bu işlərimizdən xəbəriniz olmadı.

Mən gülə-gülə dedim: - Yaxşı ki, dalaşmayıbsınız.

– İndi biz bir yerdə işləyirik. Müşfiqin yoldaşlıqda sədaqəti, kollektivə münasibəti, insanpərvərliyi məni heyran qoyur. Mən sizə xoşbəxt həyat arzulayıram».

Biz Məmməd müəllimə öz təşəkkürümüzü bildirdik.

Müşfiq nikbin şair idi. O, hamını da belə görmək istəyirdi. Ailədə səmimiliyi çox sevərdi. Mən onunla ehtiyatlı dolanar, şair qəlbinə toxunmaqdan qorxardım. Mən özüm də şən olmağı çox sevərdim. Qaraqabaq adamlardan uzaq qaçardım. Müşfiq onu tərifləməyi sevməz, düzgün

tənqidləri yaradıcılığı üçün zəruri hesab edərdi. Nahaq tənqidlərdən əsəbiləşərdi. Müşfiqin belə əsəbiləşməyi məni də narahat edərdi. Mən bu haqda ona heç bir söz deməzdim. Həyəcanlarımı büruzə verməməyə çalışardım. Ancaq bəzən gecələr yuxum ərşə çəkilərdi. Sanki yatağıma qor dolardı. Bütün varlığı ilə yeni həyata, yeni quruluşa bağlı olan gənc şairə bu nahaq tənqidlər nəyə lazım idi? Həssas Müşfiq mənim həyəcanımı hiss edər, son zamanlar öz işləri barədə heç nə deməzdi. Bununla da o məni iztirabdan qurtarmaq istəyirdi. Lakin Müşfiq yanılmışdı. O qəlbində olanları məndən gizlətməyə çalışsa da, mən onun ürəyini qəmli halından başa düşürdüm. O mənə təsəlli vermək üçün deyərdi:

– Bir az şairliyimlə məşhur oluramsa, bir az da tənqidlərlə məşhurlaşaram.

Haqsız tənqidlər Müşfiqi əsəbiləşdirsə də ruhdan sala bilmirdi. Əksinə, öz yaradıcılığı üzərində daha ciddi işləyərək, daha geniş axtarışlar aparırdı. Müşfiq mənə deyərdi:

– İşdən yorğun gələndə qapını üzümə gülə-gülə açanda hər dərdimi unuduram. Yaxşı ki, sən varsan. Sənin bir gülüşün, bir kəlmən mənə bəzi ilhamsızların vurduğu ağrı-acını unutdurur. Sonra o bu haqda özünün məşhur «Sənin gülüşlərin» şerini yazmışdı.

*Qarşımda nazlanıb yenə gülürsən,*
*Bilsən gülüşlərin nəyə bənzəyir?*
*Mən desəm artıqdır, özün bilirsən,*
*Lalə yarpağında şehə bənzəyir.*

*Sənin gülüşlərin bir rüzgar kimi*
*Əsərkən, arzumun gülü açılır.*
*Gülsə dodaqların, ulduzlar kimi*
*Ruhuma bir sərin işıq saçılır.*





*Söylə, gözəllərin dodaqlarından*
*Bu oynaq gülüşlər umulmuşmudur?*
*Sənin hər qəhqəhən ay kənarından*
*Keçən buludmudur, uçan quşmudur?*

*Sənin gülüşlərin yaz səhərindən*
*Hissimə, fikrimə sanki rəng alır.*
*Gül ki, şerlərim gülüşlərindən*
*Qırılmaq bilməyən bir ahəng alır.*

*Sən güldüyün zaman bu şad günümdə*
*Açılır qarşımda, canlanır bahar.*
*Bəzən baş ucumda, bəzən önümdə*
*Şimşəklərim çaxar, sularım axar.*

*Cahan ki, solmayan bir bağça-bağdır,*
*Burda rəvadırmı gülmədən ölmək.*
*Yazıq o şəxsə ki, qaraqabaqdır,*
*Nə qədər yaraşır insana gülmək.*

İndi də Müşfiqin müəllimlik fəaliyyətindən danışmaq istəyirəm.

Mənlə tanış olanda Müşfiq Bayıl qəsəbəsindəki məktəbdə ədəbiyyat dərsi deyirdi. Sonra Müşfiqi indiki C.Cabbarlı adına küçədəki 18 nömrəli məktəbdə ədəbiyyat müəllimi təyin etdilər. Müşfiqdə müəllimə məxsus olan ən gözəl xüsusiyyətlərdən biri şagirdlərində ədəbiyyata böyük maraq oyatmaq bacarığı idi. Lakin o, bu bacarığından sui-istifadə etməz, şagirdlərinin hamısının ədəbiyyatçı olmasını istəməzdi, kimin hansı sənətə həvəsi varsa, o sahədə ixtisaslaşmasını məsləhət görərdi. Ancaq hamıdan tələb edərdi ki, doğma ədəbiyyatını bilsin, ədəbi prosesi izləsin, çünki bunsuz həqiqi ziyalı olmaq mümkün deyildir.

Müşfiq şagirdlərini ədəbi yığıncaqlara da aparırdı. Hətta özü ilə Azərbaycan Sovet yazıçılarının birinci qurultayına da gətirmişdi. Şagirdlərlə yaxın ülfət sahəsində Müşfiq məktəb həyatından, gənclik aləmindən gözəl mövzular seçir, prototipləri göz önündə olan bu mövzuları ilhamla qələmə alırdı. Məsələn, «Şölə» və «Buruqlar arasında» poemalarını göstərmək olar. Müşfiq Şöləni və sevgilisi Ənvəri olduğu kimi həyatdan almışdır, hətta adlarını belə dəyişdirməmişdir. Şölənin sevgilisi Ənvər Müşfiqin şagirdlərindən idi. O bizə tez-tez gələrdi. Ənvər ucaboylu, səmimi, dostu və sevgilisi üçün canından keçməyə hazır olan bir gənc idi. Müşfiq özünü sanki güzgü kimi qəhrəmanı Ənvərdə görürdü. Müşfiq müəllimlə şagird arasında olan hörməti saxlamaq üçün hər məsələni Şölədən öyrənə bilməzdi. Ona görə də o, Ənvərlə yaxından tanış olub Şölənin həyatını öyrənmişdi. Müşfiqi düşündürən bu idi ki, Şölə həmişə dərsini əla oxumaqla bərabər, məşğələlərdə çox fikirli, kədərli olardı. Müəllim ona mənəvi yardım etmək üçün yollar axtarırdı. Bizə Şölə də gəlirdi. O, sarışın, qıvrımsaçlı, qəşəng bir qız idi. Müşfiq də, mən də onun xətrini çox istərdik. Ancaq belə gözəl keyfiyyətlərə malik olan bir qız çox geridə qalmış, mövhumatçı bir ailəyə qismət olmuşdu. Evdə onu sevmədiyi bir kişiyə ərə vermək istəyəndə etiraz etmişdi. Ona görə də qızı döyübincidirdilər, sevdiyi Ənvərlə danışmağa qoymurdular. Poemada Şölənin acı taleyi və Ənvərlə Şölənin sevgi macərası həqiqətdə olduğu kimi təsvir edilmişdir. Yadıma gəlir ki, Müşfiqdən sonra Şölə və Ənvər, eləcə də «Qaya» poemasında təsvir etdiyi uşaqlar bizə gələr, mənim kədərimə şərik olar, göz yaşları tökə-tökə mənə təsəlli verərdilər.

Vaxtilə Müşfiqin çox sevdiyi şagirdlərindən Əzizə xanım Məmmədova hal-hazırda 80 nömrəli məktəbdə dərs





deyir. O, Müşfiqi xatırlayıb deyir: «Müşfiq çox həssas və qayğıkeş müəllim idi. O, şagirdlərinin arzu və diləklərini gözlərindən duyardı. Mən dərslərimi yaxşı oxuyurdum. Amma boyum balaca olduğu üçün dərsi danışmağa çıxanda utanırdım. Müşfiq müəllim bunu hiss edib dedi ki, Əzizə, boyun balaca olsa da, biliyin çoxdur. Görürsənmi brilyant da balacadır. Amma necə qiymətlidir!... Sən də öz biliyin ilə hamı üçün qiymətlisən. Əziz müəllimimin bu sözlərindən sonra mən daha utanmadım. Müşfiq müəllim iki alan tələbələrə ürəkdən acıyırdı. Onlara ata nəvazişi ilə öyüdnəsihət verib deyərdi: «- Uşaqlar, amandır, işi, zəhməti, elmi sevin, yalnız bu keyfiyyətləriniz sizi səadətə qovuşduracaq, mən də sizinlə fəxr edəcəyəm».

Müşfiqin şagirdlərindən onu müəllim, tərbiyəçi və humanist bir şəxsiyyət kimi yad edənlərə, xatirəsini əziz tutanlara çox rast gəlmişəm. Onlar indi kafedralarda dərs deyir, elmi-tədqiqat institutlarında çalışır, mətbuat və ədəbiyyat sahəsində qələm çalırlar.

1965-ci ildə Müşfiqin yaradıcılıq gecəsi keçirilirdi. Gecəyə bir zaman Müşfiqi istedadı ilə heyran qoyan və indi tibb elmləri doktoru olan şagirdi Zəhra xanım Salayeva da gəlmişdi.

Gecəni xalq şairi Rəsul Rza açdı. Söz Müşfiqin şagirdi Zəhra xanım Salayevaya veriləndə o öz şagirdlik vaxtından yadigar saxladığı xatirat albomunu çıxartdı. Həmin albomda Müşfiqin öz dəst-xətti ilə Zəhra xanıma yazdığı bir şer var idi. Z. Salayeva bu yadigarın tarixindən başlayıb dedi :

– Mən Bakının Oktyabr (İndiki Yasamal – red.) rayonundakı 18 nömrəli məktəbdə oxuyurdum. Xətrini əziz tutduğum müəllimlərimdən öz dəst-xətləri ilə yazılmış xatirə almağı xoşlardım. Bu albomda sevimli müəllimim M. Müşfiqin də mənə həsr etdiyi bir şeri var.

Zəhra xanım şeri əzbər deməyə başladı :

*« Zəhra üçün.*
*İrəli qoş, irəli,*
*Ey mənim gözəl qızım !*
*Qalma həyatdan geri,*
*Oxu mükəmməl, qızım !*

*Uca dağlardan atlan,*
*Hər çətinliyə qatlan,*
*Bir quş kimi qanadlan,*
*Göylərə yüksəl, qızım !*

*Mehriban ol insana,*
*Bir yuxarı baxsana :*
*Göydən günəş, ay sana*
*Eyləyir gəl-gəl, qızım !*

*M. Müşfiq »*

M. Müşfiq bu şeri mənə 1934–cü il mart ayının 11–də yazmışdır. Mən bir gün ədəbiyyat dərsində utana-utana Mikayıl müəllimə yanaşdım. Albomu ona uzadıb xatirə yazmasını xahiş etdim. O gülümsündü. Əli ilə saçımı sığallayıb dedi ki, sən get müəllimlər otağından jurnalımızı gətir, mən də sən gələnəcən yazaram. Mənə elə gəldi ki, Müşfiq müəllim, albomu ən azı bir həftə özündə saxlayacaq. Ancaq mən müəllimlər otağından jurnalı gətirənə qədər xatirəni şerlə yazmışdı. Tənəffüsdə bütün şagirdlər başıma toplaşdı. Biz şeri dönə-dönə oxuduq.

Müşfiq müəllim dərs deyəndə zəng səsini eşitməzdik. Şeri o qədər məlahətlə oxuyardı ki, qulaq asmaqdan doymazdıq. Dərs zamanı şagirdlərə şer oxumaq qaydasını öyrədəndə başqa müəllimlərimiz də gəlib bizim sıralarda otururdular. Çoxumuza «qızım», «oğlum» - deyə müraciət





edərdi. Əslində bu ifadə onun yaşına o qədər də uyğun deyildi. Ancaq mehriban olduğu qədər də sadə və təvazökar Müşfiqə bu sözlər çox yaraşardı. Ədəbiyyatdan imtahan verdiyimiz günü xatırlayıram. Komissiya imtahan götürürdü. APİ-dən bir neçə nümayəndə gəlmişdi. Gözəl xətti olan Xanımnisə adlı bir qız «5» aldı. Bundan sonra mənim növbəm çatdı. Ürəyim çırpınırdı. Ancaq Müşfiq müəllim məni bilet çəkməyə qoymadı.

– Qızım, sənə beş zayid verirəm, - dedi. – Kim razılaşmırsa, qoy sənə sual versin.

Zəhra xanım görüşə toplaşanlardan icazə alıb Müşfiqin «Göygöl» şerini əzbər oxudu.

*Ey cocuq könlü qədər şən Göygöl!*
*Köksü almas kimi rövşən Göygöl!*
*Ətəyindən əyilib öpdüm mən,*
*Kim qaçar sevgilisin öpməkdən.*

Bu şeri mən ona görə oxudum ki, Müşfiqin qəlbi də Göygöl kimi şən, almaz kimi saf idi. Axırıncı dəfə mən bir qrup məktəb yoldaşımla Müşfiq müəllimlə C.Cabbarlı küçəsində rastlaşdıq, xeyli söhbət etdik. Onun axırıncı sözü bu oldu: «Bilirəm ki, mənim şagirdlərim vəfalıdırlar. Onlar məni heç vaxt unutmayacaqlar».

Həmin illərdə 18 nömrəli məktəbdə təhsil almış, indi respublikamızın görkəmli alimlərindən sayılan tibb elmləri doktoru Əhməd Abasquliyev, müəllimi Müşfiqi xatırlayıb deyir:

«Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının tarixini gözəl bilən əziz şairimiz keçdiyi hər bir dərsi kiçik hekayələr, zərbi-məsəllər, şer və tarixi rəvayətlərlə zənginləşdirərdi. Buna görə də onun dərsi adətən, ədəbiyyat haqqında mühazirəyə çevrilərdi. Onun dərslərinə məktəbimizin başqa müəllimləri də gəlib qulaq asardılar.

Buna görə də bizim ədəbiyyat dərslərini həmişə gündəlik cədvəlin son saatlarına salardılar və biz çox vaxt axşam düşənə qədər sevimli Müşfiqə qulaq asardıq».

Yadımdadır ki, bir dəfə söhbət orta məktəbi qurtarandan sonra hansı sahədə ixtisas almaqdan düşdü. Bir gənc utana-utana müəlliminə dedi ki, kitabxanadan təbabətə dair kitablar alıb oxuyub, tibb elminin möcüzələrinə lap heyran qalıb. İstəyi də budur ki, bəlkə gələcəkdə bu sahədə ixtisas alsın. Müşfiq şagirdinin başını tumarlaya-tumarlaya dedi ki, əlbəttə, ürəyin hansı sahəyə yatırsa, o sahədə ixtisas almaq məsləhətdir. Ancaq unutma ki, bəyənib seçdiyin elm sahəsinə bütün varlığınla bağlanmalı, onu mükəmməl öyrənməlisən, hamıdan yüksək, hamıdan başda olmağa çalışmalısan!

Şagirdinə o zaman etdiyi bu nəsihətlərdən «Duyğu yarpaqları»nın bir qitəsi yarandı:

*İstər bəstəkar ol, istər nəqqaş ol,*
*Şair ol, rəssam ol, heykəltaraş ol,*
*Yaratdığın şeyi sevərək yarat,*
*Hamıdan yüksək ol, hamıdan baş ol!*

Müşfiqin əziz şagirdlərindən olan texnika elmləri doktoru, Dövlət mükafatı laureatı Nəsrulla Babayevin xatirələrində oxuyuruq: «Məktəb elə mehriban ana qoynu və müəllim elə böyük bir simadır ki, nə onları bir-birindən ayırmaq, nə də unutmaq olar. Harada yaşayırsan, yaşa, hansı sənətə qulluq edirsən et, yenə də sənə elm öyrədən, səni həyata hazırlayan müəllimi unutmaq olmur.

Mən vaxtı ilə Oktyabr (İndiki Yasamal rayonu – *red.*) rayonundakı 18 nömrəli məktəbdə oxuyurdum. Dərs ilinin əvvəlində məktəbə belə bir şad xəbər yayıldı: «Yuxarı siniflərin ədəbiyyat müəllimi şair Mikayıl Müşfiq olacaqdır».





Biz Müşfiqin adını eşidib, şerlərini oxumuşduq, indi isə onun özü ilə hər gün görüşəcək, ondan bilik alacaqdıq.

Müşfiq müəllim ilk günlərdən sinfimizi ələ aldı, hamımızın hörmətini qazandı. O, proqram və dərsliklərdə olanları bizə bacarıqla öyrətdiyi kimi, əlavə materiallar da göstərir, fənnə olan marağımızı artırırdı. Müşfiq o zaman çox gənc idi. Lakin sadəliyi, təvazökarlığı, qayğıkeşliyi, ciddi davranışı, hətta geyimi ilə bir nümunə kimi indi də gözümün önündən getmir. O, fitrətən müəllim idi. Təsadüfi deyil ki, onun əsərlərində həqiqi müəllim surəti sovet ziyalılarına örnək, nümunə kimi təsvir olunur».

Vaxtı ilə Müşfiqin çox sevdiyi şagirdlərindən biri Hüseynbala Nemətzadə indi «Müəllim» qəzeti redaksiyasında ədəbiyyat şöbəsinin müdiridir. O vaxt Hüseynbalada da şer yazmaq həvəsi var idi. O bir dəfə bir neçə şer yazıb sevimli müəlliminin yanına gətirdi. Müşfiq Hüseynbalanın şer yazmasını alqışladı. Şerlər də xoşuna gəldi. Hüseynbala Müşfiqə dedi: - Müəllim, indi bu şerləri siz özünüz redaktə edib çap edilməsinə kömək edin. Müşfiq Hüseynbalaya dedi: - Mən bu şerləri bu saat çap etdirərəm, ancaq bəs sonra? Sən tələsmə, get bir yüzəcən şer yaz, çap etdirməyi mənim boynuma. Özü də heç kimdən qorxma. Sənin şerin haqqında pis fikir söyləsələr, sən qorxma, ruhdan düşmə, mübariz ol! Sən onlara denən ki, mənim müəllimim şair M.Müşfiqdir. O bizə şer yazmaq haqqında da dərs keçib.

Bundan sonra Hüseynbala başladı həvəslə yazmağa. Onun bir şerinin axırıncı misraları belə qurtarırdı:

*Yazıram, yazıram, qorxmuram heç kimdən,*
*Çünki dərs almışam şair Müşfiqdən.*

Bakıya köçəndən sonra orta məktəbdə dərs verməyə başladım. İctimai işlərdə fəal iştirak etdiyim üçün kollek-

tiv məni Bakı Sovetinə deputat seçmişdi. Mən məhəlləmizdə seçicilər arasında mədəni təbliğat işləri aparırdım. Mən və mənim deputat yoldaşlarım seçicilərin tapşırığını yerinə yetirmək üçün səylə çalışırdıq. Bizim bu fəaliyyətimizdən zövq alan Müşfiq qadın azadlığı, qadın səadəti mövzularında yeni-yeni əsərlər yazırdı. Ümumiyyətlə, Müşfiqin yaradıcılığında insan taleyi və xüsusən Azərbaycan qadınlarının həyatının təsviri geniş yer tuturdu. 1934-cü ildə Leyla Məmmədbəyova, Sona Nuriyeva ilk dəfə təyyarəçilik məktəbini bitirib polad quşlarını səmaya ucaldanda Müşfiqin sevinci yerə-göyə sığmırdı.

*Bir nəhəng ölkənin timsalısan sən!*
*Yüksələn bir elin xəyalısan sən!*
*Bütün qadınlığı ardınca səslə,*
*Səslə, döyüşsünlər köhnə qəfəslə. –*

deyən Müşfiq Azərbaycan qadınlarına həsr etdiyi «Səhər» poemasını yazmışdı. Həmin əsər o vaxt keçirilən respublika müsabiqəsində mükafat qazandı. Müşfiq «Əfşan» (1933), «Şölə» (1934) əsərlərini də keçmişdə «bir yol gülmək üçün yüz yol ağlayan» Azərbaycan qadınına həsr etmiş, onun Vətənimizdə yaranmış sosialist inqilabı sayəsində azadlıq və hüquq bərabərliyi qazandığını, cəmiyyətin inkişafında fəal iştirak etdiyini, bütün mənəvi gözəlliyini xalqın səadətinə verdiyini tərənnüm edirdi. Bu əsərlərin prototiplərini şair «gündən-günə gözəlləşən» həyatdan alırdı.

Müşfiqin «Mənim dostum» (1934) və «Qaya» (1935) poemalarının yaranması prosesini xatırlayıram. Bu əsərləri yazmamışdan qabaq Müşfiq aylarla düşünər, xəyala dalar, təsvir edəcəyi adamların taleyinə yanıb-yaxılar, gah kədərlənər, gah sevinərdi. Axı o bu adamları demək olar ki, hər gün görür, onlarla söhbət edir, hətta onların həyatına müdaxilə edib tutduqları yoldan çəkindirməyə, onlara kömək etməyə çalışırdı.





«Mənim dostum» poemasında təsvir edilən hadisənin qəhrəmanı bizim qonşuluğumuzda yaşayırdı. O, dələduzun, əliəyrinin biri idi. Çalışdığı vəzifələrdən pis əməllərinin üstündə neçə dəfə qovulmuşdu. Özü də bir bölük külfət sahibi idi. Müşfiq deyirdi ki, mənim ona yox, balalarına yazığım gəlir, onun axırı pis qurtaracaq. Müşfiqin dediyi kimi də oldu. Çalışdığı xalq maarifi sahəsində saxtakarlıq etdiyi üçün onu tutdular. Arvadı da bu hadisədən ruhən sarsılıb xəstəxanaya düşdü, körpə uşaqları pasibansız qaldı. Yadımdadır ki, Müşfiq onlara maddi yardım edər, hətta uşaqlara hər gün isti xörək bişirib aparmağı məndən xahiş edərdi. Mən onun xahişinə əməl edərdim.

«Qaya» poemasının hadisələrini, prototiplərini də Müşfiq gündəlik, adi həyatdan almışdır.

Həmin illərdə, hələ küçələrdə yersiz-yurdsuz uşaqların kökü kəsilməmişdi. Partiya və məktəb yurdsuz uşaqları məktəbə, uşaq evlərinə cəlb etmək işini müəllimlərə, komsomolçulara, deputatlara bir vəzifə kimi həvalə etmişdi. Müşfiq də şair və vətəndaş təki bu işə biganə qalmaq istəmirdi. O, məktəbdən, ailədən kənar düşmüş, küçədə tiyan altında gecələyən sahibsiz uşaqların həyatı ilə maraqlanmağa başladı. Qarda-boranda onları müşahidə edər, onlarla söhbət etməyi, onlara maddi kömək etməyi özünə ar bilməzdi. Hətta yurdsuz uşaqlardan evimizə gəlib-gedən də vardı. Əvvəllər Müşfiqin bu halı mənə qəribə gəlirdi. Sonralar hər şey aydın oldu. Sən demə o, «Qaya» poemasını yazırmış. Əsərdə göstərilən müəllim Müşfiq özü idi, təsvir edilən uşaqlardan Vaska, Mişka bizim küçədə yaşayırdılar.

Bir dəfə harasa gedirdik. Birdən Müşfiq nəzərimi o biri səkiyə cəlb etdi. Bir milis nəfəri iki yurdsuz uşağı yanına salıb aparırdı. Müşfiq mənə dedi:

– Dilbər, gəlsənə görək milis işçisi o uşaqları hara aparır?

Biz yaxınlaşdıq. Uşaqlar soyuqdan əsim-əsim əsirdilər. Biz milis nəfərinə kim olduğumuzu dedik və uşaqların taleyi ilə maraqlandıq. Əgər razı olarsa bu uşaqların uşaq evinə düzəlməsinə kömək edərik – dedik.

Milis işçisi razı oldu. Biz uşaqları yaxındakı yeməkxanaya apardıq, yedirib-içirtdik, sonra evə gətirdik. Ertəsi gün onları çalışıb uşaq evinə düzəltdik. Onlar tamamilə dəyişilib yaxşılaşmışdılar. Bizi görəndə ən əziz adamlarını görür kimi sevinirdilər.

Müşfiq öz yaradıcılığı üzərində inadla çalışırdı. Onun hərəkətlərində, davranışında şair çılğınlığı, şair narahatlığı var idi. O sözlər, ibarələr, təşbehlər, zərbi-məsəllər tapmaqda çox həssas idi. Yazacağı mövzuya günlərlə, aylarla hazırlaşar, fikri-zikri həmin mövzu yanında qalardı. Bu vaxt onunla danışmaq çətin olardı. Adətən coşğun və qaynar təbiətli Müşfiq hər şeydən narahat olardı. Lakin mənimlə sərt rəftar etməzdi. Mən onun işinə mane olduqda belə öz narazılığını büruzə verməzdi.

Bir gün Müşfiq «Qaya» poeması üzərində gərgin işləyirdi. Neçə gün idi ki, rahatlıq nə olduğunu bilmirdi. Mən bərk darıxdım. Müşfiqə yanaşıb qələmini əlində tutdum. «Müşfiq, bir az istirahət et. Dur gəzməyə çıxaq» - dedim. Müşfiq əlindəki qələmini yerə qoydu, üzümə baxdı. Heç bir söz demədi. Narazılığını yalnız baxışı ilə bildirdi. Mən onu şair xəyalından ayırmışdım. Bir də o işləркən mən ona toxunmazdım.

Müşfiqin cibində həmişə qeyd dəftərçəsi olardı. O, eşidib bildiyi hər təzə sözü, fikri ora qeyd edər, əsərlərində istifadə edərdi. Bir gün mən evi səliqəyə salırdım. Müşfiqin yazı stolunun üstündəki vərəqlərin qat-qarışıq olduğunu görüb onları sahmana saldım. Müşfiq işə gedəndə stola yaxınlaşıb nə isə axtarırdı. Ancaq tapa bilmədi. Mən ondan nə axtardığını soruşdum. O dedi:





– Dilbər, stolun üstünü sahmana saldığın üçün çox sağ ol. Ancaq mənə lazımlı vərəqi tapa bilmirəm. Səndən bir xahişim var, evə səliqə verəndə mənim stoluma toxunma, vərəqləri necə qoymuşamsa, qoy eləcə də qalsın.

– O işə getmək üçün evdən çıxdı, az sonra yoldan qayıdıb gəldi. Mən ondan nə üçün qayıtdığını soruşdum. O dedi:

– Qorxdum yazı stolu haqda olan söhbət sənin xətrinə dəyər.

Mən gülümsündüm və onun bu qədər həssaslığına heyran qaldım.

– Sənin haqlı sözündən mən niyə inciyirəm.

Müşfiq insan qəlbinə toxunmaqdan çox qorxardı. O, hər sözünə, hər hərəkətinə çox fikir verərdi.

Bir gün Müşfiqin bacısı Balacaxanım bizə qonaq gəldi. Biz ikimiz birlikdə evi sahmana saldıq. Ev əşyalarının bəzisinin yerini dəyişdik. Müşfiq işdən gəldi və bacısını bizdə görüb sevindi. O, evə nəzər salanda evdə olan dəyişiklik onun nəzərindən qaçmadı. Bunun Balacaxanımın işi olduğunu anlayıb onu kənara çəkdi və nə isə dedi. Balacaxanım ucadan gülüb dedi ki, bunu Dilbər özü məndən xahiş edib. Sən onu bil ki, mən Dilbərin xətrini səninkindən az istəmirəm. O da məni çox istəyir və məndən bəzi məsləhətlər almağa gəlir. O məni özünə böyük bacı hesab edir. Bizim aramızda olan səmimiyyət Müşfiqin sevincinə səbəb oldu.

Bir dəfə Müşfiq mənə 12 nömrəli məktəbdə oxuduğu günlərdən – şagirdlik həyatından kiçik xatirələr danışdı. Bizim sinfin şagirdləri bir-birinə çox səmimi və qayğıkeş idilər. Yadımdadır ki, sinfimizdə bir nəfər şagirdin vəziyyəti çox ağır keçirdi. Biz hərdən yığışıb ona köməklik edirdik. Gördük ki, belə arabir əl tutmaq onun eh-

tiyaclarını ödəmir, onda hər uşaq, valideynin razılığı ilə, evdən ayda 1 manat gətirdi və sinfimizin adından ona aylıq təqaüd kəsdik. Beləliklə, yoldaşımızı çətin vəziyyətdən qurtardıq.

Mənim o zamankı rəfiqələrimdən biri də Həmidə Babayeva idi. Həmidəni də 1934-cü ildə mənimlə bərabər şəhər Sovetinə deputat seçmişdilər. Bizim ailəlikcə dostluq münasibətimizdə Müşfiqin xüsusi rolu olmuşdur. Bu barədə Həmidə xanımın oğlu, jurnalist Zeynal Babayevin xatirəsini oxuculara çatdırıram: «Anam Həmidə Babayeva iyirminci illərin axırlarında çadrasını atandan sonra ictimai həyatda fəal iştirak etməyə başlamışdı. O, ən çox Oktyabr Rayon Mənzillər İttifaqının nəzdindəki Qadınlar Şurası ilə əlaqə saxlayırdı. Onun şurada olan rəfiqələri tez-tez evimizə gəlirdilər.

Yaxşı yadımdadır, altıncı sinifdə oxuyurdum. Bir dəfə məktəbdən qayıdanda evimizdə tanımadığım ucaboy, cavan bir qadın gördüm. Salam verdim. Cavan qadının anamın rəfiqəsi Dilbər bacı olduğunu öyrəndim. Çox çəkmədən düşbərə qazanı pıqqıldadı. Qonaq bizimlə birlikdə süfrə başında əyləşdi, iştaha ilə yedi, hətta bir neçə dəfə zarafatla: «Bizim kişinin yeri görünür» – dedi.

Hava qaralana yaxın Dilbər bacı yerindən qalxdı. O, evimizdəkilərlə vidalaşanda anam mənə tərəf dönüb pıçıldadı:

– Apar Dilbər bacını ötür...

Aparıb ötürdüm. Evə qayıdanda anam soruşdu:

– Bilirsənmi, Dilbər bacı kimdir?

Anam cavabımı gözləmədən yeni bir sual verdi:

– Şair Mikayıl Müşfiq haqqında eşitmisənmi?

Cəld cavab verdim:

– Əlbəttə! Onu tanımayan var ki?! Hələ bir neçə şerini əzbər bilirəm... – Anam cavabımdan razı qaldı, başımı sığalladı və nəvazişlə əlavə etdi:





– Bax, Dilbər bacı həmin Mikayıl Müşfiqin həyat yoldaşıdır. O da bizim qadınlar şurasının üzvüdür.

Bir neçə gündən sonra isə əziz şairimizin şəxsən özü ilə tanış olmaq xoşbəxtliyi mənə qismət oldu.

Müşfiq evimizə ilk gəlişi zamanı mənə və kiçik qardaşlarıma – yaşlarımıza müvafiq olaraq – titul vərəqlərində xatirə qeydləri olan kitab gətirmişdi.

Bağımız Buzovnanın «Tuğay» adı ilə məşhur olan sahəsində yerləşirdi. Bağ qonşularımız arasında o vaxtın məşhur qəzəlxanı hesab edilən Azər və buzovnalı molla Qulam (həmkəndliləri «molla» ləqəbini ona məhz hərtərəfli biliyə malik olmasına görə vermişdilər) da var idi. Adlarını çəkdiyim bu adamlar hər axşam Qulamın bağında iri ərik ağacının altında fənər işığında əyləşib qədim kitabları avazla qiraət edər, fars və ərəb dillərində əzbərdən şer söyləyər, oxunan şerlərin mənasını şərh edərdilər. Ərik ağacının altında onlardan başqa ailələri ilə birlikdə ətraf bağlarda dincələn çoxlu sinli adam toplaşırdı.

İyulun axırlarında bir axşamçağı Müşfiqlə Dilbər bacı bağa gəldilər. Elə həmin axşam Müşfiq Qulamla, Azərin görüşünə getdi. Onlar əziz qonağı böyük hörmət və ehtiramla qarşıladılar. Müşfiqin gəlişinə ürəkdən sevindikləri aydın hiss olunurdu.

Müşfiq qayıdandan sonra şam etdik və anam qonaqlardan: «Yerinizi harda salım?» - deyə xəbər aldı. Müşfiq mənə və qardaşlarıma işarə edərək soruşdu:

– Qarabalalar harda yatırlar?

– Həyətdə, evin qabağındakı səkidə, - deyə biz bir ağızdan cavab verdik.

Ətrafında gül-çiçək əkilmiş səki, deyəsən elə ilk baxışdan şairin xoşuna gəlmişdi. Odur ki, bizim cavabımızdan sonra zarafatla anama dedi:

– Bacım, bil və agah ol! Bu gündən otaq verilir səninlə Dilbərin sərəncamına. Mənim yerimi isə bu kişilərin – o, əli ilə mənə və qardaşlarıma işarə etdi, - yanında sal..

Bəli, o gündən bizim üçün düz bir ay müddətinə xoşbəxt, qayğısız günlər başladı. Bir-birindən şən, bir-birindən mənalı günlər!...

Ertəsi gün səhər tezdən gözlərimi açanda Müşfiq artıq quyu başında əl-üzünü yuyurdu. O, yataqdan qalxdığımı görüb əlinin işarəsi ilə məni yanına çağırdı. Getdim. Asta səslə soruşdu:

– Soyuq su ilə aran necədir?

– Lap yaxşı, - deyə cavab verdim.

– Dənizdə çimməyi necə, xoşlayırsanmı?

Cavab verməyə macal tapmadım. Şair tunc rəngə çalan bədənimə işarə edərək pıçıldadı:

– Görürəm ki, xoşlayırsan. Afərin, yaxşı qaralmısan.

Sonra maraqla soruşdu:

– Çox çimirsən?

– Anam adımı «Suadamı» qoyub...

Şair gülümsəyib:

– Onda işimiz yaxşı gedəcək. Mən də dənizin aludəsiyəm, - dedi. Bir azdan hamı yataqdan qalxdı. Anamla Dilbər bacı səhər yeməyi üçün hazırlıq görməyə başladılar. Çox çəkmədi ki, samovar pıqqıldadı. Anam qarağacın altındakı stola yaxınlaşanda Müşfiq etiraz etdi:

– Həmidə bacı, fikrin nədir, ata evində də soğan-çörək, ər evində də? Şəhərdə stol arxasında əyləşdiyimiz kifayətdir. Süfrəni yerə sər.

O gündən süfrə həmişə yerə sərildi.

Səhər yeməyi zamanı Müşfiq dedi:

– Təklif edirəm ki, hər gün səhər yeməyindən sonra özümüzü verək dənizə. Çimək, uzanaq qumun üstündə, bədənimizdə nə qədər azar-bezar var çıxsın...





Bu təklifə hamı razı oldu.

Beləliklə, təxminən bir ay gündə iki dəfə çimərliyə getdik. Özü də necə!... Səhər açılan kimi Müşfiq özünü bağın içinə verib böyük bir səbəti ağzınadək əncirlə, üzümlə doldururdu. Başqa bir səbətə isə təndir çörəyi, pendir, bişmiş quru balıq, yumurta soyutması və pomidor qoyurduq. Yolda tanış bostançılardan yemiş-qarpız da alırdıq.

Bir qədər çiməndən sonra sahilə çıxır, ya qumun üstünə uzanır, ya da voleybol topunu işə salırdıq.

Axşamlar... Axşamlar isə Müşfiq çox vaxt molla Qulamın ərik ağacının altında olurdu. O, bağımıza gələndən sonra ağacın altına toplaşanların sayı birə-iki artmışdı.

Ərik ağacının altından şirin söhbətlər, ədəbi mübahisələr əskik olmurdu.

O vaxtdan otuz ildən çox keçməsinə baxmayaraq, həmin məclislərdə Azərin, molla Qulamın və digərlərinin Müşfiqə, onun danışdıqlarına və oxuduqlarına nə qədər böyük maraq göstərdiklərini indi də yaxşı xatırlayıram. Xüsusən nurani qoca,- molla Qulam Müşfiqin vurğunu olmuşdu. Bəzən Müşfiq müəyyən bir səbəb üzündən məclisə gedə bilməyəndə, onun özü Müşfiqin görüşünə (şairin qəti etirazlarına baxmayaraq) gəlirdi. Hər dəfə də bağındakı ən nadir üzüm növlərindən (molla Qulamın bağı məşhur idi ) Müşfiqə pay gətirirdi.

... Bir neçə gün idi ki, «loto» xəstəliyinə tutulmuşduq. Axşam sərini düşən kimi evimizin günçıxan tərəfində, narın qumun üstündə palaz sərib dövrə vururduq. Oyun iki-üç saat çəkirdi.

Bir dəfə belə oyunlardan birinə bağ qonşumuzun qızı F. da qoşuldu. Daha doğrusu, bunu ondan Dilbər bacı xahiş etdi. F-nın on yeddi-on səkkiz yaşı olardı. Boy-buxunlu, gözəl bir qız idi. Ancaq heç vaxt üzü gülməzdi, si-

fətinə xüsusi bir yaraşıq verən çatma qaşlarında həmişə bir gərginlik duyulardı.

Əlbəttə, Müşfiq ötəri də olsa əvvəllər F-nı görmüşdü. Lakin həmin axşam o, qızı, necə deyərlər, lap yaxından müşahidə edə bilirdi. Xüsusən «loto» nömrələrini elan etmək növbəsi qıza çatanda... Bəli, F-nın məlahətli səsində nə isə bir kədər, qüssə duyulurdu. Adama elə gəlirdi ki, o nömrələri adi səslə deyil, hıçqıra-hıçqıra elan edir. Həm də bu vaxt o, əsla başını qaldırıb, oyunda iştirak edənlərin üzünə baxmırdı. Oyunun qızğın çağında birdən F-nı səslədilər. Çağıran qızın atası idi. Ətraf bağlarda dincələnlər onu içki düşgünü və pozğun bir adam kimi tanıyırdılar. Üstəlik çox qəddar idi. Elə gün olmazdı ki, evdəkiləri, o cümlədən F-nı döyüb-söyməsin.

Nə isə F. atasının kobud, xırıltılı səsini eşidəndə tarım çəkilmiş yay kimi yerindən sıçrayıb evlərinə tərəf qaçdı. Bir azdan qonşu həyətdə səs-küy qopdu. F-nın hönkürtüsü eşidildi. Müşfiq oyunu yarımçıq qoyub ayağa qalxdı, əsəbi var-gəl etməyə başladı. Anam şairin həyəcanlandığını görüb ona qızın acı taleyindən bəzi əhvalatlar danışdı. Müşfiq F-nın bir neçə ildən bəri məktəbə getmədiyini, əsla sevmədiyi və yaşca ondan çox böyük olan bir adama nişanlandırıldığını eşidəndə daha çox mütəəssir oldu.

O axşam şam yeməyi çox süst keçdi. Həmişə deyibgülən, zarafat edən Müşfiqin şair xəyalını, yəqin ki, yeni bir fikir məşğul etmişdi. Bəli, sonralar bəlli oldu ki, Müşfiq həmin qızın acı taleyini qələmə almaq fikrindədir...

Müşfiqin başqa bir yaradıcılıq planının meydana çıxması da qəribə bir hadisə ilə əlaqədardır. Bir gün çimərliyə getməyə hazırlıq gördüyümüz zaman həyətdə bir neçə cavan qaraçı qadın göründü. Şirin dillərini işə salıb fal açmaq məharətlərini tərifləməyə başladılar. Müşfiq qarağacın altındakı taxtın üstündə yastığa dirsəklənmiş





halda qaraçılara diqqət yetirirdi. Onlar isə dil-ağıza qoymadan Dilbər bacıya müraciətlə fal açdırmasını xahiş edirdilər.

Dilbər bacı açıqdan-açığa özünü itirmişdi və nə edəcəyini bilmirdi. Müşfiq isə qəhqəhə çəkib gülür və qaraçılarla zarafat edirdi.

Necə oldusa onlar birdən-birə Dilbər bacının yaxasından əl çəkib Müşfiqə tərəf getdilər. O, işin nə yerdə olduğunu duyub cəld yerindən qalxdı və çağırılmamış qonaqlara müraciətlə dedi:

– Gözləriniz iri olsa da, müştəri seçməyi bacarmırsınız. Məgər görmürsünüz ki, mən özüm də elə qaraçıyam. Əgər şübhə edirsiz, fal açdırın. Hə, gözəl qızlar, nəzirinizi verin...

Müşfiqin duzlu zarafatına qaraçılar güldülər. Sonra şair onları söhbətə tutdu. Haradan gəldiklərini, Buzovnanın hansı səmtində köç saldıqlarını soruşdu. Qadınlar həyətdən çıxan kimi Müşfiq üç-dörd gün əvvəl məndən «borc aldığı» adi şagird dəftərini gətirməyi kiçik qardaşımdan xahiş etdi və elə buradaca dəftərə tələsik nə isə yazdı. Bir azdan səbətlərimizi götürüb dəniz yoluna çıxdıq.

Ertəsi gün səhər yeməyindən sonra Müşfiq məni çağırıb dedi:

– Geyin, qonaq gedəcəyik.

Bir azdan həyətdən çıxdıq və Şağan kəndinə tərəf istiqamət alanda mənim üçün hər şey aydın oldu. Müşfiq qaraçı köçünə gedirdi. Bir gün əvvəl qaraçı qadınların «Buzovna ilə Şağan kəndinin arasında köç salmışıq» - demələri yadımda idi.

Alaçıqlara əlli-altmış addım qalanda dayandıq. Sonradan aydın oldu ki, qaraçılar səhər tezdən ələk satmağa, ayı oynatmağa və fala baxmağa getmiş, köçdəki itlər isə ətraf bağlara «şikara çıxmışlar».

Nə isə, yolun kənarındakı birinci alaçıqda heç kəs yox idi. Müşfiq təəccüblə mənə baxdı və sonra ikinci alaçığa tərəf getdik. Bu dəfə bəxtimiz gətirdi. Alaçığın ortasında əlli beş-altmış yaşlarında bir qarı əyləşmişdi. Bərk məşğul idi. Dizinin üstünə saldığı nimdaş pencəyə yamaq vururdu.

Qarı ayaq səslərini eşidib başını qaldırdı. Müşfiq yaxınlaşıb salam verdi və «Ay ana, bəs camaatınız hardadır?» - deyə soruşdu. Qarı pencəyi bir tərəfə qoyub ehtiyatla bizi gözdən keçirdi və könülsüz halda danışmağa başladı:

– Harada olacaqlar, kasıbçılıqda...

O bu sözləri deyib bir zərrə belə mehribançılıq hiss olunmayan nəzərlərini Müşfiqdən ayırmadan soruşdu:

– Bəs sən kimsən, camaatımız nəyinə gərəkdir?

Müşfiq təklif gözləmədən alaçığın qabağındakı kiçik kətilə əyləşdi, mənə isə bir qədər aralıda atılıb qalmış daşı göstərdi. Lakin oturmadım, Müşfiqə yaxınlaşıb mühafizəçisi kimi onun arxasında dayandım.

– Anacan, mən şairəm, yəni kitab yazan. Bu oğlan isə, - Müşfiq mənə işarə etdi, -bacıoğlumdur.

Qarı qaşları düyünləmiş halda dedi:

– Oğul, kitab yazan olduğunu bildim. Amma gəlişinin səbəbini demədin.

Müşfiq kətildə yerini rahatlayıb sözünə davam etdi:

– Anacan, köçünüzə xoş niyyətlə gəlmişəm. Sizin camaat haqqında kitab yazmaq istəyirəm.

Qarı bayaqdan bəri tənbəki doldurduğu çubuğunu alışdırdı, dərindən sümürdü, ətrafa tüstü halqaları buraxa-buraxa eyhamla dedi:

– Qaraçının elə bircə kitaba düşməyi qalıb da...

Lakin Müşfiq əl çəkmədi, söhbəti davam etdirdi. Nəhayət, on beş dəqiqədən sonra qarının qaşlarındakı düyünləri açıldı və o, Müşfiqin növbəti bir zarafatından sonra ilk dəfə gülümsədi.





Müşfiq fürsətdən istifadə edib qarıya bildirdi ki, qaraçılar haqqında çox kitablar buraxılıb. Bunlardan ən yaxşısını Puşkin deyilən bir rus şairi yazıb. Elə kitabın adını da «Qaraçılar» qoyub.

Qarının bu şirin söhbətə maraqla qulaq asdığı açıq-aydın hiss olunurdu. Müşfiq «Qaraçılar» poemasının qısa məzmununu nəql edəndən sonra qarını sual-cavaba tutdu. Onu köçdə nikah məsələsi, ailədə qadının mövqeyi, ata-ananın öz uşaqlarına münasibəti və s. bu kimi məsələlər maraqlandırırdı.

Qarı suallara həvəslə cavab verirdi. Aydın hiss olunurdu ki, dilli-dilavərdir. Lakin köçdəki cavan qadından birinin gözlənilmədən gəlib çıxması söhbəti yarımçıq qoydu. Qarı ağzını açmamış, cavan qadın öz dillərində ona nə isə dedi. Qarı tələsik cavab verdi. Sonra hər ikisi susdu və bununla da «qəbul» qurtardı.

Müşfiq qarının birdən-birə dəyişilməsini görüb yerindən qalxdı və heç bir söz demədən alaçıqdan uzaqlaşdı. Evə qayıdarkən dedi:

– Sabah lap tezdən bir də gedərik. Gərək onların kişilərini də danışdırım...

Amma bu, şairə müyəssər olmadı. Ertəsi gün sübhçağı qaraçıların görüşünə gedəndə uzaqdan gördük ki, atalar demişkən, «lələ köçüb, yurdu qalıb». Görünür, qaraçılar köçlərinə «səfərimizdən» şübhələnmiş və tələsik haraya isə çıxıb getmişdilər. Müşfiq bundan çox mütəəssir oldu.

Lakin elə həmin gün Əlağa Vahidin dostu məşhur meyxanaçı Əlizamanla bağımıza gəlməsi yenidən Müşfiqin kefini duruldtdu. Anam cəld çay dəsgahı hazırladı. Müşfiqlə Vahid əncir, üzüm dərdilər. Bir sözlə, səhər yeməyi çox şən keçdi. Sonra qonaqlarla birlikdə dənizə get-

dik. İstirahət günü olduğundan adam çox idi. Müşfiqlə Vahidi tanıyana, sevənə, onların yaradıcılıqlarının pərəstişkarlarına demək olar ki, addımbaşı rast gəlirdik. Müşfiq hamı ilə əl-ələ görüşür, hamıdan eyni səmimiyyətlə hal-əhval tutur, uşaqlarla zarafat edirdi: kiminin qulağını dartır, kiminin də yüngülcə burnunu sıxırdı. Onun hərəkətləri, adamlarla davranışı, rəftarı nə qədər sadə, nə qədər təbii, nə qədər səmimi idi! Təsadüfi deyil ki, həmin gün çimərlikdə «Müşfiqin məclisinə» azı otuz-otuz beş nəfər müxtəlif yaşlı adam yığışmışdı.Sadəlik, səmimilik, təvazökarlıq, insanpərvərlik və qayğıkeşlik! Müşfiq gözlərim önündə həmişə bu gözəl insani sifətlərin təcəssümü kimi canlanır. Sözün tam mənasında böyük insan və böyük sənətkar olmuş Müşfiqi həmişə hörmətlə yad edir, onun parlaq xatirəsi önündə başımızı əyirik».

Müşfiq dövrünün görkəmli dramnəvisi, həmyerlisi C.Cabbarlını hədsiz sevərdi. Onun məhsuldar, coşğun yaradıcılığı, səhnəmizdə gedən yeni-yeni əsərləri Müşfiqə qanad verərdi. Eyni zamanda C.Cabbarlı da qarşılıqlı məhəbbət və qayğı ilə Müşfiqi qiymətləndirərdi. C.Cabbarlının həyat yoldaşı Sona xanım onların bu qarşılıqlı hörmət və məhəbbətinin canlı şahidi idi.

Bir gün Cəfər «Sevil» əsərinin axırıncı pərdəsində bəzi düzəlişlər aparmaq üçün yazı otağına keçməli idi. O, yazı otağına keçməmiş deyir:

– Sonası, mən gedirəm həmin əsər üzərində işləməyə, hər kəs məni xəbər alsa deyinən Cəfər evdə yoxdur, fikrim dağıla bilər. – O elə yenicə yazı otağına gedən zaman qayıtdı və əlavə etdi. – Sonası, bu mənim ən yaxın ürək dostlarıma aid deyildir.

Sonra yazı otağına keçib bir qədər işləmişdi ki, Müşfiq gəldi. Hal-əhval tutduqdan sonra Cəfəri xəbər aldı. Mən Cəfərin «Sevil» əsəri üzərində düzəliş apardığını dedim və





əlavə etdim ki, bu saat gedib çağırım. Müşfiq razı olmadı. Yox, Sona bacı, bu saat ona toxunmaq olmaz, mən oturub gözləyərəm. Birdən Cəfər əsər üzərində düzəlişi qurtarıb sevinə-sevinə, Sonası – deyib çıxanda Müşfiqi gördü. Artıq Cəfərin iki sevinci bir-birinə qarışmışdı.

Bir dəfə C.Cabbarlını hansı əsərinə görəsə haqsız tənqid edirlər. Cəfər dözməyib əsəbiləşir. Müşfiq də onun yanında oturubmuş. Cəfərin bu halı Müşfiqi narahat edir. İclasdan sonra onu evlərinə getməyə qoymayıb bizə gətirmişdi. O, salam verib mənim kefimi soruşdu. Mən də onun kefini soruşanda Müşfiq cavab verdi ki, dramaturqumuzun qanı qaradır. Kimsə Cəfərin əsərinin əsas fikrini başa düşmədən onu tənqid etdi. Mən süfrə hazırladım. Müşfiq Cəfəri fikrindən ovundurmaq üçün bilmirdi ki, nə etsin. O, deyirdi: «Gərək biz hər deyilən sözə fikir verməyək. Tənqidin yaradıcılığımız üçün əhəmiyyətlisini qəbul edək». Sonra söhbətin məzmununu dəyişdirmək üçün Müşfiq klassiklərdən şerlər deyir, bəzən də öz lirik şerlərindən oxuyurdu. Cəfər Müşfiqə mehriban nəzər salıb mənə dedi:

– Mən indi bildim ki, Müşfiq məni necə ürəkdən sevirmiş. Mən əsəbi halda iclasdan çıxanda Müşfiq məni tək buraxmadı, arxamca çıxdı. – O, Müşfiqə öz təşəkkürünü bildirdi. Xeyli söhbət etdikdən sonra Müşfiq Cəfəri evlərinə ötürdü və evə çox fikirli qayıtdı. Mənə dedi:

– Dilbər, məni düşündürən tamam başqa şeydir. Cəfərin ürəyi xəstədir. Ona görə də mən onu qoruyuram. Əsəbiləşən vaxtı tək buraxmıram. Həkimlər ona dəyərli məsləhətlər verirlər, heç bilmirəm əməl edəcəkmi?

Sonra Müşfiq bu haqda evdə tez-tez söz salardı. Mən isə ona təsəlli olmaq üçün deyərdim: - Müşfiq, fikir eləmə, indi həkimlər hər xəstəliyi müalicə edirlər. Cəfəri də sağaldarlar.

Cəfər Cabbarlının qəfil ölüm xəbərinin Müşfiqə necə təsir etdiyini yazmaqda qələm acizdir. Müşfiq Cəfərin ailəsinə başsağlığı verib qayıdandan sonra evdə çörək yemədi. Papirosu papiros dalınca o ki var çəkdi. Gecəni səhərə kimi yatmadı. Cəfərin ölümünə həsr etdiyi şeri yaza-yaza gecəsini dan yerinin şəfəqlərinə qarışdırdı. Həmin şerin bəzi parçalarını oxucularımızın nəzərinə çatdırıram.

*Ey şanlı ölkəmin şanlı ustası,*
*Düşdümü əlindən həyat fırçası?!*
*Ey söz üzüyünün yanar alması,*
*Ürəyin tutulub ləkələndimi?!*
*... - Öldü! – Xəbər verin aşnaya, dosta, -*
*Ruhlar mühəndisi o böyük usta!...*
*Öldü bir usta ki, ustalar başı,*
*Bütün yoldaşların əziz yoldaşı!*
*Öldü! Ağlamayan gözlər ağlasın,*
*Qələmlər, kağızlar, sözlər ağlasın!*
*Altındaydı sözün səmənd atları,*
*Çapanda titrərdi göyün qatları.*
*O ki söz atından tərpəndi, düşdü,*
*Sanki şerimizin bir bəndi düşdü.*
*- Öldü! – Guruldasın, çaxsın buludlar!*
*Qəbrinə çiçəklər taxsın buludlar!*
*Ay gecə qəbrində cövlana çıxsın,*
*Ulduzlar süzülüb seyrana çıxsın.*
*Öpsün torpağını səhər yelləri,*
*Üstündə titrəsin günün telləri...*
*Bu mənim diləyim, bu mənim hissim,*
*Ey söz mühəndisim, ruh mühəndisim!...*

Səhəri Müşfiq bu şeri Cəfər Cabbarlının dəfnində oxudu.





Mən hələ uşaqlıqdan ədəbiyyatı sevdiyim üçün Azərbaycanın görkəmli şair və ədiblərilə maraqlanırdım. Əmim ədəbiyyatçı olduğu üçün onun vasitəsi ilə bir çox qocaman və gənc şairlərlə tanış olmuşdum. Bununla da mən fəxr edirdim. Azərbaycan xalqının sevimli şairlərini şəxsən tanımağım məni çox sevindirirdi. O cümlədən unudulmaz şairimiz Hüseyn Cavidlə də şəxsən tanış idim. Onun yazdığı əsərləri çox sevdiyim üçün «İblis»dən, «Şeyx Sənan»dan parçalar əzbərlərdim. Hüseyn Cavidlə biz Şüvəlanda bağ qonşusu idik. Biz uşaqlar bağda onun əsərlərindən parçalar əzbərləyib bir-birimizə söylərdik. Ələlxüsus, Hüseyn Cavidin oğlu Ərtoğrulun Şüvəlan bağında özünü iblis qiyafəsinə salıb atasının «İblis» əsərindən aşağıdakı deyəcəyim parçanı uşaqlara necə hərarətlə oxuduğu heç yadımdan çıxmır.

*Arif! Mənə bax, səndəmi övhamə qapıldın?*
*Biçarə cocuq, səndəmi İblisə tapıldın?*
*Dahilər, ululəzm nəbilər belə məndən*
*Heç vəchlə təxlisi-giriban eləməzkən*
*Daim məni təhqir edərək əyləniyorsan...*
*Həp söyləniyor, söyləniyor, söləniyorsan...*
*Bir gün gəlir, əlbəttə, bu izan ilə sən də*
*Bazicə olarsan qoca İblisin əlində.*
*İblis, o böyük qüdrət, o ataşli müəmma*
*Bir gün səni də kəndinə eylər kölə... amma*
*Heyhat, olamaz dərdinə bir kimsədən imdad,*
*İmdadə qoşar, qoşsa, fəqət ah ilə fəryad.*

Hörmətli şairimiz gənc nəslin onunla maraqlandığını gördükcə daha artıq ruhlanırdı. Hüseyn Cavid uşaqlara və gənclərə çox həssas və mehribandı. Xüsusən yazdığı əsərlər haqqında fikir söyləyən adamla həmişə hesabla-

şar, deyiləni diqqətlə dinləyərdi. Yalnız əsər haqqında deyil, müəyyən həyati məsələlər barəsində də uşaqların, gənclərin fikirlərini, rəylərini öyrənməyə çalışardı.

Bağda qonşu olduğumuza görə şairin bəzi xasiyyətlərinə yaxşı bələddim. Çox vaxt hamı yatandan sonra o durub gəzərdi, öz-özünə danışardı və sonra yazardı. O, yazacağı əsəri haqqında heç vaxt qabaqcadan söyləməyi sevməzdi. Nadir hallarda qələmə alacağı hadisələrdən söhbət salardı. Lakin əsər çap olunduqdan sonra biz şairin əvvəlcədən söyləmiş olduğu bəzi parçaları və şerləri orada görərdik. Buna misal olaraq «Azər»i göstərmək istəyirəm. «Azər» əsərindən parçalar çapdan çıxdıqdan sonra onu oxuduqda bir çox misralar bizə tanış görünürdü. Həmin parçalar indi də xatirimdədir. O deyirdi:

*Üsyan!..*
*Məbədlərə, qalpaklara, çarşaflara üsyan!..–*
*Şaşğınlığa yox zərrəcə imkan.*
*Hər fəlsəfə, qanun dəyişirkən,*
*Bir nöqtədə dursan da düşünsən*
*Məqbər yapacaqlar gəmiyindən...*

Hüseyn Cavid gənc nəsli, eli, obanı yeni həyata, yeni mədəniyyət uğrunda mübarizəyə səsləyirdi. Gənc nəslin dini əfsanələrdən uzaqlaşmasını, sağlam, möhkəm və şən həyat qurmalarını arzu edərdi. O bizə sadə dildə müxtəlif həyati misallar çəkər və deyərdi: «Gənclər hər şeydən əvvəl öz sağlamlıqlarına fikir verməlidirlər». Hüseyn Cavid bu məşhur sözləri bizə dönə-dönə xatırladardı: «Sağlam bədəndə sağlam ruh olar». Sevimli şairimiz bizə sadə dildə başa salırdı ki, bəzi oğlanlarımız, qızlarımız öz sağlamlıqlarını unudurlar. Onlar bahalı parçalardan təzə paltarlar geyinməyi sevirlər. Bu yaxşı şeydi, bunu hər kəs se-





vir, ancaq bəzi gənclərimiz sağlamlığa yox, ziynətə fikir verirlər və nəticədə bədən zəifləyir və xəstələnir, müalicə üçün kurortlara getməyə məcbur olurlar. Belə gənclər məni çox düşündürür, beləlləri başa düşmür ki, bədən sağlam olanda sadə çit paltarda da gözəl görünür. Lakin zəif, xəstə gənc necə bahalı yaraşıqlı paltar geyinsə, yenə gözə görümlü olmayacaq. Həmişə də belə söhbətlərin axırında sözünün necə təsir bağışladığını öyrənmək üçün müsahibindən «Öyləmi?» deyə soruşardı. H. Cavid ziynətə yox, biliyə, zəhmətə, təmizliyə fikir verən sadə və şən gəncləri sevərdi. Cavidin həyat, gənclik, gözəllik haqqındakı fikirləri onun bədii yaradıcılığında çox qabarıq surətdə öz ifadəsini tapırdı. Bu söhbətlərdən xeyli sonra mən şairin «Qız məktəbində» şerini oxuyarkən onun bağda bizimlə söhbət edəndə ziynət, bəzək-düzək haqqındakı fikirləri yadıma düşdü.

*«– Quzum, yavrum! Adın nədir?*
*– Gülbahar.*
*– Pəki, sənin anan, baban varmı?*
*– Var.*
*– Nasıl, zənginmidir baban?*
*– Əvət, zəngin, bəyzadə...*
*– Öylə isə geydiyin geyim neçin böylə sadə?*
*Yoxmu sənin incilərin, altun bilərziklərin?*
*Söylə, yavrum! Heç sıxılma.*
*– Var, əfəndim, var ... lakin.*
*Müəlliməm hər gün söylər, onların yox qiyməti.*
*Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti».*

Bir dəfə biz yenə şairin başına yığışmışdıq. Onun şirin, hikmətli söhbətini eşitmək çox xoş idi. Cavid deyir: «Həyatda gənclər üçün iki əsas şərt var. Əgər bu iki şərti düzgün başa düşsələr, onların quracağı otağın binası möhkəm olar. Birincisi, sənət sahibi olmaq, ali təhsil almaq,

ikincisi də sədaqətli olmaq və özünə vəfalı həyat yoldaşı seçmək. Dostu bərkdə-boşda yoxladıqdan sonra onunla ünsiyyətə girmək. Çünki həyatda bəzən insan ağır çətinliklərə rast gəlir, sadiq, vəfalı dost isə bu vaxt adama yaxşı arxa ola bilir və çəkdiyi əzabları yüngülləşdirir».

H.Cavid gənc nəsli zəhmətə, sənətə çağırır və onların sağlam, şən olmasını arzu edirdi:

*Bu gün gəncliyə baxsan,*
*Bir sel kimi hər an.*
*Sağlam, yeni məfkurələr izlər.*
*Onlardakı qüdrət və məharət.*
*Yer – gec verəcək xalqa səadət*
*Onlar mədəniyyətlə günəşlər yaxacaqlar.*
*Keçmişlərə üstdən baxacaqlar.*
*Onlar güləcək, güldürəcəklər*
*Bizdən daha xoş gün görəcəklər.*

H.Cavid müasir gənc nəsli həmişə nikbin, şən görmək istəyirdi. Bu, şəxsən mənim özümə də aid idi. Mənim atam, anam Gəncədə olduğundan bəzən onların dərdini çəkir, fikirli olurdum. Sevimli şairimizi mənim bu halım narahat edərdi. O, məni fikirdən uzaqlaşdırmağa və şən görməyə çalışardı. O vaxtlar mənim xatirat albomum vardı, təəssüf ki, o albom indi durmur. Həmin albomumdan yadımda iki xatirat qalmışdır. Onlardan biri rəsm müəllimim Salam Salamzadənin xatiratıdır. O mənim albomuma gözəl bir təbiət mənzərəsi çəkmiş və altında da yazmışdı ki, «Qızım, insanın həyatını maraqlı edən, ziynətləndirən rəsm və musiqi kimi incə sənətləri sev və onları öyrənməyə çalış». İkincisi də H.Cavidin yazdığı şerdi. Təəssüf ki, həmin şerin yalnız ikicə misrası yadımda qalmışdır:





*Mən gözəllərdə gözəl ruh araram,*
*Ruhi düşgünləri çirkin sanaram.*

Mənim şair Mikayıl Müşfiqlə həyat qurmağım H.Cavidlə dostluğumuzu daha da möhkəmləndirdi. Bəzən biz onlara gedərdik, onlar da bizə gələrdilər. Müşfiq onu həddsiz sevərdi və tez-tez görməyə çalışardı. Ələlxüsus, onlar bir yerdə olanda sanki şer deməkdə yarışa girərdilər. Dahi şairimiz Nizamidən, Firdovsidən, başqa klassiklərdən şerlər oxuyardı. M.Müşfiqin çox qüvvətli hafizəsi vardı. Buna görə də H.Cavidin sevdiyi şerlərin bəzi misraları yadından çıxdıqda, Müşfiq ona xatırladardı. Müşfiqin bu hərəkəti şairi çox sevindirərdi.

Yadımdadır, Müşfiq olmayan vaxtlarda şair həmişə mənə deyərdi: «Qızım, sən bu gənc şairlərə elə-belə baxma, onların gələcəkdə hər biri Azərbaycanda görkəmli bir sima olaraq tanınacaqlar». Xüsusilə, o deyərdi ki, «Müşfiqə evdə elə şərait yarat ki, o, yaradıcılığı üzərində yaxşı çalışıb inkişaf etsin».

Xatirimdədir ki, «İblis» tamaşasına bizi H.Cavid özü apardı. Əsər tamaşaçılar tərəfindən o qədər bəyənildi, sevildi ki, onlar səhnədə şairi uzun müddət alqışladılar. O gün H.Cavid çox şad idi. Əsər haqqında o, bizim də rəyimizi soruşdu. Biz isə dedik ki, əsər bir bizim deyil, bütün tamaşaçıların hüsn-rəğbətini qazanmışdır. Əsərin tamaşaçılar tərəfindən yaxşı qarşılanması şairi daha da ruhlandırırdı.

Müşfiq Hüseyn Cavidlə tez-tez görüşməyə çalışardı. O, bizə gələndə özünü çox sərbəst hiss edirdi, rəftarı çox səmimi idi. Onun qabağına bir stəkan çay qoyduqda belə səmimi bir söz söyləməmiş olmazdı. Məsələn, deyərdi: «Deyirəm axı, bu çay niyə belə dadlıdır, çünki buna mənim qızımın əli dəyib». O, çox az yeyərdi, ev yiyəsinin xətrinə toxunmasın deyə, qabaqcadan: «Xörək çox dadlı-

dır, lakin həkimin məsləhətinə görə mən az-az və tez-tez yeməliyəm, çünki ürəyim bir qədər zəifdir», - deyərdi.

Mən Müşfiqlə həyat quranda yalnız orta təhsilim var idi. H.Cavid mənim gələcək həyatımla maraqlanıb deyərdi: «Qızım, sənin təhsil haqqında fikrin nədir? Ailə həyatı qurmaqla təhsildən kənar qalmaq olmaz. Qurduğun həyat məni sevindirirsə də, təhsilin haqqında düşünürəm. Sən mütləq ali məktəbə daxil olmalısan». Onun bu məsləhətləri məni ruhlandırıb Azərbaycan Tibb İnstitutuna daha tez daxil olmağıma səbəb oldu.

H.Cavid dövrünün gənc şairlərinə, o cümlədən M.Müşfiqə əsərlərinin bədii cəhətdən daha da qüvvətli, dolğun olması üçün məsləhətlər verərdi. M.Müşfiq də öz sevimli müəllimi və ustadı Hüseyn Cavidin yaradıcılığını yüksək qiymətləndirər və böyük şairimizi Azərbaycan xalqının Şekspiri adlandırardı. Bir dəfə yenə axşamüstü Cavid bizə gəldi. Müşfiq o zaman «Duyğu yarpaqları» adlı əsərin üzərində işləyirdi. Onlar çox mehriban görüşdülər. Həmişəki kimi yenə sənətdən, ədəbiyyatdan söz düşdü. Müşfiq yeni əsərinin özünə xoş gələn parçalarından ustadına oxumağa başladı.

H.Cavid diqqətlə qulaq asır, arabir Müşfiqi saxlayıb qüsurlu misralara nəzəri cəlb edir, gözəl parçaları təkrar-təkrar oxutdurub ürəkdən fərəhlənirdi. Uzun söhbətdən sonra mən ondan soruşdum:

– Cavid müəllim, siz hansı əsər üzərində işləyirsiniz?

O dedi:

– Bu saat mən külliyatımı toplamaq fikrindəyəm. Redaktorluğunu da, Müşfiq, sənə tapşıracağam.

Müşfiq gülümsündü:

– Yox, - dedi, - mən hələ gəncəm, sizin əsərlərinizin redaktorluğuna gücüm çatmaz. Bəlkə gələcəkdə o mərtəbəyə çatam.





Mən diqqətlə qulaq asırdım. Elə bildim ki, Müşfiq bu sözləri zarafatla deyir. Ancaq H.Cavid gedəndən sonra öyrəndim ki, Müşfiq həmin fikri özünü ustadına təvazökar göstərmək üçün deməyib, bu, onun həqiqi ürək sözləri imiş...

Lakin əfsus ki, nə sevimli şairimiz və nə də ona hədsiz məhəbbət bəsləyən Müşfiq öz sağlıqlarında bu arzularına çata bilmədilər.

1934-cü ilin iyun ayında Azərbaycan yazıçılarının birinci qurultayı açıldı. Qurultayda Mikayıl Müşfiqə də söz verildi. O, sağ əli ilə camaatı sakit edib «Tar» şerinin ilk misralarını oxuyanda salona dərin sükut çökdü...

Müşfiqlə Cavidin qarşılıqlı məhəbbətindən Eynulla Ağayev özünün «Könlün aynası» adlı xatirələrinin bir yerində belə deyir:

«Bir dəfə cümə günü Hüseyn Natiqlə yazıçılar cəmiyyətinə gəldik, həmin gün yazıçıların əksəriyyəti cəmiyyətdə idi.

Hüseyn Natiq mənim qolumdan tutdu:

– Cavid əfəndi ilə Müşfiq nərd oynayırlar. Gedək tamaşa edək, – dedi.

Getdik. Biz salam verib bir tərəfə çəkildik. Hüseyn Natiqlə mən oyunun gedişini izləyir, nəzərimizi nərdtaxtadan yayındıra bilmirdik.

Müşfiq bir oyun və bir «marsla» qalib gəldikdə Hüseyn Cavid xurmayı rəngli dəri papağını başına qoydu. Pensnesini çıxarıb şüşələrini sildikdən sonra gözünə taxdı. Ayağa duranda əlini Müşfiqin çiyninə qoyub:

– Müşfiq, sən elə bilmə ki, Cavid əfəndi oyun bilmir. Bilirəm! Ancaq mən gələcəkdə şerimizin tacidarı olacaq bir şairi udmaq istəmirdim, – dedi.

Müşfiq ayağa qalxmaq istədi. Lakin Cavid əfəndi onun çiynindən basdı. Müşfiq qıpqırmızı qızarmışdı. O, dəsmalını çıxarıb tərini sildi və:

– Cavid əfəndi, məni lap utandırdınız, mən bu rütbəyə layiq deyiləm, bu ad sizə... – Cavid onun sözünü kəsdi:

– Müşfiq, təvazökarlıq etmə, dediklərim zarafatla qarışıq olsa da bir həqiqətdir.

Müşfiq bir söz demədi. Yalnız narazı halda mülayimcəsinə başını yırğaladı...»

Müşfiq 1935-ci ildə bir qrup yazıçı ilə birlikdə Gürcüstan səfərində olmuşdur. Qardaş Gürcüstan torpağının əsrarəngiz gözəlliyi, onun zəhmətsevər insanları Müşfiqin qəlbində xoş hisslər oyatmışdı. Son on beş ildə qardaş xalqın təsərrüfat və mədəniyyət sahələrində əldə etdiyi misilsiz nailiyyətlər, qəlbi qurub-yaratmaq eşqi ilə dolu olan həssas şairi necə də sevindirirdi! Gürcü torpağında aldığı xoş təəssüratını Müşfiq «Gözəl dost» şerində tərənnüm etmişdir. Bu şerini Müşfiq «Yeni Gəncə» qəzetində dərc etdirmişdi. Şerin bir neçə misrası yadımdadır:

*Türk çalsın sazın,*
*Gürcü çonquru,*
*Səs versin onlara*
*Çayların xoru.*
*Əməkçi ellərin,*
*Dostlar, qüruru,*
*Tarixi bir böyük*
*Şandır, əziz dost!*

M.Müşfiq xalqlar arasında dostluq və qardaşlıq ideyalarını coşğun bir ehtirasla tərənnüm edən şerlər yaratdığı kimi, bədii tərcümə sahəsində də xalqlar dostluğunu möhkəmlətmək işinə xidmət edirdi.

1930-1937-ci illərdə Müşfiqin kitabları beş dildə nəşr edilmişdir.





M.Müşfiq M.F.Axundovun A.S.Puşkinin ölümünə həsr etdiyi «Şərq poeması»nı, S.Y.Marşakın «Huşsuza bax, huşsuza», A.S.Puşkinin «Qaraçılar»ını, «Poltava» əsərindən bir parçanı, «Dustaq» şerini, «Yevgeni Onegin» əsərindən «Tatyananın Oneginə məktubu»nu (Rəsul Rza ilə birlikdə), Ukraynanın böyük şairi Taras Şevçenkonun «Kobzar» (Əhməd Cavadla birlikdə), Lermontovun «Demon» poemasını (Rəsul Rza ilə birlikdə), «Şairin ölümünə», «Tənha yelkən ağarır», «Qafqaz» şerlərini, A.Bezımenskinin «Qolçomaq üsyanı», Ömər Xəyyamın rübailərinin çox hissəsini, Firdovsinin «Şahnamə»sindən parçaları, Yeğişe Çarensin «Dirilmiş izdihamlar» adlı şerlər məcmuəsini müvəffəqiyyətlə tərcümə etmişdir. Onun bu tərcümələrini öz şerlərindən fərqləndirmək çətindir.

...Müşfiq həyatı bütün rəngarəngliyi ilə sevirdi. Xoş, gümrah əyləncə, zarafat, incə yumor hissi onun mənəvi cazibə qüvvəsini daha da artırırdı.

Bir gün Müşfiq bir qrup yazıçı yoldaşları ilə birlikdə qonorar hesabına «Azərnəşr»in sabiq baş mühasibi, görkəmli folklorçu Əbülqasım Hüseynzadədən avans pul almaq istəyir. Lakin baş mühasibin pul verməklə arası olmadığını bildiklərindən, məqsədlərinə nail olmaq üçün ona şerlə müraciət etməyi qərara alırlar. Həmin şeri Müşfiq elə oradaca yazır. (Əbülqasım Hüseynzadə bu şeri yadigar kimi saxlayır).

«Məqidə bəhüzuri ağayi-büzürgüvar, cənabi-müstətab, hatəmizamanə Əbülqasım Hüseynzadəyə!

*Əssəlam, ey bizim Əbülqasım,*
*Sənə var çoxlu-çoxu ixlasım.*
*Yığılıb bir neçə ədibi-şəhir,*
*Tökdülər böylə günə bir tədbir:*
*Ki rəvanın dumanlı çağında,*

*Toplaşıb Mehdinin otağında,*
*Çox götür-qoy edib nəhayət biz,*
*Düşünərsiz, əgərki arifsiz!*
*Gör düzəltsən əgər bu xeyir işi sən –*
*Hamımız söylərik: əcəb kişisən!*
*İş qalıbdır öz iltifatınıza,*
*Əliniz getsə portmanatınıza.*
*Bizə bir yüz manat barat eylər,*
*Mərd olan burda iltifat eylər.*
*Mehdiyə, Vahidə, Rza, Rahim,*
*Müşfiqəm, pəs dutar səni ahim,*
*Verməsən həcvdir bunun dalı,*
*Bəs ki, mətləbdən olgilən halı,*

Bədəttəhrir:

*Qapıdan girdi böylə bir anda,*
*Ki qoşuldu bizə Süleyman da.*
*Ağanın yoxdr etirazı buna,*
*Hörmət et məclisi-humayuna.*

Əz tərəfi Müşfiq Dağlı, əz tərəfi R.Rza Göyçayi, əz tərəfi Məmməd Rahim Badkubeyi, əz tərəfi Mehdi Qazaği, əz tərəfi Vahid, əz tərəfi ağayi-Məzlum, əz tərəfi Süleyman Noxani ... işlərə əsas bani...»

Müşfiq yazacağı əsər üzərində ciddi düşünər, hara getsə, nə etsə, onun fikri, xəyalı yaradacağı qəhrəmanın yanında olardı. Bu hadisə hələ də yadımdan çıxmayır. Bir dəfə tramvayda harasa gedirdik. Müşfiqin baxışları pəncərədən bayıra zillənmişdi. Onun nə haqdasa düşündüyünü bilərək mən də sakitcə oturmuşdum. Birdən o mənə sarı dönəndə gözü bizimlə üzbəüz oturmuş bir kişiyə sataşdı. Sir-sifəti çopur, qaşları çatılmış olan bu kişinin gözlərindən təkəbbür və lovğalıq yağırdı. Müşfiq yavaşca qulağıma pıçıldadı:





– Dur gedək, başqa yerdə oturaq.

Biz yerimizi dəyişdik. O dedi:

– Mən indicə xəyalımda səmimi, zərif qəlbli, sadə bir insan haqqında düşünürdüm. Belə bir vaxtda bu kişinin sifətini görəndə elə bil başımdan alov çıxdı.

Müşfiq onu əhatə edən adamların hamısını daxilən saf, səmimi, sadə görmək istədiyi kimi, zahircə də gözəl, yaraşıqlı görmək istərdi.

* * *

Müşfiq nadir hafizə sahibi idi. O öz hafizəsinə arxayın olub çox vaxt qoşduğu şeri uzun müddət vərəqə köçürməzdi. Şerlərini, eləcə də bir çox klassik şairlərin əsərlərini əzbər bilərdi. Bir dəfə tələbəlik həyatından mənə belə bir əhvalat danışdı: «Ədəbiyyat dərsimizin birində Tofiq Fikrətin həyatını keçmişdik. Növbəti dərsimizdə isə onun yaradıcılığını öyrənəcəkdik. Müəllim auditoriyaya gəldikdə Tofiq Fikrətin kitabını unudub gətirmədiyi üçün dərsi təxirə salacağını bildirdi. Bu vaxt mən müəllimdən söz alıb dedim:

– Müəllim, dərsi təxirə salmayın. Tofiq Fikrətin hansı əsəri lazımsa, mən onu əzbər deyə bilərəm.

Müəllim təəccüblə soruşdu:

– Sən onun hansı əsərini bilirsən?

– Siz məndən soruşun ki, onun hansı əsərini bilmirsən.

Müəllim gülümsəyib xəbər aldı:

– Demək, onun bütün əsərlərini əzbər bilirsən?

– Bəli, - dedim».

Qələm dostları Müşfiqin hafizəsinə heyran idilər. Lakin şerdə nadir hafizəsi olan Müşfiqin həyatda, məişətdə yaddaşı çox zəif idi. Bu haqda dövri mətbuatda qəribə bir yoldaşlıq şarjı çəkmişdilər. Şarjın altından yazmışdılar ki, guya o, papağını itirir və tapmaq üçün aləmi axtarır. Birdən baxıb görür ki, papaq qoltuğundadır. Huşsuzluğunu etiraf edən Müşfiq S.Y.Marşakın «Huşsuza bax, huşsuza» əsərini tərcümə edəndə deyirdi: - Şair lap mənim obrazımı yaratmışdır!

Müşfiq şerə, sənətə elə bağlı idi ki, şer yazmadığı günü ömründən hesab etməzdi, yazıb-yaratdığı günləri ömrünün ən mənalı günləri sayardı. Şerlərinin birində yazır:

*Ey şer yazmaqla keçən günlərim!*
*Siz ki, ən vəfalı günlərimsiniz.*

Bəzən gecələr yatağından şer deyə-deyə oyanardı. «Yuxuda elə yaxşı şerlər deyirdim ki... Qoy durum yazım, yoxsa yadımdan çıxar» - deyərdi. Bəzən sübhəcən yerində vurnuxar, yata bilməzdi. Xüsusən şer gecələrindən gələndə çox həyəcanlı olar, narahat yatardı. Müşfiqin mətbuatda ilk şeri («Bir gün») 1926-cı ildə «Gənc işçi» qəzetində, ilk kitabı («Küləklər» ) 1930-cu ildə nəşr olunmuşdur. Dörd illik qələm təcrübəsinin məhsulu olan «Küləklər»dən sonra hər il onun bir-iki kitabı çapdan çıxmışdır.

Müşfiq on birinci kitabını – «Çağlayan»ı çapa hazırlayırdı. Bu kitaba o, ən yaxşı əsərlərini – şer və poemalarını daxil etmişdi.

Müşfiq yaşlı adamlarla söhbət etməyi çox sevərdi. Deyərdi: - Qocaların sinəsi sirlər xəzinəsidir. Onların sözlərində hikmət var, çoxunun ürəyində yazılmamış dastan yatır. Mən onlardan xalq həyatını, xalq müdrikliyini öyrənirəm. Onların çəkdiyi hər bir misal, dedikləri hər bir





bayatı babalarımızın arzu və istəklərindən, müxtəlif həyat hadisələrinə münasibətlərindən xəbər verir.

Müşfiq öz süd anası Səfiyyə xala haqqında mənə çox danışmışdı. Bilirdim ki, Müşfiq anasını lap uşaqkən itirmişdi.

Bir gün biz hər ikimiz evdə idik. Birdən qapı döyüldü. Müşfiq qapını açan kimi qoca bir arvadı görcək özünü onun üstünə atdı, qucaqlaşıb öpüşdülər. Hər ikisinin sevincdən gözləri yaşardı. Arvad içəri girən kimi Müşfiq dedi:

– Bax, mənim Səfiyyə anam budur!

Səfiyyə xala mənim üz-gözümdən öpüb sevincək dedi:

– Allaha şükür, Mikayıl, böyüyüb ev-eşik sahibi oldun. Gəlinimiz barədə də eşitmişdim. Çox şükür, onu da öz gözümlə gördüm. Qəşəng gəlindir. Allah sizi xoşbəxt eləsin!

Səfiyyə xala çox mehriban qadın idi. O bizdə qalan müddətdə mənə öyüd-nəsihət verər, bişirə bilmədiyim xörəkləri öyrədərdi. Müşfiq süd anası Səfiyyə xalanı öz anası kimi sevər, ona qayğı göstərərdi.

1934-cü ilin martında bir oğlumuz oldu. Müşfiq onun adını Yalçın qoydu. Müşfiqin sevinci yerə-göyə sığmırdı. Sanki o, dünyaya gələn gündən özü ilə Müşfiqə qanad gətirmişdi. Təəssüflər olsun ki, Müşfiqin bu sevinci uzun sürmədi. Uşaq ikiaylıq olanda birdən bərk xəstələndi, hərarəti yüksək olduğundan bütün gecəni və gündüzü süst düşdü. Bu bizim hər ikimizi sarsıtdı. Həkimlərin müayinəsi və müalicəsi heç bir fayda vermədi. Uşaq gözlərini son dəfə əbədi yumanda Müşfiq çığırtı ilə ağlayıb, fəryad qopardı.

Bu hadisədən sonra Müşfiq uzun zaman özünə gələ bilmədi. Dostları tez-tez bizə gəlib ona təsəlli verərdilər.

Ən yaxın dostlarından Rəsul Rza qüssəsini dağıtmaq üçün ona Moskvaya getməyi məsləhət gördü. Elə düşdü ki, bir qrup yazıçını Moskvaya ədəbi yığıncağa dəvət etdilər. Rəsul, Müşfiq və Nigar xanım da həmin yığıncaqda iştirak etmək üçün yola düşdülər. Təəssüflər ki, məktəb məşğələlərini buraxa bilmədiyim üçün mən onlarla gedə bilmədim. Müşfiq Moskva səfərindən razı qayıtmışdı. Onun ürəyi xoş arzularla dolu görünürdü. O mənimlə görüşdükdən sonra soruşdu:

– Düzünü de, mənsiz çoxmu darıxdın?

– Yox, - dedim, - qohumlar, yaxşı dostlar darıxmağa qoymadılar. Balacaxanım tez-tez gəlirdi. Məni evlərinə, gəzməyə aparırdı.

Müşfiq çamadanını açıb mənə, Balacaxanıma aldığı hədiyyələri bir-bir göstərdi. Mən tutuldum. Müşfiq bunun səbəbini öyrənəndə mən dedim:

– Sən mənə çox hədiyyə alıbsan. Ancaq özünə heç bir şey almayıbsan. Axı sən düzgün etmirsən, sən mənim şux geyinməyimi arzu edən kimi, mən də sənin şux geyinməyini sevirəm.

Müşfiq süni boyaları sevməzdi. Ancaq yeni çıxan modalı, şux, təmiş geyinməyi sevərdi. Müşfiq dedi:

– Bir də nə alsam, ikimizə də bir alaram. Sən də mənim kimi həssassan. Hər şeyə fikir verənsən. Atalar yaxşı deyib ki, ərlə arvadın torpağı bir yerdən götürülür.

Ertəsi gün o, məni dayısıgilə apardı. Onlar bizi görcək sevindilər. Rza dayının həyat yoldaşı Nahidə xanım bizə gözəl süfrə hazırladı. Bizim işlərimizdən hal-əhval tutdu. Sonra tar çaldı. Mikayıl öz məlahətli səsi ilə oxudu. Mikayıl Moskva səfərindən ağızdolusu danışdı. Rza dayı Almaniyadakı tələbəlik həyatını xatırlayıb vətəni Bakı üçün necə darıxdığını söylədi. Rza dayı neft mühəndisi





idi. O neft zavodunda baş mühəndis işləyirdi, köhnə partiyaçı idi. Çox xasiyyəti Müşfiqə oxşayırdı. Ürəyi Göygöl kimi açıq, gözü-könlü tox, xasiyyəti çox səmimi və sadə idi. O, Müşfiqdən yeni şerlər oxumasını xahiş etdi. Müşfiq ilhamla «İrəli» şerini oxudu. Şer belə başlanırdı:

*İrəli,*
*Bakının zərbəçi əlləri!*
*İrəli, yeni neft planı!*
*Sarsıtsın cahanı!*
*İlləri yeni ruh, yeni can*
*Bu uzun həyəcan*
*Bakını qaplasın.*
*Qəhrəman divləri bir yerə toplasın!*

Rza dayı və Nahidə xanım Müşfiqi maraqla dinləyib sevindilər və öz minnətdarlıqlarını bildirdilər. Biz evimizə gəlmək istəyəndə onlar bizim tez-tez gəlməmizi xahiş etdilər. Bir neçə gündən sonra Rəsul Rza, həyat yoldaşı sevimli şairəmiz Nigar xanımla bizə gəldi. Bizdən hal-əhval tutduqdan sonra onlar Moskva səfərini xatırladılar. Moskvanın gözəlliyindən, onun genişliyindən ağızdolusu dönə-dönə danışdılar. Moskva şəraiti onlarda xeyli ruh yüksəkliyi yaratmışdı. Müşfiq son vaxtlar keçirdiyi sıxıntıya, həyəcanlara son qoymuşdu. Nigar xanım hər ikimizə səmimi baxıb dedi:

– Dilbər, mən Müşfiqin sənə səmimiyyətinə heyran qalmışam. O, Moskvada nə görürdü, sənə alırdı. Özünə heç bir şey almırdı. Sən yadına düşəndə gözləri yaşarırdı. Mən sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Mən və Müşfiq Nigar xanıma öz minnətdarlığımızı bildirdik. Bir qədər söhbət etdikdən sonra qonaqlarımız getdi.

* * *

O dövrün mətbuatında bəzən Müşfiqə qarşı haqsız, qərəzli tənqidlərə rast gələrdik. Bütün varlığı ilə yeni həyata, sosializm quruculuğuna bağlı olan, onun hər bir nailiyyətinə ürəkdən sevinən, ona coşğun, ilhamlı nəğmələr, şerlər qoşan, dastanlar yaradan şairə qarşı başlanan bu haqsız hücumlar nəyə gərək idi?!

Müşfiq təbiətən həssas, coşğun, incə qəlbli şair olduğu qədər də şən, gülərüz, çalıb-çağırmağı, şadlanmağı, əylənməyi sevən, şaqraq gülüşü, mənalı təbəssümü ilə qəlbə nüfuz edən nikbin bir şəxsiyyət idi. Bəzən ədəbi yığıncaqlarda, hətta mətbuatda onun yaradıcılığı barəsində yazılan kəskin, ifrat dərəcədə sərt tənqidlərə qarşı bədbinliyə qapılmazdı:

*«Mənim bu dəryada bir sandalım var,*
*Hələ bədr olmamış bir hilalım var»* -

deyib özünü ələ almağı bacarırdı.Yazıb-yaratmaq, oxumaq, əylənmək, cəmiyyətimizdə yaranan yenilikləri dərk etmək, onları daha kamil, daha bitkin bədii vasitələrlə əks etdirmək eşqi ilə yaşayıb inkişaf edən, kamilləşən, müdrikləşən şairin bədbinliyə qapılmağa əsası yox idi.

Bal arısı çiçəklərdən, güllərdən şirə yığan kimi, Müşfiq də həyatın fərəhini, sevincini toplar və bu sevinci əbədi, solmaz gül dəstəsi kimi öz oxucularına təqdim edərdi.

Bir gün işdən gələrkən dedi:

– Dilbər, başım bərk ağrıyır. İcazə versən, bir papiros çəkərdim.

Müşfiqin bu halı mənə çox bərk təsir etdi. Özümü güclə ələ alıb:

– Çək əzizim! – dedim.





O, papiros çəkmək üçün eyvana çıxdı. Mən Müşfiqi heç belə dilxor görməmişdim. Fikir, xəyal məni götürmüşdü. Onu ovundurmaq üçün yanına gəlib dedim:

– Gəl evə, bir az uzan, dincəl.

O, mənə mülayim bir nəzər saldı. Hər ikimiz içəri keçib divanda oturduq.

– Mən özümə söz vermişdim ki, sənə işlərim haqqında bir söz deməyim, deyəndə çox fikir edirsən. Ancaq ürəyim bərk darıxır, özümü saxlaya bilmirəm.

– Müşfiq, de görüm nə hadisə üz verib?! Deməsən, inciyərəm.

– Nə yaxşı ki, sən varsan. Dərdimi sənnən dağıdıram.

O, dərindən ah çəkib sözə başladı.

– Dilbər, bu gün yığıncaqda bəzi bədxahlar məni o qədər tənqid etdilər ki, az qaldı ürəyim yerindən qopsun. Mənə deyirlər sən xırda burjua şairisən. Bu söz mənə elə toxundu ki ... Axı burjua sözü deyəndə bizim gənclərin təsəvvürünə zəhmətdən qaçan, insanlıqdan kənar, xalqını, cəmiyyətini, vətənini sevməyən adamlar gəlir. Özün de, mən elə sifətlərə layiqəmmi?

Qəhər məni boğdu. Axı, böhtan qılınc yarasından pisdir. Bütün varlığı ilə sosializm quruculuğuna bağlı olan, onun hər bir nailiyyətinə ürəkdən sevinən, dövrünü, zəmanəsini əsərlərində sonsuz ilhamla tərənnüm edən şairə bu cür haqsız böhtanlar atanın məqsədi nə idi? Müşfiqin hansı əsərində xırda burjua ideyalarına meyl var idi? Müşfiqə nə cavab verim, onu necə ovundurum? Birdən istər-istəməz «Duyğu yarpaqları»ndakı bu rübaini xatırladım:

*Nə bir həsrətim var, nə bir qəmim var,*
*Dostlarım bilir ki, nə aləmim var!*
*Lenin dünyasına ithaf etməyə*
*Bir şair ürəyim, bir qələmim var!*

– Heç xırda burjua şarinin qəlbindən belə səmimi sözlər çağlarmı? – dedim.

Müşfiqin bir qədər eyni açıldı və mənə iclasın gedişini ətraflı danışdı:

– Atalar doğrudan da yaxşı deyiblər ki, aslanın erkəyi, dişisi olmaz! Mənim ünvanıma olan haqsız tənqidləri çoxları eşidib susurdu. Heç kimin cürəti çatmırdı ki, bir söz desin. Ancaq Hökumə Sultanova (o dövrdə mədəniyyət sahəsində məsul vəzifələrdə işləyən görkəmli ictimai xadim) bu tənqidlərə dözməyib, məni müdafiə etdi. Onun bu çıxışı bədxahların gözünə ox kimi sancılıb, mənim alışan qəlbimə su çilədi. O dedi ki, Müşfiqi xırda burjua şairi adlandırmaq – onu ancaq ləkələyib bizdən ayırmaq deməkdir. Bu isə baş tutan iş deyil. Müşfiq həmişə bizim olub, bizimlə də olacaq. Sonra bir neçəsi də ürəklənib məni müdafiə etdilər. (Hökumə Sultanovanın bu çıxışı o vaxt «Kommunist» qəzetində dərc edilmişdir).

Son dərəcə həyəcanlı olan Müşfiq birdən ürək ağrısından şikayət etdi. Mən özümü itirdim. Ona ürək ağrısını sakitləşdirən dərman verdim. Ancaq onun gözünə o gecə səhərəcən yuxu getmədi. Səhər tezdən həkim çağırtdırdım. O, Müşfiqin əsəb sarsıntısı keçirdiyini müəyyən etdi, dərman yazdı.

Bir gün Müşfiq evdə «Məbədlər çökərkən» əsəri üzərində işləyirdi. Birdən qapı döyüldü. Mən qapını açanda gördüm ki, gələn Abdulla Şaiqdir.Onun gəlişi hədsiz sevincimizə səbəb oldu. Şaiq dedi:

– Gəldim baş çəkim görüm, necə dolanırsınız?

Biz ona minnətdarlığımızı bildirdik. O, həyatımızla, məişətimizlə maraqlandı. Əgər bir ehtiyacımız varsa, çəkinmədən deməyimizi xahiş etdi.

Mən Abdulla Şaiqi lap uşaqlıqdn tanıyırdım. Müşfiq Bakı pedtexnikumunda oxuyanda Abdulla Şaiq onun müəl-





limi olmuşdu. Müşfiqdə şerə, sənətə olan sonsuz məhəbbəti görmüş və ona əlindən gələn köməyi əsirgəməmişdi. Müşfiq bu qayğıkeş sənətkarı və müəllimi oğul məhəbbəti ilə sevir və həmişə onun məsləhətlərinə qulaq asırdı.

Abdulla Şaiq Müşfiqin yaradıcılığı ilə maraqlanıb onun nə üzərində işlədiyini soruşanda, Müşfiq bir qədər qəhərləndi. Öz ünvanına olan qərəzli tənqidlər barədə sevimli müəlliminə şikayətləndi, Abdulla Şaiq onu diqqətlə dinlədi. Bir qədər məyus oldu. Sonra Müşfiqin üzünə ata nəvazişi ilə baxıb dedi:

– Dağ çayı olub hər yağış-yağmurdan o dəqiqə coşub daşma! Dərya olmağa çalış ki, hər şeyi sinirə biləsən.

Onun bu müdrik sözləri Müşfiqdə böyük ruh yüksəkliyi oyatdı.

Biz 1934-cü ilin yayını şair Mehdi Seyidzadəgillə birlikdə Bakının Pirşağı bağında keçirdik. Həmin il Müşfiqin şair və yazıçı dostlarından Rəsul Rza, Ənvər Əlibəyli, Ənvər Məmmədxanlı da Pirşağı bağlarında yaylayırdılar. Əlağa Vahid də tez-tez bizə qonaq gəlirdi. Müşfiq bəzən tək, bəzən də M.Seyidzadə ilə birlikdə Ömər Xəyyamın rübailərinin tərcümələri üzərində ciddi işləyirdi. Tərcümələri qüvvətli çıxdıqca sevincini mənə bildirməyə tələsirdi. İlk dəfə mən bu rübailəri necə ilhamla oxuduğunu xatırlayıram, elə bil, onun indi də aşıb-daşan səsini eşidirəm.

*Bağlayıb yarına diləyimizi,*
*Dərdə salmayalım ürəyimizi.*
*Ey gözəl! İçəlim ay işığında,*
*Yarın bulmayacaq doğan ay bizi.*

*Vəfasız aləmi gəzdim doyunca,*
*Ölçdüm öz ölçümlə hər şeyi bunca.*
*Parlaq üzün kimi bir Ay görmədim,*
*Bir sərv bulmadım sənin boyunca.*

İstirahət vaxtlarında ənçir, tut ağaclarının dibinə xalça salıb süfrə açardıq. Mən tar çalar, qardaşım İsmayıl və Müşfiq öz məlahətli səsləri ilə oxuyardılar.

Müşfiq tez-tez yazıçı yoldaşları ilə birlikdə sahilə enər, Xəzərin seyrinə dalar, gələcək arzuları, yaradıcılıq planları barədə şirin söhbətlər edərdilər. Rəsulun fotoaparatı var idi.O, tez-tez bizim şəklimizi çəkər və zarafatla deyərdi:

– Bu şəkillərin qiyməti çox baha olacaq. Qorxuram almağa gücünüz çatmasın.

Doğrudan da Müşfiqlə Rəsul Rzanın dostluğu heç vaxt təravətini itirmədi. Onun vaxtı ilə çəkdiyi şəkillər kimi, zaman keçdikcə daha da qiymətini artırdı. Rəsul Rza sonralar Müşfiqin əziz xatirəsinə həsr etdiyi «Qızılgül olmayaydı» poemasında bu dostluğun sönməz hərarətini, sevincini təsvir etdi, vəfanın unudulmaz abidəsini yaratdı...

1937-ci ildə Müşfiq sevinə-sevinə evə gəldi ki, Dilbər, yazıçılar üçün şəhərin mərkəzində gözəl bir bina tikirlər. Mənim də adım həmin siyahıda var. Mən də sevindim. Çünki Kamo (indiki S.Rəhimov küçəsi – *red.*) 108-də bizim otaq şəraitimiz Müşfiqin yazıb-yaratması üçün əlverişli deyildi. Onun ayrıca yazı otağı yox idi. Müşfiq tez-tez gedib həmin tikintiyə baxırdı və həmin binanın tez tikilib qurtarmasını səbirsizliklə gözləyirdi. O, şirin arzularla yaşayırdı. Hətta həmin binanın tez tikilməsi münasibətilə «Təzə ev» şerini də yazmışdı. Həmin şerdən bir parçanı oxucularımızın nəzərinə çatdırıram:

*- Can usta, axı mənim böyük bir niyyətim var,*
*Mənim həyat qurmağa qəlbim var, qüdrətim var.*
*Uyutmaq istəyirəm qəlbimin sevdasını!*
*Həyatımda səfalı bir bağ salacağam mən,*
*Çiçəklərlə, quşlarla dolacaq bağım mənim*





*Daşacaqdır həyatla əlvan otağım mənim.*
*Ömrümüz həmişəlik bir bahar qucağında*
*Günəşin təbəssümü yarımın dodağında*
*Usta bir ev tikirdi, gözəl işdi gördüyü,*
*Sanki bir cüt qaranquş yuvasıydı hördüyü.*

Mən Müşfiqin dostlarından, tələbə yoldaşlarından, şagirdlərindən aldığım bir neçə ürək sözlərini də öz «xatirələrim»ə qoşmaq istəyirəm. Bu ürək sözləri, eyni zamanda kiçik xatirəni əvəz edir. Onlar mənim Müşfiqlə tanışlığımdan əvvəlki illərə – onun tələbəlik və müəllimlik illərinə aiddir. Bu kiçik xatirələrin hər biri şairin coşğun, parlaq, lakin qısa ömrünün müxtəlif sahələrini işıqlandırır.

«1921-22-ci illərdə indiki Pionerlər parkının içində olan kitabxanada cümə günləri uşaq sabahı təşkil edilirdi. Bu sabahlarda şer oxuyan məktəblilər arasında əsmər bənizli, qara parlaq gözlü, şirin gülüşlü bir oğlan da vardı. Bu oğlan Mikayıl İsmayılzadə – gələcək sevimli şairimiz Müşfiq idi. Onun şer oxuması mənə çox xoş gəlirdi. Tədricən dost olmuşuq.

1922-23-cü dərs ili başlanarkən birdən Müşfiqi, oxuduğum Bakı darülmüəllimdə gördüm. Böyük bir şadlıq ruhumu qapladı. İndi dost olmaqdan əlavə, həm də məktəbdaş olacaqdıq. Məndəki şerə ehtiras yavaş-yavaş Müşfiqə daha hərarətlə təsir edirdi. Ancaq o hələ vəzn, qafiyə, təşbeh, məcaz məsələlərini yaxşı bilmirdi. Mən ondan iki sinif yuxarı idim. Dərsdən sonra boş saatlarımızda H.Cavid və A.Şaiqin «Ədəbiyyat» dərsləri kitabını alıb bu bağa gedərdik. Orada bir guşədə, mən kitabı oxuyub izah edərdim. Müşfiq həvəslə dinləyib öyrənərdi. İllər keçdi... 1930-cu illərin əvvəllərində mən artıq tanınmış bir şair olan Müşfiqin istedadına qibtə edirdim. Məni heyran edən ondakı iki cəhət idi: birincisi, onun saysız-

hesabsız şer əzbərləmək məharəti, ikincisi, onun şer yazmaqda heç bir çətinlik çəkməməsi. Küçədə, bağda gəzib dolaşdığımız zamanlarda o, hər sözə dərhal bir qafiyə tapardı. Mən o zaman özümü hər kəsdən çox şerpərəst bilərdim, lakin Müşfiqə baxanda şerin məndən daha çox vəfalı vurğununu görürdüm. Bu duyğunun məndə illərlə sürən təsiri altında indi də əziz dostumu, ürək qardaşımı xatırladıqda deyirəm:

*O şerin Leylasına Məcnundan betər idi,*
*Könül bilir o şeyda, nə şərqilər ötər idi...*

*Əkrəm Cəfər*

Müşfiqin yaxın dostlarından biri də Sabit Rəhman idi. Onlar dağlı məhəlləsində yaşadıqları vaxt yaxın qonşu olmuşdular. Tez-tez görüşər, yazdıqları əsərləri bir-birinə oxuyardılar. Müşfiq həmişə deyərdi ki, mən Sabitə lap heyran qalmışam, bilmirəm onun əqlinə bu gözəl yumorlar, gülməli təşbehlər haradan gəlir. Sabit öz satirik əsərləri ilə məni lap valeh edir.

Sabit Rəhmanın da mətbuatda dərc edilmiş xatirələrindən görünür ki, Müşfiqin yaradıcılığını o da dərin məhəbbətlə izləyirmiş. Sabit Müşfiqi incə qəlbli, romantik bir şair adlandırır.

Müşfiqin Sabit Rəhmana yazdığı bir şeri yadımdadır. Sabit Rəhman özü həmin şer barəsində belə yazır:

«34 və ya 35-ci illər olardı. Yazıçılar cəmiyyətində iclas var idi. O zaman bizim iclaslarımız ilə oxucular da çox maraqlanırdılar. Mən lap birinci sırada oturmuşdum. Yanımdakı boş yerdə tanımadığım gözəl bir qız oturdu. Kimin nə danışdığını, nə barədə danışdığını pıçıltı ilə məndən soruşdu. Bu söhbət zamanı hiss elədim ki, arxa sıralarda hərəkət var. Dönüb gördüm ki, yoldaşlar bir-bir qalxıb





mənə və yanımdakı qıza baxırlar. Onlar elə bilmişdi ki, bu qız mənim tanışımdır və onu iclasa mən gətirmişəm.

Bir azdan «məktublar» gəlməyə başladı. Qız vəziyyəti hiss eləmiş, pərt olmuşdu. Artıq məndən söz soruşmurdu. Ancaq arxa sıralar sakit olmurdu. Hərə özünə borc bilirdi ki, mənimlə bu barədə zarafat eləsin. Xüsusən Müşfiq yerində dinc otura bilmirdi. Nəhayət, durub qabağa gəldi və bizə diqqətlə baxandan sonra o biri otağa keçdi. Az keçmədi ki, onun da naməsini aldım. Aşağıdakı şeri yazmışdı:

*Uzaqdan baxarkən sənə vuruldum,*
*Ərəş diyarının soltanı, Sabit !*
*Tanrı işığını üzündə buldum,*
*Yaralı könlümün dərmanı, Sabit!*

*Camalın bənzir, xulqun bənzir,*
*Camalı-xulquna olmuşam əsir.*
*Son zaman yaranmış şerimdə kəsir,*
*Gəlmiş həyatımın böhranı, Sabit!*

*Yanında oturmuş pərizadə bax,*
*Bəhri-məhəbbətdə çalma əl-ayaq,*
*Burnunu eyləyib özünə dayaq,*
*Bir həmlədə çevir dünyanı, Sabit!*

Mən bu şeri oxuyub qurtaranda artıq yanımdakı qız çıxıb getmişdi».

1937-ci ilin may bayramı yaxınlaşmışdı. Aprelin sonuncu günü Müşfiq evə gələndə mənə dedi ki, Sabitlə danışmışam, sabah may bayramını bir yerdə keçirəcəyik. İsmət xanım da gələcək. Gəlsənə bayramı təbiətin qoynunda qarşılayaq?!

Mən Müşfiqin fikrini bəyəndim, sabah üçün hazırlığa başladım. Ertəsi gün biz yığışıb söhbət edə-edə Dağüstü parka tərəf getdik. Günəş üzünə ağ kətan kimi sərilmiş seyrək buludların arasında şəlalə şəfəqlərini aləmə əsirgəmədən axıdır, varlığa əsrarəngiz bir təbəssüm, sevinc, fərəh bəxş edirdi. Min gözəllik sərgisi açmaq üçün torpaqdan boy göstərən tər otlar, zərif çiçəklər, min yaşıllıq heykəli yaratmaq üçün yarpaqlayan budaqlar ana günəşin hərarəti ilə öz arzularının dalınca qanadlanırdı. Elə bil insanlar kimi təbiət də nümayişə hazırlaşırdı. Orta boylu bir ağacın budaqlarının çətiri altında süfrə açdıq. Müşfiq və Sabit yerə, göyə, yaşıllanan budaqlara, göyərən tər otlara, rəngarəng çiçəklərə şairanə nəzər salıb şirin-şirin söhbətləri ilə bizi heyran qoyurdular. Sonra onlar bizdən ayrılıb xeyli söhbət etdilər. Mən Müşfiqin Sabitlə olan söhbətini soruşmadım. Mən yaxşı bilirdim ki, Müşfiq öz ürək dostuna bəzi bədxahların Müşfiqə qarşı söylədikləri böhtanlardan danışırdı. Sabit isə öz şirin söhbətləri ilə Müşfiqə təsəlli verirdi. Biz axşamüstü yığışıb gəldik.

«Mən Müşfiqlə tanış deyildim. Çünki ondan xeyli kiçik idim. Lakin onu çox oxumuşdum, şerlərini əzbər bilirdim. Ancaq şerləri nə vaxt əzbərlədiyim yadıma gəlmir. Bilirdim ki, Müşfiq yaxşı şairdir. Onu da bilirdim ki, Mikayıl «dağlıdır», bizim kəndlidir, əmim Şəmsəddinlə dostdur. Bəs özü necədir? Bunu bilmirdim, üzünü görməmişdim. Onu çox görmək istəyirdim, nədənsə müyəssər olmurdu.

Bir dəfə, təxminən mən 11-12 yaşında ikən, bir qış axşamı evimizə bir gənc gəldi və xəstə yatan atamla nə barədəsə söhbət etdi. Mən gələnin kim olduğunu bilmədiyimdən heç qonaq otağına keçmədim də. Ancaq əbəs yerə! Qonaq getdikdən sonra, atam onun yadından çıxarıb qoyduğu papiros qutusunun iç qabığında karandaşla yazılmış misraları oxuyub dedi:





– Nə gözəl beytdir! Yəqin, indi bunu axtaracaq.

– Nəyi axtaracaq? – deyə biz soruşduq.

– Şerini.

– Şerini? Məgər o kim idi ki?

– Mikayıl Müşfiq!

– Kim? Müşfiq?! Bəs niyə bunu əvvəldən demədin, ata? – Təəccüb və təəssüf içində şairin unutduğu papiros qutusunu götürüb bayıra yüyürdüm.

Artıq gec idi. Mən qonağı küçədə tapa bilmədim. Onun papiros qutusundakı yazısına baxdım. Lakin ərəb əlifbası ilə yazılmış misraları da oxumağı bacarmadım.

Sonra mən həmin papiros qutusunu Müşfiqin 5-ci məktəbdə mənimlə bir sinifdə oxuyan əmisi oğlu Yunisə verdim. Ancaq bilmirəm, bu əmanət sahibinə çatdı, ya yox?

Təxminən bir il sonra, - indi dürüst yadımda deyil, - baharın son ayımı, ya payızın ilk ayımı, ılıq bir axşamüstü, Kommunist küçəsində (indiki İstiqlal – *red.*), N.Nərimanov adına texnikumla (indiki ADU) üzbəüz böyük, qara tut ağacının altında (indi o ağac kəsilmişdir), tində yerləşən «Aydınlıq» mağazasının qarşısından keçərkən incə, ahəngdar bir səs eşitdim:

– Müşfiq!

Diksindim. Ayaq saxladım. Gənc qadının çağırışına cavab olaraq cavan bir kişi dayandı, gülə-gülə əlini ona uzatdı:

– Salam!

Mən ilk dəfə olaraq Müşfiqi gördüm. O, ağ «apaşe» köynək, qara şalvar, qara çəkmə geyinmişdi. Dağınıq saçları alnına tökülmüşdü. Ətli dodaqları ilə bərabər işıqlı gözləri də gülürdü. Mən kənarda durub şair, qadından ayrılanadək baxdım, baxdım. Müşfiq indi də mənim gözlərimdə həmin şəkildə durur.

Bundan sonra, daha bir neçə dəfə Müşfiqi gördüm – səhnədə şer oxuyarkən. Təzəcə vəfat etmiş Cəfər Cabbarlının 1935-ci il, yanvarın ilk günlərində Elmlər Akademiyasının Azərbaycan filialında («Az Fai») təşkil edilmiş birinci xatirə gecəsində Müşfiq böyük dramaturqa həsr edilmiş şerini oxudu. Sağlıq olsa, Cəfər Cabbarlı haqqında yazacağım bədii əsərdə həmin gecəni təsvir edəcəyimdən indi bu barədə danışmayacağam. Yalnız onu deyə bilərəm ki, xatirə gecəsindən evə dönərkən, Müşfiqin böyük və gözəl şerinin yarıdan çoxu mənim yadımda idi.

Şairi bir də 1936-cı ilin qışında (gərək ki, dekabr ayında və ya 1937-ci ilin yanvarında) gördüm – ilk dəfə yaxından...

Mən gündüzlər N.Nərimanov adına texnikumda oxuyur, gecələr isə «Kommunist» qəzetində korrektor köməkçisi işləyirdim. O gecə Müşfiqin «Azadlıq dastanı» poeması qəzetdə gedəcəkdi. İki «padvallıq» «nabor» yığılmışdı. Axşam şair özü də mətbəəyə gəldi. Qoca korrektorlarla görüşdü. Redaksiya və mətbəə işlərindən söhbət etdi. Şerinin «naborunu» səhifədə oxudu, gözdən qaçmış səhvləri düzəltdi. Yenə mətbəədə çalışan qəzet işçiləri ilə söhbət etdi. Mən kənardan şairi maraqla dinləyirdim. Onun söhbəti şer haqqında idi. Mən onun baxışlarından və sözlərindəki mənalardan qəlbində iki böyük arzu ilə yaşadığını hiss etdim. Birincisi, Füzuli şerinə qibtə! Müşfiq yerində otura bilməyib ayağa qalxdı və yalnız özünəməxsus bir ehtirasla Füzulinin bu qəzəlini dedi:

*«Nə yanar kimsə mənə atəşi-dildən özgə,*
*Nə açar kimsə qapım badi-səbadan qeyri!»*

– Zalım oğlu, görün, nə deyib ey! ...- deyə Müşfiq bir az sonra ikinci arzusunu da bildirdi: - Bircə o gün





olaydı ki, müasir Azərbaycan şeri Ümumittifaq miqyasına çıxaydı, əsl, böyük sənət yarışı başlanaydı...

*Ey dost, gəl bağrımı kəsib yar mənim,*
*Gör dəli könlümdə nələr var mənim.*
*Bir duyğu rüzgarı əməllərimi*
*Göydə bulud kimi parçalar mənim.*

*İndi ki, bir Sovet şairiyəm mən,*
*Eşitsin səsimi dünyalar mənim.*
*Bu geniş ölkədə öz xalqım kimi*
*Söz mənim, saz mənim, ixtiyar mənim!*

Şair hamı ilə, hətta (tanımadığı bir uşaqla) mənimlə də mehribanlıqla vidalaşdı:

– Xudahafiz! Demək, sabah «Azadlıq dastanı»nı qəzetdə oxuyuruq, - deyib sevinc içində getdi.

Lakin poema qəzetdə getmədi. Gecə nə isə mühüm bir material gəldi və əsəri səhifədən çıxartdılar.

Mən şairin səhər tezdən köşkə yüyürərək qəzet alacağını, necə birnəfəsə və həvəslə səhifələri açacağını və «padvallar»da poema əvəzinə başqa yazılar görərkən nə vəziyyətə düşəcəyini təsəvvür etdim. Düzü, gözlərim yaşardı. Şerin təmiz «naborun»dan «ottisk» çıxarıb müəllifə vermək üçün evə gətirdim. Lakin utandığımdan aparıb onu şairə vermədim , özümdə saxladım.

Bir qədər sonra «Azadlıq dastanı»nı «İnqilab və mədəniyyət» jurnalında oxuduqda yenə gözlərim yaşardı. Lakin indi bu, başqa göz yaşı idi!

Böyük şairlə qısa görüşlərim, təəssüf ki, bununla da bitdi.

*Seyfəddin Dağlı»*

M.F.Axundov adına Mərkəzi Dövlət kitabxanasının direktoru, Müşfiqin tələbə dostu Qəhrəman Süleymanzadə isə xatirə əvəzinə mənə Müşfiqin öz yazısını təqdim etmişdir:

«Əziz arkadaşım Qəhrəman!

Albomunuzu mənə təqdim edərək «siz də bir xatirə yazınız» deyirsiniz.

Qəmərin altında heç bir əbədiyyət yoxdur. İnsanın ömrü bir çiçəyin ömründən daha qısadır. Çiçək solur və tökülürsə, bu gün gülən, sevinən və sevgilisinin xəyalı ilə yaşayan bir insan da sabah bütün istək və arzularına əlvida edərək həmişəlik gözlərini yummağa məhkumdur. Kim bilir, bəlkə də qəbrinin üstündə yaşıl otların belə göyərmək ehtimalı yox. Lakin bu heç də qorxulacaq şey deyildir.

Həyatda əbədi və daimi yaşamaq hər kəsin öz əlindədir. Cəmiyyət həyatı əbədi və ölməzdir. O, dalğalanan, daşan və inkişaf edən bir seldir ki, getdikcə yeni dalğalar əskilərini basaraq köpüklənir. Bu sel ölümsüz və sonsuzdur. Bu selin ağuşuna atılanlar və öz xüsusi həyatlarını cəmiyyət həyatına fəda edənlər üçün həyat əbədi və daimidir. Tarix bir çox böylə uzun ömürlü adamların şahidi olmuşdur. Biz hamını sevə bilir və hamı qəlblərdə şəfqət və məhəbbət abidəsi yarada bilirik. Sənə, əziz dostum, belə bir tale arzu edirəm.

*Müşfiq.*
*27 yanvar 1931-ci il».*

Müşfiq haqqında görkəmli aşığımız Şəmşirin ürək sözlərini xatirəmdə yazmaya bilmərəm:

«Mən Müşfiqin ürəklərə yatan dürr kimi şerlərinə qulaq asmışam, müdrik danışığını eşitmişəm. Mən onu görən zaman hələ çox cavan idim. Onun gələcəyindən





Nizami, Füzuli nəfəsi gəlirdi. İndi o ətirli, solmaz güllər kimi açılan şairimiz aramızda görünməsə də, qəlbimizdə yaşayır və yaşayacaqdır! Mən onu çox gənc gördüyüm üçün bu kiçik şerimi onun adına həsr etdim.

*Gördüm Dilbərini Bakı şəhərində,*
*Qəm məni gətirdi fəğanə, Müşfiq!*
*Sakit əyləşmişdi, alim təhrində,*
*O səndən yadigar, nişanə, Müşfiq!*

*Gəzir ovu keçmiş ovçular kimi,*
*Elə bil dəryada qərq edib gəmi.*
*Dedi: - itirmişəm könül həmdəmi,*
*Baxırdı cananın hər yanə, Müşfiq!*

*Günəş oldun, işıq saçdın cahana,*
*Belə tez batmaqda nədir bəhanə?*
*Füzuli gəlmişdin Azərbaycana,*
*Səsin yayılmışdı asmanə, Müşfiq!*

*Dağ çəkdi firqətin qohuma, yada,*
*Ölüm yaraşarmı bu cavan ada?!*
*Bu alim şairə, kamil ustada*
*Kim deməz mərd oğlu, mərdanə, Müşfiq!*

*Şəmşiri aparır bu dərin xəyal,*
*Zəri sərrafına yaraşmaz bu hal.*
*Baxışı, duruşu dağlarda qartal,*
*Gözləri oxşayan tərlana, Müşfiq!*

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 15 illik bayramı münasibətilə çağırılmış təntənəli iclas

M.F.Axundov adına Opera və Balet teatrında (indiki Azərbaycan Dövlət Akademik Opera və Balet teatrı – *red.*) keçirildi. Müşfiq də iclasa dəvət olunmuşdu. Biz teatr binasına daxil olduqda orada böyük canlanma var idi, hər yan bayramsayağı bəzədilmişdi. Ruhulla Axundov yoldaş foyedə çox şən və həyəcanlı halda bir neçə nəfərlə şirin söhbət edirdi. Müşfiq gəlib Ruhulla Axundovla görüşdü. Sonra Səməd Vurğun da gəlib onlara qoşuldu. Azərbaycan xalqının unudulmaz oğlu, görkəmli partiya və dövlət xadimi Ruhulla Axundovun ətrafına toplaşan şair, rəssam, bəstəkarların sayı get-gedə çoxalırdı. Hamı bir-birini bu əziz gündə təbrik edir, alqışlayırdı. Sonra hamı, Azərbaycan xalqının nümayəndələri, başqa respublikalardan gəlmiş qonaqlarla dolu salona daxil oldu.

SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri, Ümumittifaq ağsaqqalı M.İ.Kalinin yoldaş xalqımızın bayram təntənələrində iştirak etməyə gəlmişdi. Salonda gurultulu alqış səsləri ucaldı. Hamı ayağa qalxıb «İnternasional» oxudu. Sonra M.İ.Kalinin SSRİ hökuməti, Sov.İKP MK adından Azərbaycan neftçilərini, kolxozçularını, ziyalılarını təbrik etdi. Sovet hakimiyyəti illərində Azərbaycan xalqının iqtisadiyyat və mədəniyyət sahəsindəki tarixi qələbələrinə həsr edilmiş məruzədən sonra təbriklər başlandı. Rus xalqının elçiləri, qardaş sovet xalqlarının nümayəndələri, xüsusən Zaqafqaziya respublikalarından gəlmiş elm və mədəniyyət xadimləri salonun gurultulu alqışları altında nitq söyləyib, respublikamızın zəhmətkeşlərini böyük ruh yüksəkliyi ilə təbrik edib, öz xalqlarının qardaşlıq salamını xalqımıza yetirdilər.

Azərbaycan xalqının nümayəndələri – neftçilər, kolxozçular, elm və mədəniyyət xadimləri bir-bir çıxış edib təbriklərə cavab verir, sosializm quruculuğundakı cahanşümul nailiyyətlərindən ürəkdolusu danışırdılar. Azərbaycan mədəniyyətinin nümayəndələri içərisində Mikayıl Müşfiqə də söz verildi. O özünün «Əbədiyyət nəğməsi»ni oxudu:

*Dolanıb fəsillər, döndükcə illər,*
*Gəldikcə dünyaya yeni nəsillər.*
*Bir yavru, bir quzu şənlik çölündə*
*Mələyə-mələyə açınca dillər,*
*Sizin həyatınız bizdən də yaxşı*
*Keçincə, ey bizim gələcək ellər!*
*İnsana qul olub, qulluq edərkən*
*Sərsəri küləklər, divanə sellər,*
*Bir əməl ucundan şurə gəlincə*
*Səmada buludlar, yerdə könüllər...*
*Şair yeni-yeni sözlər bulacaq,*
*Kainat olduqca, şer olacaq!*

Müşfiq həyata sonsuz məhəbbət bəsləyən, hadisələri dərindən dərk etməyi bacaran, buna görə də gah həyəcanlanan, gah sevinən, gah qüssələnən mübariz təbiətli şair idi.

Müşfiqin həyatda ən böyük amalı Sovet ədəbiyyatının zənginləşməsinə, inkişafına xidmət etmək idi. Xalqına sonsuz məhəbbət bəsləyən şairin ürəyi həyat sevgisi ilə çırpınırdı. Şerlərinin birində dediyi kimi:

*Ah, mən gündən-günə bu gözəlləşən,*
*İşıqlı dünyadan necə əl çəkim!*
*Bu yerlə çarpışan, göylə əlləşən,*
*Dostdan, aşinadan necə əl çəkim!*

Cəmi on illik yaradıcılıq dövrü ərzində Müşfiq Azərbaycan Sovet poeziyasının ən parlaq nümayəndələrindən biri oldu. Coşğun ilhamlı nəğmələri, gözəl şer və poemaları ilə geniş xalq kütlələrinin dərin məhəbbətini qazandı. Bu əsərlərdə həyatı, insanları çox böyük məhəbbətlə sevən mərd və döyüşkən bir şairin alovlu ürəyi çırpınır.

Xalqımızın sevimli, istedadlı şairi M.Müşfiqin qısa və parlaq həyatı Azərbaycan mədəniyyəti tarixində silinməz izlər buraxdı.

M.Müşfiq 1939-cu il mart ayının 12-də* vəfat etmişdir.

Mənim Müşfiqli günlərim belə qurtardı...

*İndi də könlümə təsəlli sənsən,*
*Ölüncə dilimin əzbəri sənsən...*

* *Qeyd:* 1956-cı ildə Dilbər Axundzadəyə dövlət orqanları tərəfindən verilmiş sənəddə Mikayıl Müşfiqin ölüm tarixi 12 mart 1939-cu il, bizim kitaba daxil etdiyimiz arxiv materiallarında isə 5 yanvar 1938-ci il göstərilmişdir – *red.*



# MÜŞFİQSİZ



# GÜNLƏRİM

## UŞAQLIQ XATİRƏLƏRİM

Növbəti görüşlərimizin birində Müşfiq mənim uşaqlıq həyatımdan danışmağımı xahiş etdi. Mən dərindən ah çəkdim. Uşaqlıq həyatım kino lenti kimi gözümün qabağından keçdi. Müşfiq dedi: – Dilbər, niyə birtəhər oldun? Heç, dedim. Mən başladım uşaqlıq həyatımı Müşfiqə danışmağa.

Bizim taleyimiz bir-birinə çox oxşayırdı. Mən də ana nəvazişi, ata qayğısı görməmişdim. Həyatım qırıq-qırıq xatirələrdən ibarət idi. Atamın əmisi Golayır kəndindən gözəl, cavan bir qız alır. Atamın əmisi çox yaşlı olub. Anam onunla həyat qurub. Əmisindən iki qızı olur. Birinin adı Bikə, o birinin adı Səkinə. Atamgilnən bir balkonda olurmuşlar. Atamın əmisi tez ölür. Anam Leyla isə cavan yaşında dul qalır. Qohum-qardaş məsləhət görürlər ki, atam əmisi arvadını alsın, qızlara da baxsın. Atam Hacı da əmisi arvadını alır, həm də onun qızlarına baxır. Qızlar böyüyürlər. Atam istəyir ki, qızları öz qardaşlarına alsın. Əmilərim savadlı olublar, ancaq dövlətli olmayıblar. Anam atamdan xəbərsiz Bikə bacımı Məmməd adlı bir kişiyə ərə verir. Atamla anamın toyda mübahisəsi düşür. Bu vaxt mən altı aylıq olmuşam. İməkləyə-iməkləyə qaynar samovarı üstümə töküb, qollarımı yandırmışam. Anam acıq eləyib yenə atamın əmisinin, qabaqkı ərinin evinə gedib orada yaşayır. Mənə atamın anası nənəm Kubra xanım baxır. Bibilərim, bacılarım məni müalicə elətdirib yaralarımı sağaldırlar. Məni müxtəlif dayələrə verib saxlat-



Soldan: Nəcibə Məlikova, Şükriyyə Axundzadə və Dilbər xanım

dırırlar. Onların südü ilə böyüyürəm. Anamı isə anası Hacı Tutu, nənəm, qardaşı Hacı Usub, dayım gəlib Golayır kəndinə aparırlar. Atama acıq vermək üçün məni aparmırlar. Gündüzlər nənəm, axşamlar atam mənə baxır. Anam isə balasını itirmiş maral kimi mələyə-mələyə kəndə gedir. Nənəm Hacı Tutu görür ki, anam gecələr yatmır. Gecə-gündüz ağlayır. Tez anamı Gəncəyə gətirib məndən xəbər tutur. Anam yenə şəhərə köçür. Qardaşı, anası şəhərdə ona baxırlar.

Evdə uşaq olmadığından məni hədsiz məhəbbətlə sevirlər. Mən yavaş-yavaş böyüyürəm. Anam isə hərdən gəlib məni çağırır, görüşür, evinə aparırdı. Məni isə ana məhəbbəti maqnit kimi özünə çəkirdi. Bu sevinc az olurdu. Nənəm, atam inciyər deyə məni tez atamın yanına gətirirdi. Atam çox sakit, mehriban, uşaq sevən kişi idi. Mən nə desəm onu eləməyə çalışırdı. Nənəm Kubra xanım Molla Məhəmməd Axundun bacısı idi. Çox gözəl, ağıllı, alicənab qadın idi. Nəsildə rəhbər qadın kimi tanınırdı. Onun yanına hamı məsləhətə gəlirdi. O mənə yaxşı baxırdı. Mənə bir mis qazan düzəltdirib, üstünə də adımı yazdırmışdı. Hər gün mənə o qazanda xüsusi xörək hazırlayırdı.

Əmim İdris Fəramuş adlı bir qadınla evlənib Bakıya köçmüşdü. Əmim o vaxt hörmətli ziyalılardan idi. Ədə-





biyyat müəllimi idi. Mən altı yaşında olanda nənəm rəhmətə getdi. Fərəhli günlərim də onunla getdi. Atam Xanım adlı bir qadınla evləndi. Analığım Xanım çox əsəbi qadın idi. İsmayıl adlı bir oğlu oldu. O, məni anamın yanına getməyə qoymurdu. Anam isə qardaşım İsmayılı və məni çox istəyirdi. Qardaşım onu nənə deyə çağırırdı. Anamın yaxşı yeməyi olanda mənsiz boğazından keçmirdi. Atamgillə anamgilin evlərinin arasında dalan var idi. Axırı çayla qurtarırdı. Mən çaya zibil tökməyə gedəndə anam çağırıb, saxladığı yeməkləri mənə yedirirdi. Gec gələndə analığım dava salırdı. Anamın otağından bağa pəncərəsi var idi, ora tor setka çəkdirmişdi. Atam ilə anamın pəncərəsinin qabağında, bağın arasında hasar yox idi. Mən bizim bağ ilə gedib anamın pəncərəsinin qabağında dayanırdım. Anam məni görcək torun bir hissəsini kəsib mənə bişirdiyi qoğaldan, yağlı çörəklərdən verərdi. Mən də bağda oturub yeyib sonra evə gəlirdim. Analığımın xasiyyətinə dözə bilmirdim. Günü-gündən arıqlayırdım. O, bəzən acıqlanıb məni vururdu. Mən gedib bağçada oturub nənəmi yada sa-



Dilbər Axundzadə, Şövkət Ələkbərova və Şəfiqə Axundova

lıb ağlayırdım. Atam gəlib soruşurdu, nə olub? Atama səbəbini demirdim. Deməyə də qorxurdum. Bir dəfə əmim İdris Gəncəyə gəzməyə gəldi. Mən onu görəndə qucaqlayıb ağladım. Onun da gözləri yaşardı. Ağlama, dedi, səni özümlə Bakıya aparacam, burda qoymaram. Atama da dedi: - «Dilbəri tanıya bilmədim». O məni özü ilə Bakıya gətirdi. Məni Bakıdakı qızlar məktəbinə, Xədicə xanımın məktəbinə qoydu. 3-cü sinifdə oxuyurdum. Əmim arvadı Fəramuş alicənab qadın idi. Mənə öz balası kimi baxırdı. Mən Bakıya gələndən bir il sonra atam Hacı rəhmətə getdi. Mən əmimlə Gəncəyə gəldim. Qardaşım İsmayılın 6 yaşı var idi. Əmim necə lazım idi atamın dəfnini təşkil etdi. Məni yenə də Bakıya gətirib gəldi. O, hər ay qardaşım İsmayıla pul göndərirdi.

Nəhayət, indi texnikumun 3-cü kursunda səninlə tanış oldum.

Müşfiqin xəyalı uzaqlara gedə-gedə məni maraqla dinlədikdən sonra dedi: - Dilbər, biz ikimiz də yetimliklə böyümüşük. İndi bir-birimizə gərək elə sədaqətli olaq ki, uşaqlıqda çəkdiyimiz əziyyətləri unudaq. Leyla anama da elə baxarıq ki, o oğulsuz olduğunu unudar. Doğrudan da Müşfiq verdiyi vədlərinə sədaqətli oldu. Anam Müşfiqin xətrini dünyalar qədər istəyirdi. Məni də, Müşfiqi də hədsiz məhəbbətlə sevirdi. Anam, mən özümüzü xoşbəxt sanırdıq. Elə bil Müşfiq qəlbində olan günəş məhəbbətilə üstümüzə nur çiləyirdi.

Müşfiqin ayrılığı mənə çox ağır gəldi. Çünki Müşfiq alovlu şair olmaqla bərabər bir insan kimi də çox sadə, alicənab adam idi. O, hamının ürəyinə yol tapmağı bacarırdı. Onun ürəyində olan məhəbbət günəşinin şüaları insanın üzərinə nur salır, işıqlandırır, sevindirirdi. O məni həmişə ruhum deyə çağırırdı. Mənim ürək arzularımı öyrənib yerinə yetirməyə çalışırdı. Mən gənclərimizə xoşbəxtlik, Müşfiq məhəbbəti kimi ülvi məhəbbət arzulayıram. Mən də Müşfiqdə olan zərif duyğuları, mehriban xasiyyətləri gördükcə ona qarşı günü-gündən məhəbbətim artırdı. Sanki dünyaya təzəcə gəlirdim, özümü xoşbəxt hiss edirdim. Müşfiqin ayrılığından sonra başa düşdüm ki, sanki Müşfiq mənim nəfəsim imiş, onsuz sanki mənə hava çatmırdı.





## YADIMA DÜŞDÜ

*Yenə o günlərə uçdu xəyalım,*
*O gənclik illəri yadıma düşdü.*
*Canlandı gözümdə ilk peymanımız,*
*O coşqun əməlləri yadıma düşdü.*

*Qızıl günəş bildim mən o xilqəti,*
*Qəlbimi oynatdı şeri, sənəti,*
*Şerlər deyəndə gülən surəti,*
*O şirin dilləri yadıma düşdü.*

*O, könül bağladı saf arzulara,*
*Yaşıl çəmənlərə, sərin sulara,*
*Deyin ölüm hara, sənətkar hara?*
*Sənətkar əlləri yadıma düşdü.*

*O, xalqa heyrandı, xalq ona heyran,*
*Xəyalı tərlandı, könlü asılqan.*
*Açıq ağ alnının üstə qıvrılan*
*O qara telləri yadıma düşdü.*

*Deyin, yada düşən birmi, ikimi,*
*Canı tək sevərdi gözəl Bakını.*
*Daşlara çırpdılar büllur eşqini,*
*O xəzan yelləri yadıma düşdü.*

## MÜŞFİQSİZ GÜNLƏRİM

Uşaqlıqdan yetim qaldığıma görə ana nəvazişi, ata qayğısı görməmişdim. Ömrümdə boynumu sığallayıb, uşaq könlümü oxşayan olmamışdı. Müşfiq bunların hamısını unutdurmuşdu. Mən elə bilirdim dünyaya yenicə göz açmışam. Müşfiq özü şerlə nəfəs alırdı, onun bütün varlığı başdan-başa şer idi. Mən də şerlə yuxudan oyanır, şerlə söhbət edir, şer dinləyə-dinləyə də yuxuya gedirdim.

Tale bunu da çox gördü mənə. Müşfiqi məndən, məni Müşfiqdən ayırdılar. Elə bil havasızlığa düşdüm. Nəfəs ala bilmirdim, boğulurdum. Yalnız indi duyurdum ki, Müşfiq mənim nəfəsim imiş. Xəyalı gözlərimin önündən, səsi qulaqlarımdan getmirdi. Onu hər an yanımda hiss edirdim. Atasızlığı, anasızlığı mənə unutduran Müşfiqi unuda bilmirdim. Bu ağır həsrətdən yana-yana bir şer yazdım.

*Alışıb yanıram, Müşfiqim, sənsiz,*
*Qalmışam dünyada yalqız, kimsəsiz.*
*Günəşli gündüzlər boran görünür,*
*Dünya başdan-başa duman görünür.*
*Sən vətən eşqini müqəddəs tutdun,*
*Unudarmı səni bu ana yurdun?!*
*Mən bir parça işıq, sən bir pərvanə,*
*İndi də qalmışam mən yana-yana.*

O vaxt Tibb institutunda oxuyurdum. Fikir, xəyal içində instituta getdim. Yoldaşlarım başıma toplaşdılar. Rəfiqələrimdən Sona Cəbiyeva, Rüxsarə Nəcəfova, Tuba xanım məni tək buraxmır, darıxmağa qoymur, təsəlli verirdilər. Məsləhət görürdülər ki, təhsilimi davam etdirim. Müşfiqin poemasının qəhrəmanları Şölə, Ənvər də, "Qaya" poemasındakı yetim uşaqlar da bizə gəlir, Müşfiqi soruşur, göz yaşı tökürdülər. Axı Müşfiq onlara həmişə qayğı göstərirdi.





Müşfiqin yoldaşlarının biri də bizə gəlmirdi, çünki qorxulu vaxt idi. Xalq düşməninin ailəsi ilə əlaqə saxlayanları da incidirdilər. Xalqımızın fədakar oğulları Ruhulla Axundov, Mikayıl Hüseynov, Həmid Sultanov, Yazıçılar İttifaqının o vaxtkı katibi Kazım Ələkbərli və başqaları da həbs olunmuşdular. Bir nəfər yaxın və qayğıkeş adam yoxuydu ki, çətinə düşəndə üstünə gedəydin.

Məni ən çox ağrıdan o idi ki, Vətənini çəmənzara bənzədib, onun qoynunda bülbül kimi cəh-cəh vuran, xalqını ürəkdən sevən Müşfiqə "xalq düşməni" ləkəsi vurmuşdular. Xalqının dili ilə ağlayıb, gözü ilə gülən şair də xalqının düşməni ola bilərdimi?! Onunla son görüşüm ürəyimə dağ üstündən dağ çəkdi. Müşfiq kədərli, küskün baxışlarında aydın seçilən ümidsizliyi gizlətməyə çalışıb, könlümü almaq üçün deyirdi ki, tezliklə qayıdacam evimizə.

1937-ci ilin axır günü, saat iki radələrində qapının zəngi çalındı. Qapını açdım. Bir qonşum rus qadını, 2 nəfər də rus kişisi özlərini içəri soxdular. Nəzakətsiz-filansız dedilər ki, sən həbs olunursan. O vaxt 23 yaşım vardı, komsomolçu və Bakı Sovetinin üzvü idim. Ancaq mən bu haqsızlığa qarşı nə edə bilərdim. Paltarlarımı bir bağlamaya yığıb özümlə götürdüm. Məni apardılar Bayıl həbsxanasına. Heç məni bura nə cür gətirdiklərini bilmədim. Rəngim qaçmışdı, bədənim əsirdi.

Müşfiq də, mən də yetimliklə böyümüşdük. Bakı seminariyasında həm oxuyur, həm də orda qalırdıq. Bizə yaxşı baxırdılar. Zəif tələbələrə xüsusi yeməklər verir, doğma Vətəni, el-obanı sevməyi öyrədirdilər. Biz Vətəni özümüzə həm ata, həm də ana bilirdik. Övlad da atasına, anasına düşmən olarmı?! Öz-özümə düşünürdüm ki, burda

mütləq düşmən əli var. Sözdə deyirdilər ki, Stalinin özü göstəriş verib ki, oğul atasına görə cavabdeh deyil. Əslində isə günahsız xalq düşmənlərinin bütün qohum-əqrəbasını incidirdilər. Bu da o vaxtkı Daxili İşlər Naziri Yojovun əməli idi. Yojov kimilərin harası ağrıyırdı ki... İstedadlı oğullarını itirən isə Azərbaycan xalqı idi.

Düzü, mən "xalq düşməni" adını üstümə götürə bilmirdim. Sanki boynumdan bir top qurğuşun asılmışdı və bu ağırlığın altında boğulurdum. Düşünürdüm ki, "xalq düşməni", "Vətən xaini" kimi yaşamaqdansa, ölüm yaxşıdı. Xalqımızın həqiqi düşmənləri, Vətənimizin həqiqi xainləri isə milli vüqar hissi ilə yaşayan gözüaçıq ziyalılarımızın ayıq, sağlam düşüncələrindən qorxub, onları bircə-bircə dənləyirdilər. Bayıl həbsxanası ziyalı qadınlarla doluydu, yatmaq nədi, heç oturmağa yer yoxuydu. Onların çoxu ana idi, körpə balalarından ayrılmışdılar. Gecə-gündüz şikəstə deyib ağlayan bu günahsız anaların göz yaşlarına baxdıqca, bir-birinə qarışmış qəzəbli qışqırıqlarını eşitdikcə adamın əti ürpəşirdi. Yalnız insanlıqlarını itirmiş adamlar bu ah-nalələrə biganə qala bilərdilər ki, bizim də taleyimizi onlar həll eləyirdilər.

Müşfiqin bacısı Balacaxanımı da heç bir əsas olmadan qardaşından sonra tutmuşdular. Müəllimə işləyən Balacaxanıma qardaşı tutulandan sonra iş vermirdilər. O, bununla əlaqədar müvafiq təşkilata şikayət edir. Onun şikayətini isə eşidən olmur. Balacaxanım bu haqsızlığa etiraz etdikdə onu da tutub həbs edirlər.

Balacaxanım müəllim işləyirdi. Sevimli şairimiz Teymur Elçinə də ibtidai sinifdə o dərs demişdi. Teymur Elçinlə məni Müşfiq bəraət alandan sonra Balacaxanım tanış eləmişdi. Şair öz müəllimini həmişə xatırlayır, onu bir an da unutmurdu. Ağır günlərdə onun bizə də qayğısı çox olub. "Müşfiqli günlərim" kitabının yazılmasını da mən





Teymur Elçinin xeyirxahlığı sayıram. Çünki Müşfiqin həyatını qələmə almağı o mənə tövsiyə edib və məni bu işə ürəkdən həvəsləndirib.

Eh, talelər, talelər! Əhməd Cavadın həyat yoldaşı Şükriyyə xanımın, Mikayıl Hüseynovun həyat yoldaşı Şövkət xanımın və minlərlə digər ziyalı qadınlarımızın və kişilərimizin taleyi... Şükriyyə xanımın uşaqlarını zorla əlindən alıb uşaq evinə vermişdilər. Kiçik oğlu Yılmazı Əhməd Cavadın anası Yaxşı xala aparmışdı. Şövkət xanım o qədər həyəcan keçiribmiş ki, gömgöy göyərib ölümcül hala düşübmüş. Bunları mənə Leyla xanım Baratzadə danışdı. Çünki mən gələndə onları sürgün eləmişdilər. Anası Sona xanım tez-tez Leyla Baratzadənin yanına gəlir, ona hər şey gətirirdi. O da bir tikəsini mənsiz yeməzdi. Mənim də yanıma Gəncədən anam, bacım, Müşfiqin dayısı Ağamehdi dayı, arvadı Gülsüm xanım gəlirdilər. Leyla xanım oğlu Çingizi qoyub gəlmişdi. Çingizə nənəsi Sona xanım baxırdı.

Leyla xanım hüquqşünas idi. Onun rəhbərliyi ilə yığışıb Stalinə, Yejova ərizə yazırdıq ki, bizi günahsız yerə niyə tuturlar?! Ancaq ərizələrimizi hansı quyuya atırdılarsa, nə izi qalırdı, nə tozu! Məktubların da taleyi öz taleyimizə bənzəyirdi. Bəlkə bir həbsxanada da bizim məktublarımız dustaq idilər, nə bilmək olar!

Filosof yazıçımız Əli Nəzmini də, həyat yoldaşı Ksenyanı da tutmuşdular. Oğlu Ramini uşaq evindən qardaşı arvadı Tasya götürüb baxmışdı. Həbsxanadan çıxandan sonra Ksenya Ramini istəyəndə Tasya uşağı vermir. Bir gün Tasya uşağı götürüb şəhərdən çıxır. Ksenya isə övlad həsrətinə tablaşmayıb özünü asır.

Yadımda qalan qadınlardan biri də Fəridə xanımdı. Bir neçə il bundan əvvəl Aktyorlar evinə yolum düşmüşdü, o vaxt Fəridə xanım orada administrator işləyirdi. İndi xəbərim yoxdu.




80/5 Лист № 7

К делу №

**Анкета арестованного.** №1109

Фамилия: Исмаил-заде

Имя и отчество: Микаил Мушфик

Год рождения: число ... месяц ... 1908 год

Место рождения: Гор. Баку

Местожительство (адрес): Баку Нижне-Приютская дом №108 кв.

Профессия и специальность: Поэт

Место службы и должность или род занятий: Редактор переводчик Азернешр г. Баку (указать без сокращений, название предприятия или учреждения)

Паспорт: Выдан 6 7 Отд. Б.Г.М. годов (когда и каким органом выдан, № и категория, где прописан)

Социальное происхождение: Служащий (род занятий родителей и их имущественное положение)

Социальное положение: Служащий (род занятий, имущественное положение, социальное положение)

а) до революции: на иждивении родителей

б) после революции: Служащий по сей день

Образование: Высшее

Партийность: б/парт.

...сведений нет ... УГБ НКВД Азербайджана

Гашев





13. Национальность и гражданство (подданство) Азербайджанец С.С.С.Р.

14. Категория воинского учета-запаса и где состоит на учете Бак-воен комате

15. Служба у белых и друг. к-р армиях, участие в бандах, восстаниях против Совласти и в качестве кого: Не-участвовал

16. Каким репрессиям подвергался при Совласти: судимость, арест и др. (когда, каким орг... за что): Не-подвергался

17. Состав семьи: жена Дильбар 24 г., брат Мирза 32 г., сестра Баладжи-ханум 30 л. (ближайшие родственники, их имена, фамилии, адреса и род занятий)

Подпись арестованного М. Муш.

1. Особые внешние приметы
2. Кем и когда арестован 4/VI 37 г. 4 Отд. У.Г.Б. НКВ...
3. Где содержится под стражей В Ардоме НКВД Аз. С...
4. ...

Подпись сотрудника заполнившего анкету ...

4/VI 1937 г.

Примечание: 1. Все ... После ... заполняется четко и разборчиво со слов арестованного и пр...
2. С вопросами обра... документам. Азербайджана по ...

ЧИ / 8

# ПРИГОВОР

Союза Советских Социалистических Республик
выездная сессия
Коллегии Верховного Суда Союза ССР
в составе:

…датательствующего Диввоенюриста НИКИТЧЕНКО И.Т.

Диввоенюриста ИЕВЛЕВА Б.И. и Бригвоенюриста ИЩЕНКО П.…

…кретаре военном юристе 2 ранга КУДРЯВЦЕВЕ Д.Н.

…закрытом судебном заседании, в гор. Баку

… января 1938 года, рассмотрела дело по обвинению:

… ЗАДЕ МИКАИЛ МУШФИК КАДИР ОГЛЫ - 1908 г. рожден., быв. …тор и переводчик Азербайджанского Государственного Издател… …ССР - в преступлениях, предусмотренных ст.ст. 64, 70 и … …ССР.

…ным и судебным следствием установлено, что Исмаил Заде [illegible] сторонником буржуазно-на[illegible]… …ных идей и был связан с мусаватистами … в 1935 году вступил в антисоветскую … …ческо-террористическую организацию бур[жуазных] националистов, поставивших [illegible] вооруж… …ние в целях свержения советской власти в Азербайджане и создания буржуазно-нацио… …нального государства, в соответствии с [illegible]





[illegible] целями [illegible] и [illegible] организацию Исмаил Заде пропа… идеи буржуазного национализма в [illegible] новых участников.

Таким образом установлена виновность Заде в совершении преступлений, преду… статьями 64, 70 и 73 УК АзССР.

На основании изложенного и руководствуясь [illegible] и 320 УПК, Военная Коллегия [illegible]

приговорила

Исмаил Заде Микаил Мушфик Кад[ир оглы] к высшей мере уголовного наказания — расст[релу], конфискацией всего лично ему принадлежащего имущества.

Приговор окончательный и в силу [постановления ЦИК] СССР от 1.XII.1934 года в исполнение [illegible]

[illegible]

Диввоенюрист [illegible]

[illegible]


Секретно.

СПРАВКА.

Приговор о расстреле Исмаил Заде Микаил Мушфик Кябир Оглы приведен в исполнение в гор. Баку "6" I 1938 г. Акт о приведении приговора в исполнение хранится в Особом архиве 1-го спецотдела НКВД СССР том №- 8 лист №- 40

НАЧ. 12 ОТД 1 СПЕЦОТДЕЛА НКВД СССР
Лейтенант Госбезопасности: (Шевелев)

Bayıl həbsxanasında keçirdiyimiz hissləri, həyəcanları, əzab və işgəncələri nə dillə söyləmək mümkündür, nə də qələmlə yazmaq! İş o yerə gəlib çıxmışdı ki, mən "xalqının düşməni" damğasının dəhşətini duyduğumdan aclıq elan eləməyə məcbur oldum. Onda məni yoldaşlarımdan ayırıb tək adamlıq kameraya gətirdilər. Oradakı işgəncə və əzablar mənə indiyə qədər çəkdiklərimin hamısını, hətta "xalq düşməni" adının dəhşətlərini də unutdurdu. Anamdan əmdiyim südü burnumdan gətirdilər. Huşumu necə itirmişəm, xəstəxanaya nə cür gəlmişəm, heç cür xatırlaya bilmirəm. Bircə onu bilirəm ki, uzun müddət xəstəxanada yatdım. Azərbaycanlı həkimlərin gizli qayğısı ilə sağaldım. Onlar da canlarının qorxusundan açıq qayğı göstərə bilmir, xəlvətə salıb halıma yanır, məni ürəklə müalicə eləyirdilər.

Günlərin bir günü məni Daxili İşlər Nazirliyinə gətirdilər. Dedilər ki, bağışlayın, sizi haqsız tutmuşuq. Bu sözləri deməyə nə var ki! Bağışlayın, sizi haqsız tutmuşuq!





Bu gün bu sözləri dedikcə ürəyimdən qara qanlar axır. Ən qatı düşmən də, ən qaniçən vəhşi də insanın başına yejovların, qriqoryanların, sumbatovaların bizim başımıza açdıqları oyunları açmaz! Xalqımız çox böyük qurbanlar verdi. Xalqın qeyrətli oğullarına "xalq düşməni" adı verib güllələyənlər xalqımıza elə bir yara vurdular ki, indən sonra yüz ilə də sağalmaz.

1956-cı ildə hərbi tribunaldan Müşfiqin həm bəraət, həm də "ölüm" kağızını aldım. 1939-cu ildə martın12-də ölmüş Müşfiq mənim ürəyimdə 1956-cı ilə qədər sağ idi. Xalqının ürəyində isə bu günə qədər yaşayır.

Qara kağızını alandan sonra Müşfiqin dağlı məhəlləsində yaşayan bacısı Balacaxanımla ona yas qurduq, ehsan verdik.

## ÖTƏN İLLƏRDƏN XATİRƏLƏR

1935-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin 15 illik bayramı münasibətilə yaxşı əsər üçün müsabiqə elan edildi. 1936-cı ildə Müşfiqin qadın azadlığına həsr etdiyi "Səhər" poeması mükafata layiq görüldü. Müşfiqin yaradıcılığı, şöhrəti artdıqca düşmənləri də çoxalırdı.

Başladılar Müşfiqi nahaq yerə tənqid etməyə. 1936-cı ilin axır ayları şəxsiyyətə pərəstiş dövri başladı. Müşfiq evə qanıqara gəldi. Səbəbini soruşanda dedi ki,- Ruhulla Axundovu həbs ediblər. Axı o, köhnə partiyaçı, inqilabçı, Sovet hökumətinin sədaqətli oğlu, vətənini, xalqını sevən gözəl bir insan idi. Bu xəbər məni də sarsıtdı. Hər ikimiz fikir-xəyal içində idik. 1936-cı ilin axır günü idi. Biz hazırlaşıb əmim İdrisgilə, oğlu Sabutayın ad gününə getdik. Onun ad günü dekabrın 29-da idi. Ancaq əmimin yaxın dostları 31-nə dəyişməyi xahiş etmişdilər.

Hüseyn Cavid əfəndi, Müşkünaz xanım, Əhməd Cavad, Şükriyyə xanım, Müşfiq, mən və başqa dostlar toplaşmışdılar. Hamı Sabutayı 12 yaşı tamam olması münasibəti ilə təbrik edib, zarafat edirdilər. Heç kim heç bir şey bilmirdi. Ancaq əmim arvadı Fəramuş əlləri qoynunda mətbəxdə ağlayırmış. Özünü güclə saxlayırmış. Sonra bacısı Həcəri çağırıb deyir ki, Müşfiqi çağır, bu müsibəti de. Müşfiq rəngi qaçmış halda bu xəbəri deyəndə, hamı sarsıldı. Əmim arvadı ali savadlı qadın idi. Müşfiqlə Lenin (İndiki Tusi adına – red.) adına Pedaqoji institutu birgə qurtarmışdı. Əmim arvadı Fəramuşun xətrini əmimin dostları çox istəyirdilər. Onu Məşədi deyə çağırırdılar, bişirdiyi xörəklər, yola saldığı məclislər dillər əzbəri olmuşdu. O, Cavid əfəndigilnən əmim İdrisdən qabaq tanış idi. Cavid əfəndinin qardaşı Molla Əhməd əmim arvadıgilin həyətlərində olurdu. Cavid əfəndi, Müşkünaz xanım tez-tez Əhmədgilə qonaq gəlirlər. Əmim arvadı Fəramuş Müşkünaz xanımla bərk dostlaşırlar. Hətta siğə bacı olurlar. Sonra hər ikisinin ailəsi Bakıya köçür. Onların dostluqları öz təravətini itirmədi. Ölənə kimi doğma bacıdan artıq oldular. İndi də Müşkünaz xanımın gülər üzünü, mehriban baxışını, bizə verdiyi ağıllı məsləhətlərini unuda bilmirəm. Əmim ədəbiyyat müəllimi idi. Əmimin baldızı Həcər, mən 10 yaşından əmimgildə olurduq. Yadıma gəlir ki, əmim atalar sözü toplayırdı. Biz də bu işdə ona köməklik edirdik. Balaca kağızlar kəsib hər atalar sözünü ayrı-ayrı kağızlara yazırdıq. Sonralar əmim Cavid əfəndi ilə "Oblomov" əsərini azərbaycan dilinə tərcümə edirdi.

Biz əmimgildə gecə saat birə kimi oturduq. Sonra kor-peşman evimizə gəldik. Mən ağlayırdım. Gecə yata bilmədim. Müşfiq isə özünü ələ alıb mənə təsəlli verirdi. Müşfiq əmimi özünə ata bilirdi. Əmim ürəyi açıq, alicənab kişi idi. Əmim və arvadı bizə öz balaları kimi baxırdılar. O vaxtlar elmlər doktoru, elmlər namizədi alimlik dərəcəsi müdafiə edənlər az idi. Əmim də elmlər namizədliyini müdafiə etmişdi. Müşfiq də institutu yenicə qurtarmışdı. Bizim nişanımızı, toyumuzu özü elədi. Müşfiq, mən tez-tez gedib onun ailəsini yoxlayır, təsəlli verirdik. Əmim arvadı bizi çox istəyirdi.

1937-ci il başlandı. Şəxsiyyətə pərəstiş dövri daha da şiddətlənirdi. Həmid Sultanov, Mikayıl Hüseynov, görkəmli partiya xadimləri, Hüseyn Cavid kimi dramaturqlarımız şəxsiyyət pərəstişkarlarının qurbanı oldular.

Müşfiqi də çox tənqid edirdilər. Mən qorxurdum ki, onu da tutsunlar. Ağlayırdım, gecələr yatmırdım. O zaman paxıllar, nadanlar, bədxahlar öz elinin, obasının yüksəlişindən ilham alan, vətənini çəmənzara bənzədib bül-

bül kimi cəh-cəh vuran Müşfiqi susdurmaq üçün cürbəcür böhtanlara əl atırdılar. O gecə Müşfiq yenə otaqda gəzir, bəzən də oturub yazı yazırdı. Məni yuxu apardı. Dəhşətli yuxu görürdüm. Görürdüm ki, Müşfiqi bərk-bərk tutub ağlayıram. Ağlaya-ağlaya yuxudan ayılanda Müşfiqi yanımda gördüm. Dilbər, sənə nə olub, yuxuda ağlayırsan? Mən dedim ki, Müşfiq, dəhşətli yuxu görürdüm, səni məndən ayırmaq istəyirdilər. Müşfiq həsrətli baxışlarla üzümə baxdı. Saçlarımı sığallaya-sığallaya üzümdən öpdü. Mən ki yanındayam dedi. Sonra bu şeri oxudu:

*Bir qara buludam uca göylərdə,*
*Bu şair bəxtimlə bizim ellərdə.*
*Sən neçin ağlarsan mən duran yerdə,*
*Nərgiz gözlərinin yaşına qurban.*

Sonra isə "Necə əl çəkim"şerindən bu bəndi dedi:

*Mehriban sevgilim qarşımda durdu,*
*Yenə şairliyim başıma vurdu.*
*Məcnun könül məndən maraqla sordu,*
*Bu saçı leyladan necə əl çəkim.*

*Gəncliyimiz çatdı başa,*
*Baş əymədik pis yoldaşa.*
*Odur ki, bizi basır daşa,*
*O bir yandan, bu bir yandan.*

*İlan kimi çalar məni,*
*O bir yandan, bu bir yandan.*
*Quduz kimi dalar məni,*
*O bir yandan, bu bir yandan.*

Sonra Müşfiq "Dinlə" adlı həcvini oxudu:





## BUQƏLƏMUNSAN

*Dinlə gəl qəlbimi, ay hacı filanın balası,*
*Yekə kərtənkələnin, əfi ilanın balası.*
*Gündə min rəngə düşən buqələmunsan bilirəm*
*İti baltayla kəsilməz bir odunsan, bilirəm.*
*Atana oxşamısan, boynu yoğunsan, bilirəm,*
*Dinlə gəl qəlbimi, ey hacı filanın balası.*
*Ağzımı açma, gədə oğlu, gədənin balası.*
*Zati mən nuhinizm, mən deyiləm, Gəncə bilir,*
*Kimə qulluq eyləmisən bunu el, hamı bilir,*
*Buna bax ki, mənim şerimi əyləncə bilir.*

Bu nahaq tənqidlər haqda öz yaxın dostu Eynulla Ağayevə danışıbmış. Bu haqda Müşfiqin yaxın dostu Eynulla Ağayev özünün "Könlümün aynası" adlı xatirələrinin bir yerində belə deyir:

"Bir gün yolda Müşfiqlə rastlaşdım. Çox pərt idi. Səbəbini soruşanda dedi:

- Nankorun biri elə bilir ki, mən də nankoram. Gənclər arasında bir şer yayılıb. Qulağıma çatıb ki, guya mən yazmışam. Bu gün həmin şeri mənim üçün əzbərdən söylədilər. Ya rəbbi, belə də şer olarmı, cəfəngiyat. Eyni zamanda fitnə-fəsadla dolu bir məfkurə. Mən belə şer yazmaq üçün yaranmamışam. Bunu yalnız elinə, obasına, cəmiyyətinə nankor çıxanlar edə bilərlər. Öz əməlini başqasının adına yazmaq riyakarlıqdır.

Biz Müşfiqə təsəlli verib dedik:

- Əsəbləşməyin, qoy söyləsinlər. Sizi ki, yaxşı tanıyırlar.

Müşfiq naməlum müəllifin arxasınca acı bir söz dedikdən sonra davam etdi:

- Gözəl şer belə olar, oxuyum, qulaq asın.

Müşfiq şeri əzbərdən söyləməyə başladı. O dedikcə mən də şeri dəftərimə köçürürdüm. Hörmətli oxucular həmin şerin iki bəndini nəzərinizə çatdırıram.

*O ülvü bir xəyal, afaqi bir əl,*
*Yaranmış hər ləziz nemətdən əzəl.*
*Öylə bir gözəl ki, var ətri, qanı,*
*O göylər mələyi, yerlər sultanı.*

*O bir sona ki, suları bəzər,*
*Arabir çırpınıb, sahili gəzər.*
*O Dilbər qızı, ah, vurmasın nəzər,*
*Onu da şairə çox gördü fələk."*

Hörmətli oxucular, nankor bir şair öz ürəyindən gələn nankor bir şer yazıb, gənclər arasında Müşfiqin adına şayiə yayılması haqqında Müşfiq mənə deməmişdi. Ürəyi Göygöl kimi təmiz Müşfiq mənim qəlbimi sıxmağa razı olmayıb. Həmin çəkilə bilməyən böhtanı öz ürək dostlarına deyib.

Mən Müşfiqin 60 illik yubileyində Eynulla Ağayevin "Könül aynası" adlı xatirələrinin həmin yerini oxuyanda başımdan alov çıxdı. Bir həftə özümə gələ bilmədim. Gör ürəyi Xəzər qədər geniş, şerə, sənətə dərya böyüklüyündə məhəbbəti olan şairə ləkə yaxmaq üçün nələrə əl atırlarmış. Mən o vaxt ədəbi yığıncaqlarda, məclislərdə Müşfiqi nahaq yerə tənqid edən tənqidçilərimizə onların ədalətsiz olduqlarını üzlərinə deməkdən çəkinmirdim.

Nəhayət, mənim yuxum düz çıxdı. 1937-ci ilin iyun ayı idi. Gecə saat 3 olardı. Hər ikimiz şirin yuxuda yatırdıq. Qapımızın zəngi çalınanda "gözləmədiyimiz qonaqlarımız" gəldilər. İki nəfər idi. Biri Müşfiqin məktəb yoldaşı idi. Müşfiqlə görüşdü. O biri qaşqabaqlı yaşlı bir kişi





idi. Müşfiqə dedilər ki, həbs olunursan. Hər ikimiz sapsarı saralmışdıq. Mən ağlayırdım. Müşfiq isə mənə təsəlli verirdi. Başladılar evi axtarmağa, əllərinə Müşfiqin öz dəst-xətti ilə yazdığı "Dilbərnamə"si keçdi. Müşfiq dedi: - Bu, Dilbərə aiddir, verin özünə. Yadıma sala bilmirəm ki, onu apardılar, yoxsa nə oldu "Dilbərnamə"? Müşfiq özünü ələ aldı. Mənə təsəlli verirdi ki, heç bir günahım yoxdur, tezliklə qayıdacağam. Üzümdən öpüb ayrıldı. Mən isə dalınca ağlaya-ağlaya qaldım. Bir neçə dəfə paltar, yorğan-döşək apardım. Məktuba yalnız nəyi aldım, nəyi qaytarıram onu yazırdı, başqa bir şey yazmağa qoymurdular.



**Dilbər Axundzadə istirahətdə. Kislovodsk (1961)**

Mənim ilk görüşümlə son görüşüm arasında nə qədər kəskin bir ziddiyyət var idi. İlk görüşümüz Müşfiqin ən xoşbəxt dəqiqələrində olduğu halda, son görüşümüz Müşfiqin ən kədərli dəqiqələrində olmuşdur. Müşfiq tutulandan sonra ayrılığa dözə bilməyib mən dalbadal ərizə yazıb Daxili İşlər Nazirliyinə müraciət edirdim. Görüş istəyirdim. Həmid Sultanovu güman ki, istintaq otağından çıxan-

da gördüm, gəlib qarşımdakı skamyada oturdu. Salam verib halını soruşdum. Onu saqqal basmışdı. Bununla belə özünü mərd aparırdı. Söhbətimiz əsnasında heç bir kədərli cümlə işlətmədi. Yalnız bunu dedi ki:

- Görürsən də necəyik.

Sonra məni çağırdılar ki, Müşfiqlə görüşə bilərəm. Görüş otağında qarşılaşdıq. Müşfiq öz istintaqçısı ilə birlikdə gəlmişdi. Çox kədərli idi. Ancaq kədərini gizlətməyə çalışırdı. Bət-bənizi saralmışdı. Arıqlamışdı. Bununla belə mənə ürək-dirək verməyə çalışırdı.

- Sən heç bir şeydən narahat olma. Hər şey axırda bəlli olacaq. Gec-tez biləcəksiniz ki, bizim heç bir taqsırımız yoxdur.

Sözünü Nizaminin şeri ilə bitirdi:

*Qorxma ayın-günəşin qəfil tutulmağından,*
*Hər qaranlıq gecənin bir qızıl ulduzu var.*

Gətirdiyim pulu və yemək bağlamasını Müşfiqə verib, ayrıldım. Sən demə bu mənim Müşfiq ilə son görüşüm imiş. Bundan sonra əbədi olaraq onun üzünə həsrət qaldım. Təsəllim yalnız onun şerləri oldu.





*Dilbər Axundzadə M.Müşfiqin 80 illik yubiley gecəsində çıxış edərkən (1988)*

## RƏSUL RZA HAQQINDA XATİRƏ

Mən Bakıya gələndə həmişə Müşfiqin yaxın dostları ilə görüşürdüm. Sanki bu mənim üçün bir qədər təsəlli olurdu. Günlərin birində şair Rəsul Rzagilə getdim. Zəngi çalanda qapını Rəsul özü açdı. Məni görcək gözü doldu. Həyəcanını ilk baxışda hiss etdim. Səsimi eşidən Nigar xanım o biri otaqdan gəlib qolunu boynuma saldı. "Səni görəndə dostumuz, əzizimiz Müşfiqi xatırlayırıq" deyə qəmləndilər.

Mən də doluxsunmuşdum. Müşfiqlə onlara gəldiyim günləri yadıma saldım. Ötən günlər kino lenti kimi gözlərim önündən keçdi.

Rəsul da, həyat yoldaşı Nigar da məni bir neçə gün evlərində saxladılar. Sonra Gəncəyə qayıtdım.

Unudulmaz Müşfiq həmişə məni düşündürür, bir an yadımdan çıxmırdı. Ona şerlər yazmaq, xatirələr qələmə almaq gündəlik peşəm idi.

Bir gün xatirələrimi toplayıb, mətbuatda dərc etdirmək üçün Bakıya gəldim. Respublika radio və televiziya komitəsinin sədri Teymur Elçinlə görüşüb söhbət etdim. O, xatirələrimi söyləmək üçün mənə icazə verdi və növbəti verilişlərin birində televiziyada çıxış etdim.

Teymur müəllim əlavə edərək dedi ki, sənə şad bir xəbər söyləyim. Şairimiz Rəsul Rza "Qızılgül olmayaydı" adlı poema yazıb. Həmin poema Müşfiqə və sənə həsr edilib. Doğrudan da bir neçə gündən sonra poemanı "Ədəbiyyat və incəsənət" qəzetində oxudum. Poema 1968-ci ildə Müşfiqin 60 yaşı tamam olan vaxtı kitab şəklində çıxdı.

Poemadan aşağıdakı parçalar çox təsirli idi:





*O da bircə günlüyə*
*Gələ bilsəydi indi*
*Görərdi ki,*
*Şaxtalar keçdi,*
*Hava isindi.*
*Görərdi ki, şeri*
*Neçə dillərdə əzbər olub,*
*Sevdiyi Bakı nə gözəl,*
*Yaşıl donlu şəhər olub.*
*Bu günün insanlarını görərdi.*
*Öz əlilə Vətən bağından*
*İstədiyi çiçəkləri dərərdi.*
*Ürəyi fərəhlə dolardı.*
*Gözlərində sevinc*
*Yazardı, yaradardı.*
*Sakit və dinc*
*Nə dilində giley qalardı,*
*Nə gözlərində kədər.*
*Oxşayardı könlünü*
*Dillərdə, dodaqlarda gəzən*
*Mikayıl Müşfiq imzalı*
*Nəğmələr.*

Yay fəsli idi. Gəncədən təzəcə gəlmişdim. Nigar xanımı görmək üçün onlara getdim. Rəsul dedi ki, Nigar bağdadır. Gəl səni də bağa aparım, havalar da isti keçir, bir az dincələrsən. Razı oldum. Maşınlarına əyləşib bağa yola düşdük. Maşını Nigarın dayısı oğlu sürürdü.

Gecədən xeyli keçənə kimi söhbət etdik. Rəsul bağdan xeyli şanı dərib gətirdi. Mənə etdikləri hörməti indi də unuda bilmirəm. Nigar xanım yanında mənim üçün yer saldı. Xeyli keçənlərdən danışıb yatdıq. Bir neçə gün bağda qaldım. Gəncəyə getməyə hazırlaşanda mənim üçün bir yekə səbət ağ-qara şanı qoydular. Görüşüb ayrılanda



*Dilbər xanım M.Müşfiqin yubiley gecəsinin iştirakçıları əhatəsində*

Nigar dedi:- Dilbər, Rəsulun şəkər xəstəliyi var, hərdən halı elə qarışır ki, özüm də yadımdan çıxıram, səndən də xəbər tuta bilmirəm.

Belə deməsi məni lap kövrəltdi. Gəncəyə gələndə də Nigardan, Rəsuldan nigaran qaldım.

Nigar uşaqlarına tapşırıbmış ki, biz evdə olmayanda heç kim üçün qapı açmayın. Bir gün mən Rəsulgilə gedəndə zəngi nə qədər çaldımsa qapını açan olmadı. Ancaq mənzildən uşaq səsi eşidilirdi. Səsimi çıxarıb dedim ki, Dilbərəm, Fidan, qapını aç. Qız tez qapını açdı. Bir az keçmiş Nigar gəldi. Lap məəttəl qalmışdı. Uşaqlara dedi ki, mən tapşırmışdım ki, heç kəsə qapı açmayın. Bəs nə üçün açmısınız? Uşaqlar cavab verdilər ki, Müşfiqin yoldaşını bayırda qoyacağıq, açdıq da, deyib gülüşdülər.

Axırıncı dəfə Nigar xanımı şəhərdəki 1 saylı xəstəxanada gördüm. Mən də orada yatırdım. Bir neçə gün idi ki,





Rəsul müəllim vəfat etmişdi. Lakin bu acı xəbəri Nigara bildirmədilər. Ona görə də yanına heç kəsi buraxmırdılar. Mən Nigara dəyməyə getdim və söz verdim ki, Rəsul haqqında ona heç bir söz deməyəm. Nigar xanımın yanında qızı Təranə qalırdı. Rəsulun dayısı arvadı da orda idi. Görüşdük, halını xəbər aldım. Təsəlli verdim ki, lap yaxşısan. Nigar həzin səslə dedi ki, xəstəlik məni lap əldən salıb. Rəsuldan da nigaranam, təzyiqi qalxır. Anar da onun yanındadır. Ona görə də mənim yanıma gəlmir.

Xəstəxana ağır olsa da o öz məğrurluğunu saxlayırdı. Mehriban şairənin baxışları öz cazibəsini itirməmişdi. O gözlərdə ümid çırağı parlayırdı.

Fikir-xəyal içərisində ondan ayrılıb öz palatama gəldim. O gecə ilan vuran yatdı, mən yata bilmədim. Rəsul müəllimin ölümü, Nigar xanımın xəstəliyi öz xəstəliyimi yadımdan çıxarmışdı.

Bir neçə gündən sonra məni 2 saylı xəstəxanaya göndərdilər. Nigar xanımın vəfatını da Mərdəkanda, xəstəxanada eşitdim və çox sarsıldım. Müşfiqin iki ən yaxın dostunu, sirdaşını itirdiyim üçün qəmləndim. Onlar yadıma düşdükcə xısın-xısın ağlayır, pərişan olurdum.

Bu şair ata-ananın övladları ilə təsəlli tapıram. Anarın əsərləri, ad-sanı mənim də qəlbimi dağa döndərir, fərəhlənirəm.

Müşfiqin yaxın dostu mərhum şairimiz Rəsul Rzanın ürək ağrısı ilə yazdığı "Qızılgül olmayaydı" poeması ndan bir parça.

*İndi onlar:*
*"Biz bilmirik " – deyirlər,*
*Lakin xalq bilsin,*
*Qoy dostu-düşməni tanısın barı.*
*Nifrətlə damğalasın*
*O əli qanlıları.*

*Yaralar sağalmasa da*
*Ağrısı azalar.*
*Qoy heç olmasa*
*Bütün bu faciənin*
*Göynəyi acısından,*
*Xalqlar bir şey qazansın:*
*Onların təkrarına*
*Bir də olmasın imkan.*
*Gecə keçib,*
*Səhər oyanır... Dilbər,*
*Bu inləyən qəlbimdir,*
*O yanır, Dilbər.*
*Qoy bu yanan qəlbimin işığında*
*Axtarım keçənləri,*
*Axtarım dumanları, çənləri...*





## ƏZİZİM ANAR

Ürəyimdən gələn ən səmimi sözlərimi sənə çatdırmaq istəyirəm. Bahar ilin ən gözəl fəslidir. Deyirlər baharda dünyaya gələn insan xoşbəxt olur. Çünki baharda təbiət bütün var-dövlətini, gözəlliyini insanlara bəxş etməyə çalışır, hər tərəf al-əlvan çiçəklərə qərq olur. Elə bil çöllərdəki bu yaşıllıq azmış kimi insanlar da yaşıl səməni göyərtməyə başlayırlar.



***Dilbər Axundzadə, S.Rüstəm, Anar Rusiyalı qonaqlarla***

Baharın ilk müjdəçisi, tez açılıb, tez solan boynubükük bənövşə kimi vaxtsız gedən Cəfərimi, Müşfiqimi, yoxsa bir ceyrana güllə atmağa qıymayan təbiət vurğunu Səməd Vurğunumu deyim?

Həmişə yazıb yaratmaq eşqilə döyünən ürəklər, baharın təzə-tər çiçəkləri kimi safqəlbli bu insanlar məgər bahar oğulları deyilmi?!

Doğrudan da baharda dünyaya gələn insanların qəlbi, ürəyi həmişə yazmaq, yaratmaq, qurmaq, öz xalqına xeyir vermək eşqi ilə döyünür.

Əziz Anar! Bu baharda sənin 50 yaşın tamam olur. Sən iki qəlbin döyünən ürəyisən. Sən Rəsul yadigarı, Nigar nişanəsisən! Kaş elə imkan olaydı ki, sənə demək istədiyim sözləri ürəyimdən oxuya biləydin. Axı sən mənim üçün təkcə xalqın, elin yazıçısı kimi yox, həm də əzizlərimin yadigarı kimi əzizsən.

Nə arzulayım sənə? Sənə həyatda uzun ömür, can sağlığı, ailə xoşbəxtliyi və bir də arzu edirəm ki, keçən 50 baharın üstünə bir 50 bahar da gəlsin.

Mən eşidəndə ki, sənə Azərbaycan Respublikasının Fəxri Fərmanı verilib, çox sevindim. Gün o gün olsun ki, daha yüksək fərmanlara layiq görüləsən.

*Sən qiymətli yadigarsan,*
*Sanki ətirli baharsan.*
*Arzuların qanad çalsın,*
*Qızılgültək ətir saçsın.*

*Hörmətlə: Dilbər*





## N.HƏSƏNZADƏ İLƏ TANIŞLIQ

1957-ci ildə mən Gəncə şəhərində yaşayırdım. Müşfiq 1956-cı ildə bəraət alıb öz xalqına qaytarılmışdı. Mən Müşfiqin dayısı Ağamehdi dayıdan məktub aldım. Anamın evində yaşayırdım. O mənə yazırdı ki, qızım, sən Bakıya köç. Nigar xanımla Rəsul da belə məsləhət görürlər. Ev alanacan bizdə qalarsan. Mən fikir-xəyal içində idim. Şairə olmasam da Müşfiqin xatirəsinə bir neçə şer yazdım. Bir gün Gəncə Yazıçılar İttifaqına getdim. Yazıçılar İttifaqının sədri Müzəffər müəllim idi. Gəncə yazıçıları ilə görüşdüm. Divanda ucaboylu, mehriban baxışlı bir gənc oğlan oturmuşdu. Məni ona təqdim etdilər. Müşfiqin həyat yoldaşı Dilbərdir dedilər. O tez divandan durub mənə sarı gəldi. Əl verib dedi: - Nəriman Həsənzadə, çox şadam ki, sizinlə tanış oldum. Mənim yanımda oturub söhbət etdi. Müşfiqli günlərimlə maraqlandı. Onun alovlu şair qəlbi həyəcanlı idi.

Bu mehriban gənc şairlə tanışlığım məni çox sevindirdi. İlk tanışlığımız belə oldu. Birlikdə söhbət edə-edə çıxdıq. Bu mehriban baxışlı şair qəlbimdə xoş xatirə kimi qaldı.Onun alovlu saf qəlbini Göygölə bənzədirdim. Çox keçmədi mən də Bakıya, Müşfiqin dayısı Ağamehdigilə köçdüm.

Nəriman müəllim də Bakıya köçdü. Mən ev alana kimi Müşfiqin dayısı Ağamehdi dayıgildə 7 ay qaldım. Sonra Müşfiqin bacısı Balacaxanım özünə yaxın yerdə qohumlarının evini kirayəyə tutdu. Məni ora köçürdu. Ağamehdi dayının qanı qaraldı. Ay bala, elə bilərlər biz səni incitdik. Ağamehdi dayı, mən sizin yaxşılığınızı heç vaxt unutmaram, dedim. Hamısından hörmət gördüm. Məni öz ailə üzvlərindən seçmirdilər. Mən bir gün "Azərbaycan" jurnalı redaksiyasına Müşfiq haqqında xatirələr aparmışdım. Nəriman müəllim orada işləyirdi. Məni görəndə tez



Dilbər Axundzadə Naxçıvanda, 2 iyun 1974-cü il

stuldan durub Müşfiqin Dilbəri gəldi deyə məni mehriban qarşıladı. Hərdən məsləhət üçün evlərinə də gedirdim. Həyat yoldaşı Sara xanım məni mehriban qarşılayırdı. Söz-söhbəti, mehriban səsi qulağımda nəğmə kimi səslənirdi, mənə təsəlli olurdu. Telefonla danışanda özünə də deyirdim. O öz minnətdarlığını bildirirdi. Bir dəfə Mərdəkanın səfalı qoynunda, 2 saylı xəstəxanada görüşdük. O da ürəyindən şikayətlənirdi. Biz tez-tez söhbət edirdik. Mən Müşfiqə, Zeynəb xanıma yazdığım şerlərdən oxuduqca onun incə şair qəlbi həyəcanlanırdı.

Bir gün xəstəxanada xəstələrin xahişi ilə Nəriman müəllimlə görüş keçirildi. Mən də Müşfiqdən xatirə danışıb ona həsr etdiyim şerləri oxudum. Baş həkim Nurəddin Rzayev və bir çoxları həyəcanlandı, gözləri yaşaran da oldu. O gün çoxları ilhama gəlib şerlər yazmışdılar. Nəriman müəllimin baş həkimlə, xəstələrlə görüşü çox maraqlı, gurultulu alqışlarla qurtardı.







Görüş

Biz sağalıb evimizə gəldik. Bir müddətdən sonra Nəriman müəllim "Dilbər" adlı şerini yazdı. Şer «Ədəbiyyat və incəsənət» qəzetinin 27 iyun 1984-cü il tarixli nömrəsində çapdan çıxdı.

## DİLBƏR

***Mən Dilbəri sordum gəlib-gedəndən,***
***Dedilər küsmüşdür,barışmaz səndən.***
***Mən iltifat etdim, o qaçdı məndən,***
***Qaçqın ədasına qurban olduğum.***

*M.Müşfiq*

Həkim, o Dilbərdi, ona yaxşı bax,
Müşfiqdən yadigar qalandı, həkim.
Könlünü alan yox, Dilbərim – deyən,
Qalan xəstəliyi yalandı, həkim.

Bəxt dövlət quşudur, uçub əlindən,
El xəbər tutmayıb el gözəlindən.
Ayırma Dilbəri qızdan, gəlindən,
O gəlin qalıbdı, gəlindi, həkim.

Müşfiq həsrət idi bir gülüşünə,
İndi gələn yoxdu heç görüşünə.
Nə özünə baxır, nə yerişinə,
Evi yox, dünyası talandı, həkim

Dilbər o Dilbərdi, yaş o yaş deyil,
Ağarıb, bozarıb, saç o saç deyil.
Ayağa düşübdü, daha baş deyil,
Dünya qaldırandı, salandı, həkim.

Bir görüş keçirin burda birtəhər,
Müşfiqdən xatirə danışsın Dilbər.
Onda o sağalar, onda "dirilər",
Gül də sulanmasa solandı, həkim.





1986-cı ildə mən yenə 2 saylı xəstəxanaya müalicə üçün getmişdim. Nəriman müəllimin həyat yoldaşı Sara xanım da orada xəstə yatırdı. Mən Sara xanımla gedib görüşdüm. Nəriman müəllim də tez-tez Sara xanımın yanına gəlirdi, həyəcanlanırdı. Onun incə qəlbi Sara xanımın ağır xəstəliyinə çətinliklə dözürdü. Yenə də birtəhər özünü ələ alırdı. Mehriban baxışını, səsini, rəftarını olduğu kimi saxlayırdı. O mənə Müşfiq haqqında belə bir xatirə danışdı. Həmin xatirəni oxucularımızın nəzərinə çatdırıram.

## MÜŞFİQİN OĞLU

*On il bundan qabaq Moskvada Müşfiq gecəsində hörmətli Əziz Şərif müəllim məni qucaqlayıb Müşfiqin oğluna oxşatdı, dedi ki, atana necə oxşayırsan, bilməzdim onun oğlu sağdır... Bu sözlər o vaxtdan, şer olunca ürəyimdə qalıb.*

*Müəllif*

*Dindim, qulağıma tanış gəldi səs,*
*Güldüm, bu gülüşüm saxladı onu.*
*Dayandım – duruşum, baxdım – baxışım,*
*Yeridim – yerişim saxladı onu.*

*Müşfiqdən danışır bütün bir ölkə,*
*Ürəyi doluyuq, Əziz müəllim.*
*Mən yox, şerimizin bir nəsli bəlkə*
*Müşfiqin oğluyuq, Əziz müəllim.*

*Hər axşam qoynunda bir səhər yatır,*
*Səhərsiz dünyanın üzü gülməmiş,*
*Bizim sinəmizdə igidlər yatır,*
*Hələ vərəqlərə köçürülməmiş.*

*Yaş ötür, dəyişir daha nəslimiz,*
*Yenidən söz verir zaman Müşfiqə.*
*Ata gözüylə də baxmalıyıq biz*
*Oğlumuz yaşında qalan Müşfiqə.*

*1979-cu il*





## BİR GÖRÜŞÜN TƏƏSSÜRATI

Bir gün evdə oturmuşdum. Birdən telefon zəng çaldı. Zəng edən «Azərbaycan müəllimi» qəzetinin redaktoru Şahin Səfərov idi. Məndən hal-əhval tutdu. Sonra mənə dedi: - Mənim əməkdaşım Flora sizə gəlib, səninlə tanış olmaq istəyir. Mən şad oldum. Gözüm üstə yeri var dedim. Mən də Gəncədən təzə gəlmişdim. Gəncə təşkilatı Göygöldə "Müşfiq bulağı"nın yaradılması barədə mənə rəsmi yazıb söz vermişdilər. Ancaq hansı səbəbə görəsə başa çatdırmamışdılar. Bu haqda düşünürdüm. Birdən qapı döyüldü. Gələn Flora idi. Məni qucaqlayıb öpdü. Əlavə etdi ki, sizinlə tanış olmaq mənim çoxdankı arzum idi. Çox sağ ol dedim.

Biz oturub ana-bala kimi söhbət etdik. Müşfiqli günlərimi xatırladım. Floraya danışdım. Mən danışdıqca Floranın gözləri yaşarırdı, həyəcan keçirirdi. Bir neçə gündən sonra əlində "Azərbaycan müəllimi" qəzeti bizə gəldi. Qəzeti mənə təqdim etdi. O mənimlə söhbətini "Müşfiq yadigarı" başlığı altında belə yazmışdı.

## MÜŞFİQ YADİGARI

Bir qadın tanıyıram. Saçlarına illərin qarı ələnmiş, üzgözünə intizarın yağışı çilənmiş bir qadın! Özü boyda həsrətin, hicranın, vəfanın, sədaqətin heykəlidi bu qadın. Ömrümdə ilk dəfə idi ki, müsahibimlə söhbət etməkdə çətinlik çəkirdim. Kövrək xatirələrin həzinliyi elə bii ki, məni sehrləmişdi. Müşfiq həyatının bir parçası, onun məhəbbət dünyası: Dilbər Axundzadə!

Bu görüşə kim bilir hansı istəklə gəlmişdim. Yaşı da, illəri də az qala unutmuşdum. Mənə elə gəlirdi ki, şəkillərdəki Dilbəri, Müşfiq şerində saçı qıvrılan, dalğalara bənzəyən qızı görəcəyəm. Demə, illərin qayğısı öz işindəymiş.



*Dilbər Axundzadə, Süleyman Tatlıyev*
*(arxa sırada Dilbər xanımın qızı Leyla Axundzadə)*

Bircə gözlərində əvvəlki cazibəsi qalmışdı, bir də köksündə Müşfiq dünyasına dərya böyüklüyündəki məhəbbəti.

Müşfiqdən danışanda doluxsundu, qəhərini gizlədə bilmədi. Qəmin də hikməti varmış! Müşfiqli günlərdən illər sıralanıb, fəsillər ötüb. Amma o, özünü həmişə beləcə təqdim edir: Mikayıl Müşfiqin həyat yoldaşı! Bu ömürgün dostunun illərdən bəri qəlbində ən əziz, ən şirin bir duyğu kimi gəzdirdiyi böyük məhəbbətin və etibarın təcəssümüdür. Əhsən, bu ada, bu ocağa!

Biz görüşəndə Dilbər xanım Kirovabaddan (Gəncə – *red.*) təzəcə qayıtmışdı. Onun bu səfəri ilə maraqlandım. Nə isə xatırlayaraq bir anlıq susdu. Baxışları otağın məchul bir nöqtəsinə dikilmişdi. Bu sükutunda elə bil nalə, fəryad duyulurdu. Məmməd Aslanın haçansa yazdığı yanğılı misraları yenidən ürəyimi göynətdi.

*Sevincin, şadlığın kəm olub sənin,*
*Qismətin nə ağır qəm olub sənin?!*
*Müşfiqin şerində cəm olub sənin,*
*Gülgün yanağının ziyası, Dilbər.*







*Dilbər xanım*
*balaca Leylasıyla*

Qəlbimdən keçənləri oxuyubmuş kimi həssas nəzərləri çöhrəmdə dolaşdı. Kədərli təbəssümlə söhbətə başladı:

- Gəncə dağlarına çox bağlıyam. Orada xəyalım həmişə o günlərə, gəncliyimin ən dadlı, ən pak, ən unudulmaz çağlarına qayıdır. Müşfiq bu torpağın vurğunu idi. Göygölün dəlisi idi. Eh, təbiətin bu füsunkar mənzərələri indi də elə bil heç dəyişməyib. Kəpəz öz əzəmətli vüqarı ilə məğrurluq və qüdrət şəfəqləri saçırdı. Göygöl yenə də o illərdə olduğu tək mavi sona kimi xumarlanırdı. Bu yerdə hər şey mənə onu xatırladırdı. Dağ da, daş da, çay da, göl də, bulaq da. Elə bil onun pıçıltılarını eşidirdim: “Yenə o bağ olaydı, yenə o qumlu sahil...” Bax onda Bakıya tələsdim. Xəzərin sahil daşlarına çırpılıb çilənən ayna sularını görməyə. Müşfiqlə görüşməyə. Axı, o özü də coşub-çağlayan bir ümman idi...

Bu yerdə səsi titrədi. Asta addımlarla Müşfiqin divardakı əzəmətli portretinə yaxınlaşdı. Kim bilir, gündə neçə kərə o, bu şəklin önündə dayanaraq keçən günlərini anıb. Müşfiqə yaraşan misralarla haray çəkir:

*Dilbərəm, ilk eşqim günəşdir, sönməz,*
*Ömrümün baharı geriyə dönməz.*
*Min yol yalvarıram, şəklin də dinməz,*
*Özünə, şəklinə qurban olduğum.*

Bu həzinlik, kövrəklik dünyasında ürəyim fərəhlə çırpınır: Qədirbilən xalqımız Müşfiqi çox sevir. Budur, yubiley ərəfəsində ulu torpağımızın hər guşəsində Müşfiq günləri, Müşfiq poeziya gecələri, axşamları, şənlikləri keçirilir. Sanki Müşfiq şerinin təntənəsidir. Yəqin ki, o, yaşasaydı, indi ağ saçlı, nurani baxışlı bir ustad kimi bu məclislərin fəxri qonağı idi, yaraşağı idi. Elə Müşfiq sənətinin gücü də ondadır ki, şair təkcə şəkillərində cavan qalmayıb. Şerləri də poeziyamızda həmişə təzə-tərdir, dəliqanlıdır, şaqraqdır. Cəmi 11 il yazıb-yaradıb. Amma bu 11 ildə şerlərinin əbədiliyinə, ölməzliyinə, təzəliyinə imza atıb.

Müşfiq haqqında çox deyilib, çox yazılıb. Çünki onun incə rübabından qopan odlu nəğmələr neçə könüldə ünvan tapıb, neçə ürəyi vəcdə gətirib. Hamı böyük sənətkara olan tükənməz eşqini, vurğunluğunu sözlə deməyə çalışıb.

D.Axundzadənin "Müşfiqli günlərim" adlı kitabı isə daha səmimi, daha şirindir. Çünki Dilbər Müşfiq heyrətiydi, Müşfiq məhəbbətiydi, Müşfiq lirikasının ürəyiydi, qanıydı, ən böyük sevinciydi, həsrətiydi, qüdrətiydi. Dilbər xanımın xatirələri də məhz o məhəbbətin etirafına, əzəmətinə bürünmüş ən gözəl, ən kövrək nəğməsidir:

*İndi könlümə təsəlli sənsən,*
*Ölüncə dilimin əzbəri sənsən!...*

Dilbər Axundzadədən yuxulamış bir ürəklə ayrıldım. Elə bil o gün şairin özü ilə görüşüb, onun özünü dinləmişdim. Axı, Dilbər Müşfiq ömrünün ən qiymətli, ən əziz parçasıdı, yadigarıdı...

*FLORA XƏLİLZADƏ*
*23 iyun 1978-ci il*





## HÖRMƏTLİ REDAKSİYA!

1977-ci il tarixli"Ürəyindən qopan səs mən olaydım" adlı məqaləni oxudum. Gecikmiş də olsa öz təəssüratımı yazmaq ürəyimin sönməyən arzusudur.

Məqaləni həyəcansız oxumaq mümkün deyildir. Oxuyub qurtardıqdan sonra mənə elə gəldi ki, ömrümün Müşfiqli günləridir. Müşfiq sağdır, yenə də şirin nəğmələri, mehriban səsilə mənim qəlbimi oxşayır.

*Elə bildim yaz idi,*
*Dərdim, qəmim az idi.*
*Köksümdə dil açan*
*Müşfiq çalan saz idi.*

Müşfiq haqlı olaraq Nizami Gəncəvi şəhərini vətən bilirdi.

İndi onların "Kirovabad kommunisti" qəzeti öz səhifələrində sanki Müşfiqi, məni ana laylasa kimi oxşayırdı. Mən, "Kirovabad kommunisti" qəzetinin nümayəndəsi Əhməd müəllimə, redaksiyanın heyətinə öz sonsuz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Sizə günəşli yollar, fərəhli günlər, qanadlı arzular arzulayıram.

*Hörmətlə: DİLBƏR AXUNDZADƏ*

## ÜRƏYİNDƏN QOPAN SƏS MƏN OLAYDIM

İlk tanışlıq

Qapını örtüb dayandı. Tanış olduq. Başına qara kəlağayı örtmüşdü. Əynindəki paltosunu çıxarıb asılqandan asdı. Gözlərində bir məhzunluq, yorğunluq, narahatlıq hiss olunurdu.

- Xahiş edirik əyləşin.

Oturdu. Həyəcandan titrəyən əlləri ilə dizinin üstündə saxladığı xırda, qara sumkasında nə isə axtarmağa başladı. Gözlərimizi ondan çəkə bilmirdik. Qara kəlağayılı, qara paltarlı, qara sumkalı bu qadının redaksiyaya qəflətən gəlişi bizi sonsuz dərəcədə maraqlandırdı.O, hamı kimi bizim üçün də sanki qeyri-adi adam idi. Şair Mikayıl Müşfiqin həyat yoldaşı, Dilbər xanım! Müşfiq həyatının bir parçası. Şairin məhəbbət dünyası, Dilbər xanım!

Kəlağayı başından sürüşüb çiyinlərinə düşdü. Şairin qıvrılan dalğalara bənzətdiyi saçlar göründü. Həsrət, hicran, qarlı qışa dönüb, qar yağdırıb qara saçlara. Əlindəki kağızı stolun üstünə qoydu.

- Vaxtınız varsa, burada yazılanlarla tanış olun, - dedi. İntizar baxışlarının özgə baxışlarla toqquşacağından qaçırmış kimi köks ötürüb üzünü yana çevirdi.

Otağa çökmüş qəribə sükutun içərisindən elə bil ki, pıçıltı eşidildi. Yox, heç kim danışmırdı. Danışan bu görüşdən həyəcanlanmış ürəklərimiz idi. Müşfiq şerinin hərarətli, odlu misralarını pıçıldayırdı ürəklərimiz:

*"Qara qış üstümə tökər qarını*
*Nərgiz gözlərindən məni ayırsan.*
*Mənim ümidimin qapılarını*
*Neçin gah açırsan, gah qapayırsan?.."*





Dilbər xanımın bizə, daha doğrusu redaksiyaya təqdim etdiyi ürək sözlərini oxumaq yadımızdan çıxmışdı. Onun Müşfiq haqqında söhbətini, oxumadığımız, eşitmədiyimiz xatirələrini danışmağını gözləyirdik. O, fikrimizi, arzumuzu gözlərimizdən başa düşdü.

- Axı nə danışım. O, poeziyadan yaranmışdı, söz, sənət dünyasında ilhamı, eşqi, ehtirası ilə coşub-çağlayan bir ümman idi.

Nə isə xatırlayıb bir anlığa susdu. Sonra isə onu dinləmək həvəsi ilə intizarda qalmış gözlərimizə baxıb söhbətə başladı.

## XATİRƏLƏR DÜNYASI

(kiçik ixtisarla)

- Dilbər xanım, Müşfiq Səməd Vurğunla tez-tezmi görüşərdi?

- Bəli, onlar həyatda da, sənətdə də dost idilər. Yaxşı yadımdadır, biz Müşfiqlə ailə qurduqdan sonra Səməd Vurğun tez-tez bizə gələrdi. O, bizim xoşbəxt yaşamağımızdan sevinərdi. Hətta bir gün ürəyini açıb Xavərlə ailə həyatı qurmaq istədiyini Müşfiqə bildirəndə, biz nə qədər sevindik.

O, bir anlığa xatirələr dünyasından ayrılıb susdu. Lakin hiss edirdik ki, hələ də xatirələrin isti qucağındadır. Baxışlarını otağın divarında məchul bir nöqtəyə diksə də, bayaqdan danışdığı xatirələrin hərarətindən doğan təbəssüm üz-gözündən çəkilib getmirdi. Qulağımıza Müşfiqin səsi gəldi. Sanki o, deyirdi: - gül, Dilbərim, axı, "sənin

gülüşlərin lalə yarpağında şehə bənzəyir", gül, Dilbərim, axı səndən, sənin dodaqlarından gülüş umuram. Gül, bərkdən gül, Dilbərim! Sənin hər qəhqəhən şerimin ahəngidir. Sənə gülmək çox yaraşır, Dilbərim!

Yox, Dilbər gülmürdü. Onun baxışlarında intizar, üzündə görünən acı təbəssüm isə donmuş gülüşlərin bir vaxt açdığı izlər idi.

- Qəribədir. – deyə o astadan, güclə eşidiləcək bir səslə dilləndi.

Elə bildik yeni bir xatirə danışır. Lakin o, Müşfiqin "Həyat sevgisi" şerindən aşağıdakı iki bəndi deyib yenə susdu.

*Ulduzlar fikrimin çırağbanıdır,*
*Bulud xəyalımın karıvanıdır.*
*Səma ki, hissimin aşiyanıdır,*
*Beylə bir səmadan necə əl çəkim.*

*Mehriban sevgilim qarşımda durdu,*
*Yenə şairliyim başıma vurdu.*
*Məndən Məcnun könül maraqla sordu:*
*Bu saçı leyladan, necə əl çəkim?*

- Dilbər xanım, Müşfiq təbiətcə necə adam idi?

- Müşfiq şair idi. Həyata, həyat həqiqətlərinə inanar, təbiəti, insanları sevərdi. Şerə, sənətə dərya böyüklükdə məhəbbəti vardı. Hərəkətlərində, oturuşunda, duruşunda, şair narahatlığı, şair çılğınlığı yaşayırdı. Ürəkdən yanmadığı, duymadığı heç nəyi qələmə almazdı. Özünün dediyi kimi, yaratdığı şeri sevərək yaradırdı.

O, dərindən köks ötürərək üzünü bizə doğru çevirdi.





- Sizə təqdim etdiyim yazı ilə tanış oldunuzmu?

- Yox, Dilbər xanım. Sizin bu təmiz, saf arzularınızla tək biz yox, bütün oxucular tanış olmalıdır. Qoy hamı Müşfiqsiz Dilbərin Müşfiqli arzuları ilə bir daha xəbərdar olsun.

Dilbər xanım redaksiyamıza "Könlümün arzusu" adlı yazı təqdim etmişdir. Həmin yazıda Göygöldə "Müşfiq bulağı" yaratmaq arzusundan söhbət açılır. Aşağıda Dilbər Axundzadənin təqdim etdiyi yazını dərc edirik.

*Rəfiqə Sadıqova*
*Ərşad Hüseynov*

## KÖNLÜMÜN ARZUSU

Gəncə dağlarını – qəlbimi özünə qırılmaz tellərlə bağlayan bu yerləri hər dəfə xatırlayanda xəyalım istər-istəməz o günlərə, gəncliyimin ən dadlı, ən pak, ən unudulmaz çağlarına qayıdır. Bakıda olanda, Xəzərin sahil daşlarına çırpılıb çiliklənən ayna sularını görəndə Müşfiqi anıram. Elə bil nagadani bir səs qulağıma pıçıldayıb deyir:
- Yenə o bağ olaydı, Dilbər. Səni dil-dil ötən suların, saçın kimi qıvrılan dalğaların əlindən alaydım. Elə ki, qoynunda doğulub boy atdığım qədim Gəncəyə gəlirəm, Müşfiqin bu yerlərin təbiətinə olan sonsuz məhəbbəti yadıma düşür. Bu yerlər Müşfiqin ruhunu elə oxşar, onun könlünü elə qanadlandırardı ki, hətta şəhərdə belə o, xəyalən bu yerlərdə gəzib dolanardı. Müşfiq bu yerlərə gəlmək, Kəpəzin nadir incisi olan Göygölün sahilində dayanıb onun büllur sularına tamaşa etmək istərdi. Mən Müşfiqin bu əhvalını yaxşı başa düşürdüm. Başı göylərə dəyən uca dağlar, yaşıl meşələr, zümrüd sular şair üçün təkcə istirahət və ilham mənbəyi deyildi. O, bu yerdə bu yerə layiq olan sənət incisi yaratmaq istəyirdi. Müşfiqdən sonra mən bu yerlərə uzun müddət ayaq basmadım. Onun vurğunu olduğu füsunkar mənzərələrin qoynuna bir də o vaxt gəldim ki, artıq Müşfiq şeri bütün Azərbaycan torpağını qarış-qarış gəzib-dolanır, qədirbilən xalqımızın ürəyini vəcdə gətirirdi. Bir neçə il bundan əvvəl xatirələr məni çəkib yenə də o yerlərə apardı. Xəyalən də olsa Müşfiqli günlərimə qayıtmaq istədim. Təbiətin füsunkar mənzərələri elə bil heç dəyişməmişdi. Kəpəz öz əzəmətli vüqarı ilə məğrurluq və qüdrət şəfəqləri saçırdı. Göygöl yenə də o illərdə olduğu tək mavi sona kimi xumarlanırdı. Ağsu çayı da əvvəlki ehtişamında idi. Bu yerdə hər şey





mənə onu xatırladırdı. Dağ da, daş da, çay da, göl də, bulaq da. Birdən Müşfiqin sözləri yadıma düşdü. O, mənə deyərdi – «Dilbər, mən istərəm yatanda da başımın üstündə bu dağ çağlasın». Elə bu vaxt ürəyimdə belə bir arzu oyandı ki, bu yol kənarında olan bulaqların biri Müşfiqin adı ilə adlanaydı.

1974-cü ildə öz arzumu Kirovabad (Gəncə–red.) Şəhər Partiya Komitəsinə bildirdim. Onlar mənim arzumu, daha doğrusu, xalqımızın şair oğlu Müşfiqin arzusunu həyata keçirməyə söz verdilər. Yerli təşkilat tərəfindən qərar çıxarıldı. Sənətkarlarımız çox zəngin eskiz yaratdılar. O gündən indiyə kimi mən qardaşım İsmayıl ilə birlikdə həmin bulağın ətrafını zənginləşdirib, şairanə, romantik bir mənzərə yaratmışıq.

Mən bu il həmin bulağın başında istirahət edirdim. Müşfiqi sevən oxucularla görüşüb bulaq başında söhbətləşirdim. Xalqımızın sevimli şairi Müşfiqi şirin xatirələrlə yad edirdik. Mən Kirovabad Şəhər Partiya Komitəsinə və Şəhər İcraiyyə Komitəsinə öz təşəkkürümü bildirirəm. Bircə arzum var. «Müşfiq bulağı» uçün hazırlanmış eskiz üzrə abadlaşdırma işinə tez başlanaydı.

***Dilbər Axundzadə***



*Dilbər Axundzadə Neft daşlarında, sağdan birinci Natiq Əliyev*



## QƏRİBƏ ƏHVALAT

1971-ci il gündüz evdə tək fikir-xəyal içində yenə də ötən günlərimi, Müşfiqlə keçirdiyim ətirli bahar günlərimi xatırlayırdım. Saat 12 radələri idi. Birdən qapı döyüldü. Qapını açdım. Tanımadığım bir kişinin əlində mənim «Müşfiqli günlərim» kitabı var idi. O, mənə dedi: - Dilbər xanımın evi buradır? Mən hər yeri gəzmişəm, axırı «Azərbaycan qadını» jurnalının əməkdaşlarından onun ünvanını almışam. Onu görmək mənim arzumdur. Mən evdə tək olduğum üçün özümü təqdim etmək istəmədim. Dedim evi buradır, ancaq evdə yoxdur. Sən bizim telefonun nömrəsini yaz, zəng elə, evdə olanda gəl görüş. O getdi. Mən həyətə olan eyvanımıza çıxıb baxdım ki, görüm bu adam kimnən gəlib. Gördüm ki, bizim həyətdə olan bir müəllimə ilə danışır. Onlara deyib ki, gəldim Dilbər xanımı görüm, dedilər evdə yoxdur. Müəllimə ona deyib ki, o, özü idi səninlə danışan. Bir müddətdən sonra o, mənə məktub yazdı. Məktubda mənə bu şeri yazmışdı.

## NİYƏ DEDİN MƏN DEYİLƏM

*Baxdım sağa, baxdım sola,*
*Gözlərin də dola-dola,*
*Özün Dilbər ola-ola,*
*Niyə dedin mən deyiləm.*

*Kənarlaşıb bir az məndən,*
*Durub baxdın mənə gendən.*
*Soruşanda səni səndən ,*
*Niyə dedin mən deyiləm.*

*Şair kimi fikrə daldım,*
*Öz-özümdən cavab aldım:*
*Sən haqlısan, razı qaldım,*
*Niyə dedin mən deyiləm.*

*Bir anlığa fikrə daldın,*
*Elə bil ki, gözdən itdin.*
*Buna söz yox, sən düz etdin,*
*Niyə dedin mən deyiləm.*

*Çox gəzmişəm, yaşım əlli,*
*Məsələnin bütün həlli,*
*İbrahiməm, mənə bəlli,*
*Niyə dedin mən deyiləm.*

*İbrahim,*
*Bakı. 27 yanvar 1971-ci il*



# SƏN HƏMİŞƏ



# MƏNİMLƏSƏN

## QURBAN OLDUĞUM

Gözlərim yoluna həsrətlə baxar,
Həsrətin qəlbimi yandırar, yaxar.
Of! Bilsən ürəyim necə darıxar,
Ay şirin dilinə qurban olduğum .

İndi səni məndən kim xəbər alır,
Qəlbimi qoparıb yerindən salır.
Səndən telli tarın yadigar qalır,
Tarının telinə qurban olduğum.

Müşfiqin ürəyi yarpaqdan incə,
Titrədi xəfifcə rüzgar əsincə.
Heyrandı hüsnünə o gözəl Gəncə,
Xumar Göygölünə qurban olduğum.

Bir parlaq ulduzsan bizim ellərə,
Şöhrətin düşübdür şirin dillərə.
Düşdün daşqınlara, düşdün sellərə,
Ay ilham selinə qurban olduğum.

Dilbərəm, ilk eşqim günəşdir, sönməz,
Ömrümün baharı geriyə dönməz.
Həmişə yalvarıram, şəklin də dinməz,
Özünə, şəklinə qurban olduğum.

## AXTARIRAM

Könlüm quşun itirmişəm, araram,
Görən budaqların harasındadır?
Gəlir qulağıma səsi, sədası,
Gözüm şairlərin arasındadır.

Mən heyran olmuşam şirin dillərə,
Ürəyi bənzərdi zərif güllərə,
Nəğmələr qoşardı bizim ellərə –
İndi də onların sırasındadır.

Yadımdan çıxmayır nitqi-nidası,
Müşfiq davranışı, Müşfiq ədası.
Ürəyində coşan şer dalğası
Həyatın tufanlı dəryasındadır.

## YADIMA DÜŞDÜ

Yenə o vaxtlara uçdu xəyalım,
O gənclik illəri yadıma düşdü.
Canlandı gözümdə ilk peymanımız,
O şirin dilləri yadıma düşdü.

Qızıl günəş bildim mən o xilqəti,
Qəlbimi oynatdı şeri, sənəti.
Şerlər deyəndə gülən surəti,
O sənət gülləri yadıma düşdü.

O xalqa heyrandı, xalq ona heyran,
Xəyalı tərlandı, köksü asiman.
Açıq ağ alnının üstdə qıvrılan
O qara telləri yadıma düşdü.





O könül bağladı saf arzulara,
Hər gün nəğmə yazdı sərin sulara.
Deyin, ölüm hara, sənətkar hara,
Sənətkar əlləri yadıma düşdü.

Deyin, yada düşən birmi-ikimi,
Canı tək sevərdi gözəl Bakını.
Daşlara çırpdılar büllur eşqini,
O xəzan yelləri yadıma düşdü.

## HƏMİŞƏ MƏNİMLƏSƏN

Şirin yuxum olmusan,
Gözlərimə dolmusan.
Ayrılıq illərində
Zərif duyğum olmusan.
Mənim könül Müşfiqim,
Həmişə mənimləsən.

Günəşimsən, ayımsan,
Dənizimsən, çayımsan.
Sevincimdin bir zaman
İndi hay-harayımsan.

Köksümə qopan səsim,
Mənim odlu nəfəsim.
Dünyaya düşən səsim,
Dilbər deyir, Müşfiqim,
Həmişə mənimləsən.

## SANIRAM

Sanıram bülbülün cəh-cəhi səsindi,
Güllərin ətri də xoş nəfəsindi.
O coşğun ürəyin də, xəzərimmi?
Yoxsa şerə olan ilk həvəsindir?

Vüsal həsrətində vuranda ürək,
Dərirəm bağçadan ətirli çiçək.
Xoş nəğmə eşitcək deyirəm sənsən,
Sanıram səsini saxlayıb külək.

İstərəm el-oba səndən danışsın,
Həsrətində gecəm sübhə qarışsın.
Müşfiq nəğməsində qoy yansın ürək,
Dilbərin qəlbində şam tək alışsın.

## SƏN AYRILIB GEDƏNDƏ

Döydü qapımı hicran,
Baharım oldu xəzan.
Gözlərim gördü duman,
Sən ayrılıb gedəndə.

Çəmən qara bağladı,
Ürəyimi dağladı.
Çiçəklər də ağladı,
Sən ayrılıb gedəndə.

Coşdu Kürüm, Arazım,
Sənə çatmır avazım.
Qırıldı könül sazım,
Sən ayrılıb gedəndə.





Bağçamda güllər soldu,
Gözlərim yaşla doldu.
Hicran qismətim oldu,
Sən ayrılıb gedəndə.

Göy üzünü tutdu çən,
Saraldı, soldu çəmən.
Nələr çəkməmişəm mən,
Sən ayrılıb gedəndə.

Dönüb baxdın üzümə,
Həsrət qondu gözümə,
Kədər düşdü izimə,
Sən ayrılıb gedəndə.

## BU GÜN

Başına döndüyüm dostlar, tanışlar,
Ömür baharımı sürmüşəm bu gün.
Şirin nəğməli, mehriban yarım,
Müşfiqi röyada görmüşəm bu gün.

İlhamı, nəfəsi qaynar şəlalə,
Dolandım başına, getdim xəyalə.
Bir əlimdə nərgiz, birində lalə,
Çəmənnən çiçəklər dərmişəm bu gün.

Dilbərin həsrəti, çiçək nəfəsi,
Oyatdı Müşfiqdə şer həvəsi.
Oxşadı qəlbimi mehriban səsi,
Zülfümü həsrətlə hörmüşəm bu gün.

## SƏNSİZƏM

Günəşli gündüzüm, ən şirin sözüm,
Əbədi hicrinə mən necə dözüm?
Bağçanda bitibdir nərgiz, bənövşə,
Sənsiz o gülləri mən necə üzüm?
Sənsiz üstümə boran, qar yağır,
Sanıram günəş də sənsiz ağlayır.
Gözümün yaşları qaynar bulaq tək
Bilsən sənin üçün necə çağlayır,
Bilsən sənin üçün necə ağlayır.

## SANKİ BAHAR GƏLİR

Göygölün sonası, Bakı durnası,
Köksündə ellərin eşqi, sevdası.
Oxuyur, oxuyur, Zeynəb oxuyur,
Səsindən bənövşə ətri qoxuyur.

Qızılgül eşqi ilə bülbül oyanır,
Çəmənin başına necə dolanır.
Elə bil bağçamda yenə yaz olur,
Pəncərəmdən içəri bülbüllər dolur.

Səsinin sədası könlümə düşür,
Müşfiqli günlərim yadıma düşür.
Oxuduqca coşur telli tarı,
Sorağımda gəzir durna qatarı.





## İLK MƏHƏBBƏT

Gözlərimin nuruydu,
Aydan, gündən duruydu,
Taleyimin yarıydı
Mənim ilk məhəbbətim.

Bahar oldu, yaz oldu,
Niyə ömrü az oldu?
Dönüb telli saz oldu
Mənim ilk məhəbbətim.

Çağladı bulaq kimi,
Çiçəkləndi bağ kimi,
Alışdı çıraq kimi
Mənim ilk məhəbbətim.

Ümmanlar kimi coşdu,
Coşdu, çağladı, daşdı.
Aşılmaz dağlar aşdı
Mənim ilk məhəbbətim.

Nəğmələri xoş oldu,
Bu nəğmələr quş oldu.
Köksümə qonmuş oldu
Mənim ilk məhəbbətim.

## YADIMA MÜŞFİQ DÜŞDÜ

Qəlbdə ilk eşqin odu,
Sağa-sola boylandım.
Harda bülbül oxudu,
Mən onu Müşfiq sandım.

Ötdü başım üstündən
Durnalar qatar-qatar.
Müşfiqimin ətrini
Könlüm bu yerdə tapar.

Ürək yandı həsrətlə,
Yandırdı dağı-daşı.
Qaynadı bulaq kimi
Axdı gözümün yaşı.

Baharım harda qaldı ,
Ay mənim bahar baxtım.
Yadıma Müşfiq düşdü,
Bağda bülbülə baxdım.

Elə bildim o sənsən,
Döyünən ürəyimsən.
Ana Vətən qoynunda
Mehimsən, küləyimsən.

## MÜŞFİQƏ

Çoxdandır sazını çalmamışam mən,
Kərəm tək odlara yanmamışam mən.
Çoxdandır ayrılıb ötən günlərdən,
Müşfiq dünyasına dalmamışam mən.

Müşfiqin eşqindən yazmaq üçün mən,
Gərək şimşək olam göylərdə çaxam.
Könlümü alova, odlara yaxam
Alovlu eşqindən doymayır ürək,
Təsəllim budur ki, şəklinə baxam.





## BU GECƏ

Onun xəyalı ilə yatdım bu gecə,
Onun vüsalına çatdım bu gecə.
Gördüm uca dağ başındayam,
Hər tərəf tər-təmiz, hər tərəf açıq,
Quşlar nəğmə deyir, çiçəklər gülür.
Göylərin üzündən sevinc süzülür.
O birdən əyilib bir gül qopardı,
Bunda məhəbbətin saflığı vardı:
- Deyə mənə verdi o dağ gülünü,
Sonra işə saldı şirin dilini.
Dedi: aşiqanə gözəl şerlər
Dinləyib özümü sandım bəxtəvər.
Ayıldım yuxudan, açdım gözümü,
Zeynəb oxuyurdu onun sözünü.

## SƏNSİZ

Dağdan, çəməndən gəlir,
Ay sevgilim, sorağın.
Durna qatarındadır
Nəğməli dodaqların.
Ey ilk eşqim, ilk sevdam,
Səni düşünüm müdam.
Gəzdiyimiz yerlərdən
Keçdim, mən bir də keçdim.
Müşfiq bulağından mən
Əyilib su da içdim.
O bulaq ki, Kəpəzin
Sinəsində çağlayır,
Müşfiq ilhamı kimi
Min bir dastan bağlayır.

Bulaq qaynadı, daşdı,
Sənə nəğmələr qoşdu.
Şeyda bülbül oldun sən,
Könüllərə qondun sən.
Eşqimiz haray saldı,
Hər yan od tutub yandı.
Səni tapa bilmədim,
Kaman kimi inlədim,
Hicran səbrimi kəsdi,
Könlüm yarpaq tək əsdi.
Sənsiz çölü, çəməni,
Gülüm, gəzə bilmədim.
Əyilib bir çiçək də,
Gül də üzə bilmədim.
Ətrini güldən aldım,
Səni gəzdim, aradım.
Yaşıl çəməni, Müşfiq,
Saçın bilib daradım.
Bilmədim hardasan sən?
Kamanda, tardasan sən?
Könülləri oxşayan
Yoxsa bahardasan sən.
Gəzdim səni bulaqda,
Bülbül kimi budaqda.
Dedilər nəğmə olub,
Dodaqdasan, dodaqda.

## MÜŞFİQİ SORUŞDUM

İndi Odlar yurdu bir taləzardır,
Elə bil hər yerdə bir ilk bahardır.
Ruhumu oxşayan şirin nəğmələr
Müşfiqimdən mənə ilk yadigardır.





Hər yerdə soruşdum şeyda bülbülü,
Dindirdim sünbülü, dindirdim gülü.
Bulaqlar çağladı, şəlalə coşdu,
Onlar Müşfiqimdən poemalardır.

Eşqilə dilə gəldi elin sazları,
Boylandı göylərdə dan ulduzları.
Zavallı Dilbəri Müşfiqsiz görüb
İnlədi tarında qəm avazları.

İzlədim xalqımı, düşdüm eşqinə,
Baxdım iftixarla yüksəlişinə.
Can verib, can dedim ana torpağın
Dünyanı güldürən sülh günəşinə.

## SƏNİN EŞQİN

Dumandayam, çəndəyəm,
Ətirli çəməndəyəm.
Dolaşdıqca dağları,
Axtarıram o yarı.
Sevgilimin baxışı
Yaz gününün yağışı.
Durna qatarındadır,
Gülü baharımdadır.
Eşqini saldın dilə,
Bənzədin şən bülbülə.
Qurban olum, ay Müşfiq,
Səndəki şirin dilə.

## UNUDA BİLMİRƏM

Keçsə də aylar, illər,
Yadımdan heç çıxmayır
O Müşfiqli şən günlər.
Bilmirəm bu nə sirdir,
Köksüm köklənmiş simdir.
Haraya mən baxıram
Müşfiqi görürəm.
Mən bir quşa dönürəm,
Uçuram o bağlara,
Qonuram budaqlara.
Baxıram gəzdiyimiz
O vüqarlı dağlara.
Məni məftun eyləyir
Suların zümzüməsi.
Gəlir qulaqlarıma
Müşfiqin coşğun səsi.
Eşqinə olub məskən
Bu dağ, bu bağ, bu Vətən.
Eşqimizi onlara
Bağlamışıq əzəldən.

## SƏNSİZ

Saf eşqinlə sevgilim,
Alışmışam, yanmışam.
Hicrinlə bülbül olub,
Çəmənzara qonmuşam.

Könül açdım mən gülə,
Tez yanaşdı bülbülə.
Dedi, oxu nəğməsin,
Gəl çəmənə, sən dinlə.





Bülbül oxur çəməndə,
Güllər çiçəkləyəndə.
Dil açdıqca nəğmələr,
Məgər can qaldı məndə?

Görün könlüm nə deyir,
Kaman kimi inləyir.
Gül həsrətdi bülbülə,
Gör kəpənək nə deyir.

Gənclik getdi, yaz qaldı,
Yar eşqindən saz qaldı.
O da inlər qəlbim tək,
Müşfiq neçin az qaldı.

## OXU

Oxu, sevdiciyim, öz həvəsinlə,
İlham qanadlanır sənin səsinlə.
Nəğməndə oynasın sellərin səsi,
Dan yerindən əsən yellərin səsi
Gülləri qoxlayaq bir ruzigar kimi,
Qumları oxşayan dalğalar kimi.
Titrəyən, çağlayan nəğmən olaydım,
Ürəyindən qopan səs mən olaydım.
Oxu! Qüvvət gəlsin şerə, sənətə,
Könlümün quşunu gətir heyrətə.
Nə qədər bənzəyir, vardım fərqinə,
Ömrümün ahəngi sənin şərqinə
Ürək kövrəkləşir sən oxuyanda,
Sən də dinləsəydin mən oxuyanda.
Oxu! Sevdiciyim, öz həvəsinlə,
İlham qanadlanır sənin səsinlə.

## O YERDƏ

Qoşa gəzdiyimiz bu yerlərə mən,
Üz tutub gəlmişəm bu gün yenidən.
Boynu bükük durub güllər, çiçəklər,
Burdan qəmli keçir soyuq küləklər.
Bulaq pıçıldayır, şəlalə dinir,
Quşlar dəstə-dəstə oxur, səslənir.
Gözüm nəyi görsə sənsən sanıram,
Sənin xəyalınla sənsiz yanıram.
Bürünüb arzuna bu doğma çöllər,
Eşqinlə göyərib açılır güllər.
Təbiət söyləyir ürək sözümü,
Gözlərim axtarır Müşfiq üzünü.

## BÜLBÜL

Sazlı-sözlü bu yaz günü
Şeyda bülbül nə coşursan?
Gül donunu geyir bağlar,
Onamı nəğmə qoşursan?

Hicranına dözürəm mən,
Ürəyimi üzürəm mən.
Bülbüllərin şah bülbülü,
Müşfiqimi gəzirəm mən.

Gəl qon, gəl qon pəncərəmə,
Qoy sevinsin gül budağı.
Sevinc gətir səhərimə,
Qəm olmasın qəlb otağım.





Sən qonmusan gül üstünə,
Mən həsrətəm yara, bülbül.
İtirmişəm bülbülümü,
Günüm olub qara, bülbül.

Can ver vəfalı dildara,
Getmə özgə bir diyara.
Qanım olur qara, bülbül.
Bənzəyirsən çəmənzara,
O sevdiyim yara, bülbül.

## BİR DƏ GÖRƏ BİLƏYDİM

Bilməziydim nədir bu eşq, məhəbbət,
Bilməziydim, nədir hicran bu həsrət.
Bilməziydim gün aşiqiydi aya,
Eşqinlə də nur calaya dünyaya.
Bilməzdim gül aşiqdi bülbülə,
Çəməndə bülbül nəğmə deyər güllərə.
Təbiətin sən seyrinə dalmağı,
Hər çiçəkdən, güldən ilham almağı.
Çəməndəki gülün rayihəsini,
Bulaqların şır-şır axan səsini
Duymağı, Müşfiqim, səndən öyrəndim,
Yanımda olsa idin olmazdı dərdim.
Kaş səni bir daha görə biləydim,
Bu həsrət bağından bir gül dərəydim.
Zümrüd yamaclarda qoşa gəzəydik,
Gülləri birlikdə yenə üzəydik.
Bahara nəğmələr biz qoşa-qoşa,
Vuraydıq baharı birlikdə başa.
Saçımı hörəydi göyərçin əllər,
Nəmli gözlərimə salaydın nəzər.

Dolana idim pərvanə tək başına,
Yanaydım eşqinin atəşinə.
Ömrümə bir daha dönəydi bahar,
Sən gedən yollara düşməliydi qar.
Kaş səni bir də görə biləydim,
Günəş təki eşqini ürəyimdə görəydim.
Dan yerinin səhəritək görünürsən gözümə,
Günəşdənmi nur alıb səpirsən üzümə.
Bahar gəlib, bülbüllər də ötüşür,
Müşfiqim, sənsiz ürəiymə köz düşür.
Eşqinlə qanad çalan bir quşam,
Özünə, nəğmənə vurulmuşam.
Kaş yenə Müşfiqli yazım olaydı,
O şirin nəğməli sazım olaydı.
Sənin istədiyin «o bağ olaydı»,
Günorta alışan torpaq olaydı.
Bir də Nəsimi yayan o mavi Xəzər,
O dilsiz axşamlar, ulduzlu göylər.
«Arzuya bax, Müşfiqim»
Sənin şair qəlbin tək
Özün söylə, incimərn,
Söylə, ürəyincəmi.

## BU GÜN

Bu gecə röyama tale bal qatıb,
Ömür baharımı görmüşəm bu gün.
İlk əhdi-peymanım qolumdan tutub,
Müşfiqli bir ömür sürmüşəm bu gün.

Son qoydum möhnətə, dərdə-məlalə,
Mələklər gəldilər əldə piyalə.
Dolandım başına, getdim xəyalə,
Həsrətlə zülfümü hörmüşəm bu gün.





Şirin xəyallara apardım pənah,
Bilmədim nə zaman açıldı sabah,
Bir də ayılanda gördüm, ay Allah,
Ömrümü yuxuya vermişəm.

## BİR DƏ OXU

Bahar fəsli gül açanda,
Saf arzular dil açanda,
Baxıb elə coşur Zeynəb,
Bülbül kimi oxur Zeynəb.

Qəmi, kədəri unudur,
Könüllərə qanad verir,
Dağa-daşa səda verir,
Bağ-bağçaya büsat verir.

İnci səpir dodağından,
Gül ayrılır budağından.
Şeyda bülbül, o da gəzir
Yenə sənin sorağınnan.

Oxu, çağla şəlalə tək,
Oxu, inlə kaman tək.
Qulağıma səsin gəlcək
Düşünürəm Müşfiqimi.

Oxu-oxu, qurban olum,
Yenə onun qəzəlini.
Bir də, bir də yada salım
İlk eşqimin əzəlini.

## MÜŞFİQ

Sən Vətən eşqilə alovlanaraq,
Vermişdin könlünü ellərə, Müşfiq.
Şirin nəğmələrin qanad çalaraq,
Düşüb ağızlara, dillərə, Müşfiq.

El yolunda alışdın sən, yandın sən,
Ay dağlarda şimşək kimi çaxanım.
Hər görüşü bir ilk bahar sandın sən,
Saf sevgisi şəlalətək axanım.

Ay Müşfiqim, xəyallara dalaraq,
Yollarına baxa-baxa qalmışam.
Ötən günü həsrət ilə anaraq,
Uçan quşdan səni xəbər almışam.

İndi sənsiz dolaşıram dünyanı,
İndi səni sevənlərdir həmdəmim.
Neçə-neçə məktub üstə ünvanım,
Oxuduqca yaddan çıxır min qəmim.

Damarından axan qan yox, «Cəngi»ydi,
Hey ötərdin mənim könül sazımda.
Yollarına qarmı yağdı, ləngidin,
Gəlməz oldu baharım da, yazım da.

Mən Dilbərəm, qəlbim ötən neydimi?
Eşqimizi gül-çiçəklə bəzərəm.
Qulağıma bülbül səsi dəydimi,
Müşfiq deyib düz-dünyanı gəzərəm.





## GƏNCƏ

Mənim vətənim Gəncə,
Alagöz qızlar incə.
Köksündəki sevincə,
Olum mən qurban, Gəncə.
Nizamilər yurdusan,
Al bayraqlı ordusan,
Qartal qanadlarınla,
Yeni Gəncə qurmusan.
Dağlarında bənövşə
Qızıl ətir saçar.
Şeyda bülbüllər yazda
Bu yerlərdə dil açar.
Günəş şəfəqlərilə
Göygölümə nur saçar.
Sənin şair adına
Nizamilər yurduna,
Olum mən qurban, Gəncə.
Müşfiqimin bu yerdə
Qəzəli var, sözü var.
Şehli çəmən üstündə
Ayağının izi var.
Məclis qurur, Göygölüm,
Gülür mehriban elin,
Sənin məhəbbətinlə
Dil açır qönçə gülüm.
Fərhad külüngü vurur
İndi Milin, Muğanın,
Oxu, Zeynəbim, oxu,
Nəğmən ilə oyanım.
Elimin qüdrətindən
İlhamımı mən alım.
Dan yerinin səhəri tək
Şəfəqi ilə oyanım.

## GƏNCƏ DAĞLARI

Gəncə dağlarını gəzməyə çıxdım,
Gülləri telimə düzməyə çıxdım.
Dağlar ana kimi səslədi məni,
Qoynunda böyüdüb bəslədi məni.

Durub günəşlə qoşa,
Burdan Leyli baxarmış.
Məcnunun saf sevgisi
Şəlalə tək axarmış.

Fərhad öz külüngüylə
Çapdığı ulu dağlar.
Şirinin vüsalını
Hələ köksündə saxlar.

Qəlbdə ilk eşqin odu,
Sağa-sola boylandım.
Harda bülbül oxudu,
Mən onu Müşfiq sandım.

Ötdü başım üstündən
Durnalar qatar-qatar.
Müşfiqimin ətrini
Könlüm bu yerdə tapar.

Ürək yandı həsrətlə,
Yandırdı dağı-daşı.
Qaynadı bulaq kimi,
Axdı gözümün yaşı.





Baharım harda qaldı,
Ay mənim bahar baxtım.
Yadıma Müşfiq düşdü,
Bağda bülbülə baxdım.

Elə bildim o sənsən,
Döyünən ürəyimsən.
Ana Vətən qoynunda
Mənim meh küləyimsən.

## İLK GÖRÜŞ YERİMİZ

İlk görüş yerimiz əzizdir mənə,
O bənzər çiçəkli-güllü çəmənə.
Baxışın bu yerə səpələnibdir,
Elə bil hər yerə nur ələnibdir.

Bu yerdə nəğmələr deyərdin mənə,
Ömrümün baharı səslənir yenə.
İlk görüş yerimizi mən gördüm deyə,
Gəlmişəm görüşə can deyə-deyə.

Bu yerdə bahardır, bu yerdə yazdır,
Dilbərin qəlbində inləyən sazdır.
Müşfiq, güllər ətri səndən alıbdır,
Sənsizəm, boynum bükülü qalıbdır.

## LEYLA

Anamın adısan, ay nazlı Leyla,
Ömrümün baharı, yazısan, Leyla.
Üstümdə günəş tək yanırsan, Leyla,
Qəlbimi gözümdən qanırsan, Leyla.
Qəmliyəm, könlümü alırsan, Leyla,
Anamı yadıma salırsan, Leyla.

## QIZIM

Ayım, ulduzum mənim,
Gecəm, gündüzüm mənim.
Sən necə də şirinsən
Mehriban qızım mənim.

Köksümə qonan sənsən,
Bahar nəfəsim sənsən.
Ana vətən qoynunda
Sən ətirli çiçəksən.

Ülvi məhəbbətinlə
Sən əzbər ol dillərə.
Dan yerinin səhəri tək
Sən işıq sal ellərə.

Səslə ayı, ulduzu,
Bəzəyin yurdumuzu.
Ay mənim mehriban, qızım,
Aləm sənə heyran, qızım.





***Dilbər Axundzadə qızı Leyla xanımla (1978)***

# DİLBƏR AXUNDZADƏ (İSMAYILZADƏ) NƏ ÜÇÜN HƏBS EDİLMİŞDİR?

*(Kiçik ixtisarla)*

*O süzgün gözələ əsir olalı,*
*Silindi könlümün dərdi, məlalı.*
*Ay nazlı Gəncənin, nazlı maralı.*
*Ovçuyam, ardınca qaçmaq istərəm,*
*Sən aşan dağları aşmaq istərəm.*

Bu şer yarananda Müşfiq ən xoşbəxt günlərini yaşayırdı. Çünki o illərdə «nazlı Gəncənin, nazlı maralı» da onunla idi. Lakin şəkildə görünən o gözlər, şerdəki gözlər deyil. Şerdəki gözlərdə şuxluq, oynaqlıq, şəkildəki gözlərdə qəm, kədər, dərd vardı. Şerdəki gözlərdə romantik gözəllik, şəkildəki gözlərdə 30-cu illərin real eybəcərliyi yaşayır. İndi nazlı maralın süzgün gözlərindən, süzgün baxışlarından əsər-əlamət qalmamışdı. Sanki bu gözlərdəki gözəlliyi də Müşfiqi həbs edənlər özləri ilə həbsxanaya aparmışdılar. Bu gözlər, bu baxışlar müşfiqsizləşmişdi. Ona görə də bu gözlər süzgün deyil, indi yetim gözlər olmuşdu. Əslində bu gözlərin özü də «həbs edilmişdi». Artıq bu gözlərin görünən tərəfindəki Müşfiq məhəbbətini «soyundurub» yerinə dərd yüklü qara tül asmışdılar. Bu gözlərin görünməyən tərəflərində isə bir Müşfiq yaşayırdı.

Dilbər xanımın nə üçün həbs edilməsi səbəbi XDİK-in DTİ-nin 8-ci şöbəsinin rəisi, DT leytenantı Koqanın tərtib etdiyi və Azərbaycan SSR XDİK-in müavini, DT mayoru Borşovun 4 mart 1938-ci ildə təsdiq etdiyi arayışda öz əksini tapmışdı:

**«9 iyul 1937-ci ildə (düz deyil, iyunun 3-dən 4-ə keçən gecə - C.Q.) Az. SSR XDİK-i tərəfindən Azərbaycandakı əksinqilabi millətçi və terrorçu təşkilatın üzvü**








Лист №
К делу №

**Анкета арестованного.**

Фамилия: Исмаил-заде-Ахунд-заде
Имя и отчество: Дильбар
Дата рождения: число ___, месяц ___, год 1914
Место рождения: гор. Кировабад
Местожительство (адрес): гор. Баку ...
Профессия и специальность: педагог по физике
Место службы и должность или род занятий: ...
(указать без сокращений, название предприятия или учреждения или характер производства)
Паспорт: ___ (когда и каким органом выдан, № и категория, где прописан)
Социальное происхождение: ... (род занятий родителей и их имущественное положение)
Социальное положение: ... (род занятий и имуществ. положение арестованного)
а) до революции: На иждивении родителей
б) после революции: ... гор. Баку
Образование (общее и специальное): Среднее ...
Партийность (в прошлом и настоящем): ...

618

13. Национальность и гражданство (подданство) Азербайджанка з/с-н

14. Категория воинского учета-запаса и где состоит на учете
Не состояла.

15. Служба у белых и друг. к-р армиях, участие в бандах, восстаниях против Совв...
и в качестве кого) Не служила

16. Каким репрессиям подвергался при Соввласти: судимость, арест и др. (когда, ...ном и за что)
Не подвергалась

17. Состав семьи Ахунд-Исмаил-заде Микаил арестован арес... 3 июля 1937 года
(ближние родственники, их имена, фамилии, адрес и род занятий)

Подпись арестованного Ахунд-заде

1. Особые внешние приметы
2. Кем и когда арестован 1 января 1938 году Аз НКВД
3. Где содержится под стражей В сумашедшем доме гор. ...
4. Особые замечания

Подпись сотрудника заполнившего анкету [подпись]
2 февраля 1938 г.

ПРИМЕЧАНИЕ: Анкета заполняется четко и разборчиво со слов арестованного и ... по документам.





" УТВЕРЖДАЮ "
ЗАМ.НАРКОМА ВНУТРЕННИХ ДЕЛ АзССР
( КЕРИМОВ )
" " марта 1939 года

ПОСТАНОВЛЕНИЕ

гор. Баку " 5 " марта 1939 года.

Я, Пом.Опер.Уполномоченного 4 Отдела УГБ НКВД АзССР - АСКЕРОВ Т. рассмотрев следственно -арестанское дело № 8940 по обвинению ИСМАИЛ ЗАДЕ -АХУНД ЗАДЕ ДИЛЬБАРА, 1914 год рождения, урож. гор. Кировабада, азербайджанка, гр-ка СССР, быв. член КСМС 1929 года исключен в связи с арестом, не судившиеся

НАШЕЛ:

ИСМАИЛ ЗАДЕ - АХУНД ЗАДЕ ДИЛЬБАР арестована 2/XI-1937 г. на основании приказа НКВД СССР за № 00486, как жена изменника родины - ИСМАИЛ ЗАДЕ МИКАИЛ МУШФИКА.

Из имеющегося в деле акта медицинского освидетельствования усматривается, что ИСМАИЛ ЗАДЕ -АХУНД ЗАДЕ ДИЛЬБАР с 28/II-1938 г. находилась на лечении в психиатрической больнице; перенесла психическое заболевание в форме Шизофрении, психогенно спровоцированный.

Учитывая, то обстоятельство, что на ИСМАИЛ ЗАДЕ-АХУНД ЗАДЕ ДИЛЬБАР в деле нет материалов изобличающих ее в антисоветской деятельности и что она в течение года находилась психически больной и в настоящее время находится в состоянии ремиссии, - на основании ст. 11 УПК Аз.ССР не может быть привлечена к ответственности, а поэтому

ПОЛАГАЛ-бы:

Лишен.свободы ИСМАИЛ-ЗАДЕ-АХУНД ЗАДЕ ДИЛЬБАР, 1914 года рождения, урож. гор. Кировабада из под стражи освободить, дело следствием прекратить и сдать в архив.

ПОМ.ОПЕР.УПОЛНОМ.4 ОТДЕЛА УГБ [подпись]
( АСКЕРОВ Т. )

ПОМ.НАЧ.6 ОТД.4 ОТДЕЛА
ЛЕЙТЕНАНТ ГОС.БЕЗОПАСНОСТИ [подпись]
( Медведев )

"СОГЛАСЕН" - НАЧ.4 ОТДЕЛА УГБ НКВД АзССР
ЛЕЙТЕНАНТ ГОС.БЕЗОПАСНОСТИ [подпись]
(ГОЛУБЦОВ)

**kimi, vətən xaini İsmayılzadə Qədir oğlu Mikayıl Müşfiq həbs edilmişdir. Onun işi ilə bağlı istintaq başa çatmış və 5 yanvar 1938-ci ildə SSRİ Ali Məhkəməsi hərbi kollegiyasının səyyar sessiyası tərəfindən birinci kateqoriya ilə məhkum edilmişdi.**

**Həbs ediləndək onunla yaşamışdı:**

**1935-ci ildən onun arvadı, orta təhsilli, ATİ-nin tələbəsi (o zaman Dilbər xanım 2-ci kursda oxuyurdu – C.Q.) bitərəf, SSRİ vətəndaşı, azərbaycanlı, 1914-cü ildə Kirovabad şəhərində doğulmuş İsmayılzadə (Axundzadə) Dilbər Hacı qızı SSRİ XDİK-nin 00486 №-li əmrinə əsasən vətən xaininin arvadı kimi həbs edilsin və Bakı şəhərində ümumi həbsxanada saxlanılsın.**

**İsmayılzadə-Axundzadə Dilbər Hacı qızının mənzilində silah, qiymətli əşyalar və əksinqilabi kitablar götürmək məqsədi ilə axtarış aparılsın.**

**Qalan əmlakı müsadirə edilsin və dövlət hesabına keçirilsin».**

Göründüyü kimi, Dilbər xanımın heç bir günahı yoxdu və o, yalnız Müşfiqin həyat yoldaşı olduğuna görə həbs edilməli idi. Azərbaycanda Dilbər taleli qadınlar az deyildi. Demək olar ki, 1-ci kateqoriya ilə məhkum olunmuş «vətən xainləri»nin və «xalq düşmənləri»nin ailə üzvlərinin hamısının taleyi eyni idi. Maraqlıdır ki, onların əksəriyyəti məhkəməsiz və istintaqsız Sibirə sürgün edilirdilər.

Bir müddətdən sonra – 1 noyabr 1937-ci ildə Azərbaycan SSR XDİK-in DTİ 8-ci şöbəsinin inspektoru Koltsin aşağıdakı məzmunda bir qərar tərtib etdi:

**«Vətəndaş İsmayılzadə – Axundzadə Dilbər Hacı qızı vətən xaininin arvadı olduğuna görə məhkəmədən və istintaqdan yayınmaması üçün həbs edilsin».**





Dilbər xanım haqında belə bir qərar hazırlananda o, Azərbaycan Tibb İnstitutunun 2-ci kursunda oxuyurdu. Tibb İnstitutuna daxil olana qədər Bakı pedaqoji texnikumunu bitirmişdi. Dilbər xanım elə bu təhsillə də kifayətlənə bilərdi, lakin ali təhsil almağı ona H.Cavid tövsiyə etmişdi.

...Kim bilir, tibb institutunu bitirdikdən sonra o, neçə-neçə insana həyat bəxş edəcəkdi. Lakin bədxahlar qoymadılar.

Koltsinin tərtib etdiyi qərarı Azərbaycan SSR XDİK-in müavini, dövlət təhlükəsizlik mayoru Borşov artıq təsdiq etmişdi.

Bu qərardan bir gün sonra – 2 noyabr 1937-ci ildə Dilbər xanımın evində axtarış aparılmış və həbs etmə haqqında 2350 №-li order imzalanmışdı. Həmin orderə əsasən, Dilbər xanım üç gün müddətinə həbs edilməli idi.

Dilbər xanımın qapısını axtarış aparmaq məqsədi ilə ikinci dəfə döyürdülər. Birinci dəfə Müşfiqi aparanda – 1937-ci ilin iyun ayının 3-dən 4-nə keçən gecə döymüşdülər, bir də indi – 2 noyabr 1937-ci ildə döyürdülər. Keçən dəfə Müşfiqi, bu dəfə isə Dilbəri aparırdılar.

Axtarış zamanı evindən bir çox ev əşyaları da götürülmüşdü. Lakin Dilbər xanımı narahat edən, onu ağrıdan bir Müşfiqin taleyi, bir də yaddaşında dərin iz qoyan, yaddaşından silinməyən, bu evi ələk-vələk edən, altını-üstünə çevirən XDİK əməkdaşlarının – bir sözlə, evi axtarmağa gələnlərin sərt, soyuq münasibətləri və heybətli baxışları idi. Bu baxışları və münasibətləri Dilbər xanım heç cür yadından çıxara bilmirdi. Heç çıxarmaq da mümkün deyildi. Çünki o qadınların saxlanıldığı həbsxanada qadın ahnaləsindən zövq alan, belə baxış və münasibət sahibləri ilə hər gün, hər saat rastlaşırdı. Özünü dinc buraxanda da başqa kameralardan ərşə yüksələn qadın nalələri, ana fər-

yadları belə əcaib insanları onun gözündən uzağa getməyə qoymurdu. İnsanı dəhşətə gətirən bu baxışların arxasında Dilbər xanım bir fon kimi Müşfiqin də həsrət dolu baxışlarını və səmimi münasibətlərini görürdü və bir vaxtlar Müşfiqin ona oxuduğu misraları xatırlayırdı:

*Gözlədim yolunu, hava qaraldı,*
*Bu qaranlıq hava ruhumu sardı.*
*Səndən qəmgin könül sevinc umardı,*
*Sən, ey səadətim, neyçin gəlmədin?*

*Əlimdəki qələm bir sədəfli saz,*
*Nə qədər səninçün coşar, yorulmaz!*
*Aramızda olan zəncir qırılmaz,*
*Ey sözüm-söhbətim, neyçin gəlmədin?*

Yəqin ki, Dilbər xanım bu misraları təsadüfən xatırlamırdı. Bir vaxt Müşfiq bu misralarla öz Dilbərini məzəmmət etmişdi, «neyçin gəlmədin» - demişdi. Bu misraları xatırlatmaqla sanki Dilbər xanım da öz növbəsində Müşfiqini «məzəmmət» edir, «sənin arxanca həbsxanaya da gələrəm», - deyirdi və yenə də yaxın günlərin şirin xatirələrini vərəqləyirdi. Vərəqləyirdi, yorulmadan vərəqləyirdi. Vərəqlədikcə də bu gün dünənkindən daha ciddi təsir bağışlayan hadisələr yaddaş kitabında çözələnirdi. Əslində bu yaddaşın da elə bir uzun tarixi yox idi. Dilbər xanım öz içində, öz dünyasında yaddaş kitabından çözələdiyi, seçib üzə çıxardığı, oyatdığı hiss və fikirləri Müşfiq duyğuları, Müşfiq düşüncələri və Müşfiqin poetik dünyası ilə qarşılaşdırır, onunla daxili dialoqa girirdi:

*Deyirsən yanında qalacağam mən,*
*Çox gözəl fikirdir, qal, sənə qurban!..*





*Nə zaman istəsən, əziz canımı*
*Qumral gözlərinlə al, sənə qurban!*

Bu sözləri Müşfiq haçansa Dilbər üçün oxumşdu. Bu sözlər oxunanda onlar vüsalla qucaqlaşmışdılar. Bu misralar oxunanda sonu görünməyən ayrılıq yox idi. Yəqin ki, indi Müşfiq zindanda ola-ola yanımda qal deməzdi. Qıymazdı ki, qumral gözlü Dilbəri onunla zindanda birlikdə olsun, qıymazdı buna. Müşfiq Dilbərin yolunu gözləyirdi, elə bilirdi ki, Dilbər onun görüşünə gələcək. Qadının «vətən xaini»nə görüş almağının nə qədər ağır olduğunu da yaxşı bilirdi. Bilirdi, amma yenə gözləri yol çəkirdi. Əslində, gözləri ilə aramaqda haqlı idi, bilirdi ki, Dilbər onun «vətən xaini» olduğuna inanmır. O isə gəlmək bilmirdi ki, bilmirdi.

Müşfiqin Dilbərin həbs olunmağından, onun başına gələnlərdən xəbəri yox idi. Bilmirdi ki, o da hardasa yaxınlıqdadır, tale və aqibət yaxınlığında, Dilbər də bilirdi ki, Müşfiq onun yolunu gözləyir. Elə Dilbərin də onunla görüşmək, səmimi söhbətlərini eşitmək, vəziyyəti ilə maraqlanmaq üçün burnunun ucu göynəyirdi. Amma bilmirdi ki, görüş almadığına görə Müşfiq ondan inciməz, küsməzdi:

*Mən şirin ləhcəli bir bülbüləm ki,*
*Güllərdən küsərəm, səndən küsmərəm!*
*Məni öz canından artıq istəyən*
*Ellərdən küsərəm, səndən küsmərəm!*

Dilbər xanım yenə xatirələrini vərəqləyir, Müşfiqin bir vaxt ona dediyi bu sözləri anırdı: «Dilbər, sənsiz mən cənnətdə olsam da, darıxacağam. Səninlə zindanda olsam, oranı cənnət bilərəm».

Dar, qaranlıq kameralarda Müşfiqlə olan belə daxili dialoqlar uzandıqca Dilbər xanım bir rahatlıq tapır, heybətli, kinli və dəhşətli adamları öz içindən, gözləri önündən qovurdu, uzaqlaşdırırdı. Lakin onlardan yaxa qurtarmaq o qədər də asan iş deyildi. Xüsusilə də dəmir barmaqlıqlar arasında.

3 fevral 1938-ci ildə müstəntiq Dilbər xanımı Müşfiqlə olan daxili dialoqdan ayırıb onu öz sorğu-sual dialoquna, dindirmə dialoquna gətirdi:

**Sual: Siz əriniz İsmayılzadə Müşfiqlə neçənci ildən yaşayırsınız?**

**Cavab: Mən ərim İsmayılzadə Müşfiqlə 1935-ci ildən onun həbsinə – yəni 1937-ci ilə qədər yaşamışam.**

**Sual: Sizə əriniz Müşfiq İsmayılzadənin əks-inqilabi millətçi fəaliyyətindən nə məlumdur?**

**Cavab: Ərim İsmayılzadə Müşfiqin əksinqilabi millətçi fəaliyyəti barədə mənə heç nə məlum deyil. Mən onun fəaliyyəti barədə maraqlanarkən o mənə dedi ki, mən belə qərara gəlmişəm sənə öz fəaliyyətim haqqında heç nə deməyim, ona görə ki, sən çox əsəbisən. Bundan başqa, İsmayılzadə tez-tez məzuniyyətlərə gedirdi, mən isə öz ictimai işlərimlə və zaçotlarımla məşğul olurdum.**

**Sual: İfadənizə bundan başqa nə əlavə edə bilərsiniz?**

**Cavab: Əlavə edirəm ki, xalq düşmənləri haqqında məqalələr çap ediləndə mən öz tərəfimdən evə gələrkən hər vəchlə çalışırdım öz ərim İsmayılzadədən onun fəaliyyəti barəsində hər şeyi öyrənim. O zaman İsmayılzadə mənə cavab verdi ki, «onun tərəfindən heç bir əksinqilabi iş görülmür. Səndən yaxşı diplomat, üstəgəl müstəntiq çıxar».**





Həbsxanada Dilbər xanımın başına elə toy açmışdılar ki, toyu da yadından çıxmışdı. Müstəntiqə deyirdi ki, Müşfiqlə 1935-ci ildə ailə qurmuşam. Dilbər xanım Müşfiqlə 1931-ci ildə Bakı Pedaqoji Texnikumunda oxuduğu zaman tanış olmuş və 1933-cü ildə isə ailə qurmuşdu. Hətta 1934-cü ildə Yalçın adlı bir oğlanları da dünyaya gəlmişdi.

...Bəlkə də bu körpə ata-anasının gələcəkdə tutulacağını və özünün kimsəsiz uşaqlar evinə atılacağını, eləcə də cəmi ikicə ay içində yaşadığı həyatın eybəcərliklərini duyduğundan dünyasını dəyişdi.

Bu, müstəntiqin Dilbər xanımla birinci və sonuncu dialoqu oldu. İndi bütün işlər bitmişdi. İstintaq «öz işini görmüş» və başa çatdığını «müttəhim»ə elan etmişdi. Qarşıda Dilbər xanımı ittiham etmək vəzifəsi dururdu. Bunun üçün müəyyən sənədləri hazırlamaq və XDİK-nin xüsusi müşavirəsinə göndərmək lazım idi. Sənədlər hazırlanırdı, burada elə bir problem yox idi. Çünki bu sahədə çalışanların hamısı artıq professionallaşmışdı. Onlar hətta olmayanları da asanlıqla düzüb-qoşmaqda xeyli təcrübə toplamışdılar. İş gedirdi, Dilbər xanımın isə həbsxanadakı (xanım və həbsxana, qəribə təzaddır, deyilmi?) sərt davranışlara, təhqirlərə, qeyri-insani hərəkətlərə əsəbləri dözmürdü. Sarsıntılar keçirir, tez-tez hirslənirdi. Həbsxanada buna kim idi məhəl qoyan, onun ruhunu oxşayan, əsəblərini sakitləşdirən? Bir də, Dilbər xanımı burada əsəbiləşdirməyə ehtiyac da yox idi. Adamları kinli divarları da insanın əsəblərini qıcıqlandıran belə bir yerdə kim rahat olar, kim əsəbiləşməzdi ki?

Amma buna məhəl qoyan, ona həmdərd olan, xəstəliyinə əlac edən bir vicdanı oyaq adam tapılmırdı burada. Əlac etmələri, dərdinə acımaqları o yana, yəqin ki, onun hərəkətlərini şıltaqlıq kimi qəbul edir, bu zərif qadını ko-

bud ayaqlardakı kobud çəkmələrlə dəfələrlə döymüşdülər də. Günlər keçdikcə o daha da ağırlaşırdı.

Nəhayət, 28 fevral 1938-ci ildə onu həbsxanadan 1 nömrəli ruhi xəstəxanaya gətirdilər.

Dilbər xanımın anası Leyla Axundzadə qızının həbsxanada xəstələndiyinin və ruhi xəstəxanada «müalicə olunduğunu» haradansa öyrənmişdi. Ona görə də döyməediyi qapı, kömək diləmədiyi adam qalmamışdı. Axırda yenə XDİK-ə yazılı olaraq müraciət etmiş və ona köməklik göstərmələrini acizanə surətdə xahiş etmişdi... Leyla ananın bu yalvarışlarına məhəl qoyan tapılmamışdı. Heç bu ərizəyə cavab da verilmədi, sanki belə bir ərizə yazılmamış və XDİK-ə daxil olmamışdı. Daxil olsa da, kiçik adamların əlinə düşmüşdü. «Böyük adamlar»ın onların ünvanına gələn məktubları oxumağa onsuz da vaxtları olmurdu. Bəlkə elə ona görə də nəhayətdə xalqdan aralı düşürdülər.

Təxminən 1 il sonra – 19 fevral 1939-cu ildə 1 nömrəli ruhi xəstəxananın baş həkimi İ.İ.Antonov və qadın şöbəsinin müdiri A.A.Əsgərov tərəfindən aşağıdakı məzmunda akt tərtib edildi.

**19 fevral 1939-cu ildə biz, aşağıda imza edənlər 1 nömrəli ruhi xəstəxananın baş həkimi İ.İ.Antonov və qadın şöbəsinin müdiri A.A.Əsgərov xəstəxanada yatan Axundzadə Dilbərin psixi vəziyyətinə yekun rəy veririk.**

**Azadlıqdan məhrum edilmiş Axundzadə Dilbər ruhi xəstəxanaya 28 fevral 1938-ci ildə hərəkət danışıq oyanıcılığı ilə daxil olmuşdur. Suallara cavab verməmiş, əlaqəsiz danışırdı. Xəstəxanada olduğu müddətdə oyanıcıqlıq sakit hala keçirdi, hərəkətləri düşünülməmiş, hebefrenik xarakter daşıyırdı.**





**Qarabasma halları olmuş, heç nə ilə maraqlanmırdı, yanaşılmaz halda idi, verilən suallara ötəri cavab verirdi. Bu hal 1938-ci ilin oktyabrına kimi davam etmiş, qarabasmalar tədricən yox olmuş, o sakitləşmiş və əlverişli vəziyyətə gəlmişdi.**

**Hazırda o fəallaşaraq ətrafa maraq göstərir, qəzet oxuyur, əl işləri ilə məşğul olur, lakin hərəkətlərində müəyyən qəribəliklər vardır.**

**Yekun: Azadlıqdan məhrum olunmuş Axundzadə Dilbər psixi təhrik nəticəsində şizofreniya formasında ruhi xəstəlik keçirmişdi.**

**Hazırda, remmissiya (tamamilə sağalmamış) vəziyyətindədir. Ruhi xəstəxanada qalmasına ehtiyac yoxdur?**

*1№-li ruhi xəstəxananın baş həkimi:*
*İ.İ.Antonov.*
*Qadın şöbəsinin müdiri:*
*A.A.Əsgərov*

Dilbər xanımın həbsxanadan xəstəxanaya aparıldığı gün – 1938-ci il 28 fevralında ittihamnamə tərtib edildi və 4 mart 1938-ci ildə Azərbaycan SSR XDİK müavini, dövlət təhlükəsizlik mayoru Borşov tərəfindən təsdiq edildikdən sonra istintaq işi baxılmaq üçün XDİK-in xüsusi müşavirəsinə göndərildi.

Həkimlərin verdiyi rəyə, deyəsən, yavaş-yavaş diqqət artırdı. 5 mart 1939-cu ildə Azərbaycan SSR XDİK-i DTK-nin 4-cü şöbəsinin əməliyyat müvəkkili T.Əsgərov istintaq işi ilə tanış olarkən müəyyən etmişdir ki, Mikayıl Müşfiqin arvadı kimi 2.11.1937-ci ildə həbs edilmiş Dilbər İsmayılzadənin 28.02.1938-ci ildə ruhi xəstəxanada müalicə olunduğunu, şizofreniya formasında ruhi xəstəlik

keçirdiyini, eləcə də işində ifşaedici materiallar olmadığını nəzərə alaraq və Azərbaycan SSR Cinayət-Prosesual Məcəlləsinin 11-ci maddəsini əsas götürərək onun həbsdən azad edilməsi təklifini irəli sürmüşdür.

Həmin təkliflə əlaqədar olaraq Azərbaycan SSR Prokurorluğu xüsusi işlər şöbəsi 7 mart 1939-cu ildə 8940 №-li istintaq işi ilə tanış olduqdan sonra Azərbaycan SSR XDİK-ə müraciət etmişdir ki, xəstəliyi ilə əlaqədar olaraq İsmayılzadə (Axundzadə) Dilbər həbsdən azad edilsin.

İstintaq işinin 19-cu səhifəsində 2 №-i həbsxananın verdiyi 78 №-li talondan öyrənirik ki, Dilbər xanımı 11 mart 1939-cu ildə axşam saat 20-də həbsxanadan azad etmişlər.

Bütün bu proseslərdən onun xəbəri yox idi və o, xəstəxanadan çıxandan sonra da bir neçə il müalicə olunmalı, tamamilə sağalmalı idi. Dilbər xanımı sağaltmaq, müalicə etmək mümkün idi. Lakin ona olan soyuq münasibətləri isindirmək, onun və onun Müşfiqinin günahsız olduğunu bu baxış sahiblərinə başa salmaq mümkün deyildi. Baxışların böyük əksəriyyətində sən «vətən xaini»nin, «xalq düşməni»nin arvadısan sözləri bir ittiham aktı kimi oxunurdu. Bütün mənəvi əzablara və sarsıntılara baxmayaraq, o, xəstəliyə qalib gəldi. Artıq sağalmışdı, hər şeyi dərk edirdi Dilbər xanım.

Müşfiqsiz Müşfiqlə yaşayırdı Dilbər xanım. Bir vaxtlar dilindən düşməyən Müşfiq ifadəsini indi dilinə gətirə bilmirdi. Ona görə də içində, ürəyində yaşadırdı Müşfiqi. Müşfiqin bəraətindən sonra 1958-ci ildə yazdığı «Axtarıram» adlı şerdə onun nitqini, davranış və ədasını unutmadığını poetik dillə belə ifadə edirdi.

*Yadımdan çıxmayır nitqi-nidası,*
*Müşfiq davranışı, Müşfiq ədası.*





*Ürəyində coşan şer dalğası*
*Həyatın tufanlı dəryasındadır.*

1965-ci ildə yazdığı «Qurban olduğum» adlı şerdən bir daha aydın olur ki, Dilbər xanım öz Müşfiqini heç vaxt unutmamış, onu öz qəlbində, öz ruhunda yaşatmışdı.

*Dilbərəm, ilk eşqim günəşdi, sönməz,*
*Ömrümün baharı geriyə dönməz.*
*Min yol yalvarıram, şəklin də dinməz,*
*Özünə, şəklinə qurban olduğum.*

Müşfiqin ölümündən 23 il sonra yaranmış bu şer bir daha sübut edir ki, gün gələcək, onların ölməz eşqini təcəssüm etdirən «Müşfiq və Dilbər» adlı məhəbbət dastanı yaranacaqdır.

*Cəlal Qasımov,*
*filologiya elmləri namizədi*
*«Sərhəd» qəzeti, 13-19 oktyabr 1995-ci il*

## «SƏN NEYÇÜN AĞLARSAN»
*(esse)*

Poeziyamızın həzin, kövrək Müşfiqinin Dilbəri – Dilbər Axundzadənin vəfatının ildönümünə həsr olunur.

*Bir qara buludam uca göylərdə,*
*Bu qara baxtımla bizim ellərdə.*
*Sən neyçün ağlarsan, mən duran yerdə?*
*Nərgiz gözlərinin yaşına qurban.*

O gün dəli küləklər də matəm sükutunda idi. Yerdə də, göydə də məhəbbət naləsi tüğyan edirdi. Məhəbbət və intizar, sevgi və mərhəmət... Yaradan da gileyli idi.

O gün bir kişi məzarı hərarət həsrətində idi. Məzar yol intizarında idi. Müşfiq gözləyirdi! Müşfiq dözümü tükənmişdi. Alagöz yarının həsrətində, intizarında qovrulurdu Müşfiq.

O gün iki sevgili qovuşacaqdı. O gün dünya məhəbbət nəğməsini ağı üstə kökləyəcəkdi. O gün Dilbər - Müşfiq yadigarı, Müşfiq ömrünün davamı dünyasını dəyişəcəkdi. O gün ... 21 oktyabr 1990-cı il!...

1939-cu il mart ayının 12-də dünyada bir müqəddəs ruh zühur etdi. Müşfiq ruhuydu O!

Hər ruhun öz sığınacağı olur. Sığındığı qapını bağlı görəndə tənha ruh öz babını axtardı. Axtardı... Axtardı... Və... TAPDI!

Müşfiq atanın, Dilbər ananın qəmli ömürlərini duyan, kövrək hisslərlə xatırladan şer də həzin-həzin layla deyir. İki nakam sevgilinin çiçək kimi qısa qoşalıq ömürlərinə, əlacsız həsrətlərinə layla deyir: bacı laylası, ana laylası...





*O gün ki, hicrana uğradı yolum,*
*Qırıldı qanadım, qırıldı qolum.*
*Fələkdən bac verib, bac alan könlüm,*
*İndi uşaq kimi ağlar səninçün.*
*Qəlbimin çeşməsi çağlar səninçün,*
*Könlüm uşaq kimi ağlar səninçün.*

37 tək rəqəmdi, nəhs deyildi ancaq. Amma bəxtinin qapısı bağlı olanlar üçün nəhs gətirdi.

Bu günün kütləvi qırğın silahı, dünənin başbiləninin bir kəlməsi idi. Sapı özündən olan iti baltalar başı yarpaqlı uca çinarlarımızı kobud əllə budadı. Qılıncların dalı da kəsdi, qabağı da.

*Nədim hakim olub göyüs dağlamaq,*
*Əllərə, qollara zəncir bağlamaq?*
*Yaslı bir ananın sacları kimi,*
*Nədir məhkum olub səssiz ağlamaq?*

1905... 1917... 1937... 1941 ... hamısı təklənən illər... Təklər birləşib qoşalülə düzəltdilər. Dili uzun, sözü kəsərli olanları, dünyamızın dünya boyda dərdlərini duyanları susdurmaq üçün! Qoşalaşan rəqəmlər cütləri qarğadılar... Qurbanlar, şəhidlər, saybasay, dərdlər çeşidbəçeşd... Qurbanların, şəhidlərin cərgəsindən iki nəfər boylanır: biri Müşfiqdi, o biri Dilbər!

*Ah! ... Mən gündən-günə bu gözəlləşən,*
*İşıqlı dünyadan necə əl çəkim?*
*Bu yerlə çarpışan, göylə əlləşən,*
*Dostdan, aşinadan necə əl çəkim?*

Müşfiq ülvi məhəbbətinin bəhrəsini də daddı. Bir körpə dünyaya göz açdı. Yalçın qoydu adını. Yalçın bala

laçın uçuşuyla əldən getdi. Bəlkə tale oğlan uşağını atasız eləməmək üçün dünyadan aldı onu? Bəlkə iki sevgilinin məhəbbətini bölməmək, parçalamamaq üçün körpəni aldı onlardan?

Üzeyirlər, Niyazilər nəsil yadigarı qoya bilməzdilər-mi? Tanrı bu məhəbbəti bölməmək üçün onları tək-tənha qoydu. Əvəzində böyük bir xalqın məhəbbətini, alqışını verdi onlara. Ancaq Dilbər poeziya, sənət vurğunlarında tapdı təsəllisini. Həmsöhbətləri dərdinə şərik çıxdılar. Məhəbbətini bölməsələr də, dərdini böldülər. Belə həm-söhbətləri birdimi, ondumu?

*Ay Müşfiqim, xəyallara dalaraq,*
*Yollarına baxa-baxa qalmışam.*
*Ötən günün həsrətini anaraq,*
*Uçan quşdan səni xəbər almışam.*

Nəğmə-nəğmə inlədi Dilbər həsrəti. O, bu həsrəti könül ağrısıyla yaşadı. İlk məhəbbətin əvəzolunmazlığı, solmazlığı, əbədiyyət ömrü Dilbər ömründə, Dilbər yozu-munda bir daha təsdiqləndi.

*Bahar oldu,yaz oldu,*
*Niyə ömrü az oldu?*
*Dönüb telli saz oldu,*
*Mənim ilk məhəbbətim.*

Ayrılığın uzun həsrəti iliklərə qədər işləmişdi. Müşfiqin məzarı da yanmışdı. Dilbərin könül dünyası da odlanmışdı. Misralar da haray çəkirdi yanıqlı nalələrdən.

*Dilbərəm, ilk eşqim günəşdir sönməz,*
*Ömrümün baharı geriyə dönməz.*
*Həmişə yalvarıram şəklin də dinməz,*
*Şəklinə, özünə qurban olduğum.*





– Müşfiq ata, sən neyçün ağlayırsan?

– Dilbərim dünyasını dəyişibdir.

– Görünür, qismət beləymiş.

– Axı «Müşfiqsiz günlərim» də nakam qalıb?! Bitir-məyib.

– Bir igid tapılar bitirməyə.

– Qeyrətinizə inanıram, bala.

– Səndən sonra çox küləklər əsibdi, çox qovğalar olubdu. Dilbər ana yaman üşüyübdü.

– Mən də üşümüşəm.

– Dilbər ana torpaq əmanətidi...

– Ana torpağımın ətrinə qurban olum...

– Qənşərinizdə diz üstəyik. Allah Sizə rəhmət eləsin! Məzarınız nurla dolsun!

*Rafiq Rəhimli,*
*(«Dədəm Qorqud» qəzeti*
*6-13 noyabr 1991-ci il )*

## SON SÖZ ƏVƏZİ

Əziz oxucular! Sizə təqdim olunan bu əsər illərin sınağından şərəflə çıxmış, əsl məhəbbəti, qırılmaz sədaqəti, uca dağ vüqarı, bitib-tükənməz həsrəti olan bir xanımın nisgilli qəlbinin həzin pıçıltılarıdır. Bir vaxtlar sevimli şairimiz Mikayıl Müşfiqi ilhama gətirən xoş ədalı, şirin sözlü Dilbər xanımın unudulmaz sevgi xatirələri, Müşfiqlə birgə keçirdikləri qısa, ancaq mənalı ömrün pozulmaz səhifələridir. Bu kitabın səhifələri arasından Müşfiqin parlaq siması boylanır, ülvi məhəbbəti şəfəq saçır. Bu əsər nakam şairin sevgi notları ilə bəstələnmiş, qəlbləri riqqətə gətirən həyat simfoniyasıdır. Elə bir simfoniya ki, Leyli-Məcnundan bəri çalınır, bəşəri ən saf hisslərlə yaşadır, həyatı gözəlləşdirir, dünyanı bəzəyir. Şairin həyat yoldaşı Dilbər Axundzadə böyük təvazökarlıqla, eyni zamanda sonsuz qürurla bu ülvi münasibətdən, unudulmaz məhəbbətdən söz açır, şairin oxucular üçün yeni-yeni insani keyfiyyətlərini, maraqlı cəhətlərini göstərir, onu bir insan kimi daha da sevdirir. Gözləriniz önündə Azərbaycan söz gülüstanında qısa ömrü, ancaq solmayan ətri ilə zərif bənövşəni xatırladan Mikayıl Müşfiqin sənətkar və şəxsiyyət məhfumlarının vəhdətindən yaranmış canlı portreti yaranır, iki sevən aşiqin sevgisi canlanır. Hər sətirdə Dilbər xanımın ürəyi döyünür, məhəbbətinin hərarətini, ülviliyini hiss edirsən. Onun zərif xanım cüssəsindəki mərdliyə, vəfaya, yenilməzliyə heyran qalırsan. Alınmaz qala olan qəlbində illərlə qoruyub-saxladığı bu ölməz eşqin önündə, saf insani duyğuların qarşısında istər-istəməz baş əyirsən. Adi insan qüvvəsindən əlahiddə fövqəl bir qüvvə ilə həyatın məhrumiyyətlərinə, dövrünün dəhşətlərinə, başına gətirilən müsibətlərə sinə gərən,





Müşfiqinin əziz adını, sevgisini, qürurunu bayraq kimi yüksəldib enməyə qoymayan, soyuq məhbəslərdə, gizli həbslərdə, məmur çəkmələrinin tapdağı altında ac-susuz, xəstə, halsız, köməksiz olanda da belə sınmayan, əyilməyən, sevgisindən usanıb-bezməyən, əhdə xilaf çıxmayan, əksinə, əzablardan daha da mətinləşən, bir sevgisi min olan Azərbaycan qızı ilə fəxr edirsən...

Dilbər xanım Müşfiqli günlərinin həsrəti ilə yaşayır.

*Yenə o günlərə uçdu xəyalım,*
*O gənclik illəri yadıma düşdü.*
*Canlandı gözümdə ilk peymanımız,*
*O coşğun əlləri yadıma düşdü.*

Müşfiqin coşğunluğu, özünəməxsus şer oxumaq qabiliyyəti, yüksək təbi Dilbərin gözlərinin önündən getmir.

*Qızıl günəş bildim mən o xilqəti,*
*Qəlbimi oynatdı şeri, sənəti.*
*Şerlər deyəndə gülən surəti,*
*O şirin dilləri yadıma düşdü.*

Sanki Müşfiqdən sonra şairin ilham pərisi qanadlarını Dilbərin başı üzərinə gərmiş, Müşfiqin təbi Dilbər xanıma keçmişdi. Dilbər xanım üçün bir dünya var -Müşfiqin yadigar qoyub getdiyi xatirələrin yaratdığı sirli-sehrli dünya:

*Yadımdan heç çıxmayır*
*O Müşfiqli şən günlər.*
*Bilmirəm bu nə sirdir,*
*Köksüm köklənmiş simdir.*
*Mən haraya baxıram*
*Müşfiqimi görürəm.*

Hərdən adama elə gəlir ki, kitabda təsvir edilən hadisələr elə bu gün gözlərimiz qarşısında baş verir. Bunun səbəbi həmin günlərin xatirələrini Dilbər xanımın təbii hisslərlə inandırıcı nəql etməsidir. Dilbər «Müşfiqli günlərim»də şairlə bir həyat yoldaşı kimi, eyni zamanda o dövrün görkəmli şəxsiyyətləri ilə xoş münasibətdə olan bir dost, həm də vətən aşiqi, həyat aşiqi olan bir sənətkar kimi də söz açır, bir vətəndaş kimi onunla öyünür:

*Sən vətən eşqini müqəddəs tutdun,*
*Unudarmı səni bu ana yurdun.*

Kitabda verilmiş şerlər bu baxımdan çox təsirlidir. Bu şerlərin bir leytmotivi vardır: Müşfiq sevgisi!

Dilbər xanım sanki sədaqət andı içir.

Könlü inləyən rübabı xatırladan Dilbər xanım oxucusuyla söhbətində səmimi olduğundan Müşfiqsizlik dərdini, həsrətin yanğısını yanıqlı-yanıqlı etiraf edir. Gözü gədər-gəlməz yollarda qalan Dilbər xanım sevgilisinə üz tutub ürək sözlərini belə deyir:

*Gözlərim yoluna həsrətlə baxar,*
*Həsrətin qəlbimi yandırar-yaxar.*
*Of! Bilsən ürəyim necə darıxar,*
*Ay şirin dilinə qurban olduğum!*

Müşfiqin «Qurban olduğum» şerinə eyni məhəbbətlə cavab verən Dilbər xanımın misraları, bədii xitabı nə qədər səmimi, nə qədər təbiidir. İnanırsan ki, o, Müşfiqsiz günləri məhz Müşfiqli günləri yaşatmaq, unudulmaz etmək üçün yaşayır. Oxuduqca ona yaxınlaşır, yaxınlaşıb dərindən tanıdıqca Dilbər-Müşfiq məhəbbətinə heyran qalırsan. Nə qədər çətin olsa da, bu xatirələr çözümünü açdıqca, böyük nisgillə həmin anları yad etdikcə Dilbər





xanım Müşfiqi yanında sanır, onun yoxluğuna, Müşfiqsizliyə inanmır, ağzından ölüm püskürən qara qüvvələrin, Müşfiqi gənc yaşında udan əjdahaların üzərində Müşfiq ölməzliyi qələbə çalır. Bu sevgi və inam Dilbər xanımın köksündə şerlərə dönür, qəlbini telli saz edib öz eşqindən şərqilər deyir. Xançobanını itirəndən sonra el-el gəzib ağlaya-ağlaya qoşmalar deyən aşıq Bəsti kimi dünyanı ilk məhəbbət alovuna bürüyür.

*Bahar oldu, yaz oldu,*
*Niyə ömrü az oldu.*
*Dönüb telli saz oldu,*
*Mənim ilk məhəbbətim.*

Kitabda Müşfiq sevgisi, Müşfiq həsrəti onun ölməzliyi ilə qoşa verilir. Dilbər xanım ömrünün son anlarına qədər Müşfiqin xəyalı ilə yaşayır, həsrətin odunda yandığını söyləyir və bu atəşdə oxucunu da yandırır.

*Alışıb yanıram, Müşfiqim, sənsiz,*
*Olmuşam dünyada yalqız, kimsəsiz.*
*Günəşli gündüzlər boran görünür,*
*Dünya başdan-başa duman görünür.*

Məhz Dilbər xanımı yaşadan bitib-tükənməyən Müşfiq sevgisi idi.

Dilbər xanım üçün hər yer, hər şey Müşfiqləşmişdi. O, dünyaya Müşfiqin gözü ilə baxır, onun qəlbi ilə duyurdu. Yaşıl pöhrə olan gənclik illərini qara buludlar alıb Müşfiq ömrü otuz yaşlarında sarı xəzan yarpaqları kimi solsa da, şairin köksü al qanına boyansa da, eşqin göylərində tərlanı daha ötməsə də, taleyi boz buludlar altında qalsa da, Dilbər xanım üçün bu məlum rənglərin ahəngindən yaranmış bir rəng vardır, ilk görüşlərində bəyaz ge-

cələrdə görüb vurğunu olduğu şən, gülərüz, qaynar baxışlı Müşfiq rəngi. Əsrarəngiz göy qurşağının bənzəri olan bu rəng Dilbərin bütün həyatını öz sehrli ağuşuna almışdı. Məhz buna görə Dilbər Axundzadənin «Müşfiqli günlərim» kitabı – onun tale kitabı, ömür yazısı və sonsuz əlvan çalarları ilə oxucunun da qəlbini gözəlləşdirir, al-əlvan boyalara bürüyür, Müşfiq işığına qərq edir, Müşfiq sevgisinə bələyir. Bu kitab – bəşər övladının qüdrətinə, ən ali hisslərin təntənəsinə, sevginin ülviliyinə, məhəbbətin müqəddəsliyinə bariz nümunə olan «Müşfiqli günlərim» kitabı əsl məhəbbət dastanıdır. Əminəm ki, əvvəlki nəşrlərdə olduğu kimi kitabın bu nəşri də oxucuların böyük marağına səbəb olacaq, insanların qəlbini ən ülvi hisslərlə zənginləşdirəcək, Müşfiqlə Dilbərin ədəbi abidəsi kimi ucalacaqdır.

*Əsmət Məhsəti,*
*filologiya elmləri*
*doktoru*



# KİTABIN İÇİNDƏKİLƏR

Anam Dilbər Axundzadəni xatırlayarkən (L.Axundzadə) .......... 3
"Müşfiqli günlərim" kitabı necə yarandı .......... 10

*MÜŞFİQSİZ GÜNLƏRİM*

Uşaqlıq xatirələrim .......... 173
Yadıma düşdü .......... 177
Müşfiqsiz günlərim .......... 178
Ötən illərdən xatirələr .......... 188
Rəsul Rza haqqında xatirə .......... 196
Əzizim Anar .......... 201
N.Həsənzadə ilə tanışlıq .......... 203
Bir görüşün təəssüratı .......... 209
Müşfiq yadigarı .......... 209
Hörmətli redaksiya! .......... 213
Ürəyindən qopan səs mən olaydım .......... 214
Xatirələr dünyası .......... 215
Könlümün arzusu .......... 218
Qəribə əhvalat .......... 221

*SƏN HƏMİŞƏ MƏNİMLƏSƏN*

Qurban olduğum ....225
Axtarıram ....226
Yadıma düşdü ....226
Həmişə mənimləsən ....227
Sanıram ....228
Sən ayrılıb gedəndə ....228
Bu gün ....229
Sənsizəm ....230
Sanki bahar gəlir ....230
İlk məhəbbət ....231
Yadıma Müşfiq düşdü ....231
Müşfiqə ....232
Bu gecə ....233
Sənsiz ....233
Müşfiqi soruşdum ....234
Sənin eşqin ....235
Unuda bilmirəm ....236
Sənsiz ....236
Oxu ....237
O yerdə ....238



Bülbül ....238
Bir də görə biləydim ....239
Bu gün ....240
Bir də oxu ....241
Müşfiq ....242
Gəncə ....243
Gəncə dağları ....244
İlk görüş yerimiz ....245
Leyla ....245
Qızım ....246
Dilbər Axundzadə (İsmayılzadə) nə üçün həbs edilmişdir? (C.Qasımov) ....248
«Sən neyçün ağlarsan» (R.Rəhimli) ....262
Son söz əvəzi (Ə.Məhsəti) ....266

Dilbər Axundzadə

# MÜŞFİQLİ GÜNLƏRİM
*(xatirələr)*

*Texniki redaktoru:*
Leyla Qarayeva

*Korrektoru:*
Elmira Fərruxzadə

*Operator:*
Gülşən Akifqızı

Yığılmağa verilmişdir: 16.05.2005
Çapa imzalanmışdır: 26.09.2005
Kağız formatı: 84x108 1/32. Həcmi: 8,5 ç.v.
Sifariş: 618. Sayı: 700.

*Müqavilə qiymətı ilə*

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
«GƏNCLİK» nəşriyyatı
Ünvan: Bakı, Az1000, Azərbaycan prospekti, 41.
Tel.: 493-16-91, 493-67-96
Faks: (99412) 493-64-12

Kitab "ADİLOĞLU" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı., Ü.Hacıbəyov küç., 38/3
Tel.: 498-68-25; faks: 498-08-14

A3

Bakı - Gənclik - 2005